V.İ. Kərimov

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ ƏN QƏDİM TAYFA İTTİFAQLARININ VƏ DÖVLƏTLƏRİN İNŞAAT SƏNƏTİ

Bakı - 2013

AZƏRBAYCAN RESPUBLİKASININ MEMARLAR İTTİFAQI

Layihənin rəhbəri: Elbay Qasımzadə
Rəy müəllifləri: F.Hüseynov, *memarlıq doktoru*
S.Aşurov, *tarix elmləri namizədi*

Dizayn: Novruz Novruzov
Məsul katib: Jalə Muradova
Kompüter tərtibatı: Gülnar Səfərova

Kərimov V.İ. **Azərbaycan ərazisində ən qədim tayfa ittifaqlarının və dövlətlərin inşaat sənəti.**
Bakı, **"Şərq-Qərb"** Nəşriyyat Evi, 2013, – 320 səh., şəkilli.

Monoqrafiya indiyədək xüsusi araşdırma obyekti olmamış mürəkkəb problemlərdən birinə – Azərbaycan ərazisində ən qədim tayfa ittifaqlarının və dövlətlərin inşaat sənətinə həsr olunmuşdur.

Müəllif memarlıq-arxeologiya materialları əsasında Azərbaycan ərazisində e.ə. VI – I minilliklərə aid ayrı-ayrı abidələrin xronologiyasını dəqiqləşdirir. Əsərdə tayfa ittifaqlarının yaranması və inkişafı, onların sıx qarşılıqlı əlaqələri və inşaat sənəti məsələlərinə xüsusi diqqət yetirilir.

Tarixi hadisələr fonunda müəllif Azərbaycan ərazisində siyasi, iqtisadi və mədəni həyatı işıqlandırır.

Kitab Azərbaycanın qədim tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN** 978-9952-32-020-6
978-9952-32-035-0

© V.İ.Kərimov, 2009
© Azərbaycan Respublikasının Memarlar İttifaqı, 2013
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

# ÖN SÖZ

Tarix elminin inkişafı fasiləsiz sürətdə davam edən mütərəqqi prosesdir. Yeni materiallar toplanır, yeni ideyalar yaranır, əvvəlki qiymətləndirmələr və konsepsiyalar dəqiqləşdirilir və ya onlara yenidən baxılır. Bu, elmi araşdırmalara yekun vurmaq, nailiyyətləri cəmləşdirmək, yeni aşkar edilmiş materiallara nəzər salmaq və artıq məlum olan materialları yenidən qiymətləndirmək məqsədi daşıyan ümumiləşdirici əsərlərin yaradılmasını zəruri edir.

Oxuculara təqdim edilən "Azərbaycan ərazisində ən qədim tayfa ittifaqlarının və dövlətlərin inşaat sənəti" kitabı e.ə. IX-VI əsrlərdə tarixi Azərbaycan ərazilərində qədim məskənlərə və istehkam tikililərinə həsr olunmuş ümumiləşdirici müstəqil elmi işdir. Kitab, həmçinin qədim Şərq haqqında Azərbaycan elminin müasir vəziyyətini əks etdirir. Kitab qədim tarix, arxeologiya və memarlıq sahəsində ən yeni kəşf materiallarına əsaslanmışdır və XX əsrin sonları – XXI əsrin əvvəllərində olan elmi biliklərimizi əks etdirir.

Qədim Azərbaycanın inşaat sənəti Azərbaycanın tarixi ərazilərində ən qədim sinfi cəmiyyətlər tarixidir. Bu, həm də cəmiyyətin mədəni inkişafında ən mühüm mərhələlərdən biri, müxtəlif elmlərin, tarixin, memarlığın və təsviri incəsənətin meydana çıxması dövrüdür.

Tarixi Azərbaycan ərazisi qədim Şərqin mədəni inkişaf hüdudlarına daxil idi. Qədim Şərq ərazisi Qafqaz dağlarından və Orta Asiyadan Fars Körfəzinə, Cənubi Ərəbistana, Afrika gölləri ölkələrinə, İran və Hindistan sərhədlərindən Herakl sütunlarına qədər uzanırdı.

Xalqların mədəniyyət sahəsində nailiyyətlərini qarşılıqlı olaraq zənginləşdirməsinə şərait yaradan yazı ilk dəfə məhz Şərqdə meydana gəlmişdir.

Ümumdünya tarix prosesi cəmiyyətin – bütünlükdə bəşəriyyətin keçdiyi iqtisadi formasiyaların ardıcıl əvəzlənməsidir.

Belə bir sual meydana çıxır: niyə dünyada ən qədim sinfi cəmiyyətlər məhz Şərqdə yaranmışdır? Bu sualın qoyuluşu öz-özlüyündə onun cavabının müəyyən mənada coğrafi mühitin tarixi prosesə təsirində olduğunu göstərir.

Hələ XX yüzilliyin başlanğıcında akademik N.İ.Vavilov qədim mərkəzlərin yayılmasına və bəşər tarixində onların rolunun müəyyən edilməsinə tərif vermişdir. N.İ.Vavilov həmin vaxt əkinçilik mədəniyyətinin yaranmasının mənbəyi olan mədəni bitkilərin mənşəyinin bir sıra mərkəzlərini qeyd etmişdir. "Əslində, bəşəriyyətin inkişafında əsas rolu yer kürəsində quru sahələrin ensiz bir zolağı oynamışdır", yazır N.İ.Vavilov. Sonrakı araşdırmalar N.İ.Vavilovun fikirlərini və onun ayırdığı konkret erkən əkinçilik mərkəzlərini tamamilə təsdiq etdi. Alim yazırdı ki, erkən əkinçilik mərkəzləri arasında Fələstin, Livan, Suriya, Türkiyənin Cənub hissəsi, Şimali Mesopotamiyanın dağətəyi və çay

vadilərini əhatə edən, oradan Şərqə, İran və Cənubi Qafqaz bölgəsinə, habelə Orta Asiyanın Cənubuna qədər uzanan Cənub-Qərbi Asiya mərkəzi xüsusilə diqqətə layiqdir. Sivilizasiyanın meydana gəlməsi bu mərkəzlə bağlıdır. Ən qədim istehsal təsərrüfatı mərkəzləri burada formalaşırdı. Erkən əkinçilik məskənlərinə aid mühüm arxeoloji tapıntılar məhz burada aşkarlanmış və istehsal iqtisadiyyatının formalaşmasının ardıcıl mərhələləri burada izlənmişdir.

Yuxarıda sadalanan bütün subkontinentlərdə torpağın işlənməsi üçün sahilyanı ərazilərdən istifadə edirdilər. Məhz Nil, Dəclə, Fərat, Araz, Kür çaylarının vadiləri ən qədim sinfi cəmiyyət və sivilizasiya mərkəzləri olmuşdur.

Bütün bunlar Misirdə, daha sonra Mesopotamiyada və digər ölkələrdə Qədim Şərq dövlətlərinin yaranmasına şərait yaratmışdır.

Böyük çayların hövzələrinə bitişik ölkələrin əhalisi öz sivilizasiyalarını yaratsalar da, təbii ki, bu çayların vadisindəki xalqların yaratdığı mədəniyyətin və hətta dövlət institutlarının xüsusiyyətlərini də mənimsəyirdi.

Azərbaycanın tarixi ərazisinin sərhədlərinə gəlincə, onları təxmini göstərmək olar. Qədim Şərq ölkələri arasında dəqiq və vahid xronoloji sərhəd göstərilə bilməz.

Bir çox səbəblərdən Azərbaycanın qədim tarixini şərh etmək, demək olar ki, qeyri-mümkündür.

Tarixin müxtəlif dövrləri haqqında bizim eyni dərəcədə məlumatımız yoxdur. Azərbaycan tarixinin kifayət qədər uzun dövrləri var ki, onlar haqqında məlumatımız azdır və ya ümumiyyətlə yoxdur. Böyük təəssüf doğuran bu hal mənbələrin və arxeoloji tapıntıların azlığı ilə izah olunur. Məsələn, tarixi Azərbaycanın şimal bölgəsinin qədim dövrü haqqında heç nə məlum deyil. Qədim mixi yazılar Araz çayının sol tərəfində yaşayan tayfalar haqqında məlumatlarla məhdudlaşır. Azərbaycanın Şimal bölgəsində arxeoloji qazıntılar onun tarixini yalnız qismən işıqlandırmağa imkan verir. Çox vaxt qədim xronologiya haqqında məlumatlarımız dəqiq deyil, belə ki, daimi eralar, yəni vaxtın hesablanmasının başlanğıc nöqtələri yox idi və çox vaxt yeni arxeoloji faktların ortaya çıxması tədqiqatçıları əslində çoxdan və dəqiq müəyyən edildiyi hesab olunan xronoloji tarixlərə yenidən baxmağa vadar edir. Mətnlər üzərində daim davam edən iş çox vaxt yeni mənbələr göstərməyi, adlarının oxunması artıq adət almış şəhər və ölkələrə yenidən nəzər salmağı zərurəti edir. Oxucu bunu nəzərə almalı və vaxtilə öyrəndiklərini indi yenidən öyrənmək məcburiyyətində qalmasından şikayət etməməlidir.

E.ə. IX-VI əsrlərdə Azərbaycan ərazisində ən qədim tayfa ittifaqlarının və dövlətlərin inşaat sənətinin öyrənilməsi məsələsi sadəcə akademik cəhətdən maraq doğurmur. Qədim Şərqin qabaqcıl ölkələrində sinfi cəmiyyətlər üçün səciyyəvi olan qədim memarlıq tikililərinin meydana gəlməsi prosesi bu vaxta qədər yaranmış sivilizasiyalarla heç bir qarşılıqlı əlaqəyə girmədən daha öncə formalaşdığına görə onlar sərbəst şəkildə yaranırdı. Buna görə bu məsələni tədqiq edərkən ümumnəzəri və təcrübi əhəmiyyətə malik mühüm məsələlərlə qarşılaşırıq: burada Şərq xalqlarının tarixi inkişaf xüsusiyyətlərinə, əmlak və ictimai bərabərsizliyin yaranmasına, siniflərin, dövlətlərin meydana gəlməsi, dinlərin, etnik birliklərin yaranması, mühüm memarlıq və mədəniyyət nailiy-

yətlərinin əldə olunması məsələlərinə baxılır. Bu məsələlərdən istənilən birinin bu və ya digər şəkildə həlli heç də mücərrəd xarakter daşımır: bu həll həmişə birbaşa və ya dolayısı ilə həm tarixi Azərbaycan ərazisində, həm də Qədim Şərq ölkələrində siniflərin ideologiyası ilə bağlıdır. Bu məsələlərin bir çoxunun ətrafında kəskin və bitmək bilməyən ideoloji mübarizə gedir.

Burada əlavə etmək lazımdır ki, qədim Azərbaycan tarixinin əsassız olaraq təfsir edilən bir çox faktlarından, təəssüf ki, müasir qonşu dövlətlərin siyasi dairələrində eksponsionist və hegemonist səylərin əsaslandırılması və onlara bəraət qazandırılması üçün istifadə olunur.

Lakin Vətənimizin tarixçəsinin yazılmasının tarixi ənənəsi antik və orta əsr tarixçiləri sayəsində əsrlər boyunca XIX əsrin əvvəllərinə qədər qorunub saxlanmışdır.

Burada göstərilən tarixi qeydlər bir növ xalqımızın tarixinin və ənənələrinin davamı idi. Bu qeydlərin müfəssəl tədqiqi onların təkcə bu və ya digər çiçəklənmə dövründə deyil, həm də ən qədim dövrlərdən etibarən, müxtəlif istilaların baş verdiyi çətin illərdə də yazıldığını göstərir. Onlarda imkan daxilində tarixi Azərbaycan ərazisində baş verən bütün tarixi hadisələr yazılırdı. Daha yüksək dəqiqlik üçün qonşu Qədimi Şərq dövlətlərində baş verən hadisələrə paralel olaraq tarixi müəyyənləşdirirlər ki, bu da Azərbaycan ərazisinin yerli əhalinin öz etnos tarixini gələcək nəsillərə çatdırmaq üçün hadisələrə sinxronlaşdırma ilə tarixqoyma ənənəsinin davamı idi.

XIX əsr ərzində qonşu dövlətlərin alimləri Azərbaycan xalqının etnik-mədəni irsini dəyişdirir və təhrif edirdilər. Həmin alimlər yaxşı başa düşürdülər ki, bu məlumatlar məhv edilməsə, onları mənimsəyə bilməyəcəklər.

Çoxlu sayda tarixi xronikalar tərcümə olunmuşdur, onların bir hissəsi isə etinasız saxta alimlər tərəfindən məhv edilmişdir. Bu tərcümələrin müəllifləri susmağa və ya xalqımızın tarixi abidələrini və əcdadımızın adətlərini təhrif edilmiş şəkildə təqdim etməyə çalışırdılar.

Bu, qonşu dövlətlərin Qafqazda olmayan tarixi irslərini yaratmaq və tamamlamaq məqsədilə tarixi Azərbaycan ərazisində yerli sakinlərin etnik-mədəni irsinin məhv edilməsinə və mənimsənilməsinə yönəlmiş məqsədyönlü təcavüz niyyətini bir daha təsdiq edir ki, bu da rus çarizminin müstəmləkəçilik siyasəti sayəsində mümkün olmuşdur.

Rusiyanın rəsmi mətbuat orqanlarında məqsədyönlü şəkildə tarixi Azərbaycan ərazilərinin qədim tarixi ilə bağlı müxtəlif məqalələr, tarixi xülasələr, oçerklər dərc edilirdi.

Onlarda Azərbaycan ərazisində yaşayan əhalinin tarixi keçmişi digər dövlətlərin tarixinin tərkib hissəsi kimi göstərilirdi. Bu məqsədyönlü informasiya gələcəyə yönəlmiş planlara xidmət edirdi. Azərbaycanın ən qədim yerli əhalisinin tarixini və mədəniyyətini təqdim edən Çar Rusiyası bununla gəlmə xalqların yerliliyini bir növ qanuniləşdirir və regionda onların mövqeyini gücləndirirdi ki, bu da öz növbəsində sonradan onların öz strateji məqsədlərini həyata keçirməsinə imkan verirdi.

Belə ki, Çar Rusiyasının siyasətinə uyğun olaraq tarixi Azərbaycan ərazilərinin keçmişi və gələcəyi haqqında ideyalar həyata keçirilirdi.

Lakin bu və ya digər milli sərhədlərlə bağlı iddiaları əsrlik, bəzən hətta iki, üç və beş min illik tarixi faktlarla əsaslandırmaq cəhdləri elmi nöqteyi-nəzərdən nə qədər mənasız olsa da, müasir dünyada belə cəhdlər az deyil. Tarixi həqiqətin araşdırılması və onun saxtalaşdırılmasının və yanlış şərh edilmiş tarixi faktlar əsasında spekulyasiyaların təkzib edilməsi elmin mühüm və məsuliyyətli vəzifəsidir.

Buna görə bu gün xalqımızın qədim dövrə aid tarixi-mədəni irsinin obyektiv araşdırılması xüsusi elmi və siyasi əhəmiyyət kəsb edir.

Ölkəmizin qabaqcıl alimləri Azərbaycan tarixinin inkişafının gedişatını yeni şəkildə dərk etməyə çalışırlar, mədəni irsə müraciət edirlər, əcdadlarımızın əldə etdikləri böyük nailiyyətlərdən ilham alırlar.

Son onilliklər ərzində Azərbaycan alimlərinin Azərbaycan tarixi, arxeologiya və memarlığı haqqında dərc edilmiş elmi əsərləri, demək olar ki, bu gün də əhəmiyyətini itirməmişdir. Azərbaycan tədqiqatçılarının dərin bilikləri, kitablarda geniş erudisiya, mükəmməl üslub və inşaat sənəti ilə bağlı faktiki material bolluğu bir çox alimlərin və Azərbaycanın memarlıq tarixi ilə maraqlanan hər kəsin diqqətini cəlb etməyə imkan vermişdir. Bütün bu araşdırmalar əsasən bu günə qədər əldə edilmiş elmi səviyyəyə uyğun olaraq inkişaf etdirilmiş və dəqiqləşdirilmiş artefakt konsepsiyalarına əsaslanırdı.

Vətənimizdə elmin inkişaf sürətinin artması nəticəsində inşaat sənəti və onun tarixi ilə bağlı əvvəllər irəli sürülən fikirlər günümüzdə xeyli köhnəlmişdir. Biliklərimizi artıran və dərinləşdirən çox sayda yeni əşyavi və yazılı mənbələr ortaya çıxmışdır. Ötən illər ərzində ölkə abidələrinin tədqiqi metodikası da xeyli təkmilləşmişdir. Bundan başqa, gördüyümüz kimi, Azərbaycan memarlıq abidələrinin öyrənilməsi üzrə ilk əsərlərdə, indi başa düşdüyümüz qədərilə, memarlıq-tarixi inkişafın ayrı-ayrı faza və mərhələlərinin tarixi izahı məsələsi sadələşdirilirdi.

Oxucuya təqdim edilən kitab Azərbaycanın qədim memarlıq tikililəri haqqında Azərbaycan elminin müasir vəziyyətini əks etdirir. Kitab qədim məskənlər və istehkam işləri sahəsində son tədqiqat materiallarına əsaslanmışdır və elmi biliklərimizi əks etdirir.

Əsərdə Azərbaycanın istehkam sənətinin tədqiqi üzrə ərazi çərçivəsinə Cənubi Qafqaz və Kiçik Asiya daxil edilmişdir. Sərhədlərin bu şəkildə genişləndirilməsi qanunauyğun olaraq tarixi-memarlıq materialının əsas vəziyyətinə söykənir. Sözü gedən ərazilər bilavasitə hettlər, Assuriya və Urartu kimi qədim sivilizasiyaların arealına daxildir və sosial-iqtisadi quruluşun xarakterinə görə, bütünlükdə Asiya və Afrikanın ənənəvi qədim şərq cəmiyyətləri ilə eyni növə aiddir.

Bu mənada "Azərbaycan ərazisində ən qədimi tayfa ittifaqları və dövlətlərin inşaat sənəti" terminin bugünki anlayışında – onun tarixi və memarlığını hansı çərçivələrlə məhdudlaşdırmaq lazımdır və ümumdünya bəşəriyyət memarlığında hansı yeri tuturdu?

Qədim dövr memarlıq tarixi bəşəriyyətin mədəni inkişafında ən mühüm mərhələlərdən biridir. Müxtəlif mərhələlər məhz memarlıqda daha aydın hiss olunur. Qədim Şərqdə xalqların mədəniyyət nailiyyətləri ilə zənginləşməsinə

şərait yaradan ilk memarlıq tikililəri məhz burada meydana gəlmişdir. Antik və orta əsrlər inşaat sənəti memarlıq və inşaat üsullarında bir çox ixtiraları Qədim Şərq sivilizasiyalarından mənimsəmişdir. Qədim Şərqin antik dünyaya xüsusilə böyük təsiri olmuşdur. Antik dünya mədəniyyəti isə, öz növbəsində, müasir Avropa mədəniyyətinin və memarlığının əsasını təşkil etmişdir.

Azərbaycan ərazisində qədim memarlıq məsələsinə toxunarkən qeyd etmək lazımdır ki, qədim istehkam tikililərinin memarlığını Yunanıstan və ya Roma memarlıq tarixində olduğu kimi hərtərəfli şərh etmək bir çox səbəblərdən, demək olar ki, mümkün deyil. Bu, həmin tikililərin daha çox dağılması, habelə onların tikilməsi haqqında məlumatların olmaması ilə əlaqədardır.

Lakin buna baxmayaraq, Azərbaycan alimləri Azərbaycanın qədim dövr istehkam sənətinin yaranması və inkişafı tarixində tədqiq edilməmiş məqamları işıqlandırmağa çalışırlar.

Hazırda bir çox məsələlər hələ də tədqiqini gözləyir, bəziləri isə bu gün qəbul edilməsi daha çox mümkün olan fərziyyələr şəklində izahını tapmışdır. Ümid edirik ki, bu monoqrafiya müasir elmin daha çox inkişafına təkan verəcək və həm memar, tarixçi və arxeoloq mütəxəssislərin, həm də Azərbaycanın ölkə xalqının irsinə böyük töhfə vermiş qədim tarixi və mədəniyyəti ilə maraqlanan hər kəsin diqqətini çəkəcək.

# TARİXİ AZƏRBAYCAN ƏRAZİSİNDƏ ƏN QƏDİM TAYFA İTTİFAQLARININ VƏ DÖVLƏTLƏRİN HƏRBİ VƏ SİYASİ TARİXİ

E.ə. I minillikdə tarixi Azərbaycan ərazisində müxtəlif siyasi və etnik birlikləri olan çox sayda müxtəlif tayfalar mövcud idi. Onların həm Urartu, həm də Assuriya ilə intensiv əlaqələri var idi. Elmi ədəbiyyatda onların adı adətən Urartu və ya Assuriya tarixi ilə əlaqədar olan mənbələrdə çəkilir, lakin onların bəziləri əhəmiyyətinə görə, şübhəsiz, daha diqqətli və ətraflı tədqiq olunmağa layiqdir. Söhbət ilk növbədə e.ə. IX-VIII əsrlər ərzində Urartudan sonra ən böyük siyasi birlik olan, Urartunun çox zəiflədiyi dövrdə - e.ə. VIII əsrin sonlarından etibarən isə bu regionda ən mühüm qüvvəyə çevrilən Manna çarlığından gedir.

Manna çarlığının tarixi haqqında qonşu xalqların qorunub saxlanmış yazılı mənbələrindən (1; 2; 3; 4) məlumat əldə edirik. Assur mənbələrində bizi maraqlandıran məlumatları III Salmanasardan (e.ə. 860-825-ci illər) Aşurbanipala (e.ə. 668-624-cü illər) qədər Assur çarlarının tarixi kitabələrindən, habelə Kuyuncik arxivindəki məktublardan və bəzi digər sənədlərdən və dini mətnlərdən əldə edirik. Urartu kitabələrində çar Menuadan (e.ə. 810-781-ci illər) II Rusaya (e.ə. 685-645-ci illər) qədər dəfələrlə Mannanın adı çəkilir. Manna dövlətinin adı həmçinin sonrakı dövrə aid babil mənbələrində və Bibliyada anılır. Assur mənbələri Manna adının yazılışını bir neçə variantda verir: Ma(n)na, Mannas və ya Minna. Bütün bunlar "Manna" adının yerli ad olduğunu, Urartu sakinlərinin isə Manna ölkəsinə aid bir sıra bölgələri "Manna dövləti" adlandırdıqlarını göstərir. Assur mənbələrində "Manna" adı əvvəlcədən müəyyən bir siyasi təşəkkülün adı kimi qeyd edilir.

Manna ölkəsinin əsas ərazisi Urmiya gölü ətrafında yerləşirdi. Assur və Urartu mənbələrində "Manna"nın adı məhz Van gölünün cənub-şərqində, Urmiya gölündən cənubda və ya şərqdə yerləşən "ölkələrin" əhatəsində çəkilir. Manna çarlığının yanında çox vaxt Parsnaš Parsnaš, Buštu, Gizilbunda, Abdadani, Karalla, Zikirtu, Andia, Hubuškia, Ellipi, Allabria, Bit-Kabsi, Zamua, Musasir, Sumbi, midiyalıların ölkəsi Kakmi və s.-nin adı çəkilir. Mənbələrə əsasən iddia etmək olar ki, bu ölkələrin əksəriyyəti Manna dövlətinin tərkibinə daxil idi. Manna çarlığı bilavasitə Urartu ilə həmsərhəd idi, sonradan, Assuriya Mannanın cənubunda yerləşən bir sıra əraziləri özünə birləşdirdikdə, o, həm də bilavasitə Assuriya dövlətinin qonşusuna çevrilir.

Sarqon dövründə (qismən, bəlkə də daha əvvəl, III Tiqlatpalasarın çarlığı dövründən başlayaraq) cənubdan, cənub-qərbdən və cənub-şərqdən Mannaya qonşu ərazidə bir neçə Assur əyaləti ilə qarşılaşırıq. II Sarqondan sonra Manna və Assuriya ölkəsi arasında bilavasitə qonşuluq, mövcud olan bufer siyasi vahidlər (formalaşmalar) heç bir şübhə olmadan yox olur; onların bir

hissəsini güclənən Manna çarlığı, digər hissəsini isə Assuriya özünə birləşdirir. Həmçinin məlumdur ki, Aşurbanipal əcdadlarının çarlığı dövründə mannalıların Assuriyanın bəzi sərhədyanı şəhərlərini ələ keçirməsindən şikayət edir.

Mannanın yerinin müəyyən edilməsində Urartu çarı Menuanın Urmiya gölünün cənub sahili yaxınlığında yerləşən Daştəpə qayasındakı kitabəsi böyük əhəmiyyət kəsb edir. Bu kitabədə çar Menuanın Manna ölkəsini və Meišta şəhərini işğal etməsi barədə yazılır.

Q.A.Melikişvili hesab edir ki, bu yer Manna ölkəsinin ərazisi idisə, o, Manna çarlığının əyaləti olmalı idi, belə ki, Urartu çarı bu ərazini öz çarlığına birləşdirir. Bu kitabədə Menua bildirir ki, o, "EKALLU", yəni bürc, qala tikmişdir.

Nəticə etibarilə belə qənaətə gəlmək olar ki, Meişta ərazisi Manna və Barşua ölkələri arasında yerləşirdi: bir tərəfdən Barşua ilə, digər tərəfdən isə Manna ilə həmsərhəd idi, odur ki, Daştəpə ərazisi Manna ölkəsinin sərhəd rayonlarından biri olmuşdur (4, s. 58).

II Sarqonun məlumatına əsasən, Missi ölkəsinin adı Parsua ölkəsi ilə həmsərhəd olan Manna əyalətlərindən birini göstərirdi. Yəqin ki, Urartu mənbələrində adı çəkilən Meişta şəhəri Missi ərazisində yerləşirdi. Mənbələrə əsasən, həm Meişta , həm də Missi Manna ərazisində, Parsua ölkəsi ilə sərhəddə yerləşir. Burada, Q.A.Melikişvilinin də qeyd etdiyi kimi, Missi və Meişta (əsərdə - Mista və ya Mesta) adlarındakı oxşarlıq da özünü aydın göstərir. Sonuncu adda yer adları şəkilçisi – "ta" var ki, bu şəkilçiyə Mannanın paytaxtının adında – Zikirtu (J) zirta, habelə Manna çarlarının iddialarına görə onların çarlığının tərkib hissəsi olan Zikirtu ölkəsinin paytaxtının adında – Pardada da rast gəlirik.

Mannalıların ölkəsi bu yerlərdən, Urmiya gölündən cənubda yerləşən ərazidən əsasən şimal və şimal-şərq istiqamətlərində, Urmiya gölünün şərq sahili boyunca uzanırdı. Bu barədə II Sarqonun 8-ci yürüşü ilə bağlı məlumatlarda bildirilir (5, s.119). Assur çarı Manna ölkəsinə yürüşünü geniş şəkildə təsvir edir, bu ölkənin çox sayda yaşayış məntəqəsinin adını çəkir, bəzən qoşunlarının qət etdiyi məsafələri göstərir. Bu yürüşün marşrutunun müəyyən edilməsi Manna ərazisinin yerinin müəyyən edilməsi nöqteyi-nəzərdən böyük əhəmiyyət daşıyır. Luvr lövhəsindəki mətnə əsasən, Manna çarlığının əsas vilayətləri Urmiya gölündən cənubda və şərqdə yerləşməli idi. Zaman keçdikcə Manna xalqının yaşadığı ərazi, xüsusən Manna çarlarının mülkiyyətində olan ərazi bir çox dəyişikliklərə məruz qaldı. II Sarqon – I Rusa dövründə (e.ə. VIII əsrin son rübü) Manna çarlığının əraziləri əsasən Urartu dövləti və onun tərəfdarları tərəfindən çox sıxışdırılmışdı. Amma II Sarqon Urartunun qüdrətinə qəti zərbə endirdikdən və bununla da, Manna dövlətini təhlükəli qonşudan xilas etdikdən sonra Manna güclənir və şübhəsiz, əraziləri də genişlənir.

Həmin vaxt Mannadan şərqdə yerləşən ölkələrin – Zikirtu, Andia və s. əraziləri Manna çarlığının sərhədlərinə daxil olur. Bundan başqa, II Sarqonun ekspedisiyasından sonra Manna Urartu çarları tərəfindən işğal edilmiş Uişdiş və s. şimal əyalətləri özünə qaytarır. II Sarqonun kitabələrində bu ərazilərin qonşu hökmdarlar tərəfindən mannalıların əlindən alınmış Manna torpaqları olduğu yazılır. Sonradan Manna artıq öz qüvvəsi ilə (həmçinin, ola bilər ki, skiflər və kimmerlərlə müttəfiqlik sayəsində) ərazisini böyüdür və təhlükəli Assuri-

yanı sıxışdırır. Aşurbanipal əcdadlarının çarlığı dövründə mannalıların Assuriyadan bir çox şəhərləri almasından şikayət edir (4, s.59). Şübhəsiz, Mannanın zəifləmiş Urartu istiqamətinə ekspansiyası daha böyük uğurla nəticələnmişdir. Sonrakı dövrdə artıq Manna çarlığının ərazisi xeyli şimala doğru, Urmiya gölündən şimala və şimal-qərbə doğru uzanırdı. İşkiqulu çarı Sağastarın Urartu çarı, Argiştinin (e.ə. 685-645-ci illər) oğlu II Rusaya məktubunda Mannanın adının çəkilməsi də diqqətəlayiqdir (6, s. 619-633). Cənubi Qafqazda, tarixi Azərbaycan ərazisində (Gümri bölgəsi) yerləşən vilayətin (Iškiqulu) hökmdarının Manna ölkəsi ilə müəyyən əlaqələri var idi. Bu, Manna çarlığının şimal istiqamətində xeyli genişləndiyini göstərir.

E.ə. I minilliyin başlanğıcı Manna dövlətinin yaranmasından və Azərbaycanın Qərb bölgəsinin Urartu sərhədlərinə daxil edilməsindən əvvəl gələn dövrdür.

E.ə. II minilliyin sonu – I minilliyin əvvəllərinə qədər tarixi Azərbaycan ərazisinə aid tarixi dəlillər az və natamamdır. Lakin artıq e.ə. IX əsrlərə aid Assur və Urartu mənbələrində məlumatlar var. Azərbaycanın Şimal bölgəsinə gəlincə isə, həmin dövrə aid yazılı dəlillər, demək olar ki, yoxdur. Bununla belə, həmin dövrdə bu regionun tarixində onun gələcək inkişafına təsir göstərən həddindən artıq mühüm hadisələr baş vermişdir.

Tədqiq edilən dövrdə tarixi Azərbaycanın bütün ərazilərində texniki cəhətdən irəliyə doğru bir addım olan və gələcək sosial-iqtisadi inkişaf üçün imkanlar yaradan dəmir metallurgiyasının getdikcə mənimsənilməsi başlayır.

Tarixi Azərbaycanın bütün ərazisində inkişaf səviyyəsinin ümumi cəhətlərini bir sıra məlumatlar təsdiq edir. E.ə. IX əsrdən etibarən Urmiyayanı ərazilərə intensiv işğal yürüşlərinə başlayan assuriyalılar burada çoxsaylı "ölkələrə" bölünmə mənzərəsi ilə qarşılaşmışlar, yüz il sonra tarixi Azərbaycanın Qərb bölgəsində urartuluların qarşılaşdığı mənzərə kimi. Görünür, bu "ölkələrə" dövlət təsisatları kimi baxmaq lazımdır. Araz çayının şimal və cənubunda yerləşən bölgələr üçün oxşar təsərrüfat əsası – süni suvarmanın cüzi tətbiqi ilə əkinçilik və köçürmə formalarının üstünlük təşkil etdiyi maldarlıq səciyyəvi idi.

Bütün bunlar, şübhəsiz, bu bölgələrin əhaliləri arasında əlaqələrin möhkəmlənməsinə şərait yaradırdı.

Bundan başqa, nəzərdən keçirilən dövr ərzində bu rayonların əhalisi arasında əlaqələr onların hər birinin qədim Şərqin güclü mərkəzləşmiş dövlətləri ilə əlaqələrindən daha müntəzəm xarakter daşıyırdı və müxtəlif formalara malik idi. Amma, demək olar ki, bütün tədqiqatlar əlaqələrin olduğunu təsdiq etsə də, bu əlaqələrin xarakteri, səbəbləri və əhəmiyyəti fərqli izah olunur və bir qayda olaraq, müəlliflərin regionun və ya onun bir hissəsinin tarixinə baxışlarından asılı olaraq təfsir olunur. Bu arada, yazılı mənbələrin sayı məhdud olduğu üçün arxeoloji material tarixi mənbə kimi xüsusi əhəmiyyət qazanır. Bu iki rayon çərçivəsində həmin materialların diqqətlə tədqiqi və sistemləşdirilməsi hazırda zərurətə çevrilib.

Hər iki ərazi üçün ortaq olan maddi mədəniyyət elementləri kifayət qədər aydın izlənir, baxmayaraq ki, artıq qeyd edildiyi kimi, tədqiq edilən dövrdə

Araz çayından şimala və cənuba doğru Azərbaycan ərazisi müxtəlif, bir-birindən aydın surətdə fərqlənən arxeoloji mədəniyyətlərlə səciyyələnir. Arxeoloji materiallarda ümumi elementlərin təfsirində iki əsas təmayül izlənir: ayrı-ayrı əşyaların təkmilləşməsinin arxasında etnik yerdəyişmələri görmək və ya onlara birbaşa və ya dolayı, ticari və ya hərbi əlaqələrin nəticəsi kimi baxmaq və müvafiq olaraq, əsasən xronoloji və tipoloji qaydada nəticələr çıxarmaq.

Bu ərazilərin maddi mədəniyyətlərində ortaq elementlərin tədqiqi üçün Luristan mədəniyyətinin aşkar edilməsi xüsusi əhəmiyyət kəsb etdi, tədqiqatçıların diqqəti dərhal onun Qafqaz regionu ilə əlaqələrinə yönəldi. Tədqiqatçı A.Qodard talış mədəniyyəti yaradıcıları və onlar vasitəsilə Cənubi Qafqaz və Ön Qafqaz əhalisinin "Luristan tuncları" mədəniyyətinin məxsus olduğu əhali ilə etnik oxşarlığı məsələsinə toxunmuşdur (7).

Bu mədəniyyətlər arasında sıx əlaqənin mövcudluğunu Şimali və Cənubi Azərbaycan ərazisinə bir ümumi ənənənin təzahürü kimi baxan digər alim – F.Qançar da təsdiq etmişdir. Onların hamısı müvafiq dövrün Ön Asiya mədəniyyət kompleksinə aid idi və onlar arasında metal məhsulların güclü ticarəti mövcud idi. Onların mədəniyyətlərindəki elementlərin oxşarlığını tədqiqatçı bu xalqların şimaldan Qafqaz vasitəsilə İrana miqrasiyası ilə izah edirdi (8).

R.Qirşman İran və Şərqi Qafqaz (Azərbaycan ərazisi nəzərdə tutulur) və qismən Şimali Qafqaz abidələri arasında bilavasitə əlaqələrlə bağlı tezisi xüsusilə geniş inkişaf etdirmişdir (9; 10; 11).

Onun Təpə-Sialk VI-da nekropol sivilizasiyasını aşkar etməsi bu bölgələrin əlaqələrinin tədqiqində yeni mərhələ oldu. R.Qirşman İran mədəniyyəti elementlərini ayırır, Azərbaycan mədəniyyəti ilə bir çox ortaq cəhətlər aşkar edir, bunu İran tayfalarının ilk vətənlərindən İran yaylasına Qafqaz yolu ilə irəliləməsinin arxeoloji sübutu kimi qiymətləndirirdi (10, s. 470-471; 11; 12; s.39). Bəzi müəlliflər daha da irəli gedir və bütün Azərbaycanın maddi mədəniyyətindəki ortaq xüsusiyyətlərə təkcə İran deyil, həm də Hind-Avropa qruplarının məskunlaşmasının izləri kimi baxırdılar.

Həmçinin, qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində maddi mədəniyyətin ortaq xüsusiyyətlərinə, həm də skif yürüşlərinin və onların məskunlaşmasının nəticəsi kimi baxılırdı ki, bu halda həmin yürüşlər skiflərin adlarının yazılı mənbələrdə ilk dəfə yad edilməsindən xeyli əvvəl baş verməli idi. Belə ki, R.Qirşman Həsənli təpəsində tapılmış atların da dəfn edildiyi məzarı erkən skif abidəsi hesab edirdi (9, s. 99).

T.Sulimirski həmçinin Küp qəbirləri və Xocalı-Gədəbəy mədəniyyətinin saxsı ornamentlərində oxşarlıqlar olduğunu qeyd edərək, bunda skiflərin Azərbaycana erkən gəlişinin izlərini görür (16).

S.Ter-Avetisyanın araşdırmaları Dağlıq Qarabağın skiflərlə bağlı qədim abidələrini aşkar etməyə imkan vermişdir (17; 18; 19).

Digər məşhur antropoloq-alim Rudolf Virxov hələ XX əsrin əvvəllərində qeyd edirdi ki, "Dağlıq Qarabağdakı kurqanlar Cənubi Qafqaz mədəniyyətinin yaradıcılıq məhsulu deyil, onların indiyədək kəşf edilməmiş mədəni mühitə məxsus olması şübhə doğurmur (19, s.19; 20; 21)".

XX əsrin əvvəllərində Dağlıq Qarabağda kurqanların kəşf edilməsi bir sıra alimlərin şimal mədəniyyətinin Qarabağ kurqanlarına təsiri haqqında nəticə çıxarmağa və hətta skiflərin və sakların şimaldan gələn xalq deyil, Cənubi Qafqazın yerli əhalisi olduğunu hesab etməyə imkan verdi (19, s. 19-26).

Bu konsepsiyanı M.N.Poqrebova da təsdiqləmişdir. M.N.Poqrebova tunc dövrünün sonu – dəmir dövrünün əvvəllərinə aid Cənubi Qafqaz məzar abidələri arasında məzar çuxurunda taxta konstruksiyalar, insanla bərabər atların dəfn edilməsi və ayinlərdə müəyyən rol oynayan od izləri kimi səciyyəvi xüsusiyyətləri olan bir qrup kurqanı ayırmışdır (20, s. 114-140). Bu qrupa Gəncə şəhəri yaxınlığında çöldə yerləşən 11 kurqan, Xanlar şəhəri yaxınlığında 3 kurqan, Mingəçevirdə 5 kurqan və Dağlıq Qarabağın Ballıqaya və Xankəndi yaşayış məntəqələri yaxınlığındakı kurqanlar daxil edilmişdir (20, s. 115, 120, 122). Yuxarıda qeyd edilən kurqanlar konstruksiya və mərasim xüsusiyyətlərinə görə skif kurqanlarına uyğun gəlir. Ballıqaya və Sırxavənd yaxınlığındakı kurqanlar e.ə. XII-XI əsrlərə, Xocalıdakı 2 saylı kurqan isə e.ə. XI-X əsrlərə aiddir. Azərbaycanın digər regionlarındakı analoji kurqanlar e.ə. XIII əsrdən VIII əsrə qədərki dövrə aiddir (20, s.126).

Herodot "Tarix" kitabında qeyd edirdi ki, skif etnosunun nüvəsinin formalaşması e.ə. XVI-XV əsrlərdə baş vermişdir (Herodot, İstoriya, IV, 7).

Bir sıra mütəxəssislər hesab edirlər ki, məhz həmin dövrdə Volqa bölgəsində küp qəbirləri mədəniyyəti meydana gəlmişdir (21). Onun mövcud olduğu son dövrlərdə sonradan skiflər tərəfindən təkmilləşdirilən ayrı-ayrı əşya formaları meydana çıxmışdır. Alimlər qeyd edirlər ki, Küp qəbirləri və Skif mədəniyyətləri arasında prinsipial fərqlər yox idi. Erkən-skif dövründə Küp qəbirləri mədəniyyəti daşıyıcıları skif mədəniyyətinin əsasını qoymuş ola bilərdi. Xüsusən, taxta örtüləri olan çuxurlu kurqanlar və yandırılma və atların dəfn edilməsi izləri qeydə alınan e.ə.VII-V əsrlərə aid küp qəbirlər skiflərin dəfn təcrübəsinə aid idi (22, s. 55-56, 217-221).

M.N.Poqrebova qeyd edir ki, Aşağı Volqa çöllərində tədqiq edilmiş kurqanlar tarixinə görə Qarabağ kurqanlarına yaxındır. Bu qəbir abidələri bilavasitə bu regionda skif-sarmat zadəganlarının dəfnindən əvvəlki dövrə aiddir (20, s. 132-133). Görünür, e.ə. II minilliyin sonlarında Aşağı Volqadan Cənubi Qafqaza, o cümlədən Dağlıq Qarabağa skiflərlə qohumluq əlaqələri olan etnik qrup gələ bilərdi (20, s. 133-134, 173).

XX yüzilliyin sonlarında Azərbaycanda taxta konstruksiyalı və atların da dəfn olunduğu daha bir neçə kurqan haqqında materiallar dərc edilmişdir (22, s. 5-12; 23; 24, s. 14-15; 25; s. 21-23).

Borsunlu kurqanını Sibirdə skif dövrünə aid Taqar mədəniyyəti kurqanı ilə müqayisə edən H.F.Cəfərov onlarda oxşarlıqlar tapır (44, s. 4). Xanlar yaxınlığında kurqanaltı küp qəbirlərdə iki maral qoşulmuş araba aşkarlanmışdır. Altayda skif-sak mənşəli Pazırık kurqanlarının altındakı küp qəbirdə də belə bir araba tapılmışdır. Bu qəbirdəki arabaya qoşulmuş atın başında maral maskası var idi (26, s. 12). Müxtəlif dövrlərə aid abidələr arasında bu oxşarlıqlar skif mədəniyyətinin "taxta konstruksiyalı və atlı kurqanlar" mədəniyyətinin yeni inkişaf mərhələsini təşkil etməsi ehtimalını bir daha göstərir. Xanlar yaxınlığındakı küp qəbir e.ə. XV-XIV əsrlərə aid edilir (26, s.15).

Bu, Küp qəbirləri mədəniyyəti daşıyıcılarının ilk qrupunun Cənubi Qafqazda indiyədək qəbul edilən tarixdən daha əvvəl meydana gəldiyini ehtimal etmək üçün əsas verir.

H.F.Cəfərov iddia edir ki, Qarabağ düzlərindəki kurqanlarda dəfn edilmiş tayfa başçıları "hərbi demokratiya" dövründə dünyəvi, hərbi və dini hakimiyyəti öz əllərində birləşdirirdilər (25, s. 23). Dağlıq Qarabağın analoji kurqanlarından göründüyü kimi, onların hakimiyyəti təkcə Qarabağ düzünü deyil, bütün Dağlıq Qarabağı əhatə edirdi. M.N.Poqrebovanın iddiasına görə, e.ə. VII əsrdə skiflərin Qafqazdan (daha doğrusu Azərbaycan ərazisindən) keçən məşhur yürüşləri zamanı onlar özləri ilə qohum olan etnik qruplarla qarşılaşmışlar (20, s. 173). Həmçinin, maraqlıdır ki, mənşəyi skiflərlə eyni olan saklar Kür-Araz çayları arasındakı ərazilərdə, məhz taxta konstruksiyalı və atların dəfn edildiyi kurqanların yayıldığı zonada məskunlaşırdılar. Artıq e.ə. VI-V əsrlərdə onlar Kür çayının sağ sahilində, Mingəçevir, Gəncə və Xanlar yaxınlığındakı kurqanlar qrupunun qeydə alındığı ərazidə, tarixi Sakasendə məskən salmışdılar. Və indiyədək "Gəncə rayonunun əhalisi arasında saklar haqqında şifahi əfsanələr qalmışdır" (19, s. 23).

E.ə. VII əsrə aid Assur mənbələrindən öyrəndiyimiz kimi, skiflərin məşhur yürüşləri zamanı onların Manna ərazisində məskunlaşması haqqında məlumatlar qorunub saxlanmışdır, burada kurqan məzarı (Sakkız xəzinəsi) – Ön Asiyada skif mədəniyyətini təmsil edən abidə aşkarlanmışdır (27, s. 53). Sakkız kimi Urmiya gölündən cənubda yerləşən Həsənli, Dinkatəpə kimi digər Manna abidələrində e.ə. IX-VIII əsrlərə, yuxarıda qeyd edilən skif yürüşündən əvvəlki dövrə aid insanların atlarla birlikdə dəfn olunduğu məzarlar aşkarlanmışdır (20, s. 134-135).

Tədqiqatçılar həmrəyliklə hesab edirlər ki, Həsənli təpəsindəki məzar tarixi mənbələrdə adlarının ilk dəfə çəkilməsindən xeyli əvvəl burada olan skiflərə məxsus idi (20, s. 134). Sadalanan abidələr e.ə. II minilliyin sonu – I minilliyin əvvəlləri boyunca tayfaların Aşağı Volqa bölgəsindən Urmiya gölünün cənub sahilinə qədər çoxmərhələli tədrici hərəkətini təsdiq edir (20, s. 135).

Qədim yunan müəllifi Siciliyalı Diodor qeyd edirdi ki, Mərkəzi Asiyadan gələn "pal" skif tayfaları e.ə. VII əsrdə Qafqaz ərazisindən keçərək cənuba getmişdir (Diodor Sitsiliyski. Kitabxana. II, 43).

Qarabağ kurqanlarının yayılma zonası b.e. III əsrindən məlum olan Balasakan ölkəsinin qərb hissəsini təşkil edirdi. Erkən orta əsrlərə aid Cənubi Qafqaz mənbələrindən göründüyü kimi, bu ölkədə "ballar" məskunlaşırdılar. V əsr müəllifi Favst Buzand onları skiflərlə (saklarla) qohum olan maskutların (massagetlərin) qoşunlarının tərkibinə daxil olan köçərilər kimi səciyyələndirir və onları balasiç adlandırır. Balasiç, şübhəsiz ki, ölkənin adına müvafiq balasak etnoniminin təhrif edilmiş variantıdır. Balasak etnonimi isə birbaşa balların sak mənşəli olduğunu göstərir. Məlum olduğu kimi, Mərkəzi Asiyada eyniadlı şəhəri olan tarixi Balasaqun ölkəsi mövcud idi. O, çox güman ki, skif (sak) mənşəli

Mərkəzi Asiya tayfası olan "pal" tayfası ilə əlaqəli idi. Beləliklə, Qafqaz balları-nın e.ə. VII əsrdə Qafqazda ortaya çıxan palların nəsli olduğu açıq-aşkar görünür (28, s. 101-107). Ballar Herodota qonşu kaspilərlə birlikdə Əhəməni imperiyasının XV satraplığına daxil edilmiş "saklar" kimi məlum idi (Herodot. Tarix, III, 93). Həmçinin yazılı mənbələrdə Balakan və Kaspianın eyni ölkənin adı olması da buna dəlalət edir. Sak tayfası olan balların e.ə.VII əsrdə Cənubi Qafqazda meydana çıxmasını Qədim Şərq mixi yazılarında sakların və kutilərin hökmdarı Tuqdammi və onun oğlu Sandakşatrunun adlarının çəkilməsi də sübut edir (e.ə. VII əsrin ortaları). Qarabağ düzündə aşkarlanmış, A.A.İessen tərəfindən e.ə. VII əsrə aid edilən Kiçik Kurqan bunun arxeoloji dəlili ola bilər (29, s. 10-36). Tədqiqatçılar bu kurqanı e.ə. VII əsrdə skiflərin yürüşü ilə əlaqələndirir (27, s. 56). "Balların" Qarabağ düzündə taxta konstruksiyalı və atların da dəfn olunduğu kurqanlar zonasında yayılması skiflərin (sakların) etnik cəhətdən onlarla qohum olan əhalinin kök saldığı Cənubi Qafqaz və İran regionlarında məskunlaşmaq cəhdlərini göstərir.

Skiflərin, o cümlədən balların Dağlıq Qarabağla bilavasitə əlaqələri var idi, burada skiflərə məxsus silahların tapılması da bunu göstərir (30, s. 23).

XX yüzilliyin son on ili ərzində Urmiyayanı və xüsusən Xəzəryanı bölgələrdə abidələrin aşkarlanması ilə tədqiq edilən dövrdə İran və Cənubi Qafqaz arasında möhkəm əlaqələrin mövcudluğu haqqında fikir yenidən təsdiqini tapdı (15, s. 23-25; 16, s. 17, 18, 31, 32).

Burada həmçinin qeyd etmək lazımdır ki, bütün Cənubi Qafqaz ərazisində tunc alətlərin geniş şəkildə dəmir alətlərlə əvəzlənməsi, əslində, e.ə. VIII-VII əsrlərin ikinci yarısından başlayır. Elə bu dövrdə tunc silahlara bənzəyən dəmir silah növlərinin mövcudluğuna son qoyulur və yeni qılınc, xəncər formaları, artıq dəmir metallurgiyası texnologiyası ilə hazırlanan nümunələr yaranır.

Dəmirin intensiv şəkildə yayılması müxtəlif növ silahların yayılma sahəsini dəyişdirdi, ilk növbədə, onların istifadə sahəsini genişləndirdi. Silahların formasının bəzi xüsusiyyətləri onların yerindəcə istehsal edildiyini güman etməyə imkan verir. Bu müşahidə yeni növ dəmir silahlara aiddir. Kənarları ilə dəmir tiyələr Qara dənizdən Xəzər dənizinə qədər olan ərazilərdə yayılmışdır və Kür çayından şimal və cənuba doğru yerləşən bölgələrdə qeydə alınmışdır.

Cənubi Qafqazın Şərq hissəsində (Azərbaycanın şimal bölgəsi) başçıların – sərkərdələrin rəhbərlik etdiyi tayfa birlikləri yaşayırdılar. Qəbirlərdən tapılan əşyaların xüsusiyyətləri bu tayfaların qəbilə icma quruluşunun dağılması, tayfalararası və tayfadaxili münasibətlərin dəyişməsi və çətinləşməsi səviyyəsində olduğunu göstərir. Görünür, bütün azad kişilər tayfa qoşunlarına daxil idilər. Lakin arxeoloji materiallar göstərir ki, artıq e.ə. II minilliyin ikinci yarısında başçıların ətrafında birləşən, əsas məşğuliyyəti döyüş əməliyyatlarında iştirak etmək olan döyüşçülər qrupu ayrılır. Buna həm içərisində çox sayda silah və zinət əşyaları olan, həm də bu əşyaların demək olar ki, heç olmadığı müxtəlif kişi qəbirlərinin mövcudluğu dəlalət edir. Silahların çox olduğu kişi məzarlarına Cənubi Qafqazın Şərq hissəsində daha çox rast gəlinir. Görünür, döyüşçülər qoşunun əsasını təşkil edirdilər və başçıların vaxtaşırı həyata keçirdikləri uzunmüddətli hərbi ekspedisiyalarda iştirak edirdilər.

Azərbaycan ərazisində çox sayda istehkam tikililərinin mövcudluğu da bizim tədqiqatlarımızı təsdiq edir (33; 34).

İşpunni və Menuanın birgə hakimiyyəti dövrünə aid, Cənubi Qafqaz tayfalarının Urartuya yürüşünə dəlalət edən bir neçə kitabə uzaq hərbi səfərlər barədə ehtimal irəli sürməyə imkan verir.

Cənubi Qafqaz tayfalarının hücumları qənimət əldə etmək niyyətindən irəli gəlirdi. Urartu sakinləri hücum edən tayfaları təqib edərək, öz növbəsində, onların ərazilərinə hücum edir və xeyli qənimət ələ keçirirdilər. Sonradan Urartuluların Cənubi Qafqaza ekspansiyası başlayır.

Şübhəsiz, Cənubi Qafqaz bölgələrinin fəthi Urartulular üçün kifayət qədər çətin iş idi, həmin ərazilərə yenidən təşkil olunan yürüşlər isə istilaların müvəqqəti xarakterli olduğunu göstərir. Cənubi Qafqaz bölgələrində qalalar tikilir, qarnizonlar yerləşdirilirdi, amma ən kiçik fürsət yaranan kimi bu "ölkələr" yenidən Urartudan ayrılırdı.

Urartu çarlarının çoxsaylı kitabələri istehkamların məhv edilməsindən, məskənlərin dağıdılmasından, sarayların yandırılmasından və tarixi Azərbaycan ərazisinin ayrı-ayrı hissələrinin tamamilə talan edilməsindən bəhs edir. Lakin bu, bu ərazidə məskunlaşan xalqların mədəniyyətinin inkişafına mane olmamışdır. Qədim məskənlərin tədqiqi də bunu sübut edir, araşdırma materiallarında bu ərazilərdə fasiləsiz həyat olduğu aydın görünür.

Assur və Urartu mixi yazılarında tarixi Azərbaycan ərazisinin qərb hissəsinə daxil olan Xarxar ərazisinin də adı çəkilir.

Urartu mixi yazılarında e.ə. VIII əsrin əvvəllərindən Azərbaycanın qərb hissəsi ilə bağlı məlumat verilir. Belə ki, e.ə. 782-ci ildə Urartu çarı Argişti Araz çayını keçərək, "Az ölkəsinin" ərazisinə keçərək, Sevan (Göyçə) gölünə qədər böyük ərazini ələ keçirmişdir, İrpuni (Erebuni) şəhərini, Sardarab vilayətində isə Argiştixinili qalasını tikmişdir. Bütün bunlar barədə həmin ərazilərdə aşkarlanmış Urartu epitafiyalarında yazılır.

Urartu çarlarının hazırki Cənubi Qafqaz ərazisinə hücumları və bu ərazilərin böyük hissəsini (tarixi Azərbaycanın Qərb hissəsi) ələ keçirməsi nəticəsində Az tayfalarının bir hissəsi Şimala və Şimal-Şərqə çəkilmişdir. E.ə. 715-ci ildə tarixə Qəmərlər adı ilə daxil olan Az tayfaları əks yürüşə keçərək, I Rusanın qoşununu darmadağın etmişdir və Urartuluları Cənubi Qafqazdan sıxışdırıb çıxarmışdır. Qəmərlərdən bir qədər sonra Cənubi Qafqaz ərazisində skif tayfaları ortaya çıxır, onlar qəmər tayfalarını Araz çayının cənubuna doğru sıxışdırırlar və öz dövlət strukturunu yaradırlar. Bu dövlətin başında, "Bibliya"da yazıldığı kimi, Aşkenaz, Aşxanas, Sak / Skif / İskit / İşquz / İç Oğuz çarlığının başında Azkan adlı padşah dururdu.

Cənubi Qafqazda tayfaların bir-birini əvəz etməsi ardıcıllığı V əsr (arman) (arman) erməni tarixçisi Moisey Xorenatsi tərəfindən kağız üzərinə köçürülmüş erməni genealogiyası ilə üst-üstə düşür: Nuh-Yafət-Qəmər-Tur-Turqam-Azkan.

Tarixdə (Armaniya) Ermənistan ölkəsinin adının ortaya çıxması da Urartu dövlətinin dağıldığı, Qəmər-Sak tayfalarının Cənubi Qafqaz ərazisinə qayıtdığı həmin dövrə təsadüf edir. Artıq Urartunun böyük hissəsində, xüsusən şimal

torpaqlarında hegemonluq Qəmər-Sak tayfalarının əlində idi və həmin vaxt bu ərazilərdə Arman dövlətinin yaranmasında bu tayfalar böyük rol oynamışdır. Həmçinin, qeyd etmək lazımdır ki, (Armaniya) Ermənistanın formalaşmasında Qəmər-Sak tayfaları ilə yanaşı, Ərlər və Qarqar tayfaları əksəriyyət təşkil etmişdir. (Armaniya) Ermənistan ölkəsinin adına gəlincə, bu, Ərlər mənasında olan Urartunun adının yeni ifadə formasından (Ararat/Ererat) başqa bir şey deyildi.

Məlum olduğu kimi, Cənubi Qafqazda urartuluların hakimiyyəti Urartunun mövcudluğunun sön dövründə, onun mərkəzi şimala keçirildiyi zaman daha böyük rol oynamağa başlamışdı.

Amma urartuluların ələ keçirdiyi ərazi əsasən dəqiq təsvir edilirsə və onların istila edilmiş tayfalarla qarşılıqlı əlaqələri kifayət qədər aydındırsa, onların Cənubi Qafqazın Urartu sərhədlərinə daxil olmayan qərb hissəsi (tarixi Azərbaycanın şimal hissəsi) ilə münasibətləri o qədər də aydın təqdim edilmir. Söhbət Sevan (Göyçə) gölündən şərqə doğru yerləşən ərazilərdən gedir. Kolagirən kitabəsində gölün o tərəfində, yüksək dağlarda yerləşən 19 "ölkənin" adı çəkilir (35, s. 329; UMY), lakin bu "ölkələrin" dəqiq yerini müəyyən etmək mümkün olmur. Hətta urartuluların Sevan (Göyçə) gölündən şərqə doğru yürüşləri olubsa belə, bu, yalnız Urartunun bu ərazilərdə hakimiyyətini möhkəmləndirməsinə gətirib çıxarmayan ayrı-ayrı soyğunçuluq basqınları olmuşdur ki, arxeoloji materiallar da buna dəlalət edir.

Urartu mətnlərində əks olunan tayfaların bölünməsi, görünür, Cənubi Qafqaz üçün Urartu yürüşlərindən əvvəlki dövrdə də səciyyəvidir. Təəssüf ki, arxeoloji cəhətdən bu "ölkələri" müəyyən etmək mümkün olmur. Böyük mədəniyyətlər daxilində ayrılan arxeoloji "mikrorayonlar" ayrı-ayrı "ölkələrin" sərhədləri ilə müqayisə oluna bilməz.

Urartu kitabələrində adı çəkilən cəmi bir neçə "ölkənin" yeri kifayət qədər aydın olur və yeri müəyyən edilə bilən belə bölgələrin sayı getdikcə artır. Onlarla yanaşı, son dövrlər tarixi Azərbaycan ərazisində Sevan (Göyçə) gölü yaxınlığında yeri məlum olmayan daha bir neçə "ölkənin" adı çəkilir.

Tarixi Azərbaycan ərazisində əhalinin etnik mənşəyi haqqında çox şey demək olar. Azərbaycan sakinlərinin etnogenezi və etnik tarixi məsələsi çox qədimə gedib çıxır, lakin bunu yalnız qədim tunc dövrünün sonlarından – e.ə. III minilliyin sonuncu üçdə birindən başlayaraq ümumi şəkildə izləmək olur.

Kür-Araz mədəniyyətinin son dövründə və orta tunc dövrünün başlanğıcında maldarlıqla məşğul olan tayfaların ön plana çıxması, bu zaman qədim əkinçilik mərkəzlərinin də qalması, köçmə maldarlığın meydana gəlməsi, metallurgiya istehsalının inkişafı, habelə Mesopotamiya, Kiçik Asiya və İran şəhər sivilizasiyaları ilə sıx əlaqələr cəmiyyətin istehsalçı qüvvələrinin xeyli inkişafına, kifayət qədər çox əlavə məhsulun meydana çıxmasına, əmlak və sosial təbəqələşmənin dərinləşməsinə və son nəticədə bu regionda məskunlaşan tayfaların sosial-iqtisadi, siyasi və mənəvi həyatında ciddi dəyişikliklərə gətirib çıxardı. Bütün bu dəyişikliklər, əlbəttə ki, etnik proseslərə də təsir göstərməyə bilməzdi. Arxeoloji məlumatlar bu dövrdə əhalinin xeyli artdığını, nisbətən iri tayfa ittifaqlarının meydana gəldiyini, tayfadaxili vəziyyətin çətinləşdiyini, hərbi qarşıdurmaların artdığını göstərir.

Əsrlər boyunca regiona gələn etnik qruplarla qarışan yerli əhali dəmir dövrünün başlanğıcında əslində hələ e.ə. III minillikdən, bəlkə də xeyli əvvəlki dövrlərdən burada yaşayan etnik elementlərdən ibarət idi.

Şimali Azərbaycan bölgələrində əsas əhali, demək olar ki, şübhəsiz, Şimal-Şərqi Qafqaz ailəsinin dillərində danışan tayfalardan və tayfa birliklərindən ibarət idi. Burada etnik birlikləri əks etdirən nisbətən böyük – Xocalı-Gədəbəy, Naxçıvan, Talış-Muğan, Qayakənd-Xoraçay mədəniyyətlərinin mövcudluğu aydın izlənir. Qeyd etmək lazımdır ki, Cənubi Qafqazın, daha dəqiq desək, onun mərkəzi və şərqi hissəsinin həmin vaxta aid arxeoloji mədəniyyətləri bir-birinə çox yaxın idi və eyni zamanda onun Qərb hissəsindəki mədəniyyətdən kəskin şəkildə fərqlənirdi (61). Deyilənlər qədim alban tayfa ittifaqının Şimal-Şərqi Qafqaz dil ailəsinin daşıyıcıları əsasında formalaşdığını göstərir.

E.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində Urmiyayanı ərazidə müəyyən sayda kiçik siyasi birliklər yaranır. Bu, Allabria, Karalla, Gilzan, Kirruri, Mes(s)i, Parsua, Zikertu və başqaları (2, s. 154; 58, s. 168) idi. Ən böyük və bizim üçün ən mühüm birlik Zamua idi ki, tezliklə onun bazasında Manna çarlığı – Cənubi Azərbaycan ərazisində ilk böyük dövlət quruluşu yaranır. Manna kuti (qutti), lullubi, hurri və digər tayfa və tayfa ittifaqlarının birbaşa varisi idi.

Xüsusi ədəbiyyatda, o cümlədən nisbətən yeni əsərlərdə Manna xalqının İran tayfası olduğu, mannalıların midiyalılarla qohum olduğu barədə fikrə tez-tez rast gəlmək olar. Amma qeyd etmək lazımdır ki, Manna çarlığının özündə İran mənşəli adlara rast gəlinmir. Mannada hökmranlıq edən sülalənin bütün nümayəndələrinin adları (Ualki; İranzu, Aza, Ullusunu, Ahşeri, Ualli, Erisinni) nə İran, nə də semit adları deyil. Onlardan bəzilərində, məsələn, çar Ahşerinin adında hurri etimologiyasını tapmaq olar. Toponimiyada da eyni vəziyyətlə qarşılaşırıq. Mannada yer adlarının böyük əksəriyyəti nə İran, nə də semit adı deyil, "Asiya" adlarına bənzəyir. Həmçinin, açıq-aşkar hurri-urartu xarakterli adlara rast gəlinir (məsələn, mannalıların qalalarından birinin adı belədir – Sinihini). Bununla yanaşı, toponimiyada İran adlarına bənzər bir neçə ad göstərmək olar. Məsələn, Aşurbanipal Manna vilayətlərindən biri kimi Erišteiunanın adını çəkir (4, s. 60). Bu, midiyalıların bir şəhərinin – Erištananın adı ilə eynidir və tərkibində İranlılara məxsus "stana" ifadəsi var. Ola bilər ki, zaman-zaman Manna çarlığının tərkibinə bu və ya digər İran tayfaları daxil olmuşdur. Şübhəsiz, istənilən halda, e.ə. VIII-VII əsrlərdə Mannanın "Asiyalı" əhalisi İran tayfaları ilə əhatə olunmuşdu (xüsusən cənubdan və şərqdən). Manna ölkəsinin əhalisi, şübhəsiz, bu qonşu İran tayfaları ilə intensiv əlaqələrə malik idi. Ola bilər ki, onlar arasında hərbi qarşıdurmalar da olurdu ki, bu da zaman-zaman gah bir, gah digər tərəfin siyasi tabeliliyinə gətirib çıxarırdı. Bu yolla təkcə müxtəlif təsirlər üçün deyil, həm də etnik yerdəyişmə prosesi üçün də yol açılırdı.

Şübhəsiz, əhalinin qarşılıqlı əlaqələri və qarşılıqlı təsiri prosesi hələ Assuriya-Urartu dövründə başlamışdı. Manna əhalisinin qarşılıqlı təsiri bu ərazinin İran tayfalarının tərkibinə daxil olmasından sonra xüsusilə sürətləndi və o, qismən assimilyasiyaya uğradı.

Manna ölkəsi haqqında ilk məlumatlara Assuriya çarı III Salamansarın (860-825-ci illər) kitabələrində rast gəlirik. Assuriya çarlığı Salamansarın

hakimiyyətinin 16-cı ilində (ARAB, I, 637) (4, s. 61), daha sonra isə elə həmin çarın hakimiyyətinin 30-cu ilində Manna ərazisinə yürüş edir. Assuriya kitabələri bu sonuncu yürüşün bəzi detalları barədə məlumat verir. Manna çarı Ualki assuriyalılara tabe olmur, öz "çar şəhəri" olan Zirtanı tərk edərək, dağlarda gizlənir. Bu kitabədə görürük ki, Manna çarlığı assuriyalılara qarşı mübarizə aparır, məhz bu dövrdə Urmiyayanı hövzədə Manna tayfalarının böyük birlikləri formalaşır. Bu böyük birliklərin formalaşmasına bir tərəfdən bu dövrdə Assuriya dövlətinin yenidən möhkəmlənməsi ilə əlaqədar Assuriya ekspansiyasının kəskin şəkildə güclənməsi, digər tərəfdən isə Urartu çarlığında qonşu, o cümlədən Manna tayfaları üçün Assuriyadan heç də az təhlükəli olmayan iri dövlət və tayfa birliklərinin yaranması müəyyən təkan vermişdir. III Salamansarın dövründə Manna çarlığının paytaxtı Zirta (Zerta) şəhəri idi. Bu şəhər sonrakı əsrlərdə də paytaxt olaraq qalır. Çox güman ki, Manna tayfalarının bu böyük birliyi Zirta-İzirtu hökmdarlarının hegemonluğu altında formalaşmışdır.

Bir sıra Assuriya mənbələri həmin dövrdə Urmiyayanı ərazidə Manna tayfalarının bir deyil, bir neçə iri birliklərinin olduğunu iddia etməyə imkan verir. Bu mənbələrdən görünür ki, həmin vaxt Manna tayfalarının bir neçə iri birlikləri mövcud idi; onlar arasında, əlbəttə, hegemonluq uğrunda mübarizə gedirdi, müəyyən ziddiyyət var idi. Məhz bu təzahür çarlar Halki və Sulusunu ilə onların ölkəsinə basqın edən assuriyalılar arasında münasibətlərinin müxtəlif olduğu faktını göstərir: Halki (daha güclü tayfa birliyinin başçısı) barışmazlıq göstərir, assuriyalılara tabe olmursa, Sulusunu onlara tabe olur, onlara xərac verir və onların icazəsi ilə idarə etdiyi ölkəni öz adına bərqərar edir.

Bu nöqteyi-nəzərdən Assuriya çarlarının bu adı daşıyan ölkə, şəhər və qala kimi bəhs etdikləri Mesi-Misi ölkəsini misal göstərmək olar. Və bəlkə də bu hal Misi əhalisinin də mannalılar olduğunu göstərir. Göründüyü kimi, bu birlik erkən dövrlərdə Zirta (İzirtu) hökmdarlarının hegemonluğu altında yaranmış Manna tayfaları birliklərinə daxil olmur, yalnız sonradan bu birliyin tərkibinə düşür.

Deməli, erkən dövrdə, III Salamanasarın dövründə, qeyd edildiyi kimi, Manna tayfalarının bir neçə iri birliyi mövcud idi. Bu birliklər təkcə Assuriya və Urartu ilə mübarizə aparmaq məcburiyyətində qalmırdılar, həm də, şübhəsiz, öz aralarında mübarizə aparırdılar. Sonradan təsdiqini tapmış tezisdən gördüyümüz kimi, bu mübarizədə qələbə İzirtu hökmdarlarının tərəfində olmuşdur. Onlar gələcəkdə öz çarlıqlarının hüdudlarını xeyli genişləndirməyə, qonşu Manna tayfalarını birləşdirməyə müvəffəq olmuşlar.

III Salamansardan sonra Mannanın qonşuları – Urartu və Assuriya çarlığı arasında güc nisbəti Urartunun xeyrinə dəyişir. Həmin dövrdə Assuriya zəifləyir, Urartu üçün isə daha çox qüdrətlilik dövrü başlayır. Bu dövrdə Manna çarlığının əsas düşməni Assuriya deyil, Urartu olur. Yalnız gələcəkdə qüdrətli III Salamansarın bilavasitə varislərinin dövründə Assuriya mənbələrində Assuriyanın Manna çarlığı ərazisində fəallığı ilə bağlı bəzi qısa məlumatlara rast gəlinir.

Bundan sonra Assur mənbələrində Manna ölkəsi haqqında uzun müddət heç nə deyilmir. Həmin vaxt urartulular assuriyalıları cənub-şərq bölgələrindən ciddi surətdə sıxışdırıb çıxarırlar. Urartu mənbələrində isə həmin dövrdə

Manna ölkəsinin adı daha tez-tez çəkilir. Menuanın, I Argiştinin, II Sardurun kitabələri Manna ölkəsinə yürüşlərin təsviri ilə doludur. I Argiştinin çarlığı dövründə Urartu və Manna arasında qarşıdurmalar xüsusilə intensiv hal alır. Bu çarın salnamələrindən gördüyümüz kimi, urartulular, demək olar ki, hər il Mannaya qarşı yürüş edirdilər. Manna ölkəsinə qarşı bu sıx ekspedisiyaların, çox güman ki, nisbətən geniş miqyaslı olması diqqət çəkir. Qətlə yetirilmiş Manna döyüşçülərinin, habelə Mannada ələ keçirilmiş əsirlərin sayı və müxtəlif qənimətlərin miqdarı bunu göstərir, hətta bu rəqəmlərdə müəyyən mənada şişirtmə olduğunu fərz etsək belə (Çarlar Argişti və Sardurun salnamələrində Mannada on minlərlə xırda və iribuynuzlu mal-qara, at, dəvə və s. ələ keçirildiyi yazılır). Urartulular nəinki Mannalıların ölkəsini boşaldır, qənimət götürür, əsirlər aparır, yerli əhalini xərac verməyə məcbur edir, həm də hələ erkən dövrlərdən Mannanın ayrı-ayrı rayonlarını birləşdirməyə can atırdılar. Çar Menuanın Manna ölkəsini və Meişta şəhərini ələ keçirdiyini yazdığı Daştəpə kitabəsində həmçinin qala, istehkam (EKALLU) tikildiyi (işğal edilmiş Meişta ərazisində) qeyd edilir. Deyilənlərdən görünür ki, urartulular Manna ölkəsinin bu sərhəd bölgəsində möhkəmlənməyə çalışırlar: qala tikirlər, qarnizon yerləşdirirlər. Urartu taxtında çar Menuanın varisi I Argişti də Manna ərazisinə bir yürüşü zamanı baş verən hadisələri şərh edərkən Arqiştihinili şəhərinin tikildiyini qeyd edir (çox güman ki, Manna çarından alınmış ərazidə).

Urartulular, çox güman ki, Mannalıların ölkəsini təkcə Urmiya gölünün cənubunda yerləşən ərazidən sıxışdırmırdı. Çar II Sarqonun 8-ci yürüşünün Türo-Danjen tərəfindən təklif edilmiş marşrutu doğru təsvir edilmişdirsə, xüsusən, Mannalıların Suli, Uišdiš vilayətləri Mannanın şimal rayonları idisə və Urmiya gölündən şimal-şərqdə yerləşirdisə, aydın olur ki, bu vilayətlər Urartuluların Urmiya gölünün bütün şimal sahili boyunca ekspansiyası nəticəsində Urartuya birləşdirilmişdir.

Qüdrətli Urartu və Manna çarlığı arasında, demək olar ki, yüzillik boyunca davam edən mübarizə Manna ölkəsinin bir sıra bölgələrini itirməsinə gətirib çıxardı. Urartu ilə mübarizədə uğursuzluq bütün Manna tayfaları birliyinin hegemonu kimi İzirtunun mövqeyini sarsıtdı.

Sarqon dövrünə aid (722-705) mənbələrdən bizə məlum olur ki, dağılma prosesi xeyli güclənmişdi. Hələ İzirtu çarlarının mülkiyyətində olan Manna çarlığının ərazisi II Sarqon dövründə bir çox tərəfdən düşmən əhval-ruhiyyəli birliklərlə əhatə olunmuşdu. Manna çarlığından şimalda (Urmiya gölündən şərqdə) Uišdiš ölkəsini görürük, onun hökmdarı Baqdatti e.ə. 716-cı ildə Manna çarlığının məğlubiyyətə uğradılmasında və Manna çarı Azanın qətlə yetirilməsində fəal iştirak edir. Bu hadisələrdə Misiandu ölkəsinin hökmdarı iştirak etmişdir. Mannadan cənubda Bit-Dainkki – e.ə. 715-ci il hadisələrində adına rast gəldiyimiz hökmdar Dainkkinin ölkəsi yerləşirdi: o, Urartu çarının köməyi ilə Manna ərazisinin müəyyən hissəsini ələ keçirir (22 qala). Burada, şübhəsiz, söhbət Manna ölkəsinin cənub əyalətindən, Urmuya gölündən cənubda, Assuriya yaxınlığında yerləşən ərazidən gedir. II Sarqon sözügedən 22 qalanı fəth edərək, onları öz çarlığının hüdudlarına daxil edir (Salnamə, sət. 139, s. ARAB, IIb 23). Mannadan şərqdə Sarqonun dövründə Manna çarlığı-

nın ən barışmaz düşmənləri olan Zikirtu və Andia ölkələri yerləşirdi. Mannaya qarşı düşmən kəsilmiş bütün bu qonşu ölkələrin hökmdarları Sarqonun dövründə, demək olar ki, siyasi cəhətdən İzirtu çarlarından asılı deyildi. Manna çarı vəziyyətin öhdəsindən gəlmək və Zikirtu çarının qoşununu dəstəkləyən ayrılmış şəhərləri "ram etmək" iqtidarında deyildi. İranzu öz süzereni - II Sarqonu köməyə çağırmaq məcburiyyətində idi və yalnız onun köməyi ilə öz mövqeyini bərpa etməyə müvəffəq olur (Salnamə, sət. 32, ARAB, II, 6).

Lakin e.ə. 716-cı ildə Urartu qoşunlarının bilavasitə iştirakı ilə Zikirtu, Uišdiš və Misiandu hökmdarları Manna çarı Azanı qəti məğlubiyyətə uğratmağa və onu qətlə yetirməyə müvəffəq olurlar. Onlar Manna taxtına qətlə yetirilmiş Azanın qardaşı Ullusununu çıxarırlar və onu Urartu çarına sadiq qalmağa and içməyə məcbur edirlər ("Xülasə" – Sarqon kitabəsi, sət. 36, s. ARAB, II, 56). Beləliklə, şübhə yoxdur ki, Sarqon dövründə İzirtu çarları Urartuluların bilavasitə dəstəyi ilə onları narahat edən qonşularına öz qüvvələri ilə müqavimət göstərmək iqtidarında deyildilər. Məhz bu vəziyyət fonunda Mannanı narahat edən bütün bu qonşu əyalətlərin (Zikirtu, Uišdiš, Misiandu, Bit-Dainkki) hökmdarlarına Sarqon kitabələrində qiyamçılar, Manna çarlarının bəzi xidmətçiləri kimi baxılması böyük maraq doğurur.

Manna çarı Azaya qalib gələn Zikirtu, Uišdiš və Misiadu çarlarını Sarqon Manna çarının canişinləri adlandırır. Sarqona əsasən, gücünə görə Manna çarlarından xeyli üstün olan "Manna canişini" – Zikirtu çarı Mitatti öz ağası - Manna çarı Ullusunudan uzaqlaşaraq, onun xidmətini rədd etmişdi.

Uišdiš ölkəsi ilə bağlı isə Sarqon yazır ki, bu, Urartu çarı Ursoy tərəfindən ələ keçirilmiş Manna bölgəsidir (LL, sət. 91 = ARAB, II, 152).

Manna birliyi daxilində gedən mübarizə xarici dövlətlərin, Assuriya və Urartunun Manna çarlığının bölgələri uğrunda mübarizəsi ilə bir-birinə qarışır; Urartu hökmdarları qüdrətli olduqları dövrdə, Manna çarlığına qarşı daimi və uğurlu müharibələr apardıqları zaman tam gücləri ilə Manna birliyi arasında partikulyarizm təmayülünü təbliğ edirdilər; buna görə son nəticədə İzirtu çar sülaləsindən ayrılan Manna birliyinin bütün böyük üzvləri Urartu çarlarının himayəsi altına düşür. İstənilən halda, Sarqon dövründə Zikirtu, Uišdiš, Bit-Dainkki, Misiadu və s. kimi bütün bu birliklər daim Urartunun dəstəyindən istifadə edirdilər. Belə bir şəraitdə İzirtu çar sülaləsi müəyyən mənada Assuriyanın dəstəyinə yönəlir, həm də e.ə. VIII əsrin ortalarından etibarən Assuriyaya yönəlmənin artıq müəyyən perspektivləri var idi. III Tiqlatpalasarın çarlığı dövründən başlayaraq (e.ə. 745-727-ci illər) Assuriya, məlum olduğu kimi, on illərlə davam edən zəiflik dövründən çıxır. Tiqlatpalasar Urartu ilə mübarizədə böyük uğurlar əldə etməyə müvəffəq olur. Onun qoşunları hətta Urartu dövlətinin paytaxtının darvazasına qədər gedib çıxır. Bundan sonra Urartunun cənub-şərq rayonlarında da Urartu ekspansiyası güclənən Assuriyanın güclü müqaviməti ilə qarşılaşır. Və Sarqon dövrünə aid sənədlərdən gördüyümüz kimi, artıq Musasirdə də Urartunun mövqeyi sarsılır. Ola bilər ki, bu dövrdə Manna çarları Assuriya çarlarından asılılığını qəbul edir, belə ki, hələ II Sarqonun çarlığının başlanğıcında (e.ə. 722-705-ci illər) Manna çarı İranzu Assuriyalıların rəiyyəti olur (Salnamə, sət. 32 s.=ARAB, II, 6).

Məlumdur ki, çar Sarqonun dövründə Assuriya və Urartu arasında əsas rəqabət meydanı məhz Manna çarlığının ərazisi idi. Bu mübarizədə, göründüyü kimi, yerli tayfa ittifaqları da fəal iştirak edirdi. İzirtu çar sülaləsi Assuriyanın tərəfində, ondan ayrılan bütün "ölkələr" isə (onlar arasında ən əhəmiyyətlisi Zikirtu və onun siyasi təsiri altında olan Andia ölkəsi) Urartunun tərəfində dururdu. Andia ölkəsi də Zikirtu kimi Mannadan şərqdə yerləşirdi. III Adadnirari Andianın adını "günəş doğan böyük dəniz" (Xəzər dənizi) istiqamətində yerləşən uzaq ölkə kimi çəkirdi. Mübarizə dəyişkən uğurla gedirdi. Bir vaxtlar Urartu hökmdarlarının tərəfdarları qəti qələbəyə nail ola bilirlər: Urartu çarı tərəfindən təşviq edilən Uišdiš, Zikirtu və Misiandu ölkələrinin hökmdarları, yuxarıda qeyd edildiyi kimi, Assuriyalıların vassalı – Manna çarı Azaya qarşı qiyam edərək qələbə çalmışdır və onu qətlə yetirmişdir. Onlar Manna taxtına öldürülmüş Manna çarının qardaşı Ullusununu çıxarırlar. Çox güman ki, onu Urartuya sadiqlik andı içməyə məcbur edirlər. Bu, assurpərəst Manna çarlığının ləğvi demək idi. Amma eyni zamanda, bu, şübhəsiz, İzirtu hökmdarlarının keçmiş birlik ərazisində hegemonluğunun da sonu demək idi. Bu hegemonluq qiyam edən bölgələrin, ilk növbədə güclü Zikirtu çarının əlinə keçir. Çar Ullusuni, təbii ki, bütün bunları yaxşı başa düşürdü və tezliklə fürsət düşən kimi əcdadlarının Assuriyaya yönəlmiş siyasətinə qayıtmağa tələsdi.

Lakin qeyd etmək lazımdır ki, Manna ərazisində Urartu çarlarının mövqeləri o qədər güclü idi ki, burada tez-tez hətta, Urartu silahlı qüvvələrinin müdaxiləsi olmadan Urartunun maraqları müvəffəqiyyətlə müdafiə olunurdu. Assuriya ilə bağlı isə bunu demək olmaz; onun himayəsi altında olan Manna çar sülaləsi öz qüvvəsi ilə hətta ondan ayrılmış, Zikirtu qoşunlarını dəstəkləyən bir neçə şəhərin belə öhdəsindən gəlmək iqtidarında deyildi. Sarqon Assuriyanın mövqeyini müdafiə etmək üçün sistemli şəkildə Mannaya yürüş etməli olurdu. Belə ekspedisiyalar e.ə. 719, 716, 715 və 714-cü illərdə baş tutmuşdur. Urartu və onun müttəfiqləri üçün, məlum olduğu kimi, Sarqonun 8-ci yürüşü (e.ə. 714-cü il) xüsusən həlledici olmuşdur. Bu yürüş zamanı Urartu dövlətinin məruz qaldığı ağır məğlubiyyətlərdən sonra Urartu ikinci dərəcəli dövlətə çevrilir. Beləliklə, Manna təhlükəli qonşudan xilas olur. Manna hökmdarları Sarqonun köməyi ilə öz torpaqlarını bir qədər genişləndirməyə müvəffəq olurlar: Sarqon qeyd edir ki, Urartu çarı tərəfindən mannalıların əlindən alınmış Uišdiš vilayətini çar Ullusunuya qaytarmışdır. Sarqon, həmçinin Manna çarlarının Zikirtu ölkəsi ilə bağlı iddialarını qanuni sayırdı. Sarqonun qələbələri sayəsində Zikirtu, Andia və s. kimi bütün bu əyalətlərin ərazisi yenidən İzirtu çarının mülkiyyətinə qaytarılır. Beləliklə, Manna ölkəsinin hökmdarları Assuriya ilə müttəfiqlik sayəsində öz çarlıqlarının sərhədlərini xeyli genişləndirirlər, Manna tayfa birlikləri arasında sarsılmış mövqelərini möhkəmlənidirirlər.

Sarqonun hakimiyyəti dövründə güclənən Manna çarlığı yalnız qısa bir müddət Assuriyaya loyal münasibət göstərir. Amma tezliklə Manna Assuriyanın asılılığından və bununla bağlı öhdəliklərdən (Assuriyalılar, çox güman ki, mannalıların üzərinə xərac ödəmək öhdəliyi də qoymuşdular) azad olmağa çalışır. II Sarqon çarlığının 9-cu ilində baş vermiş hadisələr arasında Manna çarı Ullusunidən xərac aldığını yazır (Salnamə, 165-168; ARAB, II, 24). Sarqondan

sonra tezliklə Manna Assuriyaya tabe olmadığını elan edir, xərac ödəmir və əksinə, Assuriyanı sıxışdırmağa başlayır. Hələ Sinaherib (e.ə. 705-681-ci illər) Manna xalqının onun əsarətinə tabe olmamasından şikayət edir. O, bəzi mannalıları öz ölkələrindən apararaq (söhbət əsirlərin qul olaraq aparılmasından gedir), onları kərpic daşımağa, yəni inşaatlarda işləməyə məcbur etməsi ilə öyünürdü (24, s. 95, 104).

Bu dövrdə Assuriya və Manna arasında mövcud olan düşmənçilik Assuriya çarlarının tarixi kitabələrində və digər sənədlərdə tez-tez qeyd olunur: belə ki, Nabu-rimaninin (e.ə. 686 və 653-cü illərə aid sənədlərdə adına rast gəlinir) Assuriya çarına (Asarhaddon və ya Aşurbanipal) ünvanlanmış məktubunda deyilir ki, Zalipa xalqının elçiləri Manna ərazisindən keçərkən mannalılar onların Assuriyaya xərac olaraq apardıqları atları əllərindən alırdılar (WRCAE, №165).

Maraqlıdır ki, VII əsr boyunca Assur mənbələrində Manna tez-tez kimmerlər və skiflərlə əlaqədar yad edilir (36).

Cənubi Qafqazdan metal - tunc, daha sonra isə dəmir məmulatların Skifiyanın meşəlik ərazilərinə nüfuz etməsi barədə hələ V.A.İlyinskayanın bu ərazilərin qədim abidələri ilə bağlı araşdırmasında qeyd edilirdi (37, s. 7). Qədim Skif dövründə, e.ə. VII əsrdə və e.ə. VI əsrin başlanğıcında skif metallurgiyasının yerli xammal bazası hələ zəif idi, dəmir və tunca olan tələbatları tamamilə təmin edə bilmirdi. Həmin vaxt böyük həcmdə metal xaricdən, həm qərbdən - Trakyadan, həm də Şərqdən – Qafqaz vasitəsilə gəlirdi.

E.ə. VII-VI əsrlərdə skiflərin Cənubi Qafqazın şərq hissəsi ilə əlaqələri əsasən metal mübadiləsinə əsaslanırdı. Bu əlaqələr o qədər sıx idi ki, kimmerlər, daha sonra isə skiflər də sadəcə mübadilə ilə kifayətlənmədilər. Cənubi Qafqazın şərq hissəsində (Azərbaycanın Şimal hissəsi) yaşayan tayfalarla birlikdə skiflər Cənubi Qafqaz hüdudlarından kənara, qədim şərq dövlətləri olan Urartu və Assuriyanın əyalətlərinə nüfuz edirdilər. Bu səfərlər kifayət qədər tez-tez olurdu və e.ə. VIII əsrin 30-cu illərində Urartunun zəiflədiyi dövrdə xüsusilə güclənmişdir. Qədim şərq yazılı mənbələrində bu barədə qısa, amma kifayət qədər aydın bəhs edilir.

E.ə. VIII əsrin ikinci yarısına aid Assur mixi yazılarında "gimmira" xalqının – Ön Asiyanın şimalında və Urmiyayanı ərazilərdə, xüsusən Manna ölkəsində meydana gəlmiş kimmerlərin adı qeyd olunur.

Nineviya mixi yazılar arxivindəki lövhələr arasında e.ə. 735-ci ildə III Tiqlatpalasar tərəfindən məğlubiyyətə uğradıldıqdan sonra yenidən güclənməyə başlayan Urartu ölkəsində baş verən hadisələr barədə Assur çarlarına məlumat verən kəşfiyyatçıların məktubları saxlanılmışdır (38, s. 104-117). Bu məktublarda Arad-Sin adlı bir nəfər "bu kimmerin (kimmer dəstəsinin başçısı) (mannalıların ölkəsindən) gəldiyini və Urartuya daxil olduğunu" yazır (39; 40). Arad-Sinin məktubu kimmerlərin Manna ölkəsində olmasına dair ilk dəlildir.

Sardurun oğlu Rusanın dövrünə aid məlumatlarda urartuluların bu dəfə Urmiyayanı bölgəyə deyil, uzun müddət Qamir-k ölkəsi olaraq adlandırılan Kapadokyanın şərq hissəsinə, kimmerlərə qarşı uğursuz yürüşü dəfələrlə yad olunur.

Sonradan, e.ə. 714-cü ilə aid Assur mənbələrində yer alan məlumata görə, Assuriya çarı Sarqon öz düşməni Rusanın, Sardurun oğlunun hərəkətlərini diqqətlə izləyirdi. Assuriyalıların məlumatlandırılmasında sonradan Assuriyaya qarşı çıxan Musasir hökmdarı Urzana böyük rol oynayırdı.

Kimmerlərin Cənubi Qafqazın şərqindən Ön Asiyaya keçməsi e.ə. 735-ci ildə məğlubiyyətdən sonra dövlətin əyalətlərində Urartunun hakimiyyətinin zəifləməsi ilə əlaqədar idi. Cənubi Qafqazın qərb hissəsində (tarixi Azərbaycan ərazisinin qərb hissəsi) ölkələrin idarəetməsində Rusanın həyata keçirdiyi islahat – köhnə inzibati mərkəzlərin yeniləri ilə əvəz edilməsi, çox güman ki, təkcə həddindən artıq güclənmiş canişinlərin zəiflədilməsi cəhdindən deyil, həm də bu canişinlərin kimmerlərin irəliləməsinə mane olmamasından irəli gəlirdi.

Digər mənbələrdən görürük ki, Manna ölkəsində kimmerlər Assuriyalıları xüsusilə narahat edirdi. Bu, bir daha sübut edir ki, kimmerlər həm mannalılar, həm də Cənubi Qafqazın şərqində yaşayan tayfalarla müttəfiq idilər (60; 61).

Daha sonra mənbələrdən öyrənirik ki, kimmerlərlə yanaşı Manna ölkəsində skiflər də var idi. Asarxadonun kimmer Teuşpanın məğlubiyyəti haqqında danışılan salnaməsində aşağıdakı mətn yazılmışdır: "Mən mannalıların dövlətinin sakinlərini məhv etdim, müttəfiqləri onları xilas etmədi".

Tanrı Şamaşa suallar arasında belə bir mətn var: "Müəyyən edilmiş bu müddətdə Mannalıların ölkəsi ətrafında yaşayan və Mannalıların ölkəsinin sərhədlərinə gələn skiflərin qoşunu düşünürmü, fikirləşirmi, onlar Xubuşkin aşırımından Harain və Anisuskia şəhərlərinə çıxacaqlarmı? Talan edəcəklərmi, çoxsaylı qənimət ələ keçirəcəklərmi, Assuriya sərhədlərindən əsirlər aparacaqlarmı?" (40, s. 224). Bu mətndən öyrənirik ki, həmin dövrdə skiflər Urmiya gölü ətrafında idilər, Beluşezibin yuxarıda qeyd edilmiş məktubundan göründüyü kimi, burada kimmerlər də var idi.

Assur mixi mənbələrindəki bu natamam və təsadüfi məlumatlar e.ə. VIII əsrin sonlarından etibarən kimmerlərin və skiflərin malik olduğu böyük, əsasən dağıdıcı təsiri qısa da olsa, kifayət qədər aydın göstərir. Antik yazıçılar, xüsusən Herodot və Strabon da bunu qeyd edir.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan ərazisində skif maddi mədəniyyətinin xüsusiyyətləri və məlum olacağı qədər skif tarixi, demək olar ki, əsaslı şəkildə tədqiq edilməmişdir. Hələ çox şey bizim üçün qeyri-müəyyən olaraq qalır.

Qeyd etmək lazımdır ki, skif tarixinin öyrənilməsi üçün müvafiq şəkildə işlənməsi şərtilə arxeoloji material yeganə olmasa da, ən mötəbər və kütləvi mənbədir. Bununla əlaqədar Azərbaycan ərazisində aşkar edilmiş skif mədəniyyəti abidələri böyük əhəmiyyət daşıyır. Birincisi, onlar qədim skif abidələrinin xronologiyasını əlaqələndirməyə imkan verir ki, bu da əsaslandırılmış tarixqoyma sisteminin işlənib hazırlanması üçün böyük əhəmiyyət daşıyır. Belə bir sistem olmadan həmin abidələrin tarixi şərhi mənasızdır. İkincisi, skif əşyalarının və alətlərinin tapıntıları skiflərin yerli əhali ilə mövcud olan real əlaqələrini əks etdirir. Bu əlaqələr skiflərin maddi mədəniyyətinin ayrı-ayrı nümunələrinin təsadüfən ölkə ərazisinə gətirilməsindən ticari əlaqələrə və hətta skif əhalisinin hər hansı bir qruplarının bu ərazilərə irəliləməsinə (daxil olmasına) qədər müxtəlif xarakter daşıya bilər.

Bu tapıntıların yayılma sahəsi yazılı məlumatlara əsasən skiflərin olduğunu ehtimal etməyin mümkün olduğu ərazilərlə müəyyən dərəcədə üst-üstə düşdüyü təqdirdə, bu tapıntılar xüsusi maraq doğurur.

Azərbaycanda skif maddi mədəniyyəti elementlərinin şərhi məsələsinə bu və ya digər dərəcədə toxunan əsərləri ətraflı səciyyələndirməyə çalışmadan, yalnız bununla bağlı həmin əsərlərdə qaldırılmış və hazırda qaldırılan əsas məsələlər üzərində dayanaq (41; 42; 43).

Bu məsələlərin əhatə dairəsini ilk növbədə Azərbaycanda kimmerlərin-skiflərin mövcudluğu tarixinin yenidən canlandırılması vəzifəsi müəyyən edir. Antik müəlliflərdə və qədim şərq yazılı mənbələrində onlar haqqında natamam məlumatlar var. Bu vəzifənin həlli bizim araşdırmamızın məqsədini təşkil etmir, amma abidələrin təklif edilən təhlili bu yolda zəruri addımdır.

Bu kontekstdə Azərbaycanda tapılmış skif üslublu abidələrin xüsusiyyətlərinin müəyyən edilməsi prinsipial əhəmiyyətə malikdir. Bu halda onların skif etnosunun burada mövcud olmasının göstəricisi hesab edilməsi mümkünlüyündən və ya yalnız bu region sakinlərinin skiflərlə ticari, mədəni və digər əlaqələrinin mövcudluğunun göstəricisi olduğundan söhbət gedir.

Arxeoloji material çox vaxt bu əlaqələri əks etdirən material kimi şərh olunur.

Bəzi tədqiqatçılar Azərbaycandakı arxeoloji tapıntıların bilavasitə Ön Asiya yürüşləri dövründə skiflərin yerdəyişmələri ilə əlaqələndirməyi mümkün sayır. Lakin tədqiqatçılar arasında vahid mövqe yoxdur (44).

Bu mülahizənin müəllifləri Azərbaycan ərazisində tapılmış skif əşyalarının, eləcə də bütün yerli əşyaların bu tapıntıların skiflərin həmin ərazilərdə mövcudluğu ilə şərtlənməsi ehtimalının əleyhinə dəlillik etdiyini qeyd edirlər, lakin bu zaman bir sıra alimlərin, tarixçilərin və dilşünasların, skiflərin həm Azərbaycanda, həm də bütünlükdə Cənubi Qafqazda nisbətən uzun müddət qalması ehtimalı haqqında fikrinə etiraz etmirlər.

Məşhur tarixçi B.V.Texovun araşdırması skiflərin məhz Ön Asiyadan gələrək Azərbaycanda yaşamaları ilə bağlı nöqteyi-nəzəri dəyişməyə imkan verdi. Xüsusən, skiflərin qayıtması marşrutunun xəritəsini tərtib edən müəllif (45, s. 18-19) bunu Azərbaycanın bufer ərazilərində – Gürcüstanın şərq hissəsində skif materiallarının cənubi Osetiyadakı, yəni Gürcüstanın şimal hissəsində yerləşən materiallardan daha qədim olması ilə əsaslandırırdı.

Bir çox alimlər Azərbaycanda qədim skiflərin mövcudluğu fikrinin tərəfdarı idilər (2;, 46; 47; 48; 49). Onlar öz araşdırmalarında qeyd edirdilər ki, çöl tayfaları Cənubi Qafqaz əhalisini öz sıralarına (hərəkətləri) cəlb edərək və ideoloji təsəvvürlərini, adət-ənənələrini, dillərini qədim sivilizasiya rayonlarına gətirirərək Qafqazın şimal hissəsindən cənuba doğru hərəkət edirdilər.

Tədqiqatçılar bu və ya digər formada Cənubi Qafqaz arxeoloji materiallarında skiflərin Ön Asiya yürüşlərinin əks olunduğunu qeyd edir, bu materiallardan (yazılı mənbələrlə yanaşı) həmin yürüşlərin konkret marşrutlarını müəyyən etmək üçün istifadə edirdilər. Skiflərin hərəkət yolları Xəzər sahili boyunca Dərbənd keçidi vasitəsilə, Cənubi Qafqaz aşırımları və ya Qara dəniz Kolxid yolu adlanan yerdən keçə bilərdi.

Məlum olduğu kimi, Herodot Madiya yürüşündən bəhs edərkən (I, 103-104) yazır ki, böyük skif qoşunları "sağ tərəfdə Qafqaza sahib olmaqla" Midiya torpaqlarına daxil olurdular. Assuriya və Urartu yazılı mənbələrində skiflərlə birbaşa qarşıdurmalar haqqında skif qoşunlarının Azərbaycan ərazisindən hərəkətinə dəlalət edən qeydlərin olmamasında bunun təsdiqini tapırıq (50, s. 244; 51, s. 35-36).

B.B. Piotrovska tərəfindən həyata keçirilmiş materialın arxeoloji təhlili belə bir nəticəyə gətirib çıxardı ki, skiflərin Cənubi Qafqaz ərazisinə, daha dəqiq isə tarixi Azərbaycan ərazisinə nüfuzu müxtəlif yollarla və göründüyü kimi, müxtəlif yerlərdən həyata keçirilmişdir. Bu, qismən Cənubi Qafqazın qərb və şərq hissəsində aşkar edilmiş skif abidələrinin görünüşündəki fərqlərlə izah olunur (52, s.141). Y.İ.Krupnov və Y.S.Qaqloyti də Cənubi Qafqazda əsasən ox ucları kimi skif əşyalarının tapıntılarının xəritəyə köçürülməsi (kartoqram düzəldilməsi) əsasında eyni nəticəyə gəlmişdir (53; 45).

Antik müəlliflərin bu region barədə, onun etnosu və toponimikası haqqında məlumatlarından, habelə Assur və Urartu mətnlərindən istifadə etmədən Cənubi Qafqazda və xüsusən Azərbaycanda qədim skif abidələrinin hərtərəfli etnik-tarixi təfsiri mümkün deyil. Baxmayaraq ki, bu mənbələrin çoxunda skiflərin Azərbaycanda yaşaması faktına dair birbaşa dəlillər yoxdur. Bu mənbələr dəfələrlə bir çox alimlərin diqqətini çəkmişdir.

Qeyd etmək lazımdır ki, Manna çarlığının ərazisində hələ e.ə. VIII-VII əsrlərdə "Asiya" əhalisi məskunlaşırdı, onları İran tayfaları əhatə edirdi.

Həmçinin qeyd edək ki, bir sıra alimlər tarixi vəziyyətin ümumi təhlili əsasında belə bir nəticəyə gəlmişlər – skiflər Dərbənd keçidindən keçərək, Kur-Araz ovalığını ələ keçirmiş, kimmerləri oradan sıxışdırıb çıxarmış, daha sonra Urartu dövlətinin hüdudlarına daxil olmuşlar. Lakin urartululara müqavimət göstərə bilməyən skiflər Ordubad və Culfa istiqamətində (müasir adlar) və oradan cənuba, Urmiya gölünün şərq sahilinə doğru geri çəkilmişlər.

Bir çox qədim müəlliflərin skif etnosunu Azərbaycanla əlaqələndirən məlumatlarını da diqqətdən kənarda qoymaq olmaz.

Albanların bilavasitə yaxınlığında məskunlaşan skiflərin və ya sakların adı Tasit (Salnamə, II, 68),. Plini (VI, 13, 18-39), Arrian (Anabasiya, III, 8, 4) tərəfindən anılır. Orta əsrlər mənbələri Xəzəryanı bölgədəki Maskut çarlığını skiflərin çarlığı adlandırırdılar (54, 55). Bu, bir daha bu regionda əvvəlcə kimmerlərin, sonra isə skiflərin mövcud olduğunu sübut edir.

K.V.Trever qeyd edir ki, skif və ya sak tayfalarının nəsilləri Alban ittifaqına daxil olmuşdur (56).

Qədim Azərbaycan toponimikasının öyrənilməsi də bir çox tədqiqatçıları burada həm kimmerlərin, həm də skiflərin yaşaması barədə rəyə gətirib çıxardı (55, s. 92-93; 56, s.223; 2, s.237; 57, s.169). Yuxarıda qeyd edildiyi kimi, yunan və latın müəlliflərin Sakasena vilayəti haqqında dəlilləri xüsusi yer tutur.

Bibliya peyğəmbərlərinin skiflərin ölkəsini Manna və Urartu kimi qədim şərq dövlətləri ilə bir cərgədə qeyd etməsi – bütün bunlar e.ə.VII əsrdə Orta Asiyada skiflərin dövlət birliyinin mövcudluğu haqqında ehtimalın yaranmasına gətirib çıxardı (2, s. 250; 58, s. 170-171). Tədqiqatçı K.Şefold ümumiyyətlə

Orta Asiyada Skif dövlətinə bilavasitə Midiya dövlətinin sələfi kimi baxılmasını mümkün hesab edirdi (59). Bir sıra alimlərin bəzi araşdırmalarında Skif çarlığının sosial xüsusiyyətləri də verilirdi (26, s. 224-225).

Ön Asiyada Skif çarlığının mövcudluğunu qəbul edən əksər tədqiqatçılar onun Cənubi Qafqazın Cənub-Şərqi hissəsində, Mil çölü bölgəsində yerləşdiyini təxmin edirdilər. M.N.Poqrebovanın araşdırmalarında bu yerləşmə bir sıra dəlillərlə əsaslandırılaraq, bilavasitə təsdiqini tapır (61). M.N.Poqrebova qeyd edirdi ki, Şimali və Cənubi Azərbaycan ərazisi bilavasitə Elam, Mesopotamiya, Assuriya, Urartu sivilizasiyalarının yaxınlığında yerləşirdi, amma tədqiq edilən dövrdə onların bu dövlətlərin fəaliyyət sahəsinə cəlb edilməsi prosesi yenicə başlayırdı.

Bu məlumatlar mannalıların və Cənubi Qafqazın şərq hissəsində yerləşən tayfaların kimmerlər adlandırılan köçəri tayfalarla, habelə skiflərlə ittifaqını bir daha təsdiq edir.

Beləliklə, Assur sənədləri kimmerlərin tarixi Azərbaycan ərazisində mövcud olduqlarını və yüz il ərzində burada yaşadıqlarını təsdiq edir.

Asarxaddon dövrünə aid dini mətnlərdən həmçinin görürük ki, Assuriyaya qarşı Kaştaritinin (mərkəzi Zaqrada Kar- Kašši hökmdarı) başçılığı ilə böyük koalisiya yaradılmışdı. Bu koalisiyada midiyalılar, kimmerlər və digər xarqlarla yanaşı, mannalıları da görürük (Kundtzon Gebete, №1-15). Lakin Kuyuncik arxivindəki məktubda (WRCAE, №112) kimmerlərin Mannalıların ölkəsindən Urartuya yürüşü haqqında qeyd var. Həmin arxivdə Asarxaddona ünvanlanmış digər məktubdan görürük ki, kimmerlər Assuriya və Manna arasında gedən mübarizəyə sonuncunun tərəfindən fəal şəkildə müdaxilə edirlər. Bu fakt, Asarxaddonun (e.ə. 681-668-ci illər) Manna çarı Ahširiyə qarşı cəza ekspedisiyası göndərdiyi zaman da göz önündə idi. Sonradan Asarxaddonun varisi – çar Aşurbanipal da çar Ahširiyə qarşı mübarizə aparmaq məcburiyyətində qalmışdır. Asarxaddon öz salnamələrində itaətsiz mannalıları darmadağın etməsi, habelə onları (mannalıları) məğlubiyyətdən xilas etməyən, ittifaqda olduqları skif Išpakaiyə qalib gəlməsi ilə öyünürdü (ARAB, II, 533).

Tanrı Şamaşa suallardan gördüyümüz kimi, Asarxaddonun dövründə skiflərin bir hissəsi mannalıların ölkəsi ərazisində də yaşaymışdır (Kundtzon, Gebete, №35). Buradan gördüyümüz kimi, Manna hökmdarları şimaldan daxil olan kimmerlər, sonra isə skiflərlə nəinki, müharibə aparmır, həm də onları öz müttəfiqlərinə çevirir, öz çarlığının hüdudlarında yerləşdirir və onları xarici və daxili düşmənlərinə qarşı mübarizəyə cəlb etməyə çalışır. Məhz kimmerlər və skiflərlə ittifaq sayəsində Manna çarları nəinki qüdrətinin zirvəsində olan Assuriya dövlətindən səmərəli şəkildə müdafiə olunmaq iqtidarında idilər, hətta özləri Assuriyanı sıxışdırırdılar və bəzi əraziləri onun əlindən alırdılar. Aşurbanipal onun əcdadları olan çarların dövründə mannalıların xərac verməməsindən və Šarruikbi və bir sıra digər şəhərləri Assuriyanın əlindən almasından şikayət edirdi. (ARAB, II, 786, 853).

Aşurbanipal öz çarlığı dövrünün başlanğıcında (e.ə. 668-624-cü illər) adı hələ Asarxaddon dövrünə aid abidələrdə çəkilən Ahşerinin çarlıq etdiyi Mannaya qarşı böyük yürüş həyata keçirir (ARAB, II, 786, 851 s.).

Assuriyalılar qələbə çalır, bir çox yaşayış məntəqələrini, o cümlədən İzirtunun paytaxtını ələ keçirir, çoxlu qənimət və əsir ələ keçirir. Manna əhalisinin müxtəlif səbəblərdən bu çarın hakimiyyətindən narazı olan müəyyən dairələri Ahşerinin bu məğlubiyyətindən istifadə edirdilər. Ola bilər ki, mannalıların öz çarlarından narazı olmalarının səbəblərindən biri Manna çarlarının skiflər və kimmerlərlə ittifaqının çoxalması, sonuncuların Manna torpaqlarına məskunlaşmasıdır (ola bilər ki, bu, əhalinin müəyyən hissəsinə ziyan vurmuşdu). Aşurbanipal Ahşeriyənin öz ölkəsinin xalqının ona qarşı qiyam etdiyini yazırdı. Manna taxtına Ahşer oğlu Halli əyləşir, o, sələflərinin xarici siyasətini əsaslı şəkildə dəyişir, Assuriyalılara tabe olur, öz oğlu Erisiunini Nineviyaya, qızını isə Aşurbanipalın hərəminə girov göndərir. Assuriyalılara köhnə xəracı verir.

Qeyd etmək lazımdır ki, II Sarqonun çarlığından sonrakı dövrdə Manna və Urartu arasında münasibətlər haqqında heç nə məlum deyil. Çox güman ki, bu zaman rollar dəyişmişdi və hücum edən tərəf Manna olmuşdu. İşkiqulu (müasir Zəngəzur bölgəsində, tarixi Azərbaycan ərazisində rayon) çarının Urartu çarı II Rusaya, Argiştinin oğluna ünvanlanmış məktubunda Manna ölkəsinin adının çəkilməsi həmin dövrdə Mannanın ərazisinin şimal istiqamətində kifayət qədər genişləndiyini göstərir.

Çox güman ki, Manna çarları öz ölkələrinin ərazisini Urartu əraziləri hesabına genişləndirmişdilər.

Şərqdə Manna ekspansiyasının Midiya torpaqları istiqamətində də müəyyən uğurları var idi. II Sarqon Midiyanın Ba'it-ili vilayəti ərazisində yerləşən Erištana şəhərinin adını çəkir. Bunu da qeyd edək ki, bu dövrdə (e.ə. VII əsr) Manna çarlığının adının Bibliyada Urartu, Aşkenaz (skiflərin) və Midiyalıların (İyeremiya) çarlığı ilə yanaşı anılması da, onun böyük əhəmiyyətini sübut edir (4, s. 273).

Aşurbanipaldan sonra Assuriya və Manna arasındakı münasibətlərdə yeni dəyişiklik baş verir. Həmin vaxt Midiya və gildani Babilistanı arasında Assuriyaya qarşı yönəlmiş koalisiya yaranır. İndi qonşu Midiya Manna üçün süqutu ərəfəsində olan Assuriyadan daha güclü düşmənə çevrilmişdi. Buna görə təəccüblü deyil ki, bu dövrdə mannalılara assuriyalıların müttəfiqi kimi rast gəlirik. Babil xronikasında deyilir ki, Babilistan çarı Nabupalasarın çarlığının 10-cu ilində Kablinin təhlükədə olduğu zaman babil çarı Assur qoşununa qalib gəlmişdir. Elə burada o, çoxlu sayda əsir, o cümlədən assuriyalıların köməyinə gəlmiş mannalıları ələ keçirmişdir.

Assuriya imperiyası süquta uğradıqdan sonra (e.ə. VII əsrin sonu) onun ərazisi Midiya və Babilistan arasında bölünmüşdür. Həmin dövrdə Manna çarlığının ərazisi Midiya çarlığının hüdudlarına düşür, sonradan, Persiya Midiyanın müstəqilliyinə son qoyduqdan sonra Manna xalqı da Əhəməni imperiyasının tərkibinə daxil oldu.

Manna xalqının iqtisadi və sosial həyatı haqqında danışarkən, Assuriya və Urartu mənbələrindən (62) mannalılarda həm əkinçiliyin, həm də maldarlığın güclü inkişaf etdiyini sübut edən kifayət qədər böyük material təqdim etmək olar. Maldarlıq növlərindən atçılıq xüsusilə inkişaf etmişdi, Mannada, həmçinin

əkinçiliyin üzümçülük və bağçılıq kimi qabaqcıl sahələrinin geniş inkişaf etdiyi də diqqət çəkmişdir. Bu, Manna xalqının təsərrüfat nöqteyi-nəzərdən kifayət qədər yüksək inkişaf səviyyəsinə malik olduğunu göstərir.

Manna əhalisi oturaq həyat sürürdü. Əsrlər boyunca eyni yaşayış məntəqəsi (Zirta-İzirtu şəhəri) Manna çarlığının paytaxtı olaraq qalmışdır. Bundan əlavə, Assuriya və Urartu mənbələrində Manna ərazisindəki bir çox müxtəlif "şəhərlərin" adları çəkilir (göstərilir). Məsələn, II Sarqon Mannanın Uişdiş vilayətində ulduzlar kimi saysız-hesabsız şəhərləri ələ keçirməsi ilə öyünürdü (LL, sət. 163-164=ARAB, II, 157). Assuriya mənbələrində "şəhərlər" (alu) dedikdə, ölçüsündən və əhəmiyyətindən asılı olmayaraq, yaşayış məntəqələri nəzərdə tutulur. Lakin bir sıra mənbələrdə həmin yaşayış məntəqələri arasında fərq göstərilir, bəziləri "istehkam halına salınmış, divarlarla əhatə olunmuş şəhərlər", digərləri isə kiçik, istehkam halına salınmamış şəhərlər adlandırılır.

Mənbələrdə bildirildiyi kimi, Aşurbanipal Mannanın paytaxtı - İzirtu şəhəri yaxınlığında Manna çarının istehkam halına salınmış şəhərlərini və digər çoxlu sayda şəhərləri ələ keçirir (Aşurbanipalın salnaməsi, Piepkoru`a nəşriyyatı, 50-54-cü səh.; ARAB, II, 786, 851). Zikirtu ölkəsində II Sarqon 12 "istehkam halına salınmış, divarlarla əhatə olunmuş şəhər" və onların ətrafında 84 digər şəhəri işğal etmişdir (LL, sət. 89=ARAB, II, 151). Urartu çarı II Sardur Manna ölkəsinə yürüşü zamanı "istehkam halına salınmış bürcləri", qalaları fəth edir. Sarqonun mətnlərində və digər mənbələrdə 22 Manna qalası haqqında söhbət açılır. Mannalıların ayrı-ayrı qalaları dəfələrlə yad olunur (ARAB, II, 125, 150, 786, 851). Assuriyalılar tez-tez mannalıların istehkamlarını, divarlarını, bu və ya digər şəhərlərini dağıtmaları ilə öyünürlər (LL, 163-165=ARAB, II, 157). Assuriyalıların Manna ərazisində "istehkam halına salınmış, divarlarla əhatə olunmuş şəhərlərin" ələ keçirilməsini və dağıdılmasını təsvir edərkən bu şəhərlərin qala divarlarının dağıdıldığını qeyd etmələri diqqəti cəlb edir, bu divarların daxilində yerləşən evlər isə yandırılmışdır (ARAB, II, 151). İkinci növ "şəhərlərə", kiçik, istehkam halına salınmamış yaşayış məntəqələrinə gəlincə, bir qayda olaraq, onların yalnız yandırıldığı qeyd olunur (ARAB, II, 159). Bu, assuriyalıların bu halda yalnız yaşayış və təsərrüfat tikililərindən bəhs etdiyini düşünməyə vadar edir. Alanidannuti bitdurani tipli bir çox "şəhərlərin" istehkamları əsasən onları əhatə edən divarlardan ibarət idi, alani sihruti šalimetisunu tipli "şəhərlər" isə ümumiyyətlə istənilən müdafiə tikililərindən məhrum olunmuşdurlar.

Həmçinin qeyd etmək lazımdır ki, Urartu mənbələrində də bu iki növ yaşayış məntəqəsinin ələ keçirilməsi təsvir edilərkən bu ifadələrə rast gəlirik. Urartu mənbələri də bütün yaşayış məntəqələrini ifadə etmək üçün "ALU" ideoqramından istifadə edirdilər, amma müəyyən hallarda Urartu mətnlərində "ALU" ("şəhər") ideoqramlarından EKALLU ("saray") ifadəsi ilə müqayisəli istifadə olunmuşdur. Bu hallarda EAKLLU "bürc"; "qala" mənasında (bəzən onu "agunun: manu" (istehkam halına salınmış) epiteti müşayiət edir), ALU isə "kiçik yaşayış məntəqəsi" mənasında istifadə olunur. Urartu çarları, bir qayda olaraq, EKALLU-ları dağıtdıqları (harharsu) halda, ALU-ları yandırırdılar (amaštu); II Sardur Manna ərazisində törədilən əməllər barədə yazır: III

EKALLU agununili manuli gunuša hanbi XXXIII ALU й – Meni aşgubi EKALLU harharşbi ALU SARAPU-bi – yəni "3 qalanı (istehkam halına salınmış saraylar) döyüşlə ələ keçirdim, 23 yaşayış məntəqəsini (şəhəri) bir gündə işğal etdim, qalaları (EKALLU) dağıtdım, yaşayış məntəqələrini isə (ALU) yandırdım". Urartu mənbələrində Urartu çarlarının Mannanın müxtəlif vilayətlərinə yürüşlərinin təsviri zamanı EKALLU-nun ("qala", "bürc") ALU ("kiçik yaşayış məntəqəsi") ilə müqayisəli istifadəsinə dəfələrlə rast gəlinir.

Beləliklə, yazılı mənbələrdən aydın olur ki, bu dövrdə Manna çarlığının ərazisi istehkam halına salınmış, divarlarla əhatə olunmuş məntəqələrlə dolu idi, onların ətrafında çoxlu sayda kiçik, heç bir istehkamı olmayan məskənlər var idi. İstehkam halına salınmış məskənlər və qalalar müharibə zamanı məskunlaşmaq üçün sığınacaq idi. Bu istehkamların əksəriyyəti siklopik hörgülü divarla əhatə olunmuş və qala divarlarının içərisində olan bürclər idi. Həm Manna ərazisində, həm də Cənubi Qafqazın şərq hissəsində çoxlu sayda belə istehkam tikililərinin qalıqlarına rast gəlirik. Bu istehkam halına salınmış məskənlər və qalalar silahlı düşmənlərin basqını zamanı səmərəli müdafiə tikilisinə çevrilirdi. Onlar Assuriya və Urartu qoşunlarına ciddi müqavimət göstərirdilər. Manna çarlığı ərazisində belə istehkamlarla yanaşı, Mannalıların geniş imkanları sayəsində yaratdığı daha möhkəm istehkam halına salınmış, güclü müdafiə xətləri ilə təchiz edilmiş qalalar və şəhərlər, yeni şəraitdə - çoxsaylı və yaxşı silahlanmış Assuriya, Urartu və Manna çarlığının digər güclü qonşularının hücumu zamanı səmərəli olan tikililər var idi.

Əlbəttə, Manna ölkəsində olduğu kimi bu yaşayış məntəqələri və istehkamları və müdafiə xətlərinin araşdırılması zamanı yazılı mənbələrlə yanaşı, arxeoloji araşdırmaların nəticələrindən də istifadə edilməlidir. Yalnız bu yolla Assuriya və Urartu mənbələrinin bir çox müxtəlif ərazilər haqqında istifadə olunan və bəlkə də çox vaxt müxtəlif yerlərdə fərqli mənalar verən şablon ifadələrinə müvafiq konkret məzmun vermək olar. Hazırda artıq yığcam mətnləri təsdiq edən bir sıra faktlar aşkar edilmişdir. Yalnız bu məsələnin tədqiqində müəyyən əhəmiyyət daşıyan bəzi faktlara diqqət yetirmək istərdik (63).

Urartu dövründə Cənubi Qafqazla bağlı bu məsələnin araşdırılması üçün İ.İ.Meşaninov (67), V.İ.Qurko-Kryajin (68), B.A.Kuftin (69), T.N.Çubinişvili (70), A.K.Ələkbərov (71), T.R.Əliyev (72), V.İ.Kərimov (64; 65; 66) və başqaları böyük işlər görmüşdür.

Manna ölkəsinin başında çar dururdu. Manna çarlarının hakimiyyəti tayfa başçılarının hakimiyyətindən əmələ gəlmişdir, amma mənbələrdə qeydə alınan bu dövrdə Manna çarlarının, şübhəsiz, qəbilə başçıları ilə ortaq cəhətləri çox az idi. Mannada çar hakimiyyəti irsi idi, bir sülalənin monopoliyasını təşkil edirdi.

Mixi yazılardan həmçinin öyrənirik ki, Assuriya çarları tez-tez Manna hökmdarlarının oğullarını girov götürürdülər. Və bu hal suveren hökmdarlardan söhbət getdiyini göstərir.

Mannada inkişaf etmiş çar hakimiyyətinin olması, artıq kifayət qədər güclü zadəgan təbəqəsinin mövcudluğunu nəzərdə tutur. Mənbələr bu ehtimalı təsdiq edir.

Manna birliyinin ayrı-ayrı böyük tərkib hissələrinin hökmdarları, böyük Manna əyalətlərinin hökmdarlarına gəlincə, Sarqon Manna çarlarının nöqteyi-nəzərini ifadə edərkən onları Manna ölkəsinin "dahi" (çar) canişinləri adlandırırdı.

Çox güman ki, onların qəbilə başçıları ilə işi yox idi. Bu nöqteyi-nəzərdən Urartu çarının belə bir "Manna hökmdarı" Dainkkunun oğlunu girov götürməsi səciyyəvidir (ARAB, II, 12). Bu, həmçinin burada da suveren, bəlkə də hətta irsi hökmdar olduğunu göstərir. Manna birliyinin bu böyük tərkib hissələrinin (dairələrin) hökmdarları, çox güman ki, hakimiyyəti İzirtu çarlarının əlindən almırdılar. Onların hakimiyyəti Manna çarlarının özlərinin hakimiyyəti kimi, tayfa başçısının hakimiyyətinin müstəqil şəkildə inkişafının nəticəsi idi.

Sarqon dövründə Manna çarlarının tələblərinə baxmayaraq, onlardan tamamilə müstəqil şəkildə olan "Manna hökmdarları" (Zikirtu ölkəsinin çarı Mitatti, Uišdiša-dan Baqdati, Misiandu ölkəsinin hökmdarı Dainkku) görürük, hətta onların bəziləri Manna çarlarının özlərindən daha böyük qüvvəyə malik idi. Mannada bu hökmdarlarla yanaşı, hakimiyyəti İzirtu çarlarının əllərindən almaq isyəyənlər də var idi.

Suveren, irsi hakimiyyətin və güclü zadəganların mövcudluğu, Manna ölkəsində müşahidə olunan çar taxtı-tacı uğrunda gedən amansız mübarizə göstərir ki, Assuriya və Urartu mənbələrində əksini tapmış dövrdə Manna əhalisinin sinfi bölgüsü prosesi xeyli irəliləmişdi. Şübhəsiz, burada azad əhali arasında iqtisadi və siyasi imkanlar nöqteyi-nəzərdən kəskin fərqlər var idi.

Manna ölkəsində istismar olunan əhalinin əsas kütləsini isə, qonşu dövlətlərdə olduğu kimi, şübhəsiz, arası kəsilməyən müharibələr nəticəsində gətirilən çox sayda kölələr təşkil edirdi. Təəssüf ki, daha uyğun mənbələr olmadığı üçün biz Manna cəmiyyətinin sinfi strukturunu daha əyani şəkildə təqdim edə bilmirik.

## ƏDƏBİYYAT


1. Алиев И.Г. История Мидии. Изд. АН АЗ.ССР, Баку, 1960.
2. Дьяконов И.И. История Мидии. М-Л., 1956.
3. Кашкай С.М. Из истории Маннейского царства. Изд. Элм, Баку 1977.
4. Меликишвили Г.А. Некоторые вопросы истории Маннейского царства. ВДИ, 1941, №1.
5. Пиотровский Б.Б. История и культура Урарту. 1944.
6. Lehmann C.F. Bericht über die Ergebuisse der von Drş W.Belck und Dr.C.F.Lejmann 1898/99 ansgefwhrten Forchunqsreise in Armenien, надпись №135 (SBPAW, 1900, I.Halbband, Phil-Hist. Kl. Стр.619-633).
7. Godard A. Les bronzes du Luristan. "Ars Asiatica" P. Vol. 17.1931.
8. Hančar F. Kaukasus – Luristan. ESA. Vol. 9. 1934.
9. Ghirschman R. Fonilles de Sialk presde Kashan. T.2. P.1939.
10. Grischman R. Invasian des Nomades sur le platean Iranien aux premiers sieels du 1-er millenaire avant I.E.Dark Ages and Nomads 1000 B. C. Istambul. 1964.
11. Ghirschman R. Perse, Pro-Iranians, Medes, Achemenides. L., 1964.
12. Schaeffer C. Stratiqraphic compare Chronologee de I`Asie Occidentale. L., 1948.
13. Lettenar K. Zur Wanderungsgeschichte der Iranier. "Wiener Schule de Völkerkunde Festschrif" Noru-Wien, 1956.

14. Грантовский Э.А. Ранняя история иранских племен Передней Азии. М., 1970.
15. Ненскеп Н. Indo-Evropean Languages and Archaeology "American Autropologist" N.Y. Vol.57, 1955, №6, pt.3.
16. Sulimircki T. Scyhian Antiquities in Western Asia. AA. Vol. 17, №3-4.
17. Vandenberghe L. Le necropole de Khurvin. Istanbul, 1964.
18. Dyson R. Problems of Protohistoric Iran as seen from Həsənlu – INES. Vol. 24, 1965, №3.
19. Тер-Аветисян С. Памятники древности Карабаха и скифская проблема. Тифлис, 1934.
20. Погребова М.Н. Иран и Закавказье в раннем железном веке. М., 1977.
21. Граков Б.Н., Малюкова А.Н. Об этнических и культурных различиях в степных и лесостепных областях европейской части СССР в скифское время. ВСАА, 1954.
22. Гуммелев Я.И. Раскопки к юго-западу от Ханлара в 1941 г. Журнал «ВДИ», 1992, №4.
23. Джафаров Г.Ф. Борсунлы – погребение племенного вождя. Баку, 1986.
24. Джафаров Г.Ф., Махмудов Ф.Р. Итоги работ второго отряда Миль-Карабахской археологической экспедиции. Археологические и этнографические изыскания в Азербайджане. 1985 г. Тезисы докладов. Баку, 1986.
25. Джафаров Г.Ф. Сарычобан – новое погребение племенного вождя. Тезисы докладов конференции «Великий Октябрь и развитие археологической и этнографической науки в Азербайджане». Баку, 1988.
26. Пиотровский Б.Б. Дополнение к статье Я.Н.Гуммеля. Журнал «ВДИ», 1992, №4.
27. Погребова М.Н. Памятники скифской культуры в Закавказье. Сб. ст. «Кавказ» Средняя Азия в древности и средневековье. Москва, 1981.
28. Халилов М.Дж. О происхождении гидронима Аракс. Сб. ст. «Проблемы азербайджанской ономастики». XI, Баку, 2003.
29. Иессен А.А. Из исторического прошлого Мильско-Карабахской степи. Труды Азербайджанской археологической экспедиции. Т.II. М-Л., 1965.
30. Есаян С.А., Погребова М.Н. Скифские памятники Закавказья. М., 1985.
31. Porada E. The Hasanlu bowl "Expedition" Vol.1. №3. 1959.
32. Porada E. L`Iran ancient. P., 1963.
33. Керимов В.И. Оборонительные сооружения Азербайджана. Баку, 1998.
34. Керимов В.И. История развития оборонительного зодчества Азербайджана (с древнейших времен до XIX в.). Баку, 2007.
35. Morgan J. de Rechereches du Talyche persan MDP. Vol.8. 1905.
36. Luckenbill D.D. The Annols of Sennacherib, 1924, стр. 95, 104 (ARAB, II, 264, 383).
37. Ильинская В.А. Памятники скифского времени Посулья (Автореферат диссертации) Киев, 1949.
38. Пиотровский Б.Б. История и культура Урарту. Ереван, 1941.
39. Waterman L. Roval correspondence of the Assyrian I-IV. University of Michigan Studies, XVII-XX, 1930-1936.
40. Дьяконов И.М. Ассиро-вавилонские источники по истории Урарту. ВДИ, 1951, вып.2 и 3.
41. Пирцхалова М.С. Памятники скифской архаики (VII-VI вв. до н.э.) на территории древней Грузии. Автореф. канд. дис. Тбилиси, 1975.
42. Пирцхалова М.С. К вопросу о распространении памятников скифской культуры в материальной культуре древней Грузии. Вопросы археологии Грузии. Тбилиси, 1978.
43. Крупнов Е.И. О походах скифов через Кавказ. М., ВССА. 1954.
44. Техов Б.В. Очерки древней истории и археологии Юго-Осетии. Тб., 1971.
45. Техов Б.В. Скифы и Центральный Кавказ в VII-VI вв. до н.э. М., 1980.
46. Ильинская В.А., Тереножкин А.И. Скифы VII-IV вв. до н.э. Киев, 1983.
47. Артамонов М.И. Киммерийцы и скифы (от появления на исторической арене до конца IV в. до н.э.) М-Л., 1974.
48. Дьяконов И.М. К методике исследований по этнической истории (киммерийцев). Этнические проблемы истории Центральной Азии в древности.
49. Погребова М.Н. Железные топоры скифского типа в Закавказье. СА, 1969, №2.
50. Пиотровский Б.Б. Ванское царство. М., 1959.

51. Виноградов В.Б. О скифских походах через Кавказ. Тр. Чечено-Ингушского НИИ. Т.IX. Грозный, 1964.
52. Пиотровский Б.Б. Скифы и древний Восток. СА, вып. XIX. М., 1954.
53. Гаглойти Ю.С. Аланы и вопросы этногенеза осетин. Тбилиси.
54. Еремян С.Т. Птолемея в связи с историей скифского царства Прикаспийского побережья. Вопросы истории народов Кавказа. Тб., 1966.
55. Еремян С.Т. Нашествие киммерийцев и скифских племен и борьба Урарту и Ассирии против кочевников. ИФЖ, 1968, №2.
56. Меликишвили Г.А. К истории древней Грузии. Тбилиси, 1959. Дьяконов И.М. Предыстория армянского народа. Ер., 1968.
57. Дьяконов И.М. Предыстория армянского народа. Ер., 1968.
58. Алиев И.Г. История Мидии. Баку, 1960.
59. Schefold K. Der Seythische Tierstib in Südrussland. EAS, 1938, XII.
60. Хазанов А.М. Социальная история скифов. М., 1975.
61. Погребова М.Н. Иран и Закавказье в раннем железном веке. М., 1977.
62. Thurean-Dangin Fr. Une Relation de la Huitieme Campaque de Sarqon.
63. Пиотровский Б.Б., Гюзальян Л.Т. Крепости Армении доурартского и урартского времени, ПИМК, 1933, №5-7.
64. Керимов В.И. Крепостные сооружения Нахичевани. Каунас, 1984.
65. Керимов В.И. Архитектурно-археологические памятники эпохи бронзы на территории Нахичеванской АССР, Изд. «Элм», Баку, 1985.
66. Керимов В.И. Оборонительные сооружения Азербайджана древнего периода (III-I тыс. до н.э.). Баку, 2003.
67. Мещанинов И.И. Циклопические сооружения Закавказья. ИГАИМК, XIII (4-7). Вып. 1932.
68. Гурко-Кряжин В.И. Циклопические сооружения Закавказья. Новый Восток. 1926, №5.
69. Куфтин Б.А. Археологические раскопки в Триалети. 1911.
70. Чубинишвили Т.Н. К древней истории Южного Кавказа. Тбилиси, 1971.
71. Алекперов А.К. Исследование по археологии и этнографии Азербайджана. Баку, 1960.
72. Алиев Т.Р. Циклопические сооружения на территории Азербайджана (Автореф. канд. истор. Наук). Ленинград, 1987.

# URARTU EKSPANSİYASI DÖVRÜNDƏ TARİXİ AZƏRBAYCAN ƏRAZİSİNDƏ SOSİAL-İQTİSADİ QURULUŞ

Urartunun təsərrüfat və hüquqi sənədlərinin olmaması Urartu ekspansiyası dövründə tarixi Azərbaycan ərazisində sosial-iqtisadi quruluşun tədqiqinə müəyyən dərəcədə mane olmuşdur. Hazırda biz imkan daxilində mövcud epiqrafik və arxeoloji materialların tədqiqi əsasında Azərbaycan ərazisində Urartunun sosial-iqtisadi quruluşu ilə bağlı bəzi məsələləri işıqlandırmağa çalışacağıq.

Bəzi alimlər hesab edirdilər ki, Urartunun həm mərkəzində, həm də əyalətlərində çoxlu sayda çar, dövlət təsərrüfatları var idi. Bu təsərrüfatların mərkəzi qalalar və istehkam halına salınmış, qarnizonlar yerləşdirilmiş çar şəhərləri idi. Onlar eyni zamanda kənd təsərrüfatı məhsulları üçün anbar rolunu oynayırdı.

Bir sıra alimlərin konsepsiyalarına bütünlükdə baxmadan, yalnız bir məsələnin üzərində duracağıq – Urartu dövlətinin əyalətlərində, daha dəqiq desək, Azərbaycan ərazisində yerləşən qalaları və ya şəhərləri qul əməyinə əsaslanan iri çar təsərrüfatlarının mərkəzi hesab etmək nə dərəcədə realdır?

Hazırda on illər boyunca aparılan arxeoloji qazıntılar Urmiyayanı ərazidə və tarixi Azərbaycanın Qərb hissəsində yerləşən Urartunun bir sıra istehkam halına salınmış məntəqələri kifayət qədər tədqiq edilmişdir. Kuturlı vadisinin bilavasitə yaxınlığında yerləşən, II Rusanın kitabəsində adı çəkilən Teyşebaini şəhərini belə istehkam halına salınmış məntəqələrdən biri hesab etmək olar.

Bu kitabədə kənd təsərrüfatı məhsullarının yetişdirilməsindən, həmçinin suvarma kanalının qazılmasından bəhs olunur. Kitabədə "Kuturlı vadisi"nin "Rusa vadisi" adlandırılması faktını burada çar təsərrüfatından, çar II Rusanın şəxsi mülkiyyətindən söhbət getməsinin birbaşa sübutu kimi qiymətləndirə bilərik.

Lakin hazırda bizi başqa məsələ maraqlandırır. Bu şəhərlər və ya qalalar qul əməyinin istismarı əsasında yaranan hərtərəfli çar təsərrüfatının mərkəzi ola bilərdimi? Bunun üçün biz Teyşebaini, Həsənlu, Bastam şəhərlərində və həmin dövrdə urartuluların zorla birləşdirdikləri ərazilərdə yerləşən bir sıra digər istehkamlarda aparılan arxeoloji qazıntıların materiallarından istifadə etmişik.

Bu istehkam halına salınmış məskənlərdə və qalalarda araşdırmalar zamanı aşkar edilmiş materiallar və artefaktlar bu istehkamları tamamilə fərqli şəkildə səciyyələndirməyə imkan vermişdir.

Q.A.Melikişvili qeyd edirdi ki, istehkam halına salınmış şəhərlərin və qalaların evlərinin ətrafında mal-qaranın, iş alətlərinin və toplanmış məhsulun saxlanılması üçün təsərrüfat yeri yoxdur (Həsənlu, Bastam, Fareahram, Teyşebaini və s. möhkəmləndirilmiş məntəqələrin nümunəsində) (1). Buradan belə çıxır ki, istehkamlı şəhərlərin, qalaların sakinlərinin öz təsərrüfatları yox idi və onlar dövlət hesabına yaşayırdılar. Bütün bunlar tamamilə doğrudur. Amma buradan əsl qullardan bəhs edildiyi barədə nəticə çıxarmaq tamamilə yanlışdır.

İlk növbədə evlərin zahiri görünüşünün özü və arxeoloji araşdırmaların aparıldığı dövrdə və arxeoloji materiallara ötəri nəzər salındığı zaman aşkar edilmiş məişət xüsusiyyətləri buna ziddiyyət təşkil edir.Evlər daşla hörülmüş qalın (1.0 metrə qədər) divarlara malik davamlı tikililərdən ibarətdir. Ümumi sahəsi 50-100 və hətta daha çox kvadrat metr olan hər bir ev üç və ya daha çox otaqdan ibarət idi. Göründüyü qədər, qapı məhvəri üçün daş-heykəllərin yerləşməsinə əsasən, evlərin giriş qapıları içəridən bağlanırdı.

Hər bir evin mərkəzində düzgün formada emal edilmiş daşlardan hörülmüş ocaq yerləşirdi. Həmçinin müəyyən olunmuşdur ki, evlərdə içərisində bütlər olan xüsusi ibadət yerləri var idi (2). Qazıntılar zamanı tapılmış saxsı qab hissələrinin sayı və müxtəlifliyi hər növ ev avadanlıqlarının çox olduğuna dəlalət edir.

İddia etmək olar ki, bu şəhərlərin sakinləri ayrı-ayrı ailələr şəklində yaşayırdılar. Nisbətən firavan və azad idilər ki, bu da bir sıra alimlərin onların qul olması barədə fikirləri ilə heç cürə uyğun gəlmir. Buradan belə bir sual yaranır: bu şəhərlərin sakinləri kimlər idi?

Məlum olduğu kimi, Qırmızı təpədə Urartu bürcü e.ə. VI əsrin ilk illərində skiflərin hücumu zamanı, yəni Urartu dövlətinin süqutu dövründə dağıdılmışdır. XX yüzilliyin 50-ci illərində B.B.Piotrovski "Qırmızı təpədə şəhərin necə məhv olmasının hələ tam aydın olmadığını, həmçinin şəhər sakinlərinin bürcün alınmasında skiflərə müəyyən mənada kömək etdiklərinin ehtimal olunduğunu" qeyd edir və "şəhər əhalisinin əsas kütləsinin, yəni sənətkarların və əkinçilərin Urartu hakimiyyətinin sadiq müdafiəçiləri olduğunu güman etmək çətindir", deyə vurğulayır (3).

Hazırda artıq belə fərziyyələr üçün heç bir əsas yoxdur. Əksinə, Qırmızı təpə şəhərində əldə edilən materiallar və qazıntılar zamanı həyata keçirilən müşahidələr alimlərə şəhərin bürc ilə birlikdə süqut etdiyini iddia etmək imkanı vermişdir. Həm də əsas hissəsini, bəlkə də böyük hissəsini Urartu döyüşçüləri təşkil edən şəhər sakinləri nəinki bürcün süqutuna yardım etməmiş, əksinə, onu müdafiə etmişdir.

İstehkam halına salınmış şəhərdəki evlər sakinlər tərəfindən qəfildən və həmişəlik tərk edilmişdi – onlar artıq doğma yurdlarına qayıtmamışdılar. Qazıntılar zamanı bəzi tapıntıların yerləşmə forması bunu əyani şəkildə sübut etmişdir. Bilavasitə bir otaqdan digərinə keçən qapı girişinin önündə bir neçə qab parçası və daşınan gil ocaq aşkar edilmişdir. Onlar bir otaqdan digərinə keçiddə maneə yaradacaqları üçün orada ola bilməzdi. Aydın olur ki, onlar burada təsadüfən qalmışdır, qaçan zaman əllərindən salınmışdır. Bir qabın iri parçaları tam kandarın qarşısında elə səpələnmişdi ki, onları tapdalamadan nə içəriyə girmək, nə bayıra çıxmaq mümkün deyildi. Amma qeyd etmək lazımdır ki, onların üzərinə basılmamışdı və qabların və ocağın kandarda olmasından sonra evə heç kimin qayıtmadığına şübhə qalmır. Daimi tələsik qaçış mənzərəsi kifayət qədər aydın canlanır.

Bəs şəhər sakinləri hara tələsirdilər? Bu suala bürcün həyətində aparılan qazıntılar nəticəsində əldə olunmuş materiallar cavab verir. Burada sarayın divarları yaxınlığında müvəqqəti evlər tikilmişdi. Bu tikililərin müvəqqəti

xarakterli olduğunu onların ölçüsü və divarlarının qalınlığının şəhər evlərinə nisbətən az olması, həmçinin daşların səliqəsiz düzülməsi göstərir. Üç və daha çox otaqdan ibarət şəhər evlərindən fərqli olaraq, hər bir ev bir otaqdan ibarət idi; burada divarlar adətən bir cərgə daşdan hörülmüşdür, şəhərdə ya başdan-başa bir metr qalınlığında divar hörülürdü, və yaxud da hər iki tərəfi hörülürdü, ortası isə torpaqla qarışıq daha kiçik ölçülü daşlarla doldurulurdu.

Qalanın həyətindəki evin müvəqqəti xarakterli olduğunu onda şəhər evləri üçün kifayət qədər səciyyəvi olan möhkəm daimi daş ocaqların olmaması da göstərir. Yuxarıda sözügedən evdə tapılmış daşınan yastı gil ocaq şəhər üçün bu növ ocaqların yeganə nümunəsidir, baxmayaraq ki, arxeoloji qazıntılar zamanı ən az 8 ev tədqiq edilib və onlarda 8 daimi daş ocaq aşkar edilmişdir.

Qazıntılar dövründə şəhərdə və bürcdə aşkar edilmiş saxsı əşyalar hər iki halda, eyni əhalidən söhbət getdiyinə dair şübhə yaratmır. Lakin qaladakı evlərin daimi məskunlaşma yeri olmadığını, yalnız mühasirə zamanı əhalinin burada məskunlaşdığını iddia etmək üçün kifayət qədər məlumat var. Qazıntılar zamanı şəhərdən və bürcdən tapılmış saxsı qabların müqayisəsi göstərir ki, şəhər evlərində, nadir istisnalar olmaqla, böyük qabları bütöv şəkildə toplamaq olardı. Ağır və böyük olduğu üçün onları daşımaq çətindir, eyni zamanda da kiçik qabların çoxsaylı parçalarını bütöv bir qab şəklində toplamaq, bir qayda olaraq, mümkün olmur. Aydındır ki, sonuncu halda qarşımızda dinc dövrdə təsadüfi şəraitlərdə qırılmış, torpaq döşəməyə basdırılmış ayrı-ayrı qırıntılar var, burada uzun müddət ərzində kifayət qədər çoxlu sayda belə parçalar yığılmışdır. Şəhər evlərində bütöv kiçik qabların olmaması onların şəhərin tərk edilməsi zamanı asanlıqla bürc divarlarının arxasına aparıla bilməsi ilə izah olunur. Burada saxsı tapıntılar arasında fərqli mənzərə müşahidə olunur – Qırmızı təpəyə (Teyşebaini) aid böyük və ağır qablar, demək olar ki, heç yoxdur və kiçik və orta ölçülü qabların qırıqları isə kifayət qədər çoxdur. Digər tərəfdən, şəhər evlərində indiyədək ərzaq ehtiyatlarına rast gəlinməmişdir, bir halda ki, bürcdəki evlərdə içərisində taxıl (buğda, arpa, darı, noxud) olan qablar var idi, bəzi hallarda isə taxıl torpaqda qazılmış anbarlara doldurulmuşdur. Bu faktların müqayisəsindən tamamilə aydın olur ki, bilavasitə hücum təhlükəsi yarandıqda şəhər sakinləri tələsik bürcə köçmüşdür, bu zaman ərzaq saxladıqları iri qabları boşaldaraq, kiçik qablarda yeni evlərə daşımışdırlar.

Bürcün yaşayış evlərində şəhərlərdə aşkarlanmış ev bütlərinin və ibadət yerlərinin olmaması sakinlərin bürcə yerləşməsinin müvəqqəti xarakterli olduğunu göstərir və onunla izah olunur ki, evin müvəqqəti tərk edilməsi zamanı ev tanrılarını aparmaq olmaz. Çox güman ki, şəhər sakinləri bürcdə gizlənib, sonra yenidən öz yuvalarına qayıtmağı nəzərdə tuturdular.

Yuxarıda şərh edilmiş arxeoloji faktlar fonunda şəhərdə qulların məskunlaşdığını hesab etmək, çətin ki, mümkün olsun. Urartu dövlətinin düşmənlərinin yaxınlaşması onlar üçün azadlıq demək ola bilərdi və qulların skif qoşunlarının yaxınlaşdığını öyrəndikləri zaman evlərini tərk edib, öz əsarətçilərini müdafiə etmək üçün bürcə tələsdikləri ehtimalı tamamilə yalnışdır.

Şəhər sakinlərinin təhlükə anında qaladan qarnizon kimi istifadə etdiklərinə dair təkzibedilməz dəlillər vardır. Bürcün həyətində müvəqqəti evlər-

dən birində tunc oxluq, digərində isə üç ədəd tuncdan qayrılmış qalxan üçün lövhə (umbon) aşkarlanmışdır.Bu umbonlara dəfələrlə bürcün özündə də rast gəlinmişdir, xüsusən, sonradan altı ədəd umbon aşkar edilmişdir. Onların 5-də Urartu mənşəli olduğuna şübhə qoymayan yazılar var idi. Beləliklə, daimi yaşayış yerləri şəhərdə olan döyüşçülər mühasirə zamanı bürcdəki müvəqqəti evlərdə yaşayırdılar.

Əlbəttə, şəhərin bütün ərazisində döyüşçülərin məskunlaşdığı barədə nəticə çıxarmaq yanlış olardı. Hətta ehtimal etmək olar ki, qazıntılar zamanı şəhər qarnizonunun yerləşdiyi sahəyə təsadüfən toxunulmuşdur və digər hissələrdə fərqli sosial mövqeyə malik sakinlərin, o cümlədən qulların – özgə tayfalardan olan insanların da evləri var idi.

Lakin hesab olunurdu ki, Urartu tarixi ilə bağlı mövcud olan mənbələri - əsasən hərbi, dini məzmunlu, qismən də tikinti işlərindən bəhs edən Urartu və Assuriya çar kitabələri – bu dövlətin daxilindəki konkret sosial-iqtisadi münasibətlər haqqında mülahizə yürütmək üçün əsaslı məlumat vermir. Yalnız sırf nəzəri cəhətdən belə bir nəticə çıxarmaq olardı ki, bu, quldarlıq dövləti idi və Urartu kitabələrində Urartu çarlarının hər yürüşü zamanı gətirilən minlərlə əsir haqqında qeydlər bir sıra tədqiqatçıların gəldiyi bu nəticənin təsdiqi idi. Amma bu əsirlərin gələcək taleyi naməlum olaraq qalırdı və onların istismar xüsusiyyətləri, onlardan istifadə olunan təsərrüfatların xüsusiyyətləri və bütünlükdə Urartuda sinfi münasibətlər kompleksi fərziyyə predmeti olaraq qalırdı.

Burada Urartu iqtisadiyyatı ilə bağlı bir sıra məqamlara toxunmaq lazımdır. Bizə məlum olduğu kimi, Urartu çarları bütün dövlət ərazisində istehkam halına salınmış şəhərlər və qalalar şəbəkəsi yaradırdılar. Bu qalalarda çörək, şərab və digər məhsul anbarları, habelə silah və avadanlıq anbarları var idi. Onlar çarların əmri ilə xüsusi çəkilmiş suvarma kanalları ilə təchiz edilirdi və tarla və üzümlüklərlə əhatə olunmuşdu; sonuncular bu və ya digər çarın adını daşıyırdı, məsələn, "Rusa vadisi", "Minuin vadisi", "Sardur üzümlüyü" və s. Urartu çarları yürüşləri zamanı minlərlə və on minlərlə əsir ələ keçirib aparırdılar və onları istehkam halına salınmış şəhərlərdə və ya qalalarda məskunlaşdırırdılar.

Lakin mövcud məlumatlar, əsasən Assuriya mənbələri, Urartu qoşunlarının ələ keçirdiyi əsirlərin hansı şəkildə istifadə edilə biləcəyinə, xüsusən onların nə dərəcədə çar təsərrüfatına cəlb edildiklərinə dair bir qədər fərqli mənzərə təsəvvür etməyə imkan verir.

Yanlış təsəvvürdən uzaq olmaq üçün qeyd etmək lazımdır ki, çar təsərrüfatlarını e.ə. III minilliyin sonunda Şumerdə mövcud olan çar "latifuidiləri" kimi təsvir etmək olmaz. Qədim Şumerdə döyüşdə (4) və daha sonralar, Akkad sülaləsi dövründə (5, s. 49) ələ keçirilmiş əsir kişilərin böyük hissəsi tələf edilirdi. Və bu qanunauyğundur, hələ dünənə qədər azad döyüşçü olan güclü və sağlam kişilərin böyük dəstələrindən qul kimi istifadə mövcud ictimai və dövlət quruluşu üçün böyük təhlükə doğururdu. Bu, yalnız istehsal gücünün artdığı şəraitdə istehsalatın daha çox inkişaf etdiyi halda, xüsusən də, hərbi texnika sahəsində mümkün idi.

Buna görə Urartuda "Şumer" tipli çar təsərrüfatlarının olduğunu hesab etmək çətindir. Bu təsərrüfat, çox güman ki, başqa xarakter daşıyırdı. Və çox güman ki, Urartuda bir çox sahələrdə mədəniyyətcə ona yaxın olan qonşu Assuriyadakı vəziyyətlə oxşarlıq var idi.

Urartu dövründə olan Assuriya çarları III Tiqlatpalasar (e.ə. 745-727-ci illər) dövründən başlayaraq, heç də Urartu çarlarından az əsir tutub aparmırdılar. Eyni zamanda, Assuriya qoşununun işğal etdiyi ərazilər dövlət torpaqlarına çevrilirdi. Lakin bu, çarların tarla təsərrüfatlarının yaranmasına gətirib çıxartmırdı. Bu torpaqlarda məskunlaşdırılan həm çar əsirləri, həm də ayrı-ayrı şəxslərə paylanmış və ya satılmış əsirlər müstəqil təsərrüfat fəaliyyəti ilə məşğul olan ağalarının mülkiyyəti hesab olunurdu. Daha əvvəl Xet çarları da buna bənzər davranmışdılar.

Deməli, onlara dövlətin qulları – erkən quldarlıq cəmiyyəti üçün səciyyəvi olan institut kimi baxmaq olar. Bu, istehsal qüvvələrinin kifayət qədər inkişaf etməməsi nəticəsində hərbi əsirlərin sayının ayrı-ayrı quldarlıq təsərrüfatlarının qullara olan tələbatından xeyli çox olduğu hər yerdə belə idi.

Əsirlər həqiqətən kölələrə çevrilirdilər və dövlət torpaqlarında yerləşdirilirdilər, amma çar tarla təsərrüfatlarının işçiləri dəstələrinin tərkibinə daxil olmurdular, sadəcə öz əməklərinin bəhrəsini dövlət xəzinəsinə verirdilər. Qədim Şərq ölkələrində böyük qul dəstələri həmişə quldar üçün təhlükə yaradırdı və daha çox mütəşəkkillik tələb edirdi (6, s. 95-96).

Lakin qeyd etmək lazımdır ki, assuriyalılar bütün əsirləri qula çevirmirdilər. Onların bir hissəsi qoşunlara qəbul edilirdi. Belə ki, məsələn, II Sarqon israilli əsirlərin içərisindən 50 nəfəri Assuriya qoşununun imtiyazlı qisminin – döyüş arabaçılarının tərkibinə daxil etmişdi (2, s. 4).

Sanheriv (Sinaherib) yazır ki, "əsir aldığım ölkələrin əsirlərindən 30.000 ox (yəni oxatan), (.....), qalxanı (yəni qalxanlı döyüşçü) (onlardan ibarət) alaylara apardım və (öz çar alayıma) əlavə etdim" (4).

Beləliklə, yuxarıda qeyd edilənlərdən belə çıxır ki, Assuriyanın hərbi-soyğunçuluq siyasətinin aləti olan qoşunu, heç də yalnız imtiyazlı xalq olaraq assuriyalılardan ibarət qoşun deyildi. Etnik cəhətdən o, çox rəngarəng idi. Bəzi alaylar ən müxtəlif tayfaların nümayəndələrindən ibarət idi. Bütünlüklə bu və ya digər zəbt edilmiş xalqın nümayəndələrindən ibarət olan alaylar var idi. Fəth edilən xalqların Assuriyaya göstərdiyi müqavimət qismən rəqib dövlətlərin hakim sinifləri arasında siyasi mübarizə xarakteri, əksərən isə azad əkinçilərin əsarətçilərə qarşı sinfi mübarizəsi xarakteri daşıyırdı, amma müəyyən zülmkar "millətə" qarşı "milli" müstəqillik uğrunda mübarizə xarakteri daşımırdı. Və əgər, məsələn, II Sarqon Orta Asiyanın ələ keçirdiyi sərhəd rayonlarında, kitabələrindən birində yazdığı kimi (7, s.4), "əllərimlə fəth etdiyim oxatan sutiləri (köçəri-suriyalılar)" məskunlaşdırmışdısa, əlbəttə ki, o, burada onları öz tarla təsərrüfatının qulları olaraq deyil, məhz hərbi kontingent olaraq yerləşdirmişdi. Bu, sərhədyanı ərazi üçün çox təhlükəli olardı və yenicə fəth edilmiş döyüşçülərin qiyamını və qaçışını təşviq etmək demək olardı. Eyni şey Assuriya mətnlərindəki digər buna bənzər qeydlərə də aiddir (7).

Çarların tikdirdikləri və ya bərpa etdirdikləri, Urartuda da olduğu kimi, böyük ərzaq və təchizat xəzinə anbarları olan qalalar Assuriyada da məlum idi. Amma Assuriya mətnləri birbaşa bunların əhalidən alınan natural vergi anbarları olduğunu göstərir.

Urartulular tərəfindən işğal edilmiş tarixi Azərbaycan ərazilərində də buna bənzər vəziyyət təsəvvür etməliyik. Belə ki, I Argişti İrbu (və ya İrtu, İriuni, İrəvan yaxınlığında Qırmızı təpədə müasir şəhər) qalasını tikərək, qeyd etdiyi kimi, burada Supadan (Sofena) və Xatadan (Orta Asiya) 6600 "döyüşçü" məskunlaşdırmışdır (1).

Bizim bu məskunlaşan əhalini qul olaraq görmək üçün heç bir əsasımız yoxdur və belə olan halda onların "döyüşçülər" olduğunu qeyd etmək nəyə lazım idi? Axı onsuz da məlumdur ki, kişi hərbi əsirlərin əksəriyyəti əvvəllər döyüşçü olmuşdur. Amma qul olan kimi onlar artıq döyüşçü olmaqdan çıxırlar. Və nəhayət, onlar burada "döyüşçü" adlandırılmışdırsa, görünür, ona görə ki, onlar yeni yerə yerləşdirildikdən sonra da döyüşçü olaraq qalmışdılar. Düşünmək olar ki, bir sıra digər hallarda, kitabələrdə fəth edilmiş ölkələrdən "ərlərin" köçürülməsi haqqında danışılarkən, "döyüşçülər" də nəzərdə tutulur. Bizə elə gəlir ki, arxeoloji materiallar Urartu çarları tərəfindən tikilən qalaların əhalisinin əsasən məhz onların qullarından, həm də çar tarla təsərrüfatlarının qullarlından ibarət olduğuna dəlalət etmir. Qırmızı təpədə qazıntılar nəticəsindən aşkarlanmış evlər (3, s.17; 2, s.71), eyni plan üzrə və eyni vaxtda məhəllələr şəklində tikilsə də (bu, sakinlərin planauyğun şəkildə buraya köçürüldüyünü göstərir) və bu evlərin sakinlərinin müstəqil təsərrüfatı olduğunu göstərən köməkçi tikililəri, həyətyanı torpaq sahələri və fərdi ərzaq anbarları olmasa da, onlar çar "latifundiyaları" tarlalarında kütləvi dəstələrlə işləyən sıravi qulların evlərinə bənzəmir. Bu, çox güman ki, döyüşçülərin və ya sənətkarların kifayət qədər keyfiyyətli və geniş mənzilləri olmuşdur. Bu evlərdə ailəvi və ya qəbilə tanrılarına sitayiş üçün xüsusi yerlər olması səciyyəvidir ki, qulların mənzilində belə bir şey olmasını düşünmək çətindir. Doğrudur, bürcdə bütün Qədim Şərq ölkələrində geniş yayılan böyük təsərrüfat və sənətkarlıq emalatxanaları da var idi. Lakin burada çarlara məxsus böyük quldarlıq tarla təsərrüfatının olmasına dair kifayət qədər dəlil yoxdur.

Katib Nabuşallimşupunun II Sarqonun e.ə. 714-cü ildə Urartuya yürüşü haqqında Urartu dövlətinin daxili həyatı ilə bağlı dəlillərlə zəngin məşhur məlumatı Urartu şəhərlərinin – qalalarının xarakteri haqqında kifayət qədər aydın mülahizələr yürütməyə imkan verir. II Sarqonun məlumatında Urartu qalalarının məhz qul əhalisi haqqında xüsusi qeyd yoxdur, baxmayaraq ki, katib Assuriyalıların şəxsən Urartu çarına vurduqları ziyanı hərtərəfli təsvir edir, əksər hallarda isə bu qalaları əhatə edən və Assuriya döyüşçüləri tərəfindən talan edilən ərazilərin məhz çar Rusaya aid olması barədə heç bir qeyd yoxdur (1).

II Sarqonun məlumatlarını orijinalda əks olunduğu qaydada izləsək görərik ki, II Sarqon Harun və Tarmakisu (Tavriz, Təbriz) qalalarını ələ keçirir. Bu qalalar "Rusanın arpa evinin" yaxınlığında tikilmişdi, yəni, görünür, dövlətin çörək anbarlarını müdafiə edirdi.

Növbəti təsvir Rusa tərəfindən salınmış Ulhu şəhəridir. Şəhər Sardurihurdun xüsusi qalası ilə müdafiə olunurdu. Ulhuda çar sarayı var idi. Katib Ulhu şəhəri, onun ambarları haqqında yazır, həm də məzmundan aydın görünür ki, yalnız Ulhu sakinlərindən bəhs edilir (5).

Ayadu vilayətinin şəhərlərində "onun (çar Rusanın) ən yaxşı döyüşçüləri, döyüşlərdə qələbə qazanan qoşunu, sapandçıları və nizəli əsgərləri – onun ölkəsinin ümidi yerləşdirilmişdi". Onların ambarları, bağları və s. məhv edilmişdi. Yenə də nə çar təsərrüfatı, nə qalalarda qulların məskunlaşdırılması haqqında bir söz belə yoxdur, baxmayaraq ki, bu halda söhbət, ehtimal ki, qarnizonlardan gedir.

II Sarqon Urartu dövlətinin cənub əyalətinə çıxarkən qarşılaşdığı sonuncu Urartu qalasını – sərhədyanı Uayisi ələ keçirməyə müvəffəq olmadı. Mətndə bu qala haqqında deyilir ki, "burada məskunlaşanlar onun (çar Rusanın) cəsur hərbi döyüşçüləri idi". Burada II Sarqon onun bağlarını və meşələrini qırıb taladı (1).

Beləliklə, yuxarıda deyilənlərdən görünür ki, II Sarqonun yolunda qarşısına çıxan bütün Urartu qalalarına ilk növbədə azad döyüşçülər – bir hissəsinə Urartu qarnizonlarının döyüşçüləri, bir hissəsinə isə, şübhəsiz, öz şəxsi təsərrüfatları olan, çar təsərrüfatlarının tərkibinə daxil olmayan yerli sakinləri məskunlaşdırılmışdı.

Urartu çarlarının dövlət vəsaiti ilə tikdirdikləri qalaları su ilə təmin edən suvarma sistemləri təşkil etməsi faktı, bir sıra alimlərin qeyd etdiyi kimi, bu kanalların yalnız dövlət təsərrüfatlarına xidmət etdiyini göstərmir. Belə ki, I Rusanın Keşiş-göl kitabəsi Keşiş-göl süni su hövzəsinin onun tərəfindən Tuşpa şəhərinin öz təsərrüfatları olan sakinləri üçün salındığını göstərir.

Q.A.Melikişvili öz araşdırmalarında Urartuda şəxsi mülkədarlığın olduğunu və bu mülkədarlıq təsərrüfatlarında, çox güman ki, çar kanallarının suyundan istifadə edildiyini qeyd edib (1, s. 35).

Növbəti mülahizələr bizim Urartuluların ələ keçirdikləri bütün əsirlərin qula, özü də geniş tarla təsərrüfatlarının quluna çevrilə bilməməsi haqqında fikrimizi təsdiq edir. Hər il minlərlə və on minlərlə əsir götürmək üçün və xüsusən mövcud ictimai rejimin təhlükəsizliyini belə geniş qul kütlələrindən qorumaq üçün Urartulular ya texniki cəhətdən qonşu xalqların və tayfaların qoşunlarından, məsələn, Roma qoşununun qal, german və ya frak qoşunları üzərindəki üstünlüyü qədər üstün qoşuna malik olmalı, yaxud da sayca çox böyük üstünlüyə malik olmalı idi. Amma urartuluların və qonşularının hərbi texnikası arasında fərq o qədər də böyük deyildi, deməli, göründüyü kimi, sayca üstünlük əsas idi. Urartunun kiçik mərkəzi hissəsi, Biannili ölkəsi təkbaşına qonşuların qoşunlarından sayca xeyli üstün olan orduya malik ola bilməzdi. Şübhəsiz, Urartunun təkcə bu texniki nailiyyətlərinin, suvarma sistemlərinin, memarlığının və s. deyil, həm də onun hərbi və siyasi gücünün yaradıcıları sözün birbaşa mənasında yalnız urartulular deyil, bu və ya digər dərəcədə Urartu qoşunlarının tərkibinə daxil olmalı olan Cənubi Qafqazın Urartuya aid hissəsinin bütün əhalisi idi. Bunu, məsələn, I Argiştinin Sofena və Kiçik Asiyadan İrbu qalasına "döyüşçülərin" köçürülməsi haqqında mətni də göstərir (1).

Assuriyada belə köçürülənlər əsasən əvvəlki qoşunların talan etdikləri ərazilərdə yerləşdirilirdisə, Urartuda onlar əvvəllər suvarılmayan ərazilərin mənimsənilməsi üçün lazım idilər, burada, şübhəsiz, insanlara böyük tələbat var idi. Amma Urartu üçün təxmin edə biləcəyimiz əsirlərin işçi qüvvəsindən istifadə edilə biləcək bütün bu müxtəlif quldarlıq formalarına baxmayaraq, müharibədə ələ keçirilmiş insanların kifayət qədər böyük hissəsi qoşuna daxil olmalı və müxtəlif yeni tikilmiş və Urartu çarları tərəfindən bərpa edilmiş qalalarda qarnizon qismində yerləşdirilməli idi.

Lakin şəhər əhalisinin etnik tərkibinin eyni cinsdən olduğunu və qazıntılar nəticəsində mənzilləri tapılan döyüşçülərdən ibarət olduğunu iddia etməyə imkan verən dolayı məlumatlar var. İş ondadır ki, bu mənzillərdən birində yuxarıda adı çəkilən büt aşkarlanmışdır. Şəhərin hələ qazılmamış hissələrində geniş sahədə də belə bütlər və ya onların parçaları tapılmışdır. Buradan belə çıxır ki, şəhərdə əsasən bir etnik qrupun nümayəndələri məskunlaşmışdı və şəhər əhalisinin yalnız bir hissəsinin, – Q.A.Melikişvilinin iddia etdiyi kimi, - azad döyüşçülərdən, qalan, özü də əsas hissəsinin isə qullardan ibarət olduğunu təsəvvür etmək çətindir və tamamilə doğrudur ki, Urartuda qulların əsas hissəsini hərbi əsirlər və deməli başqa tayfaların nümayəndələri təşkil edirdi (3).

Yuxarıda deyilənlərdən belə bir nəticə çıxara bilərik ki, ən azından Urartu dövlətinin əyalətlərində, Cənubi Qafqazda, daha konkret desək, tarixi Azərbaycan ərazilərində qalalar qul əməyinə əsaslanan çar və ya dövlət təsərrüfatlarının mərkəzi deyildi. Belə ətraf şəhərlərin – qalaların əhalisi əsasən döyüşçülərdən ibarət idi. Və bu, tamamilə aydındır, çünki dövlətin daxili hissələrinin, eyni zamanda yeni ələ keçirilmiş sərhədyanı ərazilərin müdafiəsi sərhədlərin möhkəmləndirilməsini və daimi hərbi mühafizəsini tələb edirdi.

Arxeoloji qazıntılar dövründə analoji faktlar Urartuluların tarixi Azərbaycan ərazilərini qəsb etdiyi zaman tikilmiş digər istehkam halına salınmış şəhərlərdə və qalalarda da aşkar edilmişdir – bu, Bastam, Həsənlu, Ferahram və başqaları idi (8).

Bu şəhərlərin və qalaların sakinlərinin əsas kontingentinin hərbiçi kimi tərif edilməsi yuxarıda qeyd edilmiş faktı – qazıntılar nəticəsində aşkarlanmış mənzillərdə təsərrüfat yerlərinin olmadığını bizə aydın şəkildə izah edir. sərhədyanı qalaların təhlükəli həyatı çətin ki, sakinlərə öz təsərrüfatlarını yürütmək imkanı verirdi. Əlbəttə, belə təsərrüfatların tamamilə yoxluğunu ehtimal etmək çətindir, lakin bu istehkam halına salınmış məntəqələrin sakinlərinin əsas hissəsinin dövlət hesabına saxlanan döyüşçülərin təşkil etdiyi daha ağlabatan görünür.

Qazıntılar zamanı bir sıra qalalarda aşkarlanmış böyük anbarlar, şübhəsiz, bunun üçün tam imkan verirdi.

Anbarların mövcudluğu böyük çar təsərrüfatlarının mövcudluğunun dəlili kimi təfsir edilir. Lakin böyük çar anbarlarının olmasını, çətin ki, Urartuda çar təsərrüfatlarının mövcudluğunun dəlili hesab etmək olar. Azad icma üzvlərinin amansız istismarı təkcə əmək və döyüş mükəlləfiyyətlərində deyil, həm də natura ilə ödənilən vergi, xərac şəklində özünü göstərirdi. Urartu tarixinin icma üzvlərinin istismarının onların kütləvi qaçışına səbəb olacaq səviyyəyə

çatdığı son dövrü üçün (9, s. 221) dövlətin təkcə əlavə məhsulun bir hissəsini deyil, həm də bütün əlavə məhsulu və üstəgəl zəruri məhsulun bir hissəsini mənimsədiyini ehtimal etmək olar. Bu ehtimalı qəbul etsək, dövlətin müxtəlif məntəqələrində irihəcmli ərzaq anbarlarının mövcudluğu öz-özlüyündə aydın olur və çox güman ki, qul istismarına əsaslanan iri çar təsərrüfatlarının mövcudluğunun lehindən daha çox, əleyhinə dəlillik edir.

## ƏDƏBİYYAT


1. Меликишвили Г.А. Некоторые вопросы социально-экономической истории Урарту. ВДИ, 1951, №4.
2. Сорокин В.С. Древние идолы города Гейшебаини. ИАН, Арм.ССР, 1951, №5.
3. Пиотровский Б.Б. Кармир-блур I. Результаты раскопок 1939-1940 гг. Ереван, 1950.
4. Тюменов А.И. Хозяйственный персонал храма Бау. ВДИ, 1948, №1, примечание 4.
5. Авдиев В.И. История древнего Востока. М., 1948.
6. Штаерман Е.М. Рабство в III-IV вв. н.э. в западных провинциях Римской империи. ВДИ, 1951.
7. Winckler H. Die Keilschrifttexte Sarqonos. Lpz., 1885, c.4 стк.15.
8. Керимов В.И. История развития оборонительного зодчества Азербайджана с древнейших времен до XIX в. Баку, 2007.
9. Дьяконов И.М. Ассиро-вавилонские источники по истории Урарту. №3.

# MANNA ÇARLIĞI

Azərbaycanın Cənub hissəsində arxeoloji qazıntılar zamanı e.ə. VII-III əsrlərə aid olduğu ehtimal olunan bir neçə neolit və eneolit məskənləri aşkar edilmişdir. Bununla belə, Həsənli, Hacı Firuz, Giyan, Göytəpə, Sialk və İran yaylasının digər məntəqələrində o qədər də geniş miqyasda olmayan qazıntılar bizə neolit və eneolit dövrünün inkişafını ümumi şəkildə izləmək imkanı verir. Bu abidələr Azərbaycanın Cənub hissəsində əhalinin mədəniyyətinin uzun inkişaf yolundan bəhs edir, bu ölkə sakinlərinin dərin keçmişi olduğuna dəlalət edir. Məskunlaşma dövrünün qədimliyinə və mədəniyyətinə görə bu məskənlər həm Mesopotamiya, həm də Ön Asiya dünyasının digər vilayətləri ilə rəqabət apara bilər (1, s.165). Analoji məskənlərə Azərbaycanın Şimal və Qərb hissələrində də rast gəlirik, söhbət Göytəpə, Şomutəpə, Kültəpə, Töyrətəpə, Leylatəpə, Böyükkəsik, Şengavitdən gedir (2; 3; 4; 5; 6).

Azərbaycanın neolit və eneolit dövrlərinin mədəniyyəti özünəməxsus olmaqla, kökü uzaq keçmişə dayanır və Ön və Orta Asiya mədəniyyətləri ilə sıx əlaqəlidir.

Bu mərhələdə bizi maraqlandıran dövrlər haqqında məlumatlara malik olaraq, tarixi Azərbaycan ərazilərində mezolit və hətta paleolit haqqında danışmaq hüququna malikik.

Beləliklə, hazırda biz arxeoloji qazıntılar əsasında ən qədim dövrdən maldarlığın sürətlə inkişaf etməyə başladığı, əkinçiliyin, dulusçuluğun, daşı əvəz edən və metalın meydana gəldiyi, ilk etnik icmaların formalaşdığı, tayfa ittifaqlarının yarandığı, ictimai hakimiyyətin xalq kütləsindən ayrıldığı – dövlət birliklərinin yarandığı, şəhər həyatının meydana gəldiyi dövrə qədər Azərbaycanın Cənub hissəsinin təsərrüfat və mədəniyyət təkamülünü heç olmasa ümumi şəkildə izləyə bilərik.

Əkinçilik-maldarlıq təsərrüfatının yaranması davamlı məskunlaşmaya və gil tikililərin meydana gəlməsinə şərait yaratdı.

Bütün Ön Asiya əraziləri boyunca, o cümlədən tarixi Azərbaycan ərazisində ibtidai icma kollektivləri əsasən eyni yol üzrə inkişaf edir, bu yolun əsasında ovçuluq və meyvə toplama, ibtidai əkinçilik və heyvanların yetişdirilməsi durur.

Azərbaycanın Cənub hissəsində iki dövrə - neolit və eneolit dövrlərinə Həsənlu, Hacı Firuz və Göytəpə icmalarını aid etmək olar, onların erkən təbəqələri e.ə. VII minilliyin sonlarına aiddir.

Həsənlu, Hacı Firuz və Göytəpədə aparılan qazıntılar açıq-aydın göstərir ki, bu vilayətin ən qədim əhalisi dünya tarixinin inkişafından kənarda deyildi.

Hazırda bizə məlum olan materiallar fonunda iddia etmək olar ki, tarixi Azərbaycan ərazisində ən qədim tarixə Şərq və Qərbin eyni vaxta aid

mədəniyyətləri arasında əlaqələndirici halqa kimi baxmaq olar (7, s. 6-7). Son vaxtlar arxeoloji araşdırmalar əsasında tarixi Azərbaycan ərazisinin sivilizasiyası haqqında qədim Elam və Şumer mədəniyyətinin mənbəyi kimi danışmaq olar (7).

Sözügedən dövrdə tarixi Azərbaycanın Cənub hissəsi boyalı saxsı mədəniyyəti zolağına aid idi, qazıntılar zamanı aşkarlanmış eyni yerdə ardıcıllıqla tikilmiş gil daxmalar buna dəlalət edir. Çox vaxt bu tikililərin dağıntıları hündürlüyü onlarla metrə çatan təpələr yaradırdı (8, s.45; 9, s.39). Lakin bu qədim məskənlər hələ istehkam halına salınmamışdı və nisbətən sonrakı dövrlərdə eyni ərazidə tez-tez rast gəlinən müdafiə tikililəri şəklində deyildi.

Sözügedən vilayətin müxtəlif yerlərində qazılmış müxtəlif təbəqələr təkcə Mesopotamiya və Orta Asiya mədəniyyətlərində deyil, həm də Qafqaz, Kiçik Asiya, habelə Çin və arilərə qədərki Hindistan mədəniyyətlərində böyük oxşarlıqlar olduğunu aşkar etmişdir (7).

Bu oxşarlıqlar və mədəniyyətin müxtəlif sahələrindəki yaxınlıq təkcə bu tayfaların istehsaledici qüvvələrinin və istehsal münasibətlərinin nisbətən oxşar inkişafı ilə deyil, həm də nisbətən intensiv əlaqələr, ayrı-ayrı hallarda isə, bəlkə də, etnik qohumluqla izah oluna bilər.

Arxeoloji qazıntılar həmçinin Cənubi Azərbaycan ərazisində e.ə. VII minillikdən etibarən bir-birindən çox az fərqlənən protomediterran və ya mediterran irqinin nümayəndələrinin məskunlaşdığını iddia etməyə imkan verir.

Yuxarıda deyilənlər bizə bu yerin ən qədim sivilizasiyasının təxmini mənzərəsini görmək imkanı verir. Bu qazıntılar həmçinin bu vilayət əhalisinin mədəniyyətinin uzunmüddətli, çox vaxt fasiləsiz inkişafına dəlalət edir.

Hazırda Azərbaycanın Cənub hissəsinin arxeoloji nöqteyi-nəzərdən tam tədqiq edilməməsi ilə əlaqədar bu ərazinin neolit və eneolit mədəniyyətinin ümumi inkişafı haqqında danışmaq çətindir. Lakin bu ərazi qədim Şərq mədəniyyət dünyasından kənarda qalmırdı; bunu həmin ərazidə aparılan qazıntılar zamanı aşkar edilmiş azsaylı materiallar göstərir (11).

Naxışlı saxsıların yayıldığı dövrdə Cənubi Azərbaycanın şimal hissəsinin və Azərbaycanın Şimal hissəsinin Qədim Şərq mədəniyyət dünyasının xüsusi əyaləti olduğundan, çətin ki, şübhə etmək olsun (12).

Cənubi Azərbaycan ərazilərinin neolit və eneolit dövrü haqqında Həsənli, Hacı Firuz və Göytəpə, habelə onlara qonşu ərazilərdə, xüsusən Azərbaycanın Qərb və Şimal hissələrində aparılan qazıntılar müəyyən təsəvvür yaradır.

Urmiyayanı ərazilərdə həm neolit, həm də eneolit dövrünün öyrənilməsində Həsənli, Hacı Firuz və Göytəpə məskənləri ilə yanaşı, Naxçıvan MR-də Uzunoba kəndinin yaxınlığında yerləşən eneolit dövrünə aid Kültəpə məskəni də müəyyən köməklik göstərir.

Kültəpə məskənində metodiki arxeoloji qazıntılar göstərmişdir ki, bu məskən hələ eneolit dövründən mövcud idi. O, ayrı-ayrı mədəni təbəqələri onunla eyni dövrə aid Cənubi Qafqaz və Ön Asiya məskənləri ilə uzlaşan tipik erkən əkinçilik məskəni idi (3).

Qazıntılar burada əkinçilik və maldarlığın hələ ən qədim dövrdən başlayaraq inkişaf etdiyini sübut edən materiallar qazandırmışdır.

Kültəpə eneoliti 3,5-4,5 m dərinlikdə üçüncü təbəqədə aşkar edilmiş materiallarla aşkarlanmışdır. Bu qatda eneolit dövrünə aid çox sayda səciyyəvi daş alətlər aşkar edilmişdir. Onlara əsasən obsidian, daha sonra isə çaxmaq daşından hazırlanmış alətlər aiddir.

Kömürləşmiş arpa və buğda toxumları tapıntısı həddindən artıq böyük əhəmiyyət daşıyır (13, s.18).

Bütün bunlar heç bir mübahisəyə yol vermədən burada erkən əkinçilik formalarının mövcud olduğuna dəlalət edir. Həm də Kültəpədə tapılan, Şengavit (14, s.115), Gərni (15, s.22), Trialeti (14, s.110), Həsənlu, Göytəpə (10) və digər məskənlərin eneolit təbəqələrində analoquna rast gələ biləcəyimiz obsidian və çaxmaqdaşından hazırlanmış oraq dişləri Sialkda (16, 74), Misirdə (17, s.173) və digər ilk əkinçilik məskənlərində olduğu kimi Kültəpədə də məhsulun toplanmasının qurama oraqlar vasitəsilə həyata keçirildiyini təsdiq edir.

Urmiyaətrafı ərazilərdə tapılan saxsılara gəlincə, qeyd etmək lazımdır ki, onlar öz səciyyəvi xüsusiyyətlərinə, eyni zamanda qonşu ərazilərin saxsı məmulatları ilə oxşarlığa malikdir.

Saxsı qabların zəngin olmayan, çox vaxt həndəsi fiqurlardan ibarət naxışlarında Xələf, Ubayd, Uruk, Tello, Suz və digər məskənlərdə tapılan məmulatlarla da müəyyən yaxınlıq və oxşarlıq görülür (10, s. 20-30).

E.Hersfeld ədalətli olaraq hesab edir ki, ümumiyyətlə İran yaylasının mərkəzi və cənub hissələrindən fərqli olaraq, şimal hissələrində naxışlı saxsılara nadir rast gəlinir (18, s.95-96).

Beləliklə, keramikadan hazırlanmış bu məmulatlara əsasən qeyd etmək olar ki, mədəniyyət nöqteyi-nəzərdən daha çox şimala - Azərbaycanın şimal bölgəsinə meyl etmiş və cənubda yerləşən bölgələrdən xeyli fərqlənən Urmiyayanı ərazi və çox güman ki, Azərbaycanın Cənub bölgəsinin böyük hissəsi bir kənarda duran İran yaylasının üçüncü mədəni zonasını təşkil edirdi.

Neolit dövründə tarixi Azərbaycan ərazisində artıq ilk oturaq əkinçilik və maldarlıq məskənləri yaranır, daş, sümük əmək alətləri təkmilləşir; sözügedən dövrün sonlarına doğru inkişafında böyük uğurlar qazanmış saxsı istehsalı yaranır; incəsənət və dini baxışlar inkişaf edir.

Nəhayət, bizi maraqlandıran dövrün sonunda yazı icad edilmişdir. Bütün bunlar Azərbaycanın cənub bölgəsində inkişaf edən neolit, daha sonra isə eneolit icmalarının sinfi cəmiyyətə doğru böyük addım atdıqlarını göstərir.

Azərbaycanın cənub bölgəsinin təxminən 2,5 min il davam edən kifayət qədər uzun növbəti mərhələsi tunc dövrüdür.

Azərbaycanın həm cənub bölgəsində, həm də bütün tarixi ərazilərində müxtəlif sosial-siyasi dəyişikliklərin əsas səbəbləri tunc dövrü ilə əlaqəli idi. Dəyişikliklər birdən baş verməmişdir, amma məskənlərin müvafiq təbəqələrinin tədqiqi zamanı metallurgiyanın inkişafı ilə bu ərazinin qədim əhalisinin həyatının dəyişdiyi: çox sayda tunc bəzək əşyalarının və xüsusən də silahların meydana çıxdığı aydın görünür (7, s.126).

Geniş miqyasda əkinçilik və istibdad hakimiyyətinin əmələ gəlməsi üçün zəruri şəraitin olmaması tarixi Azərbaycan ərazisində qədim tayfaların dövlət hakimiyyəti yarada bilməməsinin əsas səbəblərindən biri idi. Lakin

Mesopotamiya şəraitində bu, mümkün idi, burada hələ e.ə. III minillikdə texniki səviyyənin nisbətən aşağı olduğu halda icmaların birliyi və istibdad hakimiyyəti yaranırdı. Lakin Azərbaycanın Cənub bölgəsində möhkəm əkinçilik bazasının olmaması bu ölkə sakinlərinin xüsusi hərəkətliliyinə, daha sonra isə həm də köçəri maldarlığına gətirib çıxaran əsas səbəb idi. Hələ e.ə. III minilliyin ortalarında tarixin səhnəsinə çıxan və yüz ildən çox müddət ərzində Mesopotamiyanı istila edən kutilər artıq öz hərəkətlilikləri ilə fərqlənirdi.

Çox güman ki, əsasən məhz maldarlıq həyat tərzi kutiləri uzun məsafələr qət etməyə, qonşuların torpaqlarına, xüsusən Mesopotamiyaya soxulmağa məcbur edirdi.

Səciyyəvidir ki, Qədim Ön Asiya Şərqində müxtəlif metal, həmçinin saxsı məmulatların, xüsusən Mesopotamiyada, Kiçik Asiyada, Azərbaycanda və digər bölgələrdə rast gəlinən çoxrəngli naxışlı saxsıların geniş yayılması tunc dövrünün başlanması ilə bağlıdır. Bir sıra tədqiqatçılar bu saxsıların bu qədər geniş yayılmasını sözügedən saxsının daşıyıcısı və yayıcısı olan yeni xalqın və ya hansısa yeni xalqlar qruplarının meydana gəlməsi ilə əlaqələndirirlər.

Miqrasiya baş verdiyini inkar etmədən və ayrı-ayrı mədəniyyət təzahürlərinin yayılmasında onun rolunu kiçiltmədən, xalqların və tayfaların həyatındakı bütün dəyişiklikləri yalnız miqrasiya ilə də izah etmək olmaz.

Bizə elə gəlir ki, Ön Asiyanın müxtəlif bölgələrində forma və naxışlarına görə bir-birinə yaxın saxsıların geniş yayılmasının səbəbini daha çox miqrasiyalarda deyil, məlum olduğu kimi, fərqləndirici cəhəti tayfalar arasında müntəzəm geniş mübadilə olan tunc dövrünün başlaması ilə əlaqədar daxili inkişafın nəticəsi olan bu dəyişikliklərin xarakterində axtarmaq lazımdır. Bu dövrdə tayfaların baş verdiyi şübhə doğurmayan yerdəyişmələrinin özü də əsasən tunc dövrünün yeni şərtlərindən irəli gələn sözügedən dəyişikliklərin nəticəsi idi.

Tarixi Azərbaycan ərazisində tunc dövrünə aid müxtəlif məskənlərdən bizə məlum olanlar əmək məhsuldarlığının artdığını, tayfalararası ünsiyyətlərin xeyli gücləndiyini – mübadilə və hərbi qarşıdurmaların sıxlaşdığını deməyə imkan verir, bununla əlaqədar olaraq da ayrı-ayrı tayfalar daxilində əmlak müxtəlifliyinin yaranması və icma üzvləri arasından qəbilə zadəganlarının ayrılması üçün şərait yaradırdı.

Tədqiq etdiyimiz dövrdə maldarlıq və əkinçiliklə yanaşı, tədricən müharibə də bu bölgədə yaşayan tayfaların əsas məşğuliyyətlərindən birinə çevrilir. Bunu təkcə həmin dövrə aid qəbirlərdə aşkarlanmış çoxsaylı silahlar deyil, həm də, yuxarıda qeyd edildiyi kimi, məskənlərin ətrafında ucaldılan, çox vaxt kifayət qədər güclü olan istehkam tikililəri göstərir (19).

Yazılı mənbələr, xüsusən e.ə. XXIII əsrdə Mesopotamiyada hökmranlıqdan bəhs edən Şumer mənbələri də müharibələrin sıxlaşmasına dəlalət edir (18, s. 117). Tarixi ədəbiyyatda daha çox belə bir fikir yayılmışdı ki, Azərbaycanın Urmiya gölünə bitişik Cənub bölgəsində Manna dövlətinin yaranmasına qədər yaşayan tayfalar kutilər, lullubilər, hurrilər və kassitlər idi. Hələ çar Naramsin Mesopotamiya hüdudlarına daxil olan kutilərlə mübarizə aparmaq məcburiyyətində qalmışdı; kutilərin başçısı Enridavazir Akkad qoşununu dar-

madağın edərək, Mesopotamiyanın cənub hissəsinə qədər getməyə müvəffəq olmuşdur, burada o, böyük bir kitabə qoymuşdur və kitabədə özünü dünyanın dörd ölkəsinin "çarı" adlandırır (18, s. 117).

Akkad çarı Naramsinin e.ə. 2200-cü ildə kutilərə qarşı hərbi yürüşü müvəffəqiyyətlə nəticələnməmişdir. O, kutilər tərəfindən öldürülmüşdür. Sonradan kuti başçıları öz tayfalarını birləşdirərək, Akkada doğru hərəkət edmiş və İkiçayarasını ələ keçirmişdir, onların çarları yüz ilə yaxın bir müddətdə burada hökmranlıq etmişdir (20, s.47; 21, s. 253). Bizə yalnız sözügedən çar siyahısında təsdiq edilmiş iyirmiyə yaxın kutinin adı gəlib çatmışdır (22, s.143).

Kutilər bir əsrlik hökmranlıqdan sonra e.ə. XXII əsrin sonlarında Azərbaycanın Cənub bölgəsindəki vətənlərinə qayıtmışdır. Burada onlar lullubilərin güclənmiş tayfa ittifaqı ilə qarşılaşmış və şimala – Cənubi Qafqaz ərazisinə yola düşmüşlər (22, s. 101). Min ildən çox müddət sonra onlar Urartu mənbələrində etiunlar adı ilə anılırlar.

E.ə. III minillikdə artıq lullubi başçılarının özlərinin ilk abidələri meydana gəlir. Onlardan ilk növbədə "çar" Anubaniniyə məxsus üzərində kitabə olan qayaüstü relyefi qeyd etmək lazımdır.

Anubanininin kitabəsindən göründüyü kimi, onun torpaqları şimalda Urmiya gölünün sahillərindən cənubda Fars körfəzinə qədər uzanırdı (18, s. 150).

Lullubilər e.ə. III minilliyin ikinci yarısından etibarən e.ə. I minilliyin başlanğıcına qədər Azərbaycanın Cənub bölgəsinin tarixində böyük rol oynamağa başlayırlar.

Bir sıra araşdırmalara inansaq (21, s.90), lullubilər təkcə Azərbaycan tarixində mühüm rol oynamamışdır. Onların hələ uzaq keçmişdə Mesopotamiya ilə sıx əlaqələri olduğunu düşünmək üçün əsas var (22, s.25). Bu, "hullu" adı ilə e.ə. III-II minilliklərdə təkcə Mesopotamiyada deyil (23, s.23, 32), həm də Kiçik Asiya və digər yerlərdəki sənədlərdə də təsdiqini tapmışdır (24, s.240).

Bir sıra tədqiqatçılar e.ə. II minilliyin başlanğıcında Assuriya taxtında lullubi mənşəli sülalənin oturduğu haqqında fikir irəli sürülmüşdür (21, s.90).

E.ə. III minillikdən etibarən Van və Urmiya gölləri ətrafındakı dağlardan, sonradan isə Cənubi Qafqazdan Yuxarı Mesopotamiya və Suriya vasitəsilə ayrı-ayrı axınlar şəklində hurri tayfalarının irəliləyişi baş verirdi.

Hurrilər, çox güman ki, hələ e.ə. III minillikdən etibarən İran yaylasının Qərb hissəsində, dağlıq Zaqros ərazilərində və Dəclədən şərqdə böyük rol oynamışdır, bu yerlərdə onların izləri qeydə alınmışdır (25, s. 63). Görünür, hurrilər Urmiyayanı ərazilərdə - Manna ərazisində də yayılmışdılar. Hurrilərin dili Urartu dilinə həddindən artıq yaxın idi. Bizə hurri çarlarının və kahinlərinin e.ə. III minilliyin ikinci dövrünə aid akkad dilində bir neçə və hurri dilində bir kitabəsi gəlib çatmışdır.

Kassit tayfalarının adı da ilk dəfə e.ə. XXIII əsrə aid mənbələrdə çəkilir. Kassit etnosunun əsas məskunlaşdığı ərazilər Luristan və dağlıq Zaqranın ona bitişik əraziləri idi.

E.ə. II minilliyin ikinci rübündə kassitlərin bir hissəsi tayfa yerdəyişmələrinə cəlb edilmişdir və dağlardan Diyala çayının vadisinə gələrək, buradan Babilistana basqınlar həyata keçirirdilər. Kassitlər Mesopotamiyaya daxil olduq-

ları zaman artıq kifayət qədər böyük qüvvəyə çevrilmişdilər, onların əsasını cəng arabalı hissələr təşkil edirdi. Cəng arabaları və atlar əvvəllər də məlum idi, lakin kassitlər arabanın quruluşunu və atların əhilləşdirilməsini xeyli təkmilləşdirdilər və ilk dəfə atlı- cəng arabalı döyüş taktikasını tətbiq etdilər (4, s. 418).

Beləliklə, tarixi Azərbaycan ərazisində e.ə. III-II minilliklərdə etnik tərkib ümumiyyətlə dəyişməz olaraq qalmışdı.

Yuxarıda deyilənlərdən göründüyü kimi, tunc dövrünün başlanğıcından e.ə. II minilliyin birinci rübünə qədər tarixi Azərbaycan ərazisində yaşamış qədim tayfalar kifayət qədər böyük və mürəkkəb inkişaf yolu keçmişlər (26, s.101; 27, s.47; 28, s.253).

İlk tayfa ittifaqları (kuti, lullubi), əmlak müxtəlifliyi yaranır, hərbi əməliyyatlar sıxlaşır; müharibə təkcə öz aralarında deyil, həm də Qədim Şərq ölkələrinə daxil olanlarla mübarizə aparan tayfaların əsas məşğuliyyətlərindən birinə çevrilirdi.

E.ə. II minilliyin ikinci rübündə tarixi Azərbaycanın Cənub bölgəsində istehsalatda, texnikada və əhalinin mədəniyyətində böyük yüksəliş müşahidə olunur: inkişaf etmiş tunc dövrü başlayır (28, s. 143).

Azərbaycanın Cənub bölgəsində sözügedən dövrə aid məskən və nekropolların mədəni təbəqələri bizə çox sayda müxtəlif tunc alətlər verir. Çox vaxt əvvəlki dövrün materiallarından fərqlənən çox sayda bəzək əşyaları və silah, xüsusən, balta, qılınc, xəncər, yüyən ağzı, ox ucu, sırğa, qolbaq meydana çıxır. Çox sayda tunc qablar aşkar edilmişdir (17, s. 114, cədvəl). Həm saxsı, həm də tunc incəsənətinin ən gözəl nümunələri Azərbaycanın Cənub bölgəsində, Cənubi Qafqaz və Kiçik Asiya vilayətlərinə qədər geniş yayılmış son dərəcə gözəl "çaydan" dəstidir (31, s.8).

E.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində tarixi Azərbaycanın Cənub bölgəsində ilk dövlət birlikləri yaranır. Sonuncuların əsas fərqləndirici cəhəti artıq qəbilə-tayfa deyil, ərazi bölgüsüdür. Deməli, artıq burada sinfi cəmiyyət yaranmağa başlamışdır.

E.ə. I minilliyin əvvəllərində kütləvi etnik yerdəyişmə axınları baş verir ki, onlar Azərbaycan ərazilərinə də gəlib çatır.

Qərbi İran tayfalarının Azərbaycan ərazisinə, xüsusən İran yaylasına nüfuzu yolları məsələsində alimlərin fikirləri fərqlənir. Bir sıra alimlər hesab edirlər ki, bu tayfalar şərqdən Orta Asiyadan gəlmişdir. Digərlərinin fikrincə, bu tayfalar şimaldan, Qafqaz vasitəsilə gəlmişdir (6, s. 334-373). Son araşdırmalar daha çox tayfaların Qafqaz yolundan gəlməsi haqqında nəticələrə meyl göstərir. Qərbi-İran tayfalarının şimaldan, Xəzər dənizinin qərb sahillərindən Anadolu yaylasının şərq yamaclarına doğru gəlməsi tamamilə mümkün görünür, həm də onların bir hissəsi Cənubi Qafqazın şərqi hissəsində və Van və Urmiya göllərinin arasındakı ərazidə qalırdı (30, s.355).

Qeyd etmək lazımdır ki, İranın Qərb hissəsinin e.ə. I minilliyin əvvəllərində Qərbi İran tayfalarının mədəniyyətini səciyyələndirən arxeoloji abidələrində Orta Asiyanın təsiri izləri aşkar olunmamışdır, bu abidələr onları Cənubi Qafqazın şərq hissəsinin mədəniyyətləri ilə əlaqələndirən bir sıra

səciyyəvi xüsusiyyətlərə malikdir. Buraya mədəni təsirin nəticəsi kimi baxıla biləcək bir sıra xüsusiyyətlər də aid edilir. Azərbaycanın Şimal hissəsinin əraziləri ilə əlaqələr səciyyəvi görünür (30, s. 369). Bununla belə, Azərbaycan ərazisinin şimal hissəsində son tunc– erkən dəmir dövrünə aid aşkar edilmiş arxeoloji komplekslərin Şimali Qafqaz, habelə çöl mədəniyyətləri ilə əlaqəsi mübahisəolunmazdır.

Hazırki Dağıstan ərazisində və Şimali Azərbaycan rayonlarında İran çöl mədəniyyəti Cənubi Qafqaz mədəniyyəti ilə bağlı olan yerli mədəniyyətlə birbirinə qarşılıqlı təsir göstərirdi (30, s. 369-370).

Hələ e.ə. X əsrdə Urmiyayanı ərazinin yerli əhalisi hurri-lullubilər idi və İran tayfalarının buraya qismən nüfuzu və ya mədəni təsiri ola bilərdi (31, s. 24).

E.ə. II minilliyin sonu – I minilliyin əvvəllərini əhatə edən dövrdə Cənubi Qafqaz (Azərbaycanın Şimal hissəsi) ərazisi ilə Cənubi Azərbaycan ərazisində möhkəm və daimi əlaqələr qurulurdu. Eyni zamanda, Arazdan şimalda yerləşən ərazi, bir qayda olaraq, özünəməxsusluğunu qoruyub saxlamışdı. Arxeoloji materialların təhlili, həmçinin Araz çayının hər iki tərəfində yerləşən abidələr bu bölgələrin əhalisi arasında bilavasitə əlaqələrə dələlət edir (32, s. 173).

Beləliklə, İran tayfaları Cənubi Qafqazın şərq hissəsində və İran yaylasında e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində meydana gəlir. Bu tayfalar arasında midiyalıların, saqartilərin, farsların və s. əcdadları var idi. Əvvəlcə onlara Manna ərazisində rast gəlinirsə, sonradan onların məskunlaşma sahəsi artıq cənuba doğru – müasir Xuzistanda yerləşirdi. Lakin qeyd etmək lazımdır ki, bu tayfalar Cənubi Azərbaycan ərazisində məskunlaşmışdılar, yerli irandilli olmayan tayfalarla əhatə olunmuşdular, onların məskunlaşdıqları bölgə - Zikirtu isə Manna çarlığının tərkibində idi. Şərqdən və Cənub Şərqdən Manna Mada – Midiya tayfalarının məskunlaşdığı bölgə ilə qonşu idi. İran tayfalarının qeyd edilən ərazilərə nüfuzu dinc xarakter daşıyırdı (33, s. 22-23).

E.ə. VIII əsrin sonları – VII əsrin əvvəllərində Şimali və Cənubi Azərbaycana Qafqaz dağları vasitəsilə yeni əhali qrupu – kimmer və skif tayfaları nüfuz edir. Kimmer tayfaları Azərbaycan etnogenezində zəif iz buraxmışdır, belə ki, onların əsas hərəkət istiqamətləri, demək olar ki, Azərbaycan ərazisindən keçməmişdir. Skif tayfaları isə əsasən Azərbaycanın Şimal-Qərbi və xüsusən Cənub ərazilərində məskən salmışdılar.

Tarixi Azərbaycan ərazisində aşkar edilmiş maddi mədəniyyət yerli əhali ilə skiflərin mədəniyyətinin qarşılıqlı təsirinə dələlət edir (32, s. 22-23).

Manna dövlətinin yaranması məsələsinə toxunarkən, Assur mənbələrinə diqqət yetirmək lazımdır.

Assur mənbələrində Cənubi Azərbaycan ərazisində Manna dövlətinin hegemonluğuna qədər assuriyalılara qarşı mübarizə aparan müxtəlif çarlıqların adları qeyd edilmişdir. Assuriya mənbələrində qeyd edilir ki, e.ə. I minilliyin əvəllərindən e.ə. VIII minilliyə qədər burada ayrı-ayrı çarlıqların birləşməsi prosesi gedirdi ki, onlar bu proses sayəsində artıq uzun müddət Assuriyalılara müqavimət göstərə bilirdilər.

Urmiya gölündən cənubda yerləşən ərazi uzun müddət Zamua adı ilə mövcud olmuşdur. Zamua torpaqlarının birləşməsi ilk dəfə e.ə. 881-ci ildə qeydə

alınmışdır. Həmin vaxt onlara Daqara ölkəsinin başçısı Nur-Adad rəhbərlik etməyə başlamışdır (34, s. 448). Nur-Adad assuriyalılara qarşı istehkam tikililəri tikir. Assuriyalıların qonşu ölkələrə yürüşü Nur-Adadın Bara, Bunasi və Larbusa şəhərlərini ələ keçirməsinə və öz mövqeyini möhkəmləndirməsinə imkan vermişdir.

Sonrakı illərdə assuriyalılar yenidən Zamua ərazisinə hücum etmiş və Birutu qalasını ələ keçirmişdir.

E.ə. 880-cı ildən etibarən artıq Zamua əhalisi yenidən Assuriya çarı II Aşşurnasirapala qarşı mübarizə aparır. Manna tayfalarının başında mənbələrdə çar adlandırılan, istehkam halına salınmış Zamri çar şəhərini idarə edən Ameka durur.

Ameka assuriyalılara inadla müqavimət göstərmişdir. Təslim olmaq istəməyən Ameka çar şəhərini tərk edərək, Etini dağlarında gizlənir.

Göründüyü kimi, assuriyalıların istehkam halına salınmış Zamri çar şəhərini və Arazitku, Ammaru, Parsiidu, İritu və Suritu qalalarını və onları əhatə edən 150 məskəni ələ keçirməsinə baxmayaraq, çar Ameka kifayət qədər geniş əraziyə malik idi. Lakin əhali dağlara çəkildi. Messu (Messi) qalası sonradan Mannaya aid idi (26, s. 142).

Ameka ilə yanaşı, istehkam halına salınmış Ammali şəhərinə rəhbərlik edən Araştua da assuriyalılara qarşı mübarizə aparırdı. Bundan başqa, kitabədə Assuriyalıların müxtəlif başçıların idarə etdiyi daha bir neçə şəhəri-qalanı ələ keçirdiyi yazılır.

Yuxarıda deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, şəhər-qalaların və paytaxt Zamri şəhərinin mövcudluğu, sənətkarlığın yüksək səviyyədə olması, Assuriya kimi o zamanlar güclü olan düşmənə müqavimət Ameka çarlığının artıq dövlət olduğunu – qəbilə icma quruluşunun aradan qalxdığını deməyə imkan verir.

Zamua torpaqlarında uzun müddət qaldıqdan sonra, assuriyalılar yalnız bu torpaqların bir hissəsini ələ keçirməyə müvəffəq oldu, bu bölgəyə daim nəzarət edə bilmək üçün burada Dur-Aşşur qalasını tikdilər. Assuriyalılar sonradan bu torpaqları Zamua və ya Mazamua adlandırırdılar (26, s. 157). Qalan hissəni onlar Daxili Zamua adlandırırdılar.

E.ə. 890-cıildə Urmiya gölünün qərb sahilində müstəqil Gilzan bölgəsi ortaya çıxır.

III Salamansarın salnaməsindən iki Gilzan çarının – Asau və Urunun adını öyrənirik. Sonradan Urartu öz sərhədlərini Urmiya gölünün sahilinə qədər çatdırmışdır, bilavasitə Manna və bu ərazidə Assuriya ilə həmsərhəd olduqdan sonra Assuriya çarlarının salnamələrində Gilzanın adı artıq çəkilmir. Bu bölgə həmin vaxt güclənmiş Urartu dövləti tərəfindən ələ keçirilmişdi (26, s. 164).

Bəzi bölgələrin birgə mübarizəsi, onların uzunmüddətli müqaviməti e.ə. I minilliyin əvvəllərində Urmiyayanı bölgələrdə torpaqların ittifaqının artıq kifayət qədər möhkəm və hərbi-siyasi cəhətdən müstəqil şəkildə mövcud olmağa qadir olduğunu göstərir ki, bu da eyni zamanda onların iqtisadi səviyyəsi ilə təmin edilirdi.

## ƏDƏBİYYAT


1. Parrot A. Archeologie Mesopotamienne. Paris, 1953.
2. Нариманов И. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку, 1987.
3. Абибуллаев О. Энеолит и бронза в Нахичеванской АССР. Баку, 1982.
4. Ахундов Т. Лейлатепе. Баку, 2007.
5. Мусеибли Н. Энеолитическое поселении Беюккесик. Баку, 2007.
6. Сардарян С. Первобытное общество в Армении. Ереван, 1967.
7. Herzfeld E. Iran in the Ancient East. London. New York, 1941.
8. Чайл Г. Прогресс и археология. М., 1949.
9. Чайл Г. Древнейший Восток в свете новых раскопок. М., 1956.
10. Field H. Contrubution to the anthropology if Iran. Chicago, 1939.
11. Brown T.B. Excavations in Azerbaijan, 1948.
12. Przewrski St. Zaqadnienie wplywow bliskiego Wshodu w kulturze Fatjanowskiej Rospi Srodkowej. Das Problemder Vorderasiatischen Einflüsse inder Fatjanowo-kultur Central Russlands, Swiatowit, Warsawa, XV, 1933.
13. Абибуллаев О. Труды Института истории и философии АН Азерб.ССР, т.IX, 1956.
14. Куфтин Б.А. Археологические раскопки в Триалети. Тбилиси, 1941.
15. Аракелян Б.Н. Гарни, I, Ереван, 1951.
16. Ghirshman R. Notes sur les peuples et l`art de l`Iran prehistorique Revue des Arts Asiatiques, X, Paris, 1936.
17. де Морган Ж. Доисторическое человечество. М-Л., 1923.
18. Jacobson Th. The Sumerian King List. Chicago, 1939.
19. Керимов В.И. Оборонительные сооружения Азербайджана древнего периода (III-I тыс. до н.э.). Баку, 2003.
20. Barton G. The Royal Inseriptions of Sumer and Akkad. New Haven, 1929.
21. Speiser E.A. Mesopotamian Oriqins. The basic population of the Near East. Philadelphia, 1930.
22. Landsberger B. Habiru and Lulahhu. Kf I, 1929.
23. Gelb I. Habiru und Subarians. Chicago, 1944.
24. Stephens F. Personal Names from cuneiform inseriptions of Cappadocia. New Haven, 1928.
25. Алиев И.Г. История Мидии. Баку, 1960.
26. Дьяконов И.М. История Миди: от древнейших времен до конца IV в. до н.э. М-Л., 1956.
27. Guterbock H.G. Die historiche Tradition und ihre literaturische Gestaltung beiden Babylonier und Hettitern dis 1200 ZA, XLII, 1934.
28. История Древнего Востока. Зарождение древнейших классовых обществ и первые очаги рабовладельческой цивилизации. Ч. I, Месопотамия, М., 1983.
29. Jacobsen Th. The Sumerian King List. The Oriental Institute of Chicago. Assyrological Studies, №11, Chicago, 1939.
30. Грантовский Э.А. Ранняя история иранских племен Передней Азии. М., 1970.
31. Ghirschman R. Persia from the Originsto Alexander the Great. London, 1964.
32. Погребова М.Н. Иран и Закавказье в раннем железном веке. М., 1977.
33. Алиев И.Г. Очерки истории Атропатены. Баку, 1989.
34. Rewlinson H.C. Cuneiform Inseriptions of Western Asia, I, pl. 20, строка 4-25, London 1861: ARAB, I, 448.

# VAN ÇARLIĞININ (URARTU) TARİXİNİN ÖYRƏNİLMƏSİ

E.ə. I minilliyin əvvəllərində tarixi Azərbaycanın Qərb bölgəsi Urartu dövlətinin (Van çarlığı) tərkibinə daxil idi. Bu qədim dövlətin mərkəzi Van gölü ətrafında yerləşirdi, çox güman ki, Van şəhəri kimi, Van gölü də adını urartuluların öz dövlətlərinin mərkəzi hissəsinə verdikləri Biayn adından almışdır.

Urartu dövləti nisbətən az – cəmi 300 il mövcud olmuşdur. Bu dövr ərzində o, Ön Asiyada üstünlük təşkil edən dövlətlərdən biri olmağa və e.ə. VIII əsrin birinci yarısında daimi rəqibi olan Assuriya üzərində üstünlük qazanmağa müvəffəq olmuşdur.

Urartu dövlətinin mədəni təsiri Ön Asiyanın Şimal hissəsində və tarixi Azərbaycan ərazisinin Cənub və Qərb bölgələrində xüsusilə çox hiss olunurdu və onların ictimai inkişafının gedişini sürətləndirirdi.

Hələ XVII əsrdə Ön Asiyanın bir çox şəhərlərində Ön Şərq ölkələrinin mədəniyyətinə böyük maraq göstərən Avropa diplomatik nümayəndələri var idi.

İlk vaxtlar Qədim Şərq diplomatik nümayəndəlikləri Şərq ölkələrinin tədqiqi üzrə əsərlər yazmışdır və onların əksəriyyəti, məsələn, Roulinson Leyard, Botta sonradan böyük alim olmuşdur.

1817-20-ci illərdə ingilis tədqiqatçısı Kerr-Porter (P.Ker-Porter) Azərbaycana, İrana və Mesopotamiyaya gələrək, çox sayda qədim fars abidələrini tədqiq etmişdir və bununla bağlı əsərlər dərc etmişdir (1).

Təxminən elə həmin illərdə Parisdə Asiya Cəmiyyəti təsis edilmişdir (1822-ci il), onun iş planına Ön Asiya ölkələrinə ekspedisiyalar da daxil idi. Elə həmin il Ön Asiyanın mərkəzi hissəsinin az tədqiq edilmiş hissələrinə (Türkiyənin Şərq hissəsi) baxış keçirilmişdir. Bu bölgəyə bir sıra alimlər ezam edilmişdir, tədqiqatlar zamanı onlar əsasən Van yaxınlığında çox sayda mixi yazılar, habelə qədim abidələr aşkar etmiş və surətlərini çıxarmışdır (2, s. 257-323).

1840-cı ildə Urartu kitabələrinin digər nüsxələri də məlum olmuşdur (3, s. 70-75).

1840-cı ildə Dəclə sahillərində, qədim Assuriya dövlətinin mərkəzində arxeoloji kəşflər Ön Asiyanın ən qədim tarixinin gələcək tədqiqi üçün güclü təkan verdi.

Bu kəşflər Assuriyaşünaslığın tədqiqinə böyük təsir göstərmişdir. Qədim Dünya tarixinə İkiçayarasının tədqiqi ilə məhdudlaşan Ön Asiya tarixi də əlavə edildi.

Türkiyənin şərq hissəsində aşkar edilmiş Van kitabələrinin oxunması üzrə ilk iş E.Hinks tərəfindən həyata keçirilmişdir. O, 1848-ci ildə bu kitabələrlə bağlı xüsusi məqalə dərc etmişdir (3, s. 70-75).

Şərqi Anadolu (Türkiyə) ərazisində yeni mixi (xətli) kitabələrin toplanmasından əlavə, eyni zamanda tarixi Azərbaycan ərazisinin Qərb bölgəsində də

mixi yazıların axtarışı başlanmışdır. 1862-ci ildə Qanlıca kəndi yaxınlığında, Arpaçay çayının sağ sahilində və Eylər kəndi yaxınlığında mixi kitabələr, 1863-cü ildə isə Sevan (Göyçə) gölünün cənub sahilində Kolagirən qalası yaxınlığında mixi kitabə kəşf edildi (4).

Urartu mixi kitabələrinin öyrənilməsi və Assuriya mixi mətnləri ilə müqayisəsi Urartu sözlərinin və qrammatik ifadələrinin mənalarını düzgün müəyyən etməyə imkan verdi.

1882-ci ildə Britaniya Asiya Cəmiyyətinin jurnalında həmin vaxtlar məlum olan kitabələrlə bağlı ilk məlumatlar əksini tapmış, ingilis Assurşünası A.Seys onları tərcümə etmişdir (5, s.377-732).

Mixi yazıların tədqiqində növbəti araşdırmalar Aşrut-Darqadan (Azərbaycanın Qərb bölgəsi) kitabələri dərc edən Avstriyalı alim D.H.Müllerin tədqiqatları oldu (6).

Həmin vaxta qədər tarixi Azərbaycanın Qərb bölgəsində kəşf edilən Urartu epiqraf abidələrinin sayı xeyli çoxalmışdır.

1875-ci ildə hələ 1863-cü ildə Sevan (Göyçə) gölünün cənub-qərb sahilində kəşf edilmiş Atamxan kitabəsi dərc olundu (7, s.21).

Cənubi Qafqazın arxeoloji tədqiqinin inkişafına 1881-ci ildə Tiflisdə yaradılmış V Arxeoloji qurultay böyük təsir göstərdi. Həmin qurultaya hazırlıq komitəsinin iş planına Urartu kitabələrinin tapıldığı Kürdük təpəsində qazıntılar daxil edilmişdi (8, s. 115-122).

Mərkəzi arxeoloji təşkilatlar qədim Urartu abidələrinə həsr olunmuş xüsusi işlər də həyata keçirirdilər. Məşhur assurşünas M.V.Nikolski xüsusi olaraq Azərbaycanın Qərb bölgəsində kəşf edilmiş Urartu kitabələri ilə məşğul olurdu (9).

Lakin qeyd etmək lazımdır ki, 1717-ci ildə Müq. Lazer adasında (Venesiya yaxınlığında) Qədim Qafqaz abidələrinin öyrənilməsi üzrə katolik kilsəsi təsis edilmişdi, 1813-cü ildən etibarən isə qədim Urartu abidələrinə həsr olunmuş jurnal dərc olundu.

1811-ci ildə Vyana şəhərində mxitaristlərin ikinci mərkəzi yaranır, mərkəz Şərqi Anadolu ərazisində və tarixi Azərbaycan ərazisinin Qərb bölgəsində "Ermənistan tarixi"nin xristianlığa qədərki dövrü ilə bağlı məsələlərə həsr olunmuş jurnal dərc edir.

Mxitaristlərin həyata keçirdikləri elmi fəaliyyət ermənilərin feodal-kilsə ideologiyası ilə sıx əlaqəli idi və mürtəce xarakter daşıyırdı.

Təbii ki, mxitaristlər tərəfindən ən qədim Ermənistan tarixinin tədqiqi üzrə həyata keçirilən bu işlər Urartu dövləti ilə bağlı materiallara toxunmaya bilməzdi. Lakin başqa ölkələrin alimləri sübut etmişlər ki, ermənilərin mənşəyinə və onların tarixi Azərbaycanın Qərb bölgəsində, eləcə də bütün Cənubi Qafqaz ərazilərində məskunlaşmasına yalnız miqrasiya nöqteyi-nəzərdən baxılırdı, bu, ermənilər və hazırda ermənilər yaşayan həmin bölgələrin qədim yerli əhalisi arasında nəzərəçarpan antropoloji fərqlər olduğunu sübuta yetirən antropoloji tədqiqatlarla da təsdiqini tapırdı (10, s.10).

Həmçinin Van çarlığının tədqiqi işində N.Y.Marrın gördüyü böyük işləri qeyd etmək lazımdır. Onun 1891-ci ildə Azərbaycanın Qərb bölgəsində başlatdığı sistemli arxeoloji tədqiqatlar Cənubi Qafqaz tarixinin ən qədim mər-

hələlərinin Qədim Şərq tarixi ilə sıx əlaqəli şəkildə tədqiqinin düzgün tərtib edilməsinə imkan verdi (11; 12).

N.Y.Marrın Urartu mixi yazılarına həsr edilmiş tədqiqatları İ.İ.Meşaninov tərəfindən davam etdirilmişdir və o, Urartu dili haqqında məlumat vərəqəsi tərtib edilmişdir (13; 14).

A.Getsenin ikidilli Urartu-Assuriya kitabəsi olan Kelyaşin stelasına həsr edilmiş tədqiqatı Urartu mixi yazılarının tədqiqində yeni addımları möhkəmləndirən iş oldu (15, s. 99-128).

Van mixi yazısının tədqiqi tarixinin yuxarıda verilən xülasəsindən görürük ki, 150 ildən çox davam edən bu iş bir çox alimlərin, qədim Şərq və bütünlükdə Qafqaz dilləri üzrə mütəxəssislərin diqqətini çəkmişdir. Urartu dili üzərində iş güclü elmi əsaslar vermişdir.

Van çarlığının arxeoloji tədqiqi sahəsində tamamilə başqa mənzərə ilə qarşılaşırıq. Bu əsərlər müəyyən mənada mixi yazıların tədqiqi ilə bağlı deyildi. Həmin dövrdə qazıntılar yalnız Urartunun mərkəzi hissəsində, Van şəhəri yaxınlığındakı qədim Toprak-kale qalasında aparılırdı (16, s. 377).

1898-1899-cu illərdə Lemann Qaupt və Belkin rəhbərlik etdiyi alman ekspedisiyası tərəfindən Toprak-kaledə daha geniş qazıntılar aparılırdı. Həmin illərin arxeoloji axtarışları abidənin tarixini müəyyən edərək, onu e.ə. I minilliyə aid etməyə imkan verdi (17, s. 127).

Toprak-kaledə qazıntılardan başqa, Lemann Qaupt və Belk Şərqi Anadoluda (Türkiyə) Urartu dövrünə aid abidələrin qeydiyyatı və onlara baxış məqsədilə kəşfiyyat apardılar (e.ə. I minillik).

Urartu incəsənəti abidələri məlum olduqda, onlar Qaradəniz ətrafı və Şimali Qafqazla məşğul olan arxeoloqların böyük marağına səbəb oldu. Skiflərin Cənubi Qafqaz və Ön Asiyanın şimal hissələri ilə real əlaqələri təsvir edilməyə başladı.

B.A.Turayev 1914-cü ildə "Qədim Şərq Tarixi" əsərində Van gölünün geniş xülasəsini vermişdir (18). Alim Van çarlığının və ona qonşu vilayətlərin qədim abidələri haqqında qeyd tərtib etmişdir.

Rusiya Arxeoloji Ekspedisiyasının Van ərazisində həyata keçirdiyi işlərdən sonra arxeoloji işlərə 20 ildən çox fasilə verildi. Yalnız 1938-ci ildə Van qalasında və Toprak-kaledə Amerika Arxeoloji Ekspedisiyası işləyirdi (19, s. 90; 20, s. 581-584).

Şərqi Anadolu (Türkiyə) ərazisində arxeoloji qazıntıların dayandırıldığı dövrdə Cənubi Qafqazda (tarixi Azərbaycanın Qərb bölgəsi) qazıntılar geniş inkişaf etmişdir. 1924-cü ildən 1940-cı ilə qədər orada arxeoloji xəritənin tərtib edilməsi məqsədilə daim arxeoloji axtarışlar həyata keçirilirdi.

1926-1936-cı illərdə bu bölgədə sistemli şəkildə mixi kitabələrin axtarışı həyata keçirilirdi. Mixi mətnlər Kolagirən, Nur-Bəyazit, Kürdük və Çarbax qalaları yaxınlığında aşkar edilmişdir. Kitabələrdə Urartu çarları Sardurun oğlu Rusanın və Argiştinin oğlu Sardurun adları əks olunurdu.

Mixi kitabələrin aşkarlanması Urartu dili üzərində işləri gücləndirmişdi.

Tarixi Azərbaycanın Şərq hissəsində də Urartu mədəniyyətinə maraq müşahidə olunurdu.

Bakı Dövlət Universitetində Van çarlığına həsr olunmuş xüsusi dərs verən İ.İ.Meşaninov da Azərbaycanın arxeoloji tədqiqində bilavasitə iştirak edirdi.

Muzey materialları üzərində də uğurlu iş gedirdi, bu işlər Van çarlığının tədqiqi ilə bağlı kifayət qədər maraqlı nəticələr vermişdir. Məlum oldu ki, 1895-ci ildə E.Reslerin Xocalı qəbirstanlığındakı kurqanlardan birində tapdığı əqiq daşının üzərində əvvəllər aydın olmayan işarələr mixi yazı imiş, onda Assur çarı Adanirarinin adını oxumaq mümkün olmuşdur (21, s. 107).

Lakin Azərbaycanın Şərq bölgəsində Urartu epiqraf abidələrinin axtarışları uğurla nəticələnmədi. Çox güman ki, bu, Urartuluların Azərbaycana irəliləyişi zamanı yalnız Sevan (Göyçə) gölündən şərqə nüfuz edə bildiklərini göstərir. Sonrakı irəliləyiş, çox güman ki, daha qüdrətli tayfa ittifaqlarının güclü müqavimət göstərməsi və əzəmətli istehkam tikililərinin olması ilə əlaqədar idi (22, s. 33-39; 23, s. 66-77).

Mixi kitabələrin tədqiqi ilə eyni zamanda istehkam tikililərinin tədqiqi başlamışdır, onlarda Azərbaycan ərazisinin həm Şərq, həm də Qərb bölgəsində belə mətnlər aşkar edilmişdir (24; 25).

Azərbaycanın Qərb bölgəsində iri daş bloklarından hörülmə xüsusiyyətinə görə "siklopik" adlandırılan qədim istehkamlar kifayət qədər çoxdan tədqiq edilirdi. Kürdük təpəsində aşkar edilmiş siklopik divar hörgüsünün qalıqları digər istehkamlar kimi, Urartu dövrü ilə bağlı idi. A.A.İvanovskaya Daşburun və Qanlıtəpə kəndləri yaxınlığındakı qalaları tədqiq etmişdir, burada mixi mətnlər aşkar edilmişdir. Sonradan qala dağıntılarından bəziləri ilə mixi yazılarda rastlanan qədim adları (Kolagirən və Atamxan kitabələri) əlaqələndirmək mümkün olmuşdur.

Azərbaycanın Qərb bölgəsində qədim istehkamların hələ səthi tədqiqi zamanı onların müxtəlif dövrlərə aid olduğu məlum oldu.

Alagöz dağı və Sevan (Göyçə) gölü zonasında toplanmış kəşfiyyat materialları istehkam halına salınmış məskənləri və qalaları növünə və tikinti materialına görə dörd əsas qrupa bölməyə imkan verdi. Arxeoloji materiallardan ən qədiminin orta tunc dövrünə aid olduğu (e.ə. II minillik) təsdiq olundu. İkinci qrup qalalar e.ə. IX-VII əsrlərə aiddir və Urartu dövrünə aid inşaatın səciyyəvi növüdür (Çarbaxqala, Qanlıtəpə, Nur-Bəyazit, Kolagirən qalası).

1931-ci ildə İ.İ.Meşaninov Azərbaycanın Şərq hissəsində də buna bənzər abidələrin olması ilə əlaqədar Azərbaycanın Qərb bölgəsindəki qədim qalalara yenidən baxış keçirdi (25).

Amma bu kəşfiyyat işləri də tarixi Azərbaycan ərazisində e.ə. IX-VII əsrlərə aid qədim abidələrin aydın təsvirini vermədi.

Urartu dövrünə aid abidələr kompleksinin müəyyənləşdirilməsi məqsədilə daha geniş işlər üçün Urartu çarı Argiştinin oğlu Rusanın adı yad edilən mixi kitabələr aşkar edilən qədim Kolagirən qalası seçilmişdir.

Arxeoloji tədqiqatlar Kolagirən qalasını Urartu dövrü olan e.ə. VII əsr – e.ə. VI sərin əvvəllərinə aid etməyə imkan verən materiallar aşkar etməyə şərait yaratdı. Çox sayda maddi mədəniyyət əşyaları onların Van gölü ərazisi, Urartu dövlətinin mərkəzi, həm də Azərbaycanda qazılmış qədim qəbiristanlardan çıxan əşyalarla əlaqələrini aşkara çıxardı.

Kolagirən qalasında qazıntılar həm Urartu mədəniyyətini, həm də Urartu hakimiyyətinin son mərhələsində kimmer və skiflərin mədəniyyəti ilə bağlı olan Azərbaycan mədəniyyətini tədqiq etməyə imkan verdi.

Son on illər boyunca Şərqi Anadoluda (Türkiyə) Urartu abidələrinin tədqiqi üzrə böyük işlər görülmüşdür.

B.Alkim tərəfindən Tilmen Hüyükdə genişmiqyaslı işlər həyata keçirilmişdir (1959-964; 1969-1972-ci illər), burada tunc dövrünə aid olan siklopik qala divarı hörgüləri aşkar edilmişdir.

Tunc dövrünün arxeoloji qazıntılar həyata keçirilən növbəti abidələri – Van-Qaragündüz, Ernis-Evditəpə, Van-Yoncatəpə, Tuşpa, Aşağı və Yuxarı Ənzaf, Çavuştəpə, Toprakkale, Ürek qalası, Aşık Hüseyn qalası, Payız qalası və Şorik qalası oldu.

Şərqi Anadoluda aparılan bu araşdırmalar Van çarlığının tədqiqi tarixini təkmilləşdirməyə imkan verdi. Arxeoloji və memarlıq tədqiqatları da istehkam halına salınmış qədim məskənlərin və e.ə. I minilliyə aid qalaların planlaşdırılması növlərini kompleks şəkildə tədqiq etməyə imkan verir (26).

## ƏDƏBİYYAT


1. Ker-Porter P. Travels in Georgia. Parsia, Armenia. Ancient Babylonic durimg the years 1817-1820, I-II 1821.
2. Schulz F.E. Memories sur le laced Van erses environs. JA, IX, 1840, c.257-323.
3. Rewlinson H. Monatsberichte über die Verhandlungen der Gesellschaft für Erdkundezu Berlin, 1, 1840, c.70-75.
4. «Вестник России», изд. Лазаревского Института в Москве, 1863, №3.
5. Sayec A.H. The cunelform inscriptions of Van, JRAS, XIV, 1882, c.377-732.
6. Muller D.H. Die Keil Inschrift von Aschrut-Darqa, DWAW, 1888.
7. Раде Г. Краткий очерк истории развития Кавказского Музея. 1891, с.21.
8. Уваров А.С. Исследования местности развали Армавира, Протоколы подготовительного комитета к V Археологическому Съезду, 1881, с.115-122.
9. Никольский М.В. Клинообразные надписи Ванских царей, открытых в пределах России, ДВ, I, в.3, 1893.
10. Пиотровский Б.Б. История и культура Урарту. Ереван, 1944, с.10.
11. Марр Н.Я., Орбели И.А. Археологическая экспедиция 1916 г. в Ван, 1922.
12. Марр Н.Я. Халдская клинообразная надпись из села Леска Ванского округа ИАН, 1915, с.1731-1733.
13. Мещанинов И.И. Халдоведение. Баку, 1927.
14. Мещанинов И.И. Язык Ванских клинописных надписей на основе яфетического языкознания. I, 1932.
15. Götze A. Zur Kelischin Stele, ZA, N.F. v, в.1-3, c.99-128.
16. Rassam H. Asshurand the lend of Nimrod, 1879, c.377.
17. Lehmann-Haup C.F. Materialien VBGAEU, 1898. c.127, 522, 568; 1899, c.236, 218, 293.
18. Тураев Б.А. Записки о древностях Ванна и сопредельных местностей ЗВО, XXII, 1915, с.XKIV-XLVII.
19. Краткие сведения о работах американской экспедиции.
20. АО, XII, в.1-2а, 1939, с.90 и JDAI, 55, 1940, с.581-584.
21. Мещанинов И.И. ИООИА, II, 1926, с.52; там же, III, 1926, с.107.
22. Мещанинов И.И. Предположительные сведения о движении халдов в пределы Азербайджана ИААК, II, 1926, с.33-39.
23. Мещанинов И.И. Восточное Закавказье времен халдских завоеваний ВДИ, 1937, I, с.66-77.
24. Джафарзаде И.М. Циклопические сооружения Азербайджана. Труды Азерб. Филиала АК.Наук, №55, 1938.
25. Мещанинов И.И. Циклопические сооружения Закавказья. Изв.ГАИМК, XIII, в.4-7, 1932.
26. Turkiye Arxelojisi və İstanbul Üniversitesi (1932-1999) 2000.

# URARTU DÖVLƏTİ TARİXİ AZƏRBAYCAN ƏRAZİLƏRİNƏ EKSPANSİYA DÖVRÜNDƏ

Urartu dövləti Kiçik Asiyanın şərq bölgələri, İranın Şimal-Qərb rayonları və Şimali İkiçayarası arasında yerləşən böyük yaylanı əhatə edirdi. Bu dövlətin mərkəzi Van gölü ərazisində idi. Urartu dövləti nisbətən az – təxminən 300 il mövcud olmuşdur, lakin o, bir müddət ərzində Ön Asiyada üstün mövqelərdən birinə nail olmağa müvəffəq olmuşdur.

E.ə. II minillikdə Cənubi Qafqaz və Kiçik Asiyanın, Şimali İkiçayarasının qonşu əraziləri və Dəclə çayından şimal-şərqdəki dağlıq rayonların sərhədində Ön Asiyanın şimal hissəsinin ən qədim xalqları ailəsinə daxil olan tayfalar yaşayırdı.

Urartu ölkəsi haqqında hazırda mövcud olan məlumatlardan ən qədimlərinə e.ə. XIII əsrin birinci yarısına aid Assuriya tarixi mətnlərində rast gəlinir.

Assuriya çarı I Salmanasarın (e.ə. 1880-1261-ci illər) kitabəsində "Urartu ölkəsinin sərhədlərindən Kutmux ölkəsinə qədər" ərazidə kutilərin məğlubiyyəti haqqında danışılır. Assuriya mənbələrindəki məlumatlardan belə bir nəticə çıxarmaq olar ki, Urartu ölkəsi Van gölü ətrafında dağlıq ərazidə yerləşirdi, belə ki, kutilər Assuriyadan şimal-şərqdə yaşayırdılar (1, s. 113-114).

I Salmanasarın bu mətnində bununla əlaqədar məlumatlarda bu Assuriya çarının hakimiyyətinin başlanğıcında Urartu ölkəsinə hazırlanan yürüş haqqında kifayət qədər ətraflı danışılır (1).

Bu mətn Assuriyalıların Urartu ölkəsinə yürüşü, səkkiz vilayətin ələ keçirilməsi, məskənlərin və qalaların dağıdılması haqqında bəhs edir.

Bu mətndən belə bir nəticəyə gəlmək olar ki, e.ə. XIII əsrdə Urartu hələ dövlət deyildi, ən güclü tayfanın adı ilə (bu halda Urartu) adlandırılan tayfa ittifaqı idi.

I Salmanasarın oğlu I Tukuliti-Ninurtanın mətnlərində artıq başqa tayfa ittifaqının adı çəkilir; yeni ittifaqın başında qədim Misir mətnlərində Naxarin ilə müqayisə olunan Nairi ölkəsi dururdu.

I Tukulti-Ninurtanın Aşurdakı sarayından tapılan steladakı kitabədə Naxarin ölkəsinin Assuriyaya qarşı çıxan 40 çarının adı çəkilir, onların məğlubiyyətləri, habelə xərac (biltu) və bəxşişlərin (tamartu) qoyulması haqqında danışılır (2).

I Tiqlatpalasarın (e.ə. 1116-1090-cı illər) mətnlərində Naxarin ölkəsinə yürüş haqqında ətraflı məlumat var (2). Assuriyalıların dəfələrlə Urartu ölkəsinə yürüşləri hazırlanırdı (2).

"Urartu ölkəsi" terminінə ilk dəfə II Aşurnasirpalın (e.ə. 883-859-cu illər) Kalxudakı sarayında əzəmətli heykəllərdə yerləşən salnaməsində rast gəlinir. Onlarda assuriyalıların "Subiat çayının (Dəclə çayının yuxarı axınında) mənbəyindən Urartu ölkəsinə qədər" torpaqları ələ keçirməsindən danışılır (2).

II Aşurnasirpalın salnaməsində, həmçinin Naxarin ölkəsinə yürüşün, çox sayda qalanın dağıdılmasının da təsviri var. II Aşurnasirpal əcdadı Salmanasarın yolundan gedərək, Naxarin ölkələri üzərində hökmranlığını möhkəmləndirmək üçün bu ölkələrin qalalarından bəzilərində assuriyalıları yerləşdirmişdir.

E.ə. IX əsrin ikinci rübünə qədər Assur salnamələrində yalnız Urartuya tabe olan ölkələr haqqında ayrı-ayrı qeydlər var, amma II Aşurnasirpalın hakimiyyəti dövründən başlayaraq, Assuriya Ön Asiyada itirilmiş üstün mövqeyini bərpa etdikdən sonra assuriyalıların Urartuya yürüşlərinin təsviri daimi xarakter alır.

II Aşurnasirpalın sələfi III Salmanasar (e.ə. 860-825-ci illər) hakimiyyətinin ilk illərindən artıq dövlət olan və Assuriyalıların şimala ekspansiyalarına mane olan Urartuya qarşı həlledici mübarizə aparmaq məcburiyyətində qalmışdır.

Assur mənbələrindən gətirilən məlumatlar (e.ə. XIII-IX əsrlər) Van gölünə bitişik ərazidə tədricən Urartu dövlətinin formalaşdığını kifayət qədər aydın göstərir.

Assur mənbələrinin materialları Urartuluların və Urartu dövlətinin mənşəyi məsələsini həll etməyə imkan verdi. Bu prosesdə urartuluların Kiçik Asiyanın Qərb hissəsindən miqrasiyası nəzəriyyəsi üstünlük təşkil etdi (3), lakin növbəti araşdırmalar urartuluların bir vaxtlar xüsusilə məşhur olan Ön Asiya xalqı – hettlərlə əlaqəsi olduğunu isbat etməyə imkan verdi. Qədim Şərq dilləri haqqında əsərlərdə tamamilə əsaslı olaraq Urartu dilinin hettlərlə (4; 5), habelə Ön Asiyanın, daha dəqiq isə, Qafqazın digər dilləri ilə əlaqəsi qeyd olunmuşdur.

Ön Asiyanın ən qədim tarixinə həsr edilmiş əsərlərdə urartuluların qərb mənşəli olduğu barədə nəzəriyyələr qətiyyətlə təkzib olunmuşdur və onlar Ön Asiya xalqları – e.ə. II minilliyin birinci yarısında Ön Şərqin siyasi həyatında böyük əhəmiyyət daşımış hurrilərlə əlaqələndirilmişdir (5).

Hett tayfasının adını müəyyən edən hett mətnlərində Van gölü ətrafında yerləşən Hurri (əvvəlki oxunuşu – Harri) ölkəsi ətrafında qruplaşmış tayfalar ittifaqı olan "Hurri ölkələri" haqqında da aydın şəkildə bəhs olunur.

Bir sıra alimlər assuriyalıların "Hurri ölkələrini" "Naxarin ölkələri" adlandırdıqlarını hesab edirlər (3, s. 48) və Urartu dövlətinin formalaşmasında (e.ə. I minilliyin əvvəllərində) hurri siyasi ənənələrinin bərpasını görürlər.

Mixi kitabələrdə, demək olar ki, Urartuluların Cənubi Qafqaz ərazisindən qərbə doğru və ya uzaqlarda bir yerdə yerləşən ilk vətəni haqqında hər-hansı birbaşa məlumat qalmamışdır. Digər tərəfdən, Biannili ölkəsinin köhnə və müasir adları Van gölünün adında qorunub saxlanmışdır (Kumaxa ölkəsinin adı) (Fərat çayından şimal-qərbdə). Ola bilər ki, Ərzurum rayonunda və Fərat çayının yuxarısında urartululara yaxın olan "diauxlar" tayfası yaşayırdı. Qədim Yunan tarixçisi Ksenofont onları "taoxlar" adlandırırdı. Yuxarıda qeyd edildiyi kimi, urartuluların qədimdən Ön Asiyanın şimal hissəsindəki ərazilərdə məskunlaşan hurrilərlə xüsusilə sıx əlaqələri var idi. Urartu tayfalarının Cənubi Qafqazın çox qədimdən bu ərazilərdə məskunlaşan əhalisi olduğunu hesab etmək üçün də hər cür əsas vardır.

Qədimdə Cənubi Qafqazda təsərrüfat həyatı, urartulular və yaxınlıqda yaşayan diauxlar və mannalılar arasında yaranmış tayfa ittifaqları, qədim urartu-

luların mədəniyyəti, dini və dili, şübhəsiz, qonşu xalqların – hurrilərin, assuriyalıların və Cənubi Qafqazın qədim xalqlarının həyatı ilə əlaqəli idi.

Və həqiqətən, bu yaxınlara qədər hurri-urartu və hett dillərinin genetik mənşəyi haqqında çox az məlumat var idi. Hələ 1954-cü ildə dilşünaslar hurri-urartu dillərinin Qafqaz dilləri ilə qohumluğu haqqında fərziyyə irəli sürmüşlər. Bu fərziyyə üzərində işləyən İ.M.Dyakonov (6; 7) hurri-urartu və Qafqaz dilləri arasında bir sıra fonoloji, leksik və morfoloji oxşarlıqları qeyd edərək, bununla onların qohumluğu ehtimalını göstərmişdir.

Qafqaz dilinin hurri-urartu və hhett dilləri ilə yaxınlığının tədqiq edilməsinin nəticələri Yaxın Şərq ərazisində yayılmış dillərdə danışan xalqların etnogenezinin və miqrasiya yollarının müəyyən edilməsi üçün maraq doğurur.

Yuxarıda deyilənlərdən belə ehtimal etmək olar ki, hurri-urartu və hett dili və Cənubi Qafqaz xalqlarının bəzi müasir dilləri arasında ardıcıllıq və hətta ola bilər ki, qohumluq var. Urartu ən qədim Cənubi Qafqaz və qismən Qafqaz xalqlarının həyatının öyrənilməsi üçün də böyük əhəmiyyət daşıyır.

E.ə. IX əsrin sonlarında Ön Asiya tarixində Van çarlığının intensiv inkişafı və sərhədlərinin xeyli genişlənməsi müşahidə olunur.

Urartulular Van və Urmiya gölləri arasındakı ərazini bütün səylərilə mənimsəməyə başlayırlar. Urmiya gölünün cənub-qərb sahili istiqamətindəki aşırımda yerləşən Kelyaşin stelasında Assuriya və Urartu dillərində olan ikidilli mixi kitabə Assur mətnində Musasir, Urartu mətnində isə tanrı Ardanın şəhəri adlandırılan şəhərin Van çarlığına tabe edildiyi yazılır. Van gölündən cənub-şərqdə (8,s.99-128), müasir Rəvandüzşəhəri yaxınlığında yerləşən bu şəhərdə urartuluların böyük tanrı Haldiyə sitayiş üçün nəzərdə tutulmuş ən qədim dini mərkəzi yerləşirdi.

Bu ərazidə çoxlu sayda hurrilərin yaşamasına və zaqra-elam qrupuna aid tayfaların buraya nüfuz etməsinə baxmayaraq, burada Urartu mədəniyyətinin ən qədim ocaqlarından biri yaranmışdır. Tanrı Haldininəsas məbədinin yerləşdiyi bu qədim dini mərkəz urartuluların xüsusi hörmətini qazanmışdı və Urartu çarlarının tacqoyma mərasimi burada keçirilirdi.

Urartu yürüşlərinin istiqamətləndiyi ikinci ərazi Urmiya gölünün cənub sahili idi. Kitabədə Barşua ölkəsinin və Menua kitabəsində Manna ölkəsində, Daştəpədə yerləşdiyi bildirilən Meşta şəhərinin fəth edildiyi yazılır. Mətnlərdən birində həmçinin Urmiya gölünün cənubuna göndərilən qoşunun sayı da göstərilir: qoşun 106 cəng arabalı, 9174 atlı və 2704 piyadadan ibarət idi.

Beləliklə, hələ e.ə. IX əsrin sonlarında urartulular Urmiyayanı ərazilərə sahib oldular. Bu ərazi e.ə. VII əsrə qədər Assuriya və Urartu arasında çəkişmə nöqtəsi idi.

Urartu yürüşlərinin üçüncü yolu şimala doğru, Cənubi Qafqazın cənub ərazilərinə gedirdi. Urartulular Ağrıdağ istiqamətində hərəkət edirdilər, Kucak və ya Çınqıl aşırımlarından Ağrıdağ dağ silsiləsini keçərək, Arazı aşdılar.

İşpuin və Menua kitabələrində Uiteru, Luşa və Katarsa ölkələrinə yürüşlər qeyd edilir, bu ölkələr qrupuna Etiuni ölkəsinin adı da əlavə edilmişdir ki, bu da həmin bölgələrin Cənubi Qafqazda yerləşdiyini düşünmək üçün əsas verir (9, s. 32).

Daha sonrakı dövrlərə aid mətnlərdə də bu istiqamətin doğruluğu təsdiqini tapır. Belə ki, Vanda çar Argiştinin kitabəsində bu üç ölkə ilə yanaşı, Eraxın – Alagöz dağından şimalda yerləşən ölkənin adı da çəkilir, Argiştinin Xorxor salnaməsində isə Katarsa ölkəsi Etiumi, Erax və İşkiqulu ilə eyni sırada durur, bu ölkələrin Cənubi Qafqaza aid edilməsi şübhə doğurmur və bu, Elar və Qanlıcadakı kitabələrdə də təsdiqini tapır.

Cənubi Qafqaza yönələn Urartu qoşunu 66 arabalıdan, mindən çox atlıdan və 10760 piyadadan ibarət idi.

Və artıq gördüyümüz kimi, e.ə. IX əsrin sonlarında Urartu möhkəm mərkəzi hakimiyyəti olan dövlət kimi çıxış edir. Moherokapusda aşkar edilmiş, Urartu tanrılarına qurbanların siyahısını əks etdirən kitabə bizə başında ölkənin mərkəzi hissəsinin tanrıları – Haldi, Teyşeba və Ardın durduğu tanrılar panteonu haqqında məlumat verir.

İşpuin artıq təmtəraqlı çar adını daşıyır: "Qüdrətli çar, Şura ölkəsinin çarı, Biayn ölkəsinin çarı, Tuşpa şəhərinin hökmdarı".

Urartu tarixinin bu dövrü xüsusən çarlığın mərkəzi hissəsində inşaatın güclənməsi ilə səciyyələnir. Van bürcünün divarlarının ucaldılmasının başa çatması Menuanın adı ilə əlaqələndirilir. Qalanın şərq qapılarının yanındakı qayada Sardurun oğlu İşpuinin, İşpuinin oğlu Menuanın və Menuanın oğlu İşpuinin adlarını əks etdirən mixi yazı qalmışdır.

Amma paytaxt bürcünün möhkəmləndirilməsindən başqa, Tuşpaya girən yolları qoruyan qalalar da ucaldılmışdır. Van gölündən 10 km məsafədə Ənzaf kəndi yaxınlığındakı yüksək təpədə güclü siklopik hörgülü belə bir qala tikilmişdir. Menuanın inşaat işləri haqqında danışan iki mixi kitabəsi də buradan gəlir. Harakonis kəndi yaxınlığında dağıntıları qalan digər qala da bu qala ilə əlaqəli idi. Bu qalalar Van ovalığından şərqə doğru gedən istehkam zəncirinin halqaları idi.

Menua bu qalalardan başqa, öz ölkəsinin şimal hissəsində, Malazgirt bölgəsində böyük istehkamlar ucaltmışdır. Urartunun bir çox yerlərində də saraylar və məbədlər tikilmişdir.

Yuxarıda deyilənlərdən görünür ki, Menuanın hökmdarlığı dövründə Urartunun ərazisi mövcud məlumatlara əsasən yaxşı təsvir edilir, bu zaman Urartu dövlətinin sərhədlərinin həddindən artıq dəyişkən olduğunu nəzərə almaq lazımdır ki, bu da Qədim Şərqin bütün dövlətləri üçün səciyyəvidir.

Hələ e.ə. VIII əsrin əvvəllərində Urmiyayanı ərazidə Musasir və Manna ölkələri və Van gölünün cənub-qərb sahilini əhatə edən, Assuriya ilə həmsərhəd olan Naxarin ölkəsi Van çarlığının tərkibinə daxil idi.

Urartulular qərbdə Fərata, Malatya yaxınlığına qədər gedib çatmışdılar ki, bubarədə Murad (Arzani) çayının sahilində, Paludakı kitabədə yazılır.

Van çarlığının qərb rayonlarında kəşfiyyat xarakterli arxeoloji işlər həyata keçirilmişdir (10, s. 173-209), burada əsas mənbə olan mixi kitabələr aşkar edilmişdir. Elə buradaca Urartu qalaları aşkarlanmışdır. Həm də Baqni kəndində qala divarında Urartu mixi kitabəsi aşkar edilmişdir (11, s. 572-574).

Şimal-qərbdə Urartulular Oltu çayına qədər məsafə qət etmişlər ki, bu da Zivin kəndindəki Şaşilu şəhərinin ələ keçirilməsi haqqında danışan kitabədə təsdiqini tapır (12, s. 69; 13, s. 43).

Şimal bölgələri, xüsusən Cənubi Qafqazla bağlı Menua İşpuinin siyasətini davam etdirirdi və çox güman ki, şimala doğru Araz çayından keçən yürüşlər nadir hal deyildi.

Menua bu ekspansiyanı möhkəmləndirmək üçün Araz çayının sağ sahilində, müasir Daşburun kəndi yaxınlığında (Ağrıdağın şimal yamacında) öz inzibati mərkəzini yaratdı. Ələ keçirilmiş Luhnuni şəhərinin – yerli hökmdar İrkuanın (İrekua) şəhərinin yerində Urartu qalası tikildi.

Bu məntəqənin mühüm strateji əhəmiyyəti Daşburun yaxınlığında aşkar edilmiş Urartu kitabələrində dəfələrlə onun adının çəkilməsi ilə təsdiq olunur. Kitabədə yazılır: "... bu təpədə Menua, İşpuinin oğlu güclü qala tikdi, onu Menuaxinili adlandırdı". Bu mətndən görünür ki, yeni tikilmiş qalaya (Assuriya mixi yazısında bu ideoqram "saray" mənası da verir) Urartu çarının adı verilmişdir.

1893-1894-cü illərdə A.A.İvanovski Moskva Arxeologiya Cəmiyyətinin tapşırığı ilə Daşburun ərazisində bir neçə yerdə qazıntılar həyata keçirdi (14, s. 21). O, böyük məskənin qalıqlarına baxış keçirdi. Burada həyata keçirilən işlər binalar və məskəni cənubdan və qərbdən müdafiə edən beş qala kompleksini aşkar etməyə imkan verdi.

A.A.İvanovski Daşburundakı qazıntılar zamanı tapılmış saxsı materialların Cənubi Qafqaz qəbiristanlıqlarında, xüsusən Azərbaycanda onun tərəfindən qazılmış daş qutularda tapılan materialla eyni olduğuna diqqət çəkdi.

Daşburun ərazisi, şübhəsiz ki, urartulular üçün böyük strateji əhəmiyyətə malik idi və tikilmiş istehkamlar gələcəkdə urartuluların Şimala, Araz çayının o tayına hərəkəti üçün baza rolu oynayırdı.

M.V.Nikolski dərc etdiyi Daşburun kitabələri ilə bağlı şərhində tamamilə əsaslı olaraq yazırdı: "... tapılmış mixi kitabələr bu ərazinin e.ə. səkkizinci əsrdə malik olduğu əhəmiyyəti, məhz onun strateji əhəmiyyət daşıdığını, Araz çayı vadisinə nüfuz etmiş ilk Urartu çarının - Menuanın burada ilk dəfə yerini möhkəmləndirdiyini aydınlaşdırmağa imkan verir" (14, s.21).

E.ə. VIII əsrin əvvəllərində Argiştinin hakimiyyəti dövründə Van çarlığı Ön Asiyanın Şimal-Şərq hissəsində üstün mövqe tutmağa başlayır.

Hakimiyyətinin ilk üç ilində Argişti, salnaməyə əsasən, şimala yürüşlər və Cənubi Qafqazın cənub hissələrinin mənimsənilməsi ilə məşğul idi, hətta bu yürüşlərin marşrutlarını da müəyyən etmək olar. Belə ki, salnamənin birinci ilində yürüş zamanı Urartu qoşunları Diauehi ölkəsinə yönələrək, oradan Çaldıran gölünün cənub sahilinə keçmişlər və burada yeri Argiştinin oğlu Sardurun Daşkörpü kəndi yaxınlığında tapılmış kitabəsinə əsasən müəyyən olunan Makaltuni şəhərini ələ keçirmişlər. Yeri Argiştinin oğlu Sardurun Daşkörpü kəndi yaxınlığında tapılmış kitabəsinə əsasən müəyyən olunan Makaltunini ələ keçirdikdən sonra Urartulular şərqə doğru hərəkət etmişlər və Alagöz dağından şimalda yerləşən Erax ölkəsinə daxil olmuşlar.

Salnamənin V ilindən başlayaraq, Argiştinin hakimiyyətinin altı ili Assuriya ilə Urmiyayanı ərazilərə, xüsusən Urmiya gölünün cənub və cənub-şərq sahilinə (Manna ölkəsi) sahib olmaq uğrunda gərgin mübarizə ilə keçmişdir (15, s. 206).

Salnamənin son ilində yenə Cənubi Qafqaza yürüşləri qeyd edilir. Menuanın oğlu Argişti Cənubi Qafqazda Urartu hakimiyyətinin möhkəmlənməsinə

böyük diqqət yetirirdi. Bu, onun məlum olan 13 kitabəsinin 12-sinin tarixi Azərbaycanın qərb hissəsində tapılması ilə təsdiq edilir.

Urartuluların şimala doğru hərəkəti həmçinin onların inzibati mərkəzinin Menuaxinilidən (Daşburun) Araz çayı vasitəsilə tarixi Azərbaycanın qərb vilayətinə köçürülməsinə gətirib çıxarmışdır.

Urartu çarı Argiştinin adı ilə adlandırılan bu qədim qalanın (Argiştixinili) yeri Araz çayının şimal sahilində Kürdük kəndi yaxınlığındakı təpədə yerləşir.

XIX əsrin 30-cu illərində Kürdük kəndində olan ilk alimlərdən biri Dyubua de Monpere qeyd edirdi ki, onun zirvəsində qədim qala divarı qalmış, düzənlikdə yerləşən şəhər özü isə tamamilə dağıdılmışdır və o, bunu şəhərin bu tikililərinin əsasən gildən tikilməsi ilə izah etmişdir (16, s. 418-419). Qalanın və şəhərin tamamilə dağılmasına Sərdarabadda Sərdar qalasının tikintisi üçün daşların oğurlanması səbəb olmuşdur.

1869-cu ildə bu ərazidə mixi kitabə tapılmışdır. Kürdüklüdə araşdırmalar V Arxeologiya Qurultayına hazırlıq Komitəsinin iş planına daxil edilmişdi.

Qazıntılar 1880-ci ildə A.D.Yerisov tərəfindən başlanmış və elə həmin ilin payızında A.S.Uvarov tərəfindən davam etdirilmişdir (17, s. 439-449; 18; s.140-146). A.S.Uvarov təpənin zirvəsində qalmış divarı aşağıdakı kimi təsvir edir: "Həm düz divarlar, həm də qüllə divarları eyni enə malikdir – 2 m. Daxili və xarici hissədən onlar qara-göyümtül bazalt lavasından düzgün şəkildə yonulmuş böyük dördbucaq daşlarla üzlənmişdir. Bu daşların eni 1 metrdir və yanlarda metal bəndlərin bərkidilməsi üçün oyuqlar görünür. Ön səthdə kənarlardan düz zolaq çəkilmiş və daha sonra bütün orta hissə çıxıntılı hörgü şəklində irəliyə çıxmışdır. Beləliklə, birlikdə düzülmüş daşlar dördbucaqlı səthi bütünlükdə novça kimi əhatə edir ki, bunun nəticəsində yonulmamış daşlarla aparılan hörgü kəskin şəkildə nəzərə çarpır"(18, s.443) A.S.Uvarov qeyd edir ki, qala divarlarının belə hörülməsi IV əsrə aid digər abidə ilə eynidir, bu, qədim Kürdüklünün deyil, həmin dövrə aid hansısa qalanın qalıqlarıdır. İrəli sürdüyü tarixi təsdiq etmək üçün A.S.Uvarov Kürdüklüdəki inşaat qalıqlarını Qarnidə məbəd və onun yaxınlığındakı qala ilə müqayisə etmişdir. Lakin bu abidədə sonradan aparılan qazıntılar qalanın e.ə. VIII əsrə aid olduğunu təsdiq etdi.

Tədqiqatçı M.V.Nikolski tamamilə əsaslandıraraq, Kürdüklü təpəsindəki qala divarlarının bu tarixə aid edilməsinə etiraz edirdi və çıxıntılı hörgünün məhz Urartu tikililəri üçün səciyyəvi olduğunu qeyd edərək, misal kimi Kürdüklü kəndi yaxınlığında tapılmış üzərində Urartu kitabəsi olan divar daşını göstərirdi(14,s.57).

Bu abidədə sonradan həyata keçirilən qazıntılar zamanı tunc dövründən erkən orta əsrlərə qədər dörd inşaat təbəqəsi aşkar edilmişdir.

Hazırda Kürdüklü təpəsindəki qalada aşkar edilmiş 15 Urartu mixi kitabəsi məlumdur. Onlardan ən qədimləri Menuanın oğlu Argiştinin hakimiyyəti dövrünə (e.ə. VIII əsrin ikinci rübü) aiddir, qalanın tikintisindən bəhs edən ən sonuncusu isə Erimeninin oğlu Rusanın adını (e.ə. VI əsrin başlanğıcı) əks etdirir.

Bu kitabələr Urartuluların tarixi Azərbaycan ərazisinin qərb hissəsində öz inzibati mərkəzləri ərazisində həyata keçirdiyi böyük tikinti işlərindən xəbər verir.

Kitabələrdən birində Urartulular tərəfindən tikilmiş qalanın adı qalmışdır. O, aşağıdakı sözlərlə başlayır: "Menuanın oğlu Argişti deyir: mən güclü qala tikdirdim, onu Argiştixinili adlandırdım". Daha sonra kanalın (Munani çayından) tikintisi barədə danışılır.

Bu ərazidə kanal çəkilməsi məsələsinə toxunmuşkən, qeyd etmək lazımdır ki, tarixi Azərbaycan ərazisinin qərb bölgəsinin işğal edildiyi dövrdə artıq qədim suvarma sistemləri mövcud idi.

Çox güman ki, Urartuluların bu işləri yalnız yerli sakinlərin, hələ urartulular gəlməzdən əvvəl tikdikləri suvarma sisteminin genişləndirilməsi ilə bağlı idi. Tarixi Azərbaycanın qərb bölgəsində arxeoloji araşdırmalar dövründə qədim kanalların qalıqlarına rast gəlinir, bəzən onların yaxınlığında üzərində arxeologiyada "vişaplar" termini ilə məlum olan müxtəlif simvolik işarələr olan böyük daş balıq heykəlləri olurdu. N.Y.Marr bu heykəlləri Urartuya qədərki dövrə aid etmişdir (19; 20).

Urartuluların bu bölgədə intensiv inşaat fəaliyyətini əks etdirən çox sayda mixi abidələr əsasında M.V.Nikolski hesab edirdi ki, "çox güman ki, Kürdüklü rayonu hələ Urartuya qədərki dövrdə dini cəhətdən Urartu dövründə Van şəhərinin daşıdığı əhəmiyyətdən daha çox əhəmiyyətə malik idi" (21, s. 25).

Həmçinin qeyd etmək lazımdır ki, Kürdüklü kəndi yaxınlığındakı təpə ərazisində müxtəlif dövrlərə aid çoxlu sayda arxeoloji materiallar var ki, onların da bir hissəsi e.ə. II minilliyin sonuna və I minilliyin əvvəllərinə aid edilir. Bu ən qədim abidələr, yalnız tarixi Azərbaycanın qərb bölgəsində deyil, həm də bütün ərazilərində tapılmış abidələrə bənzəyir, onlar e.ə. IX əsrin ortalarında Urartunun mərkəzinin burada yerləşdiyini deməyə heç bir əsas vermir.

Bir sıra alimlərin qeyd etdiyi kimi, Argiştixinili qalasının e.ə.VIII əsrin ikinci rübündə Cənubi Qafqazın tarixi üçün əhəmiyyəti çox böyük olmuşdur. Alimlərin qeyd etdiyi kimi, bu Urartu mərkəzi Cənubi Qafqazın müxtəlif bölgələrinin istismarı və ya Urartu dövlətinin tərkibinə daxil edilməsi məqsədilə bu bölgələrdə həyata keçirilən yürüşlər üçün xidmət edirdi.

Buradan şərqə, Sevan (Göyçə) gölünə doğru, həmçinin şimala, Alagöz dağına yürüşlər həyata keçirilirdi. Sevan (Göyçə) gölünə Zanqa çayından keçərək gedən yol, həm də Menuanın oğlu Argiştinin kitabəsinin mövcudluğu ilə fərqlənir(22, s. 711).

Qədim Qanlıtəpə qalası yaxınlığında divar hörgüsündən üzərində bu qalanı Argiştinin tikdiyinə dəlalət edən kitabə olan daş tapılmışdır.

Bu qalanın qalıqları 1893-cü ildə A.A.İvanovski tərəfindən tədqiq edilmişdir və o, qalanın sxemli planını verir (23).

Zanqa çayından yuxarıda, İrəvandan təxminən 15 km məsafədə Ellər kəndi yaxınlığında hələ 1862-ci ildə Menuanın oğlu Argiştinin dərənin kənarında yerləşən mixi kitabəsi aşkar olunmuşdur. Ellər kəndi və dərə arasında qədim qala və onun ətrafında geniş məskən qalıqları olan təpə yerləşir. Kitabədə Etiuni ölkəsinə yürüş və Uluani ölkəsinin və Darani şəhərinin ələ keçirildiyi barədə danışılır (14, s. 104). Çox güman ki, Ellər kəndi yaxınlığında qədim məskəni olan qala kitabədə adı çəkilən Darani şəhəridir, özü də qala hörgü formasına və planına görə Urartu qalalarına çox yaxındır və e.ə. VIII əsrdə ti-

kilmişdir, arxeoloji qazıntılar zamanı tapılmış saxsı qablar bunu təsdiq edir. O, daha sonra da məskunlaşma yeri olaraq qalmaqda davam etmişdir, buna 1926-1927-ci illərdə aparılmış qazıntıların nəticələri də dəlalət edir. Qazıntılar həmçinin göstərdi ki, daha qədim, Urartuya qədərki dövrdə də qalanın yerində məskən mövcud olmuşdur.

Etiuni ölkəsinin adı Menuanın oğlu Argiştinin Sarıqamış kəndi yaxınlığında qədim qalada tapılmış kitabəsində də var (14, s. 90). İlk dəfə Etiuni ölkəsinin adına İşpuina və Menuanın kitabələrində rast gəlinmişdir. Bu kitabələrdə Uiteru, Luşa və Kataria ölkələrinin adları çəkilir. Argiştinin Vandakı kitabəsində Etiuniyə yürüş və Diauehi, Luşa, Katarsa və Erax ölkələrinin fəth edilməsi haqqında yazılır. Xorxor salnaməsində Etiuninin adına beş dəfə rast gəlinir, həm də salnamənin yekun hissəsində o, həm Urmiyayanı Manna ölkəsi və Arda (Musasir) şəhəri, həm də Cənubi Qafqazın cənub hissəsinin (tarixi Azərbaycan ərazisinin qərb bölgəsi) adları – Erax, Katarsa və İşkilulu ilə birlikdə çəkilir.

Menuanın oğlu Argiştinin üçüncü kitabəsi Sevan (Göyçə) gölünün şimal-qərb qurtaracağında Ördəkli kəndi yaxınlığında tapılmışdır.

Kitabə İştikuni şəhərinə qədər Kiehuni ölkəsinin işğalından bəhs edir. Mixi kitabənin tapıldığı yerin yaxınlığında geniş sahəni əhatə edən qədim qala dağıntıları olmuşdur. Qala Ördəkli kəndindən cənub-qərbdə yerləşir və sahilin dar aran hissəsinə yanaşan alçaq təpələr qrupunu əhatə edir.

Eni 4 metrə qədər olan böyük divarlar həm təpələrin zirvələrini, həm də onlar arasındakı dayaz dərələri əhatə edərək, ayrı-ayrı qapalı sahələr sistemi formalaşdırır. Kənar divarlar suya qədər enərək, sahili – keçid üçün yeganə rahat yolu kəsmişdir. Əsas təpənin zirvəsində böyük qala divarları və yaşayış tikililərinin qalıqları var. Ördəkli qalasında tapılan material e.ə. I minilliyin əvvəllərinə aid edilmişdir.

Ördəkli qalasının əhəmiyyəti tam aydın görünür – o, Sevan (Göyçə) gölünün qərb sahilinə şimaldan çıxış üçün maneə rolunu oynayırdı, onun ölçüləri və tikililərin möhkəmliyi bununla izah olunur.

Bir məsələ qaranlıq qalır, Menuanın oğlu Argişti oradan şimala və şərqə - tarixi Azərbaycan ərazisinə doğru nüfuz etmişdirmi? Xorxor salnaməsində Sevan (Göyçə) gölü ərazisindəki ölkələrin adı çəkilmir.

Bu, bir daha göstərir ki, Azərbaycan ərazisinin şimal və şərq hissəsində yaşayan tayfalar urartuluların öz ərazilərinə nüfuz etməsinə imkan verməmişdir.

Arxeoloji materiallar da bunu sübut edir. Azərbaycanın şimal və şərq hissəsindəki ərazilərdə urartuluların saxsı əşyaları aşkar edilməmişdir.

Argiştixinili qalasında hazırlanan yürüşlərin digər yolu, çox güman ki, şimala – Alagöz dağının qərb yamacına olurdu.

Menuanın oğlu Argiştinin Kulica kəndi (Alagöz dağının şimal-qərb yamacı) yaxınlığındakı qaladakı kitabəsi Kuliaini ölkəsinə yürüş və Durubani şəhərinin işğal edilməsi haqqında məlumat verir.

Tarixi Azərbaycan ərazisinin qərb bölgəsində qalmış ən şimaldakı Urartu kitabəsi Arpaçayın sol sahilində, Qanlıca kəndi yaxınlığındadır. Kitabənin mətnində deyilir: "Argişti böyük Haldiyə deyir: Erax şəhərini, İrdaniuni şəhərini isə İşkiquli ölkəsinə qədər fəth etdim".

Kitabənin mövcud olduğu qalanın yaxınlığında Arpaçay dərəsində yüksələn təpə yerləşir. Bu təpədə qala divarları ilə tikililərin qalıqları qalmışdır. M.V.Nikolskinin ehtimalına görə, Urartu fəthi dövründə burada qala mövcud olmuşdur.

Qanlıca kəndi yaxınlığındakı kitabə, həm də ona görə maraqlıdır ki, o, bir sıra Urartu mətnlərindən adları məlum olan Erax və İşkiqulu ölkələrinin yerini müəyyən etməyə imkan verir. İşkiqulu ölkəsinin adı, həmçinin Toprakkale qazıntılarında tapılmış mixi yazılı lövhədəki mətndə də yad edilir.

Gördüyümüz kimi, hələ e.ə. VIII əsrin ikinci rübündə tarixi Azərbaycan ərazisinin qərb bölgəsi urartulular tərəfindən zəbt edilmişdir.

Menuanın oğlu Argiştinin hökmdarlığının sonuna doğru (e.ə. VIII əsrin ortaları) Urartu qüdrətinin zirvəsində idi. Ön Asiyada Assuriyanın üstün mövqeyi Urartuya keçir.

Urartu e.ə. VIII əsrin ikinci yarısında, artıq Argiştinin oğlu Sardurun dövründə, Assuriya üzərində qələbə qazanır, Azərbaycanın qərb bölgəsində, şimali Suriyada nüfuzunu göstərir, həmçinin şimalda Cənubi Qafqazda da öz sərhədlərini genişləndirir.

1863-cü ildə Atamxan kəndi yaxınlığındakı qalada Sardurun mixi kitabəsi tapılmışdır. Kitabədə deyilir: Tulihu şəhərini, Tsinaliya çar şəhərini döyüşdə ələ keçirdim".

Sevan (Göyçə) gölü ərazisində arxeoloji tədqiqatlar zamanı Tulihu şəhərinin yerini müəyyən etmək mümkün olmuşdur. Bu istehkam halına salınmış şəhərin qalıqları gölün aran sahilində yerləşir.

Qala divarlarının yerləşdiyi alçaq təpə Atamxan kəndi yaxınlığındakı gölün düz sahilində ən böyük təpədir. Qalanın yaxşı qorunmamasına baxmayaraq, yenə də onun şimal-şərq tərəfindən gölə enən kifayət qədər geniş terrasları əhatə edən iki hasar xəttini görmək olar. Həmçinin, qala təpəsinin sahəsini əhatə edən divarların hissələri də aydın görünür. Xarici hasarların divarları bir cərgədə düzülmüş böyük daş qayalardan ibarət hörgü şəklində qalmışdır, təpə sahəsinin divarı isə qalalar üçün səciyyəvi olan arası daha kiçik daşlarla doldurulmuş böyük qaya daşlarından ibarət iki cərgə hörgüdən ibarətdir (24, s. 58).

Argiştinin oğlu Sardurun hakimiyyəti dövründə Urartu dövlətinin tarixi üçün 1916-cı ildə tapılmış postamentdəki stela müstəsna əhəmiyyətə malikdir, bu steladakı mixi yazı Sardurun salnaməsi idi.

Kitabə divarın dörd tərəfini də və postamentin ön tərəfini əhatə edir. Salnamədə yalnız Sardurun hərbi əməliyyatları barədə danışılır və onun hökmdarlığının səkkiz ili ərzində yürüşlərin təsviri yer almışdır.

Salnamənin birinci sütununda birinci ildə (N.Y.Marra görə) Manna ölkəsinə (Urmiya gölünün cənubu) və Eraxa (Alagöz dağından şimala doğru) yürüşlər əks olunur (25).

Argiştinin oğlu Sardur yazır: "Darabani şəhərini, onların istehkam qalasını döyüşdə ələ keçirdim, orada insanları ələ keçirdim, ölkəni öz ölkəmə daxil etdim. Elə həmin il, sonra qoşunu Erax ölkəsinə göndərdim, onlar ölkəni işğal etdilər".

Salnamənin ikinci ilə aid mətnində Kulxa ölkəsinə yürüş, Hişaalhi ölkəsinin çarı Hahani üzərində qələbə və Abilianih ölkəsinə (tarixi Azərbaycanın qərb bölgəsi) yürüş haqqında yazılır.

Üçüncü ildə Sardur Erax və Abilianih ölkələrinə ikinci dəfə yürüş etmişdir.

Salnamənin dördüncü ili Urartudan şimal-qərbə - Ruişiani və çar İqaniinin Diutsini ölkəsinə yürüşlərə həsr olunmuşdur.

Salnamənin beşinci ilində Azərbaycanın qərb bölgəsinə, Sevan gölü ərazisinə yürüş həyata keçirilmişdir, burada Ueduri-Etiuni, Arkukini, Kaamani və Lueruni ölkəsinin çarları fəth edilmişdir. Pulua və Luluina ölkələrinə, habelə Erax ölkəsinə üçüncü yürüş də həmin ilə aiddir.

Yeddinci ilin hadisələrində şimal-qərbə - Kuriani və İqani ölkələrinə yürüşlərdən bəhs edilir. Elə həmin ildə payız yürüşü Sevan (Göyçə) gölü ərazisinə yönəlmişdir.

Şərq divardakı kitabədə VIII ilin hadisələri əks olunmuşdur. Burada Manna, Babil, Urma ölkələrinə və tarixi Azərbaycan ərazisinin qərb bölgəsinə yürüşlər təsvir olunur (25; 26; 27, s. 639-640).

Sardurun kitabəsində tarixi Azərbaycan ərazisinin qərb bölgəsinə yürüşlərlə bağlı böyük material vardır. Bu, sözügedən bölgənin Urartu dövlətinin tərkibinə daxil edilməsinin böyük əhəmiyyət daşıdığını göstərir.

Çar Sardurun hakimiyyəti dövründə Cənubi Qafqazda Urartunun inzibati mərkəzi Argiştixinili qalası olaraq qalırdı. Kürdüklü təpəsi ərazisində Argiştinin oğlu çar Sardurun adı ilə bağlı inşaat və ibadət xarakterli altı mixi kitabə aşkar edilmişdir. Mixi kitabələr qalaların, məbədlərin tikintisini, dini kitabələri əks olunan stelaların hazırlanmasını və qurban verilməsi mərasimlərini əks etdirir.

Sevan (Göyçə) gölü ərazisində Urartulular hər iki qərb və cənub sahilini özlərinə tabe etmişdi, bunu həm salnamələr, həm də Azərbaycanın qərb bölgəsi ərazisində tapılmış ayrı-ayrı kitabələr göstərir. Uelikuhi ölkəsinin (Nur-Bəyazit ərazisi), sonuncu kitabəsi Tulihu şəhərinin fəthi barədə məlumat verir.

Sardurun salnaməsində həmçinin bir sıra gölətrafı ölkələrin fəth edildiyindən bəhs edilir. Onlar arasında Arkukini ölkəsi də var. Bu ölkə Sevan (Göyçə) gölünün cənub-şərq sahilində ən kənardakı ölkədir. Gölün aran sahilini kəsən massivdə Zaqala kəndi yaxınlığında yerinə və inşaat texnikasına görə Ördəkli kəndi yaxınlığındakı qalanı xatırladan qədim qala yerləşir. Qədim qala yaxınlığındakı qayada Sardurun Arkukini ölkəsini fəth etməsi barədə danışan mixi kitabə aşkar edilmişdir (14).

Zaqala kəndi yaxınlığındakı qala Urartu dövrünə aid istehkam tikililərinin səciyyəvi formasına malikdir (24, s.56), lakin ölçülərinin böyük olması ilə fərqlənir.

Qazıntılar nəticəsində aşkar olunan materiallar e.ə. I minilliyin ikinci rübünə aid edilir, E.Resler., V.Belk və A.İvanovskinin Azərbaycanın cənub hissələrində aşkar etdiyi materiallara çox bənzəyir.

Zaqala kəndindəki kitabə hazırda tarixi Azərbaycan ərazisində məlum olan Urartu mixi kitabələrindən daha çox şərqə aiddir.

Cənubi Qafqazda və Urartunun şimal-qərbində uğurlu fəaliyyətlərdən başqa, Sardur Urmiyayanı ərazidə Urartu hakimiyyətini möhkəmləndirməkdə davam edirdi.

E.ə. VIII əsrin ortalarında Urartu dövləti qüdrətinin zirvəsində idi və Argiştinin oğlu Sardur "ölkələr ölkəsinin" çarı və "çarlar çarı" titulu daşıyırdı. Ön Asiyada Van çarlığı dövləti müqavimətlə qarşılaşmır.

Sardurun oğlu Rusanın hakimiyyəti dövründə Urartu dövlətinin həyatının bəzi dövrləri haqqında yalnız hissə-hissə məlumatlara və Van çarlığının tarixi zəncirinin ayrı-ayrı bəndlərinə malikik. E.ə. təxminən 730-cu ildə taxta çıxan Rusanın hakimiyyətinin son dövrü də, Urartu tarixinin bu aydınlaşdırılmamış materiallarına aiddir.

Sardurun oğlu Rusa çətin dövrdə Urartu dövlətinin çarı oldu. E.ə. 735-ci ildən sonra Urartudan ayrılmış torpaqların qaytarılmasından başqa, çarlıq əyalətlərinin müstəqilliyə can atan canişinlərinə qarşı da, daim mübarizə aparmaq lazım gəlirdi.

Sardurun sərhədlərin genişləndirilməsi siyasətini davam etdirən Rusanın əsas diqqəti Azərbaycan ərazisinin qərb bölgəsinə və Urmiyayanı bölgələrə yönəlmişdi.

Həmin vaxt Azərbaycan ərazisinin qərb bölgəsində dəyişikliklər baş vermişdi. Əvvəllər bütün Cənubi Qafqazın vahid inzibati mərkəzi olan Argiştixinili qalası öz əhəmiyyətini itirmişdi, belə ki, Azərbaycanın qərb hissəsi bir neçə dairəyə bölünmüşdü, onların başında müstəqil canişinlər dururdu. Canişinlərin gücünün artmasına qarşı yönəlmiş tədbirlərin zəruri olması bundan irəli gəlirdi.

Kürdüklü rayonundan (Argiştixinili qalası) Argiştinin oğlu Sardurdan sonrakı dövrə aid yalnız bir kitabə məlumdur. Bu, Erimenin oğlu Rusanın qala tikintisi haqqında kitabəsidir.

Digər tərəfdən, Azərbaycanın qərb bölgəsində I Rusa Kürdüklü rayonu ilə kifayətlənməyərək, geniş inşaat fəaliyyəti həyata keçirir, həm də yeni tikilən qalalar bəzi hallarda Urartu canişinin olduğu yerə çevrilir.

Sevan (Göyçə) gölünün sahilyanı sahəsində iki qala var, onlarla bağlı mixi kitabələrə əsasən, bu qalalar Urartulular tərəfindən tikilmişdir. Onların adları da məlumdur – bir qala tanrı Haldinin, digəri isə Teyşebin adını daşıyır.

Onlardan biri Nur-Bəyazit şəhəri üzərində hündür qayada yerləşirdi (20, s. 168-174). Bu qalanın divar hörgüsünün küncdəki daşında yazılmışdır: "Böyük tanrı Haldiyə Sardurun oğlu Rusa deyir: Uelikuhi ölkəsinin çarını məğlub etdim, qul olaraq əsir götürdüm, ölkəyə sahib oldum, onu böyük Biayn ölkəsinin tanrı Haldi şəhəri adlandırdım...".

Bu kitabədə bəhs edilən Uelikuhi ölkəsinin adına yalnız Rusanın Sevan (Göyçə) gölü yaxınlığındakı ərazidə (Kalian təpə qalası yaxınlığında) digər kitabəsində deyil, həm də Van çarlığının mərkəzi hissəsində epiqrafik abidələrdə də rast gəlinir.

Nur-Bəyazit rayonunun arxeoloji xəritəsində bir sıra məskənlər qeyd edilib, onlardan Nur-Bəyazit yaxınlığındakı qala mərkəzidir. Divar hörgüsündə üzərində Rusanın kitabəsi olan daş göstərir ki, məhz qalanın aşağı cərgəsinin divarlarının salamat qalan hissələri Urartu dövrünə aiddir; divarlar özləri də konstruksiyasına görə buna heç bir şübhə qoymur.

Yerləşdiyi massivə uyğun olaraq uzanan formaya malik, sahəsinə görə böyük olan qala (24, s.51) eninə divar vasitəsilə ikiyə bölünürdü. Sıldırımın üzərindəki sahəsi daha kiçik olan, nisbətən möhkəm divarla əhatə olunmayan şərq hissəsi, çox güman ki, bürc idi.

Çox güman ki, Sardurun salnaməsində adı çəkilən Uelikuhi ölkəsinin "çar şəhəri" məhz Nur-Bəyazit qalasıdır. İstənilən halda, Qışlaq kəndindən aşağı-

da yerləşən qalanın "çar qalası" olduğunu hesab etmək üçün kifayət qədər əsas yoxdur. Bu kiçik qala (Qışlaq), digər iki qala kimi (Qışlaq II və Fişqala) Nur-Bəyazitə nisbətən kiçikdir və çox güman ki, müdafiə rolunu oynayırdı. Həmçinin qeyd etmək lazımdır ki, Qışlaq kəndi yaxınlığında aşkar edilmiş iki qala Qavar çayının sahilində, məhz yüksək massivin sahilyanı ovalıqla sərhədində bir-biri ilə qarşı-qarşıya yerləşirlər, onların ölçüləri və mövqeləri artıq onların müstəqil olmadığını göstərir. Qavar çayının sağ sahilində iri daş qayalardan tikilmiş kiçik divar hissələri qalmışdır.

Sol sahildəki qala nisbətən fərqli mənzərə yaradır. Divarları kifayət qədər yaxşı qorunub saxlanan bürcdən (iç qaladan) başqa qapalı xətt təşkil etməyən böyük daşlardan xarici hasar da var.

Bürcün divarları içərisi kiçik daşlarla doldurulmuş iki cərgə daş qayadan ibarət hörgüdür. Divarın künc hissələrində, həmçinin düzxətli hissələrində Urartu dövrünə aid qalaların tikintisi üçün səciyyəvi olan və Nur-Bəyazit qalasında da mövcud olan kontrforslara bənzər çıxıntılar var. Bürcə giriş (iç qala) onun cənub-şərq hissəsində idi.

Üçüncü qala da Nur-Bəyazit ilə əlaqəlidir, ondan cənubda yerləşir. Xarici görünüşünə görə o, sağ sahildə yerləşən Qışlaq qalasına yaxındır. Qala divarı bir cərgədə hörülmüş kiçik daş qayalardan ibarətdir, qalanın şimal və şərq tərəflərini əhatə edir, cənubdan və qərbdən isə qaya dik daşlı yamacla təbii müdafiəyə malikdir.Mərkəzi istehkam məskəni ilə bağlı adını çəkdiyimiz qalalarla yanaşı, Nur-Bəyaziddə bəziləri müstəqil olan bir sıra digər qalalar da var. Onlar arasında Quləli kəndindən cənubda yerləşən "Quləli qalası" yaxşı qorunub saxlanmış qədim məskən olması ilə seçilir.

Lakin qeyd etmək lazımdır ki, Nur-Bəyazit rayonunda bütün qalalar eyni dövrə aid deyil, bir sıra qalaları e.ə. I minilliyin birinci yarısına və gölətrafı ölkələrdən biri olan qədim Uelikuhi ölkəsinə aid etmək olar.

Uelikuhi ölkəsi, çox güman ki, Qavar çayının vadisini və Başkənd kəndinə qədər sahilyanı zolağı əhatə edirdi.

Gölətrafı bölgələr koalisiyasına daxil olan, sahəsinə və əhalisinə görə kiçik olan bu ölkə irəliləyən Urartululara güclü müqavimət göstərirdi, Urartu mixi kitabələrində onun fəthi haqqında məlumatlar buna dəlalət edirdi.

Sardurun oğlu Rusanın mixi kitabəsi ilə bağlı ikinci Urartu qalası Sevan (Göyçə) gölünün cənub sahilində, Kolagirən və Alaçala kəndlərinin arasında yerləşir (24, s. 57). Qala yüksək ərazidə tikilmişdi. Ərazinin ən yüksək hissəsində hər tərəfdən divarla əhatə edilmiş, girişi şimal-qərb divarında olan bürc yerləşirdi. Divarlar arası kiçik daşlarla doldurulmuş iki cərgə iri daşlardan hörülmüşdür.Divarların eni 3 metrdən çoxdur və yüksəkliyi 3,2 metrə çatır. Daşların hamarlaşdırılması izləri aydıngörünmür, yalnız çıxıntılı səthlər qabarıq şəkildə yonulmuşdur.

Məlum olduğu kimi, e.ə. I minillikdə tarixi Azərbaycan ərazisində siklopik istehkam məskənlərinin və qalaların divar hörgüsünü yalnız üzərində çiy kərpicdən divar hörülən bünövrə hörgüsü kimi qiymətləndirmək lazımdır. Qala divarları dağıldıqda çiy kərpic hörgüsünün dağılan hissəsi asanlıqla yuyulurdu və nəticədə daş əsasın üstü açılırdı.

Qala təpəsinin enişi, xüsusən şimal hissəsi sürüşmələrə qarşı dirək divarları ilə qorunmuşdur. Bürclərin dördbucaqlı qala qüllələrinin altından da belə dirəklər çəkilmişdir.

Bürcün şərq hissəsinə bitişik yaşayış məskəni də divarla əhatə olunmuşdur.

Kolagirən qalası ərazisində həyata keçirilən qazıntılar e.ə. I minilliyə aid materiallar üzə çıxarmışdır.

Sardurun oğlu Rusanın qala altındakı qayada oyulmuş kitabəsində iki qrupa bölünən 23 ölkənin fəth edildiyi bildirilir (29). İlk qrup cəmi dörd ölkə adından ibarətdir: Adahuni, Uelikuhi, Kumeruhi və Arkukini. Birinci qrupda Sevan (Göyçə) gölünün sahilyanı ölkələrinin adları sadalandığı haqqında ehtimal kifayət qədər inandırıcıdır. Onlardan ikisinin – Uelikuhi və Arkukininin burada yerləşdiyi şübhə doğurmur.

Kolagirənkitabəsindəki ilk qrup ölkələrin yerləşdiyi ərazi şübhə doğurmursa, ikinci qrupda sadalananlar ciddi çətinliklər yaradır, belə ki, onlardan heç birinin Urartu mixi yazılarında adı çəkilən ölkələrə real uyğunluğu yoxdur. Bu ölkələrin Sevan (Göyçə) gölündən şərqdə, hazırki Azərbaycan ərazisində yerləşdiyi haqqında çoxdan ehtimal irəli sürülmüşdür.

Yuxarıda deyilənlərdən bu 19 ölkə ilə bağlı nəticə çıxarmaq olar.

Bizə məlum olduğu kimi, hazırki Azərbaycan ərazisində: Gədəbəy, Daşkəsən və Kəlbəcər rayonlarında, habelə Dağlıq Qarabağ və Naxçıvan Muxtar Respublikasında e.ə. I minillikdə güclü istehkam məskənləri və qalalar var idi, çox güman ki, onlar Urartu qoşununa müqavimət göstərə bilirdi.

Əlbəttə, I Rusa şimalda və şərqdə sərhədlərini möhkəmləndirməklə kifayətlənmirdi, o, həm də Urartudan cənubda yerləşən vilayətlərdə - Manna və Parsuada da inadlı və uzunmüddətli istilaçı müharibə aparırdı.

Urartu mədəniyyəti haqqında danışarkən qeyd etmək lazımdır ki, o, hələ çox az öyrənilmişdir. Lakin artıq tamamilə aydındır ki, urartulular özünəməxsus mədəniyyət yaratmışdır. Bu mədəniyyət qonşu xalqların mədəniyyəti ilə sıx əlaqəli idi, amma daha çox özünəməxsusluğu ilə fərqlənirdi. Urartuluların öz heroqlif yazısı var idi, bu, tapılmış ayrı-ayrı əşyaların üzərində aşkar olunmuşdur. Memarlıq və metallurgiya yüksək səviyyədə təkmilləşmişdi. Tarix-rəssamlıq nöqteyi-nəzərdən II Sarqonun sarayının divarında qalmış Musasir məbədinin təsviri xüsusilə maraqlıdır. Bu məbəd e.ə. IX-VIII əsrlərdə yüksək stilabat üzərində tikilmişdir. Qoşaçatılı damı, fronton və fasadı bəzəyən altı sütunu ilə o, Kiçik Asiya qədim məbəd nümunələrini xatırladır. Qorunub saxlanan bünövrələr memarlıqda dəyirmi sütunların tətbiq edildiyini göstərir, onların bir hissəsi muzeydə saxlanılır.

Qanlıtəpədə e.ə. VIII əsrdə tikilmiş qalanın dağıntıları arasında aşkar edilmiş divar naxışlarının qalıqları Urartu rəssamlığı haqqında müəyyən təsəvvür yaradır. Dağıntılardan göründüyü kimi, çoxrəngli friz qədim zalın divarlarını bəzəyirdi. Üst naxışlı hissə ulduzlardan, palmettalardan və pilləli qala təsvirlərindən ibarət idi. Aşağıda heyvanların və müqəddəs ağacların rəsmləri əks olunurdu, onların kənarlarında Urartu ilahiliyi yerləşirdi.

Urartulularda metallurgiya və təsviri incəsənət assuriyalıların, hettlərin və hurrilərin metal istehsalı texnikası və bədii yaradıcılığı ilə sıx əlaqəli şəkildə

inkişaf edirdi. Həm Urartu incəsənətində, həm də assuriyalıların, hettlərin və mitanların bədii yaradıcılığında insan başlı qanadlı öküz və fantastik qrif bədii obrazları qorunub saxlanmışdır.

Urartulular onlara qonşu olan Cənubi Qafqaz bölgələrinin və Kiçik Asiyanın şərq hissəsinin xalqlarının mədəniyyətinin inkişafına da təsir göstərmişdir.

## ƏDƏBİYYAT


1. Ebebing E., Meissner B., Weidner E. Die Inschriftender Altassyscheu Konige, 1926, 121. прим. 9, настра. 113 и 114.
2. Schroeder O. Keilschrifttexte aus Assur historischeu Inhalts, II, 1922, №58.
3. Пиотровский Б.Б. История и культура Урарту. 1944.
4. Qötze A. Kleinasien. Изсерии Kulturgeschichte des alte Orienis. III, I. 1933.
5. Qötze A. Hethiter, Chrriter und Assyrer, Oslo, 1936.
6. Дьяконов И.М. Вавилонское политическое сочинение VIII-VII вв. до н.э. ВДИ, 1944, №4.
7. Дьяконов И.М. Ассиро-вавилонские источники по истории Урарту. ВДИ, 1951, №2-3.
8. Qötze A. Zur Kolischin-Stele, ZA, NFV (XXXIX), -1-3, 1929, 99-128.
9. Мещанинов И.И. Халдская надпись из села Гюншенд. ДАН, В., 1930.
10. Huntington F. Weitere Berichte über Forschungen in Armenien und Commagene ZE, 1901, 173-209.
11. Zehman-HAupt C.F. Wber nengefunden Mennas – Inschriften VBQAEV, 1900, 572-574.
12. Мещанинов И.И. Надпись Менуа из Зивина. ДАН-В, 1931, 69.
13. Церетели Г.В. Урартские памятники Музея Грузии. Тбилиси, 1939.
14. Никольский М.В. – МАК, V, 21.
15. Мещанинов И.И. Халдская надпись Менуа из села Муша, ДАН-В, 1930, 206.
16. Dubois de Montperenxt. Voyage antour de Caucase chez le tcherkesses et les abchases en Colchide, en Armenie et en Crinec, III, 1869, 418-419.
17. Уваров А.С. Протоколы Подготовительного Комитета V Археологического Съезда в Тифлисе 1881, 439-449.
18. Уваров А.С. Сборник мелких трудов А.С.Уварова. Тифлис, II, 1910, 140-146.
19. Марр Н.Я., Смирнов Я.Н. Вишапы, 1931.
20. Пиотровский Б.Б. Вишапы. Каменные статуи в горах Армении. 1939.
21. Пиотровский Б.Б. Шахриарская клинообразная надпись. ДАН-В., 1931, 25.
22. Лисициан С.Д. Кошун-даш, Академия наук СССР, Н.Я.Марру, Сборник статей, 1935, 711 с.
23. Ивановский. МАК, VI.
24. Пиотровский Б.Б. Крепости Армении до урартского и урартского периода. Проблемы истории материальной культуры. 1938, №5-6, 58 с.
25. Марр Н.Я., Орбели И.А. Археологическая экспедиция 1916 г. в Ван. 1922.
26. Струве В.В. Урарту – древнейшее государство на территории СССР. Ученые записки Ленинград, Гос. Университет, №19, 1938.
27. SayceA. JRAS., XIV.
28. Мещанинов И.И. Халдская надпись из Норо-Баязеда. ДАН-В, 1928, с.168-174.
29. Пиотровский Б.Б. Урарту и Закавказье. Краткие сообщения Института Истории Материальной Культуры Академии Наук СССР, III, 1940, с.33.

# TARİXİ AZƏRBAYCAN ƏRAZİSİNDƏ URARTU DÖVLƏTİNİN SÜQUTU

Bu araşdırmada qədim dövrdə Cənubi Qafqaz və bütün Qərbi Asiyada ən mühüm hadisələrlə yadda qalan Urartu dövlətinin mövcudluğunun son illərinə toxunmaq istərdik. Əlimizdə olan materiallara əsasən Urartunun süqutunu xronoloji və tarixi nöqteyi-nəzərdən daha ətraflı dəqiqləşdirməyə çalışacağıq. Məlum olduğu kimi, hələlik aşkar edilmiş Urartu mənbələrinin kifayət qədər çox olmaması ilə əlaqədar Assuriya materialları Urartu tarixinin daha dolğun təsvirini verir.

Assuriya mənbələrində bildirilir ki, e.ə. VIII əsrin ortalarına qədər Urartunun Assuriyaya qarşı mübarizəsi Urartu üçün uğurlu gedirdi. Lakin 743-735-ci illərdə III Tiqlatpalasarın və 714-cü ildə II Sarqonun Urartunu məruz qoyduğu ağır məğlubiyyətlər Urartu dövlətinin xeyli zəifləməsinə gətirib çıxartmışdı. Urartunun zəifləməsinə əsasən Mannalıların müqaviməti, habelə Manna tayfalarının kimmerlər, daha sonra isə skiflərlə hələ Sarqonun Urartuya yürüşünə qədər başlamış ittifaqı şərait yaratdı.

Mövcud mənbələr Mannalıların Urartululara – gördüyümüz kimi, e.ə. I minillikdə Şərq tarixində kifayət qədər mühüm rol oynamış maraqlı dövlət birliyinə qarşı mübarizəsi tarixini müəyyən dərəcədə təsvir etməyə imkan verir. Manna ölkəsi sonradan e.ə. VI əsrdə Midiya dövlətinin mədəni və iqtisadi nüvəsinə çevrilmişdi.

Lakin e.ə. I minilliyin əvvəllərində o vaxtlar hələ kiçik lullubi-kuti dövlət birliyi olan Manna e.ə. IX əsrdə nisbətən cənub və cənub-şərq bölgələrdə formalaşmış və Manna adı daşıyan tayfa ittifaqından ayrılıqda mövcud idi.

Assuriyada vətəndaş müharibəsindən istifadə edərək Urartu çarı İşpuini Urmiya gölünün sahilinə çıxmış və Gilzan çarlığını Urartuya daxil etmişdir (1). Həmin vaxtdan etibarən Assuriya mənbələrindən Gilzan çarlığının adı yox olmuşdur. Bu bölgənin Urartuya daxil edilməsi Urartuluların eyni zamanda qonşu Musasirə sahib olmasından da görünür.

E.ə. IX əsrin 20-ci illərində urartulular Mannanı ağır məğlubiyyətə uğratmışdır.

Həmin vaxt Urartu kifayət qədər güclü dövlət idi. Urartu çarı Manna ərazisində qalalar tikir və hətta mövcud qalaları bərpa edir (Meşta, müasir Daştəpə). Bu barədə onun orada mövcud olan kitabəsində bildirilir.

Qədim şərq şəraitlərində müdafiə tikililərinin ucaldılması bu ərazinin canişinliyə çevrildiyini göstərirdi. Lakin e.ə. IX-VIII əsrlərdə Assuriyada və Urartuda yerli hökmdarlar qalmaqla canişinin təyin edilməsi təcrübəsi hələ mövcud idi. Urartu çarı Minuanın dövründə Manna çarlığında da məhz belə vəziyyət yaranmışdı, çünki sonrakı məlumatlardan görünür ki, Manna dövlətinin mövcudluğuna son qoyulmamışdır.

Urartu çarı I Argiştinin hakimiyyətinin başlanğıcında (e.ə. 779/80-ci ildən) Manna hələ Urartudan asılı olaraq qalırdı (1). Lakin artıq bir neçə il sonra Manna Urartudan uzaqlaşdı. Məhz Urartu ilə mübarizədə Manna qərb və şimal sahilləri istisna olmaqla, bütün Urmiya ətrafı hövzəni əhatə edən vahid dövlət şəklində birləşdi. Belə ki, I Argiştinin hakimiyyətinin 10-cu ilində Manna Urartuya qarşı hücuma keçdi (2, s. 170). I Argiştinin e.ə. 773, 772, 771, 769, 768-ci illərdə dağıdıcı yürüşlərinə və onun varisi II Sardurun iki yürüşünə (e.ə. VIII əsrin 50-ci illərinin əvvəlləri) baxmayaraq, urartulular Mannanı tamamilə ələ keçirə bilmədilər (2, s. 171). Manna ərazisinin Urartulular tərəfindən sonrakı istilaları da müvəqqəti olmuşdur və daimi işğal formasını almamışdır.

Urartunun sonradan güclənməsi assur çarı III Tiqlatpalasarın hakimiyyətə gəlməsi, Assuriyanın güclənməsi ilə də bağlı idi. E.ə. 744-cü ildə Midiya bölgəsinə ilk yürüşünü həyata keçirən Assuriya çarı Manna ilə əlaqəli şəkildə hərəkət edirdi. Elə həmin il II Sardur Manna ilə onun ərazisində müharibə aparmaq məcburiyyətində qalmış və öz salnaməsində yazdığına görə, Darbu qalasını ələ keçirərək (2, s. 172) (Urmiya gölünün şərq sahilində), torpaqları öz ərazilərinə birləşdirmişdi (2, s. 172). Sonradan e.ə. 749-cu ildə III Tiqlatpalasarın uğratdığı məğlubiyyətlə əlaqədar urartuluların Mannaya yürüşləri dayanır.

III Tiqlatpalasarın qoşunlarının II Sarduru darmadağın etməsi dərhal Mannanı bütün Azərbaycan (hazırki Cənubi Azərbaycan) ərazisində baş mövqeyə keçirtməyə başlamışdı. Həmin dövrdə Manna çarlığında hakimiyyətdə olan çar yaranmış vəziyyətdən istifadə etmək üçün olduqca güclü idi. Nəticədə e.ə. VIII əsrin 30-20-ci illərində Manna dövləti ondan asılı olan bölgələr də daxil olmaqla, Urmiya gölünün bütün cənub hövzəsini, habelə Urmiya və Araz arasındakı suayırıcına qədər Urmiyanın şərq sahilini, həmçinin digər əraziləri: Araz çayının o tayında Mannanın şimal-şərq və xüsusən şimal və şimal-qərb sərhədlərini əhatə edirdi.

Başqa sözlərlə, Manna və ona tabe olan bölgələrin ərazisi gələcək Midiya, Atropatena və hazırki Cənubi Azərbaycan ərazisi və Arazın sol sahilinin bir hissəsi ilə (Şimali Azərbaycanın tarixi qərb hissəsi) üst-üstə düşürdü.

Yuxarıda qeyd edildiyi kimi, Kiçik Asiyanın şərq hissəsində məskunlaşan kimmerlər Urartuluları qərbdən, skiflər isə şimaldan və şimal-şərqdən narahat edirdilər. Mannalıların ölkəsində skiflərin yaşaması bu xalqların etnik yaxınlığına dəlalət edir. Diqqət yetirmək lazımdır ki, onlar qədim Şərqin böyük dövlətlərinin ərazilərinin bir tərəfindən o biri tərəfinə keçirdilər.

Lakin kimmerlərin, daha sonra isə e.ə. VIII əsrdə skiflərin Urartu torpaqlarına hücumlarına baxmayaraq, Urartu dövləti nəinki e.ə. VII əsr boyunca mövcud olmaqda davam edirdi, həm də geniş inşaat işləri aparırdı və bir sıra bölgələrdə, xüsusən Cənubi Qafqazda öz mövqeyini möhkəmləndirirdi, vaxtaşırı kimmerlər və skiflərlə ittifaqa girir, bəzən isə onlara qarşı mübarizə aparırdı. E.ə. VII əsrin ortalarına qədər Urartu müstəqilliyini tamamilə qoruyub saxlayır, II Rusanın hakimiyyəti dövründə isə hətta, arxeoloji məlumatlara əsasən, güclənir (3, s. 11).

Bununla belə, e.ə. VII əsrdə artıq Urartu Ön Asiyada aparıcı rolu Assuriyanın xeyrinə itirir (4, s. 286).

Urartunun gələcək taleyi haqqında Assuriya dövlətinin süqutu prosesini şərh edən Babil xronikasında məlumat var (5).

Artıq e.ə. 609-cu ildə Midiya qoşunları Urartuya hücuma keçir.

Urartuya yürüş Midiya və Babilistanın birgə təşəbbüsü idi. Keçmiş Urartu dövlətinin bölgələri e.ə. 585-ci ildə artıq Midiyanın tərkibinə daxil idi. Bu tarix adətən Urartunun süqutu tarixi hesab olunur. Əminliklə belə bir nəticə çıxarmaq olar ki, e.ə. 605-ci ildən sonra Assuriya irsi Midiya və Babilistan arasında bölündüyü zaman Urartu artıq Midiyanın tabeliyində idi (2).

609-cu il və 590-cı il yürüşləri arasında Urartunun mövqeyi ilə bağlı ən mühüm dəlil Yeremya kitabında verilən məlumatlardır, burada görünür ki, söhbət Midiyanın Babilistanla qarşıda duran müharibəsindən gedir, Urartu, Mannalıların ölkəsi və skif çarlığının adı isə canişinlər və sərkərdələrlə bir sırada Midiyaya tabe olan çarlıqlar kimi çəkilir. Həqiqətən, Mannalıların ölkəsi bu və ya digər dərəcədə qonşu dövlətlərdən asılı idi və tamamilə tar-mar edilmiş Assuriyanın tərəfində çıxış etdikdən sonra müstəqil ola bilməsi ehtimalı çox az idi. Herodotun əsərində açıq-aydın görünür ki, skiflər də həmin vaxta qədər Ön Asiyada öz müstəqilliklərini itirmişdilər və görünür, Urartu da burada midiyalılardan asılı çarlıq kimi yad edilir.

Qeyd etmək lazımdır ki, Şərq mənbələrinə görə, Midiya dövləti bir sıra tabeli çarlıqlardan ibarət idi, onlar da öz növbəsində, bilavasitə ayrı-ayrı sərhəd tayfaları və əraziləri özlərinə tabe edirdilər.

Məlum olduğu kimi, Ön Asiya çarlıqları böyük dövlətlərlə münasibətlərində "ittifaq", xərac ödənilməsi ilə tabelilik və canişinlik (satraplıq) qismində dövlətin tərkibinə daxil edilmək kimi bir neçə mərhələdən keçmişdir. Bir qayda olaraq, böyük Qədim Şərq dövlətləri dövlətin mərkəzindən yarımüstəqil dövlətlər şəklində ayrılmış bölgələrə heç vaxt böyük və uğurlu yürüşlər həyata keçirmirdilər. Kifayət qədər əsaslı olaraq güman etmək olar ki, Urartu ərazisinin təhlükəli və çətin yerlərindən keçən uzaq əlaqə yolları olduğu halda, Kiçik Asiyada müharibə aparmaq üçün Midiya bu əraziyə tamamilə sahib olmalı idi. Deməli, aşağıdakı xronoloji sxemi təxmin etmək olar: e.ə. 609-605-ci illər – Midiyanın Urartu dövlətini tabe etməsi; Lakin Urartunun dağıdılmasında aparıcı rolu midiyalılardan daha çox mannalıların skiflərlə ittifaqının adına yazan başqa nöqteyi-nəzər də var.

B.B. Piotrovski öz tədqiqatlarında bu nöqteyi-nəzərin xeyrinə bir sıra tutarlı arxeoloji dəlil göstərir. Bu sualın cavabı əhəmiyyətli dərəcədə digər sualın cavabından asılıdır – e.ə. 612-605-ci illərdə Assuriya dövlətinin tamamilə məhvinə gətirib çıxaran Assuriya müharibələri zamanı skiflər hansı rolu oynamışlar (3)?

B.B.Piotrovski öz əsərlərində qeyd edirdi ki, bu dövrdə bir sıra şəhərlərin divarları yaxınlığında "skif" tipli ox ucluqlarının tapılmasına, həmçinin bəzi hallarda tapıntıların yerinə əsasən əminliklə belə bir nəticəyə gəlmək olar ki, oxlar şəhərləri mühasirəyə alanlara aid idi. "Skif oxlarının" tapıldığı yerlər arasında B.B.Piotrovski Urartunun Mərkəzində Haykaberd və Toprakkalenin, Assuriyanın mərkəzində Nimrud və Kuyuncikin, Kiçik Asiyada Tars və Alişarın, Fələstində Əl-Mina və Cerarın, habelə şimali Misirdə bir sıra yerlərin adlarını

çəkir. Aşşur, Babil və Teyşebainidə bu oxların şübhəsiz mühasirəyə alanlara məxsus olduğu xüsusilə əhəmiyyətlidir. Buna görə, çox güman ki, Midiya qoşununa yalnız midiyalılar deyil, həm də "aşkuz" skiflər və "skif tipli" digər tayfalar daxil idi (3).

Müasir bilik səviyyəsinə görə arxeoloji nöqteyi-nəzərdən baxdıqda isə midiyalıları skiflərdən ayırd etməyə bilmərik: midiyalıların silahları və ümumiyyətlə maddi mədəniyyəti skiflərə yaxın idi. B.B.Piotrovski həmçinin qeyd edir ki, "skif" oxlarının bir hissəsini midiyalılara aid etmək lazımdır (3).

Əvvəlki Ön Asiya dövlətlərinin süquta uğradığı bu dövrdə Assuriyalılara və Urartululara qarşı hücumlarında skiflər də – müstəqil şəkildə və ya Midiyanın aləti olaraq çıxış edə bilərdi.

Bu, xüsusən şimalda Urartunun istinadgahı olan Teyşebaini kimi mərkəzə aid ola bilərdi. Burada skiflər xüsusilə güclü olmuşlar, belə ki, mannalıların müttəfiqi idilər və burada skif materialları yalnız mühasirəyə alanların oxları ilə məhdudlaşmır, həm də bütöv maddi mədəniyyət abidələri kompleksinə nüfuz etmişdirlər. Və burada, çətin ki, midiyalıların və ya Ön Asiyalıların mühasirə işi ilə tanış olan başqa hər hansı əhalinin (mannalıların) köməyi olmadan ötüşülmüşdür. Yaxud da biz ehtimal etməliyik ki, bu qalanın mühasirəyə alınmasına yaxın Cənubi Qafqaz skif çarlığı oturaq həyat tərzi sürən qədim şərq xalqlarının mühüm texnikasına malik olmağa müvəffəq olmuşdu.

Amma yenə də Qədim Şərqin böyük dövlətlərinin süqut etməsi üçün xarici silahlı qüvvələrin və yerli xalq kütlələrinin birgə fəaliyyəti və əvvəlcə Mannanın, daha sonra isə e.ə. VII əsrin sonlarında Midiyanın sahib olduğu Ön Asiya hərbi texnikasının skiflərin kütləvi atlı-piyada taktikası ilə birləşməsi zəruri idi. Necə olursa olsun, Urartunun süqutunda müxtəlif tayfaların və etnik elementlərin rolunun araşdırılması hələ davam etdirilməlidir.

Urartu dövlətinin məhvini isə Midiyanın adına yazmaq lazımdır.

## ƏDƏBİYYAT

1. Меликишвили Т.А. УКН. №№127-128.
2. Дьяконов И.М. История Мидии. М-Л., 1956.
3. Пиотровский Б.Б, Кармир-блур, I (Археологические раскопки в Армении АН Арм.ССР. Ер., 1950.
4. Streck M. Assurbanipal, I, 1916.
5. Gadd C.J. The Fall of Nineveh. 1923.

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ QƏDİM MÜDAFİƏ TİKİLİLƏRİ

1. **Dayra istehkamlı yaşayış məskəni**, Qobustanda Böyükdaş qayasının aşağı terrasının şimal hissəsində yerləşir. Yaşayış məskəni 2000 kv. metrdən çox ərazini əhatə edir. O, dairəvi divarla əhatə olunmuşdur. Dörd yerdə divar rolunu 2 metrə qədər hündürlüyü olan təbii qaya hissələri oynayır. İstehkamın şimal-şərq divarı qalmamışdır. Divar böyük hamar daşlardan hörülmüşdür. Xarici tərəfdə daşlar üfüqi, daxili hissədə isə şaquli olaraq bir-birinin üzərinə düzülmüşdür. Divarların qalınlığı 2 metrə çatır. Yaşayış məskəni e.ə. III minilliyə aid edilir.
2. **Üzərliktəpə istehkamlı yaşayış məskəni**, Mil düzündə, Ağdam şəhəri yaxınlığında yerləşir. Üzərliktəpə Cənubi Qafqazda orta tunc dövrünə aid yeganə məişət abidəsidir. Abidə tədqiq edilən dövr üçün etalondur. Məskənin yerləşdiyi təpə 200 metrə yaxın diametrə, 10 m yüksəkliyə malikdir. Şərq yamacında aparılmış qazıntı nəticəsində 3 metr enində mədəni təbəqə aşkar edilmişdir. Qala divarlarının eni 2 metrə çatırdı. Bünövrənin aşağı təbəqəsi daşdan hörülmüşdür, yuxarı hissəsi isə çiy kərpicdən ibarətdir. Abidə e.ə. II minilliyə aid edilir.
3. **Aladağ qalası**, Qubadlı rayonunda dağlıq yaylada yerləşir. Qala divarı yalnız dağın şərq hissəsindədir. Şimaldan, cənubdan və qərbdən təbii qətedilməz yamaclar var. Divarların hörgüsü iri daş qayalardan ibarətdir. Qala divarının eni 2,0 metrə, bu günə qədər qalan hissənin uzunluğu 1,5 metrə çatır. Həm daxili, həm də xarici tərəfdən divar hörgüsü düzgün cərgələr şəklində düzülmüşdür, içərisi qumlu kiçik daşlarla doldurulmuşdur. Qala e.ə. I minilliyə aid edilir.
4. **Aznaberd qala** Naxçıvan Muxtar Respublikasında Çalxan kəndi yaxınlığında yüksək təpədə yerləşir. Qala düzbucaqlı şəklindədir və bir cərgə iri daşlardan hörülmüşdür. Çıxıntılı və dərin qala divarları rizalit rolunu oynayır. Qala divarlarının eni 1,0 metrə, hündürlüyü 2,0 metrdən 1,5 metrə qədər çatır. Abidə e.ə. I minilliyə aid edilir.
5. **Vayxır qalası** Naxçıvan MR-də Vayxır kəndi yaxınlığında Cəhri çayının sol sahilində dağın zirvəsində yerləşir. Qalanın bir müdafiə xətti, iki qülləsi var. Divarların eni 2,2 metrə, hündürlüyü 1,0-2,5 metrə çatır. Qalanın divarları böyük daşlardan arası doldurulmuş iki cərgədə tikilmişdir. Qala e.ə. I minilliyə aid edilir.
6. **Qalacıq qalası** Naxçıvan MR-də Qarabağlar kəndindən 5 km məsafədə hündür təpədə yerləşir. Qala xaricə çıxan kontrforsları ilə dairə şəklindədir. Qala divarının eni 2,0 m, yüksəkliyi 1,2-1,8 metrə çatır. Qala e.ə. I minilliyə aid edilir.

6. **Qız qalası** Naxçıvan MR-də Ulya-Noraşen kəndindən 5 km məsafədə Arpaçay çayının sol sahilində yerləşir. Qala dağın zirvəsində yerləşir və dağ ərazisinin relyefi formasındadır. Qala divarları iri qaya daş süxurlarından ibarət bir cərgədə hörülmüşdür. Çıxıntılı və dərin qala divarları rizolit rolunu oynayır. Divarların eni 1,0 metrə, qalan hissələrin hündürlüyü isə bəzi yerlərdə 1,5 metrə çatır.
7. **Qazançı qalası** Naxçıvan MR-də Qazançı kəndi yaxınlığında hündür təpədə yerləşir. Qala dairəvi formaya və dörd çıxıntılı yarımdairə formasında qülləyə malikdir. Yaxşı formada qorunub saxlanmış divarların hündürlüyü bəzi yerlərdə 3,5 metrə çatır. Qala e.ə. I minilliyə aid edilir.
8. **Qarabağlar qalası** Naxçıvan MR-də Qarabağlar kəndindən 5 km məsafədə yüksək sıldırım dağda yerləşir. Qala divarı yalnız qayanın bir tərəfində yerləşir və 3,0 metrdən çox hündürlüyə, 2,0 metr enə və kənara çıxan kontrforslara malikdir. Abidə e.ə. I minilliyə aid edilir.
9. **Kültəpə II istehkamlı yaşayış məskəni** - Naxçıvan MR-də Uzunoba kəndi yaxınlığında yerləşir. İstehkamlı məskən Cəhriçay və Naxçıvançay çaylarının qovuşduğu yerdə tikilmişdir. Qala divarları daş bünövrənin üzərində çiy kərpicdən ucaldılmışdır. Qalanın konfiqurasiyası təpənin formasına uyğundur. Qala divarlarının eni 1,9 metrə çatır. Bəzi yerlərdə divarlar 2,4 metr hündürlükdə qorunub saxlanmışdır. Abidə e.ə. II minilliyə aid edilir.
10. **Oğlanqala qalası** - Naxçıvan MR-də yerləşir. Arpaçay çayının sağ sahilində Ulya-Noraşen kəndinin şimal-şərq hissəsində ən qədim siklopik istehkam tikililərindən biridir. Qalanın yerləşdiyi dağ cənubdan və qərbdən mürəkkəb və dik relyefə malikdir. Dağın zirvəsində düzbucaqlı şəklində bürc yerləşir. Qazıntılar zamanı aşkar edilmiş memarlıq elementləri qalada saray və ibadət tikililərinin olduğunu göstərir. Qala divarları bir cərgədə iri daş bloklardan hörülmüşdür. Bəzi yerlərdə qala divarları 3,0 metrədək hündürlükdə qalmışdır. Abidə e.ə. II-I minilliklərə aid edilir.
11. **Sədərək qalası** Naxçıvan MR-də Dəmirçi kəndinin cənub-şərq hissəsində Vəli dağın zirvəsində yerləşir. Qala bir cərgədə iri daş bloklardan hörülmüşdür, divarların eni 1,0 metr təşkil edir. Qala e.ə. I minilliyə aid edilir.
12. **Çalxan qalası** Naxçıvan MR-də Payız kəndi yaxınlığında dağın zirvəsində yerləşir. Qala divarlarının hörgüsü ara hissələri kiçik daşlarla doldurulmuş iki cərgə omaqla iri daşlardan inşaa edilmişdir. Qala divarlarının xətti yalnız dağın şimal hissəsini əhatə edir. Qalan qala divarlarının hündürlüyü 2,0 metrdən 2,4 metrə qədər, eni isə 2,0 metrə çatır. Qala e.ə. I minilliyə aid edilir.
13. **Şahtaxtı qalası** Naxçıvan MR-də Şahtaxtı kəndi yaxınlığında yerləşir. Qala divarları arası kiçik daşlarla doldurulmuş iki cərgədə hörülmüşdür. Divarların hündürlüyü bəzi yerlərdə 1,8-2,0 metrə, eni 2,0 metrə çatır. Abidə e.ə. II-I minilliklərə aid edilir.
14. **Arıqdaş qalası** Gədəbəy rayonunda Arıqdaş çayının sol sahilində hündür təpədə yerləşir. Qala oval formaya malikdir və cənubdan şimala doğ-

ru uzanır. Qala divarları 2,5 metrə qədər uzunluğa, 3 metr enə malikdir. Qalanın qərb və cənub-qərb hissəsində 30 metr məsafədə ikinci müdafiə xətti yerləşir. Qalaya giriş qalanın şimal-qərb küncündə yerləşir. Qala e.ə. I minilliyə aid edilir.

15. **Aşağı Qalaca qalası** Gədəbəy rayonunda Əmirvar kəndindən şərqdə, Xaçbulaq çayının sol sahilində, Kəblə-Abdulla-Yurdu təpəsində yerləşir. Tikili düzbucaqlı formaya malikdir, şərqdən qərbə doğru uzanır. Tikilinin divarları emal edilməmiş (işlənməmiş) iri daşlardan quru şəkildə hörülmüşdür. Qərb hissədə qalanın divarları bir və iki cərgədə qalmışdır. Qalanın tikildiyi təpə iki tərəfdən (şimal və şərq) dik yamaca malikdir. Giriş qalanın qərb hissəsində yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
16. **Bala Qalaca I qalası** Gədəbəy rayonunda Maarif və Söyüdlü kəndləri arasında alçaq təpədə yerləşir. Qalanın ümumi sahəsi 3000 $m^2$–dir, düzgün formada olmayan dördbucaqlı formasına malikdir və şimaldan cənuba uzanır. Qalanın perimetri boyunca, şərq tərəf istisna olmaqla, ikinci müdafiə xətti inşa edilmişdir. Şərq və qərb qala divarları yaxşı qorunub saxlanmışdır. Bəzi yerlərdə qala divarlarının hündürlüyü 1,7 metrə çatır. Giriş şərq hissədə yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
17. **Bala Qalaca II qalası** Gədəbəy rayonunda Arıqdaş kəndinin qərb hissəsində Böyük qalaca II qalasından 1 km şərqdə yerləşir. Qala divarı bir cərgədə hörülmüşdür və divarların hörgüsü yaxşı uyğunlaşdırılmışdır. Qala divarlarının hündürlüyü 1,5-2,0 metrə çatır. Cənub hissədə qala divarlarının hörgüsü 6-7 cərgədə qalmışdır. Qala e.ə. I minilliyə aid edilir.
18. **Böyük Qalaça qalası** Gədəbəy rayonunda Böyük qara Murad kəndi yaxınlığında Bozdağ dağının şimal-şərq yamacında yerləşir. Şərq və cənub tərəfdən dağın yamacları dikdir. Qala divarlarından yalnız bir, bəzi yerlərdə isə iki cərgə böyük daş blokları qalmışdır. Qala düzbucaqlı şəklindədir, e.ə. I minilliyə aid edilir.
19. **Böyük Qalaca II qalası** Gədəbəy rayonunda Söyüdlü kəndi yaxınlığında dağın zirvəsində yerləşir. Qala oval formaya malikdir, iri daş bloklardan hörülmüşdür. Giriş qalanın şimal hissəsində yerləşir. Abidə e.ə. I minilliyə aiddir.
20. **Böyük Qalaca III qalası** Gədəbəy rayonunda Arıqdaş kəndindən 1 km qərbdə yüksək dağın zirvəsində yerləşir, ellips formasına malikdir. Qala divarları iri daşlardan hörülmüşdür, bir cərgədən ibarətdir. Qorunub saxlanmışdır. Divarların hündürlüyü 1,8 metrdən 2,0 metrə qədər çatır. Ümumi sahəsi 0,5 ha təşkil edir. Qalaya giriş cənub hissədə yerləşir. Abidə e.ə. I minilliyə aiddir.
21. **Qazaxlılar qalası** Gədəbəy rayonunda Qazaxlılar kəndindən 2,5 km cənub-şərqdə Xaçbulaq çayının sağ sahilində yerləşir. Qala alçaq təpədə yerləşir, düzbucaqlı şəklindədir. Qalanın uzunluğu 60 m, eni 38 metr təşkil edir. Qala divarları iri daşlardan hörülmüşdür. Qalan divarların hündürlüyü 3 metri keçir. Qala e.ə. I minilliyə aid edilir.
22. **Qalaça qalası** Daşkəsən rayonunda Əmirvan kəndi ərazisində - Əliquzlarbiçəy adlanan yerdə yerləşir. Qala hamar zirvəsi olan yüksəklikdə yerlə-

şir. Qala iri daşlardan bir cərgədə hörülmüşdür. Qala e.ə. I minilliyə aid edilir.

23. **Heydərqala qalası I** Gədəbəy rayonunda Slavyanka kəndindən 1,5 km şərqdə yerləşir. Qala ərazinin relyefinin konfiqurasiyasını təkrar edir, düzgün dördbucaqlı şəklindədir, sahəsi təxminən 0,4 ha təşkil edir. Qala divarının eni 1,5 metr, hündürlüyü 2,0 metrdir. Qala üç tərəfdən dik enişlərə malikdir. Hər üç tərəfdən giriş dik yamaclarla əhatə olunmuşdur. Şimal tərəfdən girişin eni 2,3 metr təşkil edir, daha iri daş qayalardan hörülmüşdür. Abidə e.ə. I minilliyə aid edilir.
24. **Heydərqala qalası II** Gədəbəy rayonunda Zəhmət kəndindən 2,5 km cənub-şərqdə yerləşir. Dağın səthi düzdür, şimal hissədə sıldırımlı və dik yamaclar var. Qalanın qərb hissəsində 2 metr enində giriş vardır. Abidə e.ə. I minilliyə aid edilir.
25. **Göyçəli dağı qalası** Xaçbulaq kəndindən 3 km qərbdə yerləşir. Dağın zirvəsi böyük çılpaq qayalarla örtülmüşdür. Qala şimal-şərq yamacında yerləşir. Qala divarının aşağı yarusu 2,5 metrdən çox yüksəklikdə qalmışdır. Divarların aşağı hissəsinin hörgüsü iri daşlardan həyata keçirilmişdir. İstehkamın sahəsi təxminən 5000 $m^2$ təşkil edir. Qala 9 seksiyaya bölünmüşdür, e.ə. I minilliyə aid edilir.
26. **Qrek qalaçası qalası** Gədəbəy rayonunda Slavyanka kəndi yaxınlığında yüksək təpədə yerləşir. Qalanın forması təpə relyefinin konfiqurasiyasını təkrar edir. Sahəsi 7350 $m^2$ təşkil edir. Qalanın divarları yaxşı qorunub saxlanmamışdır, e.ə. I minilliyə aid edilir.
27. **Qızılca qala** Gədəbəy rayonunda, Slavyanka kəndindən 2,5 km qərbdə, "Narzan" mineral su mənbəyi yaxınlığında, alçaq təpədə yerləşir. Qala dəyirmi formaya malikdir. Sahəsi 0,5 ha-ya çatır. Qala divarları iri daş bloklardan bir cərgədə hörülmüşdür. Qalanın daxili hissəsindən ikinci müdafiə xətti keçir. Qala e.ə. I minilliyə aid edilir.
28. **Gülməmməd qalası** Gədəbəy rayonunda Söyüdlü kəndindən şimal-qərbdə yerləşir. Qala düzgün olmayan dördbucaqlı formasındadır. Qala yaxşı formada qorunub saxlanmamışdır. Yalnız şimal hissəsində 0,8 metr hündürlüyündə divar qorunub saxlanmışdır. Qala e.ə. I minilliyə aid edilir.
29. **Daşlıtəpə I qalası** Daşkəsən rayonunda Xaçbulaq çayının sağ sahilində, Xaçbulaq kəndindən 1,5 km cənub-qərbdə yerləşir. Ondan təxminən 0,5 km cənubda daha bir qala - Daşlıtəpə II qalası yerləşir. Daşlıtəpə I qalasının divarları dördbucaqlı şəklindədir. Qala divarlarının aşağı cərgəsinin hörgüsü bütünlüklə qalmışdır. Qalanın cənub divarlarının bəzi yerlərində hörgü 2-3 metrə çatır. Qalanın sahəsi 9300 kv. metr təşkil edir. Qala e.ə. I minilliyə aid edilir.
30. **Müseyibqala qalası** Gədəbəy rayonunda Slavyanka kəndi yaxınlığında yerləşir. Qala oval formaya malikdir. Qala divarının iri daş qayalardan hörülmüş qərb hissəsi yaxşı vəziyyətdə qorunub saxlanmamışdır. Qala e.ə. I minilliyə aid edilir.
31. **Nağara qala qalası** Daşkəsən rayonunda Xaçbulaq kəndi yaxınlığında yerləşir. Qala üç tərəfdən dik yamaclarla əhatə olunmuşdur. Qərbdən

daha yüksək dağa birləşir, burada digər qalanın – Çobandaşı qalasının qalıqları qalmışdır. Nağara qalası qərbdən şərqə doğru uzanan düzbucaqlı formasındadır. Qala divarlarının aşağı hissəsi bir cərgədə iri daş qayalardan hörülmüşdür (50x170x125; 65x200x95 и 35x125x100 см). Qala e.ə. I minilliyə aid edilir.

32. **Narzanqala qalası** Gədəbəy rayonunda Slavyanka kəndindən qərbdə yerləşir. Qala trapesiya şəklindədir. Sahəsi 3500 $m^2$. Qala iri daşlardan hörülmüşdür. Abidə e.ə. I minilliyə aid edilir.
33. **Pirqalaca qalası** Gədəbəy rayonunun mərkəzindən 1,5 km şimalda, Gədəbəy kəndi yaxınlığında Maradağ dağında yerləşir. Dağın şimal və şərq yamacları dik formaya malikdir, cənub yamacı daha az mailidir. Qala düzgün olmayan dördbucaqlı formasındadır. Qalanın divarları yaxşı qorunub saxlanmamışdır, yalnız qərb hissədə iki cərgə hörgü qalmışdır. Daşların ölçüsü 1,4-1,75 metrə çatır. Qala e.ə. I minilliyə aid edilir.
34. **Çobandaşı qalası** Daşkəsən rayonunda Nağaradağ dağından şimal-qərbdə yerləşir. Qala düzbucaqlı şəklindədir və iri daş bloklardan hörülmüşdür. Daşların uzunluğu 3 metrə çatır. Qala e.ə. I minilliyə aid edilir.
35. **Yuxarı qalaca qalası** Gədəbəy rayonunda yerləşir, düzbucaqlı şəklindədir və şərqdən qərbə doğru uzanır. Qalanın uzunluğu təxminən 115-120 metr, eni isə 65-70 metr təşkil edir. Qalanın divarları iri daşlardan iki-üç cərgədə hörülmüşdür. Qala e.ə. I minilliyə aid edilir.
36. **Ağqala qalası** Azərbaycanın qərb bölgəsində, Horadiz kəndi yaxınlığında yerləşir. Müdafiə xətti ərazi relyefinin formasını təkrar edir. Abidə e.ə. II-I minilliyə aid edilir.
37. **Vəng qalası** Azərbaycanın qərb bölgəsində 1 ha-dan çox ərazidə yerləşir. Şimal-qərb hissədə qalanın konfiqurasiyası yarımdairəvi formadadır. Divarlar iri daşlardan hörülmüşdür. Qala divarlarının eni 2,5 metrə çatır. Qalanın cənub və şərq hissəsində iki yarımdairəvi qüllə var. Qalan divarların hündürlüy 1,0-1,5 metrə çatır. Qala e.ə. II minilliyə aid edilir.
38. **Geridərə qalası** Azərbaycanın qərb bölgəsində Horadiz kəndi yaxınlığında yerləşir. Dairəvi formaya malikdir. Qala divarlarının xaricində kontrforslar kənara çıxır. Qalaya giriş şərq tərəfdə yerləşir. Abidə e.ə. II-I minilliklərə aid edilir.
39. **Qumlaxqala qalası** Azərbaycanın qərb bölgəsində yerləşir və ellips formasındadır. Şərq tərəfdən yüksək uçurum olduğu üçün müdafiə xətti yoxdur. Abidə e.ə. II minilliyə aid edilir.
40. **Daşlıdərə qalası** Azərbaycanın qərb bölgəsində Cil kəndi yaxınlığında yerləşir. Qalanın planı dağ relyefinin formasını təkrar edir. Divarlar iri daş bloklardan hörülmüşdür. Abidə e.ə. II-I minilliyə aid edilir.
41. **Kaftarl qalası** Azərbaycanın qərb bölgəsində Gözəl kəndi yaxınlığında yerləşir, bir müdafiə xəttinə malikdir. Qala iri daşlardan hörülmüşdür. Qalanın qorunub saxlanmış hissələrinin hündürlüyü 1,2 metrə, eni 2,0 metrə çatır. Qala divarlarının konfiqurasiyası tikildiyi zirvənin forması ilə müəyyən edilirdi və müdafiə nöqteyi-nəzərdən yığcam əlverişli formaya malikdir. Abidə e.ə. II minilliyə aid edilir.

42. **Səngərliqala qalası** Azərbaycanın Qərb bölgəsində yerləşir. Qalanın planı trapesiya formasına malikdir. Qala içəridən iri daşlardan hörülmüş, kontrforslar şəklində kənara çıxan qala divarı ilə iki hissəyə ayrılır. Abidə e.ə. II-I minilliklərə aid edilir.
43. **Nur-Bəyazit qalası** Azərbaycanın Qərb bölgəsində Kəvər kəndi yaxınlığında yerləşir. Abidə e.ə. I minilliyə aiddir.
44. **Berdi qalası** Azərbaycanın Qərb bölgəsində Kəvər kəndi yaxınlığında yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
45. **Noraşen qalası** Azərbaycanın Qərb bölgəsində Noraşen kəndi yaxınlığında yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
46. **Kalian qalası** Azərbaycanın Qərb bölgəsində Kalian kəndi yaxınlığında yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
47. **Eylər qalası** Azərbaycanın Qərb bölgəsində Eylər kəndi yaxınlığında yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
48. **Canamlı qalası** Azərbaycanın Qərb bölgəsində Canamlı kəndində yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
49. **Udman qalası** Azərbaycanın Qərb bölgəsində Ucan kəndi yaxınlığında yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
50. **Ağaranqala qalası** Azərbaycanın Qərb bölgəsində Ağaran kəndi yaxınlığında yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
51. **Hacı Xəlil qalası** Azərbaycanın Qərb bölgəsində Hacı Xəlil kəndində yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
52. **Daşlıqala qalası** Azərbaycanın Qərb bölgəsində yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
53. **Alagözqala qalası** Azərbaycanın Qərb bölgəsində Alagöz dağının ətəyində yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
54. **Muncuqlu qalası** Azərbaycanın Qərb bölgəsində Muncuqlu kəndində yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
55. **Keşiş qalası** Azərbaycanın Qərb bölgəsində Keşişkənd kəndi yaxınlığında yerləşir. Qala təpənin relyefini təkrar edir. Divarlar iki tərəfdən arası kiçik daşlarla doldurulmuş iri daşlardan hörülmüşdür. Qalaya giriş təpənin qərb hissəsində yerləşir.
56. **Keşişkənd kəndi yaxınlığında qala** yüksək təpədə yerləşir. Qalanın konfiqurasiyası təpənin relyefini təkrar edir. Abidə Azərbaycanın Qərb bölgəsində yerləşir, e.ə. I minilliyə aid edilir.
57. **Camışlı kəndi yaxınlığında qala** Azərbaycanın Qərb bölgəsində təpədə yerləşir. Qalanın planı təpə relyefinin formasını təkrar edir. Qalanın şimal-qərb və cənub-şərq hissəsində qala divarlarından möhkəmləndirilmiş (istehkam şəklinə salınmış) səddə malikdir. Abidə e.ə. I minilliyə aid edilir.
58. **Arqala qalası** Azərbaycanın Qərb bölgəsində Arqala kəndi yaxınlığında yerləşir. Qala təpənin formasını təkrar edir. Şərq və cənub hissədə qalanın kontrfors şəklində çıxıntıları var. Qalanın divarları iri daşlardan hörülmüşdür, eni 2,5 metr təşkil edir. Abidə e.ə. I minilliyə aid edilir.
59. **Cinqala qalası** Azərbaycanın Qərb bölgəsində Cingitəpə kəndi yaxınlığında yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.

60. **Mirağa qalası** Azərbaycanın Qərb bölgəsində Mirağa kəndi yaxınlığında yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
61. **Nadis Xəlil kəndi yaxınlığında qala** Azərbaycanın Qərb bölgəsində yerləşir. Qala ellips formasındadır. İri daşlardan hörülmüşdür. Divarların qalınlığı təxminən 2 metrə çatır. Abidə e.ə. I minilliyə aid edilir.
62. **Kərqala qalası** Azərbaycanın Qərb bölgəsində Kərbulaq kəndi yaxınlığında yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
63. **Düzkənd kəndi yaxınlığında qala** Azərbaycanın qərb bölgəsində yerləşir. Abidə e.ə. I minilliyə aid edilir.
64. **Düzkənd kəndi yaxınlığında qala** Azərbaycanın Qərb bölgəsində qayalı təpədə yerləşir. Qalanın konfiqurasiyası üçbucaq şəklində təpənin formasını təkrar edir. Qalanın şərq hissəsində xaricə çıxan iki qüllləli giriş yerləşir. Qala divarlarının cənub və cənub-şərq hissəsi kontrforslarla möhkəmləndirilmişdir. Abidə e.ə. I minilliyə aid edilir.
65. **İstehkamlı Aburza(ni)** şəhəri Xoxor salnaməsinə əsasən, Aburza(ni) Kadukaniu(ni) ilə birlikdə Urmiya gölündən şərqdə Şatiraraq bölgəsinin istehkamlı şəhəridir.
66. **İstehkamlı Aliştu** şəhəri Sevan gölü istiqamətində Kiehunii şəhəri ölkəsinin Aliştu şəhərinə qədər fəthindən söhbət gedən Xorxor salnaməsində istehkamlı şəhər kimi adı çəkilir. Şəhər-qala hazırkı Ördəklinin yerində - tarixi Azərbaycanın Qərb hissəsində, Sevan gölünün şimal-qərb sahilində yerləşir.
67. **İstehkamlı Allabria** şəhəri Allabria bölgəsinin (şəhər) Kolxu hissəsində daş plitə üzərində II Adadnerarinin kitabəsində Munna (Manna) ilə yanaşı yad olunur. Bu, II Sarqonun salnaməsində təsdiqini tapır. Salnaməyə əsasən, Allabria və Karalla Manna çarlığının qonşuluğunda yerləşir.
68. **Aludira əzəmətli Alludiri şəhər-qala** tikilisi çar Menuanın kitabəsində yad edilir. Bu fakt Aludiri şəhər-qalasının bəlkə də tarixi Azərbaycan ərazisinin Qərb bölgəsində Urartu qalasının dağıntıları olduğunu göstərir.
69. **Andia/u** – II Sarqonun salnaməsi mannalıların ölkəsinin Midiya mərkəzi olan Telesina bölgəsində çar İzirtunun qələbəsindən bəhs edir. Bu, Andia/unu Manna çarlığı daxilində axtarmaq lazım olduğunu göstərir. Andianın yerini müəyyən etmək üçün Luvr lövhəsindəki məlumatlar diqqət çəkir: Assuriya çarı Mannanın Zirdiakka qalasından yola düşərək, mannalıların ölkəsi, Bit-Kaysi və qüdrətli midiyalıların ölkəsi arasında sürətlə irəliləmiş və Zikirtu və Andiyaya qarşı tikilmiş böyük Panziş qalasına gəlmişdir.

Yuxarıda deyilənlərdən qənaətə gəlmək olarki, xüsusi ədəbiyyatda Andiya (Andiu) şəhər-qalasının yeri Zikirtudan və Manna çarlığından şərqdə - Qızılüzən (Safidrud) çayının vadisində müəyyən edilir.

70. **Anniaştanna.** II Sarqonun salnaməsində Aniaştania Bit-Samgibuti bölgəsinin sərhədində istehkamlı şəhər hesab olunur və Zaranda bölgəsi və dalayların ölkəsində istehkamlı Tarui və Tarmakisu şəhərləri arasında,Ulxu şəhər-qalasının ətrafında yad olunur. Luvr lövhəsində bir hissəyə əsasən, Aniaştania Sangibutu sərhədində tikilmişdir və Uşkaya və Tarmakisa arasında, yəni Urmiya gölünün şimal-şərq dərəsi yaxınlığında yerləşirdi.

71. **Aratsu.** Luvr lövhəsinə əsasən, Aratsu (Arazu) Urmiya gölündən şimala doğru, Artsabia dağında Sangibutu vilayətinin çoxsaylı istehkamlı şəhərlərindən biri olmuşdur.
72. **Arbu.** II Sarqonun salnaməsinə və Luvr lövhəsinə əsasən, Arbu (Rusa-Ursa sülaləsinin yaşayış məskəni) Sangibutu (Urmiya gölünün şimal sahilində) və Ayadu (Van gölünün cənub və şərq sahillərində) arasında yerləşən Armarili bölgəsi ərazisində yerləşmişdir.
73. **Argiştixinili (Kürdüklü).** Şəhər-qalanın adı Sərdarabad kəndində, Kürdüklüdən 5 km şərqdə aşkarlanmış kitabədə yad edilir, burada Argiştixinilinin Aza tayfasının ölkəsində yerləşdiyi bildirilir.

Aza ölkəsi ərazisində Argiştixinili tikilisi haqqında Xorxor salnaməsində də bəhs olunur. Argiştixinili şəhər-qalası Kürdükülü və Davti-təpə təpələrində, Araz çayının sol sahilində, tarixi Azərbaycan ərazisinin Qərb bölgəsində yerləşir.

Məlumat. Aza – (Azaini) Xorxor salnaməsində çar I Argiştinin Argiştixinili şəhər-qalasını tikdiyi və Aza tayfasının ölkəsində suvarma kanalı çəkdirdiyi barədə danışılır.

Daha sonra Teyşebainidə qazıntılar zamanı aşkar edilmiş gil lövhələrdə Aza bölgəsi hüdudlarında Teyşebaini və Erebuni şəhər-qalasının yerləşdiyi bildirilir.

74. **Ardini-Musasir.** Bu istehkamlı şəhər və bölgə Urartu mətnlərində Ardini, paralel Assuriya mətnlərində isə Musasir adı ilə anılır. Assuriya kitabələrindəki məlumatlara əsasən, Musasir Gilzan və Manna ölkələri ilə qonşudur və Urmiya gölündən cənub-qərbdə, Böyük Zab çayının yuxarı hissəsində yerləşir.
75. **Arin(na)/i – Arinu(n).** Aşşurbanipalın salnaməsindəki Arinun istehkamlı yaşayış məskənini Arinunla eyniləşdirmək lazımdır. I Salmanasarın kitabələrindən birində və I Tiqlatpalasarın salnaməsində Arina Musru ölkəsinin istehkamlı yaşayış məskəni kimi çıxış edir. Musrunun strateji və ibadət mərkəzi Ardini-Musasir Böyük Zabın yuxarı axarında və Böyük Zab vadisindən Urmiya gölünə gedən karvan yolunda yerləşən ilə məhdudlaşır.
76. **Armand /t.Armed/t-Urme(ya)** yəni – II Sarqonun salnaməsindəki məlumata görə, Armand şəhəri mannalıların ölkəsinin şəhəri idi. İstehkamlı Armand şəhəri Saqqız-Seqqızdan cənub-şərqdə müasir Sahab-Sahəb kəndinin yerində yerləşir.
77. **Armuna.** Luvr lövhəsindəki məlumatlara görə, Armuna Hurnuku, Hardania, Gizuartsu, Şaşzis, Yuxarı Hundurna, Uadpaunza, Arazu, Şadiştsinia, Aşağı Hundurna, Zirma, Surzi, Kinaştania kimi Artsabia dağında, Urmiya gölündən şimalda, Sangibutu vilayəti hüdudlarında istehkamlı məskənlərdən biri olmuşdur.
78. **Atezayni.** I Rusanın kitabəsində Atezayni Sevan gölünün şimal tərəfində yüksək dağlarda 19 istehkamlı şəhərdən biri kimi çıxış edir.
79. **Aukane.** Luvr lövhəsindəki məlumatlara görə, assuriyalılar Panzişdən (Zikirtu və Andiyaya qarşı müdafiə üçün tikilmiş Manna qalası) yola çıxmış, İştarauri çayından keçərək, istehkamlı Aukane şəhərinə gəlmişdirlər.

Qeyd edilən məlumatlardan belə çıxır ki, istehkamlı Aukane şəhəri Mannanın Panziş qalası ilə Uişdiş vilayətinin arasında, Urmiya gölündən şərqdə yerləşir.

80. **Aşdiyaş.** Aşşurbanipalın "Silindr B" kitabəsinə əsasən, Ayusnaş, Busuta, Urkiyamun, Uppiş və Sihua ilə yanaşı, Aşdiyaş Mannalılar ölkəsinin istehkamlı şəhərlərindən biridir.
81. **Bamni.** İstehkamlı yaşayış məskəni olan Bamni vilayəti Xorxor salnaməsində yad edilir. Bamni Sevan gölü ərazisində, onun cənub sahilləri yaxınlığında yerləşir.
82. **Barşua – Parsua (ş).** Barşua Manna çarlığının cənub hüdudlarında, onun Messi bölgəsi ilə qonşuluqda yerləşirdi.
83. **Birua.** Aşşurbanipalın kitabəsindəki məlumatlara görə, Birua Manna çarlığının cənub-qərb hüdudları yaxınlığında istehkamlı yaşayış məskənidir.
84. **Bihurani.** Xorxor salnaməsində istehkamlı Bihurani şəhərinin adı Arkukini, Adaxuni, Luipruni, Eşumua və Kaminu ilə yanaşı çəkilir. Ehtimal olunan yerləşmə yeri Sevan gölünün cənub sahillərinin yaxınlığıdır.
85. **Buku.** II Argiştinin Sərabdan şərqdə, Təbrizdən Ərdəbilə gedən yolun yaxınlığında aşkar edilmiş qayaüstü kitabələrində Aru ölkəsinə yürüşdən, Uşuluni, Buku (istehkamlı şəhər), Girduni, Gitugani, Tuişduni ölkələrinin fəth edilməsindən bəhs olunur. Urmiya gölündən şərqdə, Xəzər dənizinə gedən yolda, Sərab-Ərdəbil yürüşünün marşrutu boyunca yerləşir.
86. **Buştu-Busutu-Bustis-Bustus.** II Sarqonun salnaməsində Midiya, Ellipi, Manna ölkələri ilə yanaşı, Bustis bölgəsinin adı çəkilir. Aşşurbanipalda isə Busutu adına Mannalıların ölkəsinin qalaları arasında rast gəlinir. Qeyd edilən məlumatlara əsasən, Buştu və istehkamlı Busutu şəhəri Urmiya gölündən cənubda, Manna və Barşua (Parsua) bölgələri arasında yerləşir.
87. **Gidimaru (ni).** Çar Menuanın kitabəsinə əsasən, Gidimaru (ni) Huradinaku (ni) və Tarzuanani kimi, ola bilsin ki, Şatiru (ni) bölgəsinin Urmiya gölündən cənubda, Buştu ölkəsi ilə qonşuluqda yerləşən istehkamlı yaşayış məskənidir.
88. **Gilzanu – Gilzan(u)**, Hubuşkiya ilə birlikdə, III Salmanasarın salnaməsində yad olunur. Assuriyalılar Tsap(p)arnı, istehkamlı Musasir şəhərini, bu bölgənin 46 digər istehkamlı yaşayış məskəni ilə birlikdə ələ keçirmiş və məlum olmayan Urartu qalalarına qədər gəlib çatmışdırlar. Daha sonra isə onlar Gilzan ölkəsinə gəlmiş və Gilzanlı Upunun xəracını qəbul etmişdirlər.

   Gilzan bölgəsi və onun istehkamlı şəhəri Urmiya gölünün qərb sahili boyunca yerləşir.
89. **Gimdakrikka.** II Sarqonun Luvr lövhəsindəki məlumatına əsasən, Gimdakrikka Zikirtu ölkəsinin Aukane bölgəsinin Urmiya gölündən şərqdə yerləşən 13 istehkamlı yaşayış məskənindən biri idi.
90. **Girduni.** II Argiştinin qayaüstü kitabələrinə əsasən, Girduni ölkəsinin yerini Xəzər dənizinin qərb sahilində, Lənkərandan şimalda (şimal-qərbdə), Girdani yaşayış məskəninin yerləşdiyi yerdə müəyyən etmək olar.

91. **Gurgumeli.** I Rusanın kitabəsində Sevan gölünün cənub sahilində yüksək dağlarda yerləşən ölkə və istehkamlı şəhər kimi yad olunur.

92. **Gurrusupa.** Luvr lövhəsinə əsasən, Zikirtu ölkəsinin Aukane bölgəsinin Urmiya gölündən şərqdə yerləşən 13 istehkamlı yaşayış məskənindən biridir.

93. **Daq (Dag).** Luvr lövhəsindəki məlumata əsasən, Daq, Hurnuku, Hardania və s. kimi, Urmiya gölündən şimalda Sangibutu bölgəsinin istehkamlı yaşayış məskənlərindən biridir.

94. **Dalaylar.** Dalaylar ölkəsi (Dalaja). II Sarqonun salnaməsindəki məlumata görə, Tarui və Tarmakisa dalayların ölkəsində yerləşirdi. Daha sonra güclü Tarui və Tarmakisa istehkamlarının dalayların ölkəsində tikildiyi xatırladılır.

Dalayların ölkəsi Tariy və Tarmakisa qalaları ilə birlikdə geniş Sangibutu ölkəsinin ayrılmaz hissəsi idi; ikincisi, dalayların ölkəsi dedikdə Urmiya gölünün şimal-şərq küncündəki həmin Bari ölkəsi nəzərdə tutulmalıdır.

95. **Darani.** I Argiştinin kitabəsindəki məlumata görə, Darani Uluani ölkəsinin istehkamlı şəhəridir. İrəvandan şimal-şərqdə yerləşir.

96. **Dukama (Didama).** Xorxor salnaməsinə əsasən (e.ə. 781-ci il), Dukama Urmiya gölündən cənubda Buştu bölgəsinin istehkamlı şəhəridir.

97. **Durdukka (Dudukka).** II Sarqonun salnaməsindəki məlumata görə, bu çarın hakimiyyətinin üçüncü ilində Şuandaxul və Durdukka istehkamlı şəhərləri Manna çarı İranzuya qarşı qiyam fikrinə düşmüşdülər.

Durdukka və Şuandaxul Manna çarlığının şərq (şimal-şərq) sərhədində, Urmiya gölündən şərqdə, Zikirtu ölkəsi ilə qonşuluqda yerləşirdi.

98. **Durubani.** I Argiştinin kitabəsinə əsasən, istehkamlı Durubani şəhəri Alagöz dağının şimal-qərb yamacında yerləşir, Durubani Kuliani tayfası ölkəsinin istehkamlı şəhəri (mərkəzi) idi.

99. **Zibia-İzibil-Uzbia (Zibia-İzibia-Urbia).** II Sarqonun kitabələrinə əsasən, İzirtu və Armandla birlikdə Zibia Manna ölkəsinin istehkamlı şəhərlərindən biridir.

Sonradan Aşşurbanipalın "Silindr B" adlanan kitabəsində İzirtunun, onunla yanaşı Uzbia və Urmeyate - Manna ölkəsinin istehkamlı şəhərlərinin adlarına rast gəlinir. Mütəxəssislər Uzbia və Urmeyatenin müvafiq olaraq Zibia-İzibia və Armand-Armed-Armet adlarının variantları olduğu fikri ilə razılaşırlar.

Assuriya mixi mənbələrində adı çəkilən Manna çarlığının Zibia-İzibia-Uzbia şəhəri dedikdə Urmiya gölündən cənubda: Banedən şimal-qərbdə və Sardeştadan cənub-şərqdə həmin dövrə aid həmtayfa yaşayış məskəni olan Zebia prototipinin nəzərdə tutulması ehtimalı istisna deyil.

100. **Zirdiakka.** Sirdakka (Zirdiakka-Siralakk). Luvr lövhəsindəki məlumatlardan görünür ki, II Sarqon Parsuaşdan yola düşüb Missiyə, mannalıların ölkəsinin bölgəsinə gəldikdə, sonuncunun çarı Ullusunu ölkəsinin insanları ilə birlikdə onun öz Sirdakka qalasına yaxınlaşmasını gözləyirdi.

Mannalıların Zirdiakka şəhər-qalasından başlayaraq, Mannalıların ölkəsi, Bit-Kapsi və qüdrətli midiyalıların ölkəsi arasında irəliləyən II Sarqon sonra Manna çarı Ullusununun Zikirtu və Andiaya qarşı müdafiə üçün tikilmiş böyük Panziş qalasına gəlmişdir.

Yuxarıda qeyd edilən məlumatlardan belə qənaətə gəlmək olar ki, Sirdakka-Zirdiakka qalasını geniş Manna çarlığının cənub-şərq hüdudlarında, onun Messi-Missi bölgəsinin ərazisində, Gizilbundadan qərbdə və Midiyadan şimal-qərbdə axtarmaq lazımdır.

101. **Zirma (Zirma).** Luvr lövhəsindəki məlumata görə, Urmiya gölündən şimalda, Artsabia dağının sıldırım qayalarında Sangibutu bölgəsinin çoxsaylı istehkamlı şəhərlərindən biridir.

102. **Zurzukka (Zurrukka).** II Sarqonun kitabəsinə əsasən, Zurzukka Şuandaxulla birlikdə Mannalıların ölkəsinin istehkamlı şəhəri idi.

Maraqlıdır ki, II Sarqonun salnaməsinin müvafiq hissəsində Zurzukka yerinə Durdukka adı çəkilir.

103. **İrdua (Irdua-ni).** Sardurun salnaməsində İrdua (ni) Uerdaininin çar şəhəri kimi çıxış edir. Xüsusi ədəbiyyatda Uerdainiyə istehkamlı çar şəhəri İrdua (ni)nin aid olduğu tayfaların adı kimi baxılır.

(İstehkamlı) İrdua şəhərinin adı həmçinin II Argiştinin Sisian kitabəsində anılır. Burada o, Zazinu adlı hökmdarı olan Tsuluku bölgəsinin istehkamlı şəhəridir.

İrduanın Azərbaycanın Qərb bölgəsinin Sisian rayonunda yerləşdiyini ehtimal etmək olar.

104. **İrkikuni (Irkiuni).** Xorxor salnaməsində İrkiuni istehkamlı şəhəri Uryani, Tara (ba), Artarmu, Muruzu tayfası, Ubarugildu (ni) çar şəhəri ilə birlikdə yad edilir (hansısa naməlum ölkənin).

Xarxar salnaməsində həmçinin İrkiuni ölkəsi məşhur Urmiyayanı Manna çarlığı ilə birlikdə yad olunur. Mətnə əsasən, urartulular Manna və İrkiuni bölgələrini işğal edirlər.

İrkiunini Urmiya gölündən cənub-qərbdə, Manna çarlığının cənub-qərb sərhədində, Assuriyanın şərq hüdudları yaxınlığında axtarmaq lazımdır.

105. **İruya (ni) (Iruia-ni).** Sardurun salnaməsində İruya (ni)nin, hökmdar İrkuaininin istehkamlı çar şəhərinin adı hökmdar Uerdaininin İrduani istehkamlı çar şəhəri ilə birlikdə yad olunur.

Deyilənlərdən görünür ki, İruya (ni)nin, bütünlükdə onun məxsus olduğu bölgə kimi, tarixi Azərbaycanın Qərb bölgəsinin Sisian rayonunda İrdua (ni) çar şəhəri ilə, İuluku bölgəsi ilə qonşuluqda yerləşdiyi təxmin edilə bilər.

106. **İştaippa (İştaippa).** Luvr lövhəsindəki məlumata əsasən, Urmiya gölündən şərqə doğru Zikirtu ölkəsinin Aukane bölgəsinin 13 istehkamlı yaşayış məskənindən biridir.

107. **İştatti (İştatti).** Aşşurbanipalın kitabəsinə əsasən, Ahşeri, Manna ölkəsinin çarı, "Assuriya yürüşünün yaxınlaşdığını eşidib İzirtunu, öz çar şəhərini tərk etdi və istehkamlı İştatti – İştattu şəhərinə, öz ümidlərinin şəhərinə qaçdı".

Deyilənlərdən görünür ki, İştatti Mannalıların ölkəsinin ən çox möhkəmlənmiş qala-şəhərlərindən biri olmuşdur.

108. **İştikuni.** I Argiştinin kitabəsindəki məlumata əsasən, o, Kiyehuni şəhərinin ölkəsini işğal edərək, Sevan gölünün sahilində, Liki ölkəsinin yanında yerləşən istehkamlı İştikuni ölkəsinə qədər gəlib çatmışdır.

109. **Kabani.** Luvr lövhəsindəki məlumata görə, Urmiya gölündən şərqdə Zikirtu ölkəsinin Aukane bölgəsinin 13 istehkamlı yaşayış məskənindən biridir.

110. **Kadukainuni (Qadukaniuni)** - Xorxor salnaməsindəki məlumata görə, Kadukainuni də Aburzani kimi Urmiya gölündən şərqdə Şatiraraqa bölgəsinin istehkamlı yaşayış məskəni idi.

111. **Kinaştanna (Kinaštania)** Hurnuku, Hardania, Gizuartsu, Şaşzisa və s. kimi Urmiya gölündən şimalda, Artsabia dağının sıldırım qayalarında Sangibutu bölgəsinin istehkamlı yaşayış məskənlərindən olmuşdur.

112. **Kipihamanu (Kinihamanu)** III Salamansarın Kalxu salnaməsinin XXXI ilinin məlumatına əsasən, Kinihamanu, Buştu və Şalaxamanu kimi, Parsua ölkəsinin istehkamlı şəhərlərindən biri idi.

113. **Man(n)a** – Man(n)a II Sarqonun salnaməsinə əsasən, Zikirtili Mitatti (Zikirtuya bax) gah Mannalılar ölkəsinin düşməni, gah da onun canişinlərindən biri kimi çıxış edir. Mannalıların canişinləri arasında Uişdişli Baqdattinin adı da çəkilir (Uişdişə bax).

Həmin vaxt Mannanın çar şəhəri İzirtu, şəhərləri Zibia (variantlar: İzibia, Uşbia), Armand (variant: Armed) idi.

II Sarqonun salnaməsində başqa bir halda Uişdiş sadəcə Manna ölkəsinin bölgəsi hesab olunur. Luvr lövhəsində isə Ursanın ələ keçirdiyi Manna bölgəsidir.

Daha sonra, Luvr lövhəsindəki məlumatına əsasən, Manna ölkəsinin digər bölgəsi – Surikaş Karallu (bax) və Allabria (bax) bölgələri ilə qonşu olmuşdur. Görünür, Surikaşla əlaqədar sərhədyanı Sinixini qalasının adı çəkilir.

Uzaq cənubda Sirdakka-Zidiakka qalası ilə Mannanın Messi-Missi bölgəsi (Urartu. Meiş-ta – bax) yerləşirdi.

Yuxarıda qeyd edilmiş Messinin Sirdakka-Zirdiakka qalasından 30 "beru" (200 km-dən çox) məsafədə Mannalılar ölkəsinin böyük Panziş qalası yerləşirdi. O, Zikirtu və Andiaya (bax) qarşı müdafiə üçün tikilmişdi.

Manna ölkəsi haqqında yuxarıda qeyd edilən məlumatlardan bəziləri II Sarqonun "Torjestvennaya nadpis" kitabəsində təkrarlanır. Xüsusən, burada deyilir ki, Uişdiş və Zikirtu hökmdarları Manna canişinləri idi. Manna ölkəsinin çar şəhəri qismində burada da İzirtu, güclü qalalar kimi İzibia və Armed, digər şəhərlər kimi Şuandaxul və Zurzukku çıxış edirdi.

Aşşurbanipalın elmdə "Silindr Rassama" adı ilə məşhur olan kitabəsində isə İzirtu çar şəhəri ilə birlikdə İştattinin – Manna çarı Axşerinin "ümid şəhərinin" adı çəkilir.

Aşşurbanipalın digər "Silindr B" kitabəsində Manna çarlığının qala-şəhərləri arasında İzirtu ilə yanaşı, Ayusiaş, Paşa (...) su, Busutu, Aşdiaş, Urkiyamun, Uppiş, Sixua, Nazinirinin adı çəkilir. Elə buradaca Atrana – Axşerinin "ümid şəhəri", istehkamlı Urmeyate, Uzbia şəhərləri, Paddira şəhəri, Arsiyaniş şəhərinin bölgəsi, Harsi dağında Ay(a) kanani şəhəri, Mannalıların ölkəsinin daxilində kumurdalıların vilayəti var.

Daha sonra burada: Erişteyana şəhərinin bölgəsi, Birua yaşayış məskəni, Assuriya ilə qonşuluqda olan, amma əvvəllər Mannanın tərkibində olan Şarruikbi, Qusune, Birute məskənləri sadalanır.

Man(n)a ölkəsinin yerinin müəyyən edilməsi üçün Urartu çarı Menuanın Mianduab-Miandoab yaxınlığında, Urmiya gölünün cənub-şərq sahili yaxınlığında Daştəpə qayasında oyulmuş kitabəsi də böyük maraq doğurur. Kitabədə Manna ölkəsinin və Meişta şəhərinin işğal edilməsindən bəhs edilir. Mətndən görünür ki, Meişta müstəqil tarixi-coğrafi vahiddir; maraqlıdır ki, burada Meişte haqqında bəhs Man(n)adan əvvəl verilir.

Xüsusi ədəbiyyatda müəyyən edilir ki, Urartu mənbələrindəki Meişta, çox güman ki, Assuriya kitabələrindəki Mes(s)idir. (müqayisə üçün Urartu – Arsi-ta, Assur – Harsi, Urartu – Barua-ta və Assur – Bit-Barrua).

I Argiştinin Xorxor salnaməsinə əsasən isə, Manna ölkəsi Buştu, İrkiuni və Assuriya ilə qonşu olmuşdur.

Bu salnamənin digər hissəsində Manna ölkəsinin ayrılmaz hissələri kimi Aşkapa, Uişta, Uuşi(ni), daha doğrusu, Urmiya gölünün şərq sahilində və qonşu ərazilərdə həmin coğrafi vahidlər sadalanır, onlara Assuriya mənbələrində müvafiq gələn Uşkaya, Uişdiş, Uauşdur. Bundan başqa, Xorxor salnaməsindən görünür ki, I Argiştinin hakimiyyəti dövründə Manna ölkəsinin çar şəhəri Şimerixadiri olmuşdur.

Daha sonra II Sardurun salnaməsindəki məlumatda Manna ölkəsinin Babilu və Baruata ölkələri ilə yaxınlığı görünür. Burada həmçinin Darbaninin – Manna ölkəsinin istehkamlı şəhərinin adı çəkilir.

Beləliklə, yuxarıda deyilənlərdən görünür ki, Manna çarlığının geniş ərazisini Urmiya gölünün şərq sahili boyunca və ondan şərqə və cənuba doğru axtarmaq lazımdır. Urmiya gölünün qərb sahilləri boyunca çox sayda istehkamlı şəhər və qala aşkar edilmişdir. Deməli, bu çarlığın tərkibinə Surikaş, Messi-Meiş(ta), Uşkaya-Aşkaya, Uişdiş-Uişti, Uuşi-Uauş və s. tarixi-coğrafi vahidlər daxil idi. Manna çarlığının şimal sərhədləri Urmiya gölünün qərb sahili boyunca Urartu dövlətinin ərazisinə qədər, cənub sərhədləri isə Diyala çayının mənbəyi yaxınlığında Barşua-Parşua bölgəsinə qədər çatırdı.

**114. Naziniri (Naziniri)** Aşşurbanipalın "Silindr B" kitabəsindəki məlumata əsasən, Naziniri Ayusiaş, Busutu, Aşdi(y)aş, Urkiamui, Uppiş və Suxua ilə yanaşı, Manna ölkəsinin 8 istehkamlı şəhərindən biri olmuşdur.

**115. Panziş (Panziš)** Luvr lövhəsindəki məlumata əsasən, e.ə. 714-cü ildən Urartuya qarşı yürüş zamanı II Sarqon Mannalıların Zirdiaka qalasından yola düşmüş və Manna, Bit-Kaysi və qüdrətli midiyalıların ölkəsi arasında irəliləmiş, daha sonra Manna çarı Ullusununun Zikirtu və Andiyaya qarşı müdafiə üçün tikilmiş böyük qalasına - Panzişə gəlmişdir.

Daha sonra Assur çarı Panzişdən yola düşmüş, İştaraura çayından keçmiş və Aukaneyə, Zikirtu ölkəsinin vilayətinə gəlmişdir.

Beləliklə, yuxarıda təqdim edilmiş məlumatlardan görünür ki, Manna çarlığının böyük Panziş qalası Zikirtu və Andiya ilə sərhəddə, Urmiya gölündən cənub-şərq və ya şərq tərəfdə tikilmişdir.

**116. Puinialhi (Puinialhi).** Sardur kitabəsində Punu(alhi) istehkamlı şəhəri II Argiştinin Sisian kitabəsinə əsasən, Tsuluku ölkəsinə məxsus olan İrdua (ni) şəhəri ilə yanaşı çıxış edir.

Deyilənlərə əsasən, Puini-alhi, bütünlükdə bölgə kimi, tarixi Azərbaycan ərazisinin Qərb bölgəsindəki ərazinin qonşuluğunda yerləşir.

**117. Puluadi.** Sardurun kitabəsində urartuluların Puluadi ölkəsinə qarşı yürüşü və onun Libliuni istehkamlı çar şəhərinin işğal edilməsi barədə bəhs edilir. Daha sonra kitabədə Libliunidə Urartu çarının özündən sonra yazı qoymasından, Puluadi ölkəsində qala tikməsindən və bu bölgənin Urartu dövlətinin ərazilərinin tərkibinə daxil etməsindən danışılır. )

Beləliklə, aydın olur ki, Libliuni çar şəhəri olan Puluadi vilayətinin Cənubi Azərbaycanda, Arasbaran bölgəsində, Axardan şimal-şərqdə yerləşdiyini müəyyən etmək olar.

**118. Surzi** - Luvr lövhəsindəki məlumata görə, Surzi, Mannalıların ölkəsindəki digər qalalar kimi, Artsabia dağında, Urmiya gölündən şimalda Sangibutu vilayəti hüdudlarında istehkamlı yaşayış məskənlərindən biridir.

**119. Tarzu`anna (ni) (Tarzu`ana-ni)** Çar Menuanın kitabəsinə əsasən, Tarzu`an (ni) Huradina-kuni və Gidimaru-ni kimi, Urmiya gölündən cənubda, Buştu ölkəsi yaxınlığında Şatiru-ni vilayətinin istehkamlı məskəni olmuşdur.

**120. Tarraba (Tarraba)** İstehkamlı Tarraba şəhəri Arinun və bir sıra digər istehkamlı məskənlərlə birlikdə Assuriya çarı Aşşurbelkalanın salnaməsində yad edilir.

Yuxarıda deyilənlərdən ehtimal etmək olar ki, Tarraba istehkamlı məskənini Urmiya gölündən qərbdə axtarmaq lazımdır.

**121. Taştami (Taštami)** Luvr lövhəsindəki məlumata görə, Taştami Zikirtu (Ziqirtu) ölkəsinin Aukane vilayətinin 12 digər istehkamlı məskəni ilə birlikdə Urmiya gölündən şərqdə yerləşir.

**122. Çarxabqala.** Teyşebaini (Tejšebaini) Çarxabqalada qazıntılar zamanı (tarixi Azərbaycanın Qərb bölgəsində) I Rusanın geniş kitabəsi tapılmışdır. Kitabədə Teyşebaini şəhərinin adı çəkilir (DİM-ni – URU – "tanrı Teyşebanın şəhəri"). Sözügedən kitabəyə əsasən, Teyşebaini Aza ölkəsinin (tayfasının) şəhəri idi.

**123. Tulihu (Tulihui)** II Sardurun Sevan gölünün qərb sahilində qaya üzərində oyulmuş qələbə yazısına əsasən, onun cənub-qərb hissəsi yaxınlığında, Tulihu istehkamlı şəhəri Luexunun oğlu hökmdar Sinalibinin çar şəhəri olmuşdur. Urartulular Uduri-Eti(u)ni ölkəsinə qədər gəlib çatmışlar.

**124. Ubarugildu(ni) (Ubarugilduni)** Xorxor salnaməsinin III ilinin məlumatına əsasən, Ubarugilduni Urmiya gölündən qərbdə, Tarraba-Trabi vilayəti ilə qonşuluqda yerləşən məlum olmayan ölkənin (adı pozulmuşdur) istehkamlı çar şəhəridir.

**125. Uihika (Uihika)** Xorxor salnaməsinin XII ilində (e.ə. 775-ci il) Uihika Urmiya gölündən cənubda, Manna çarlığı ilə qonşuluqda Buştu ölkəsinin istehkamlı şəhəri (məskəni) kimi çıxış edir.

**126. Uppiş (Uppiš)** Aşşurbanipalın "Silindr B" kitabəsindəki məlumata əsasən, Uppiş, Ayusiaş, Busutu, Aşdiaş, Urkiyamun, Sixua və Naziniri kimi, Mannalılar ölkəsinin 8 istehkamlı şəhərindən biri olmuşdur.

127. **Urkiyamuş (Urkijamui)** Aşşurbanipalın "Silindr B" kitabəsindəki məlumata əsasən, Urkinamun, Ayusiaş, Busutu, Aşdiaş, Uppiş, Suxia və Naziniri kimi, Mannalılar ölkəsinin 8 istehkamlı şəhərindən biri olmuşdur.
128. **Urme(ya)te (Urme(ja)te)** Aşşurbanipalın "Silindr B" kitabəsindəki məlumata əsasən, Urme (ya) te Mannalılar ölkəsinin istehkamlı şəhəri olmuşdur. Armand-Armed/t – Urme(ya)te kimi.
129. **Hardania (Hardania)** Luvr lövhəsindəki məlumata əsasən, Hardania Urmiya gölündən şimalda, Artsabia dağının sıldırım qayalarında Sangibutu vilayətinin iyirmidən çox istehkamlı şəhərindən biri olmuşdur.
130. **Yuxarı Hundurna (Hundurna elu)** Luvr lövhəsindəki məlumata əsasən, Yuxarı Hundurna Urmiya gölündən şimalda və şimal-şərqdə Artsabia dağının sıldırım qayalarında Sangibutu vilayətinin çoxsaylı istehkamlı şəhərlərindən biri olmuşdur.
131. **Aşağı Hundurna (Hundurna šaplu)** Yuxarı Hundurna kimi, Urmiya gölündən şimalda və şimal-şərqdə Artsabia dağının sıldırım qayalarında Sangibutu vilayətinin çoxsaylı istehkamlı şəhərlərindən biri olmuşdur.
132. **Huradinaku(ni) (Huradinakuni)** Çar Menuanın kitabəsinə əsasən, Huradinaku(ni) Urmiya gölündən cənuba doğru, Buştu ölkəsi ilə qonşuluqda yerləşən Şatiru(ni) bölgəsinin istehkamlı məskənidir.
133. **Şarara (Šarara)** Xorxor salnaməsinin VI ilin II yürüşü ilə bağlı məlumatlara əsasən (e.ə. 781-ci il), Şarara Urmiya gölündən cənubda Buştu ölkəsinin istehkamlı şəhərlərindən biridir.
134. **Şarru-İkbi (Šarru-iqbi)** Aşşurbanipalın "Silindr B" kitabəsindəki məlumata görə, Şarru-İkbi Assuriyanın şimal-şərq hüdudları, Manna dövlətinin cənub-qərb sərhədləri yaxınlığında yerləşən istehkamlı məskəni olmuşdur.
135. **Şimerihadiri (Šimerihadiri)** Xorxor salnaməsində XIII ilin birinci yürüşü ilə bağlı məlumatlara görə (e.ə. 774-cü il), Şimerihadiri Manna ölkəsinin istehkamlı çar şəhəridir.
136. **Qanlı təpə Ər(ə)buni** Ərəbuni qala-şəhərin adına Xorxor salnaməsinin V ilində rast gəlinir. Qanlıtəpə şəhərinin yeri 1950-ci ildə Qanlıtəpədə qazıntılardan sonra müəyyən edilmişdir. Qanlıtəpə, Kürdüklü və Qırmızıtəpə Urartu dövründə tarixi Azərbaycanın Qərb bölgəsi ərazilərində ən mühüm mərkəzlər olmuşdur.

# ŞƏRQİ ANADOLUDA (TÜRKİYƏ) İSTEHKAMLI YAŞAYIŞ MƏSKƏNLƏRİNİN VƏ QALALARIN TOPONİMİKASI

**1. Abbisa.** – III Tiqlatpalasarın Kalhuda (müasir Nimrud-Namrud) daş plitələrdəki kitabəsində Abbissanın adı Kilissa, İzzeda, Diuabli, Harbisinna, Tasi ilə birlikdə Enzi-Enzite ölkəsinin istehkamlı məskəni kimi çəkilir.

**1`. Abraniai** – III Tiqlatpalasarın salnaməsinə əsasən, Abrania Gölcük gölündən cənubda yerləşir.

**1. Amedu** –Assur çarı II Aşşurnasirapalın çar şəhəridir.

Amedu – Amedi-Amidi Assur mənbələrində xüsusi ədəbiyyatda Dəclə çayının yuxarı hissəsində, onun qərb (sağ) sahilində müasir həmtayfa Amir (Diyarbəkir) şəhəri ilə eyniləşdirilir. Amedu Aramiya bölgəsi olan məşhur Bit-Zamaninin mərkəzidir.

**2. Anaşe** – İşpuini və Menianın Vandan (Van şəhərindən şimalda) və Aleş-kırt, Eleşkirt bölgələrindən gələn və Uiteruhi, Luş və Katarzın fəthindən bəhs edən kitabələrində Anaşe şəhərindən də söhbət gedir. Anaşe Unterehi ölkəsinin şəhəridir.

**3. Arbakku / i (Evrak)** II Aşşurnasirapalın salnaməsinə və elə həmin ça-rın Tuşha(i)də (Dəclə çayının yuxarı hissəsində müasir Karx) daş monolitdəki kitabəsinə əsasən, assuriyalılar Tuşhadan yola çıxmışlar, Dəclə çayından keçərək Pituraya, Dirr(i)a ölkəsinin istehkamlı şəhərinə yaxınlaşmışlar. Daha sonra onlar Bitura-Pidaradan yola çıxaraq, Daxili Habhi ölkəsinin Arbaki ya-şayış məskəninə doğru enmişlər. Aşşurnasirapal burada İyaya və Salanibeni – Arbakku ölkəsinin istehkamlı şəhərlərini fəth etmişdir.

**4. Arbail (Erbil)** – Assur yazılı mənbələrinə əsasən, Assuriyada şəhər, As-sur çarlarının iqamətgahlarından biri.

**5. Arkania (Arqana – Marden)** – II Aşşurnasirapalın salnaməsinə əsasən, assuriyalılar Karaniidən yola çıxmış, Amadani və Arkania dağları arasında Dir-ria ölkəsinin məskənlərinə doğru enmiş, Arkaina dağındakı Mallanu ölkəsini yandırmış və ələ keçirmişdilər.

**6. Arbu** – II Sarqonun salnaməsinə və Luvr lövhəsinə əsasən, Arbu (Rusa-Ursa sülaləsinin məskəni) Sangibutu (Urmiya gölünün şimal sahilində) və Aya-du (Van gölünün cənub və şərq sahillərində) ölkələri arasında yerləşən məşhur Armarili bölgəsinin ərazisində yerləşirdi.

**7. Arpad (Tell-Erfad)** – Şimali Suriyada Bit-Aqusi bölgəsinin mərkəzində istehkamlı şəhər. Aleppodan şimal-qərbdə, Kilisdən təxminən 25 km cənubda müasir Tell-Erfad.

**8. Aşşurdaye (Kalat-Şerqat)** – Urartunun Nal dağı arxasında yerləşən is-tehkamlı məskənlərindən biridir.

**9. Dur-Şarrukin** – Assuriya ilə qonşu istehkamlı məskən olmuşdur. Kitabədə deyilir ki, Aşşurbanipalın əcdadları olan çarların dövründə mannalılar tərəfindən ələ keçirilmişdir. Assuriyanın şimal-şərq sərhədləri və Manna çarlığının cənub-qərb sərhədləri yaxınlığında yerləşirdi.

**10. Zuaina-Zuani** – Urartu çarı Menuanın Yazılıtəpədəki kitabəsində Zuaina Diauxi ölkəsinin istehkamlı şəhəri qismində çıxış edir.

**11` İyaya** – Botan çayının (Şərqi Dəclə) vadisində, Van gölündən cənubda Arbakku ölkəsinin istehkamlı şəhəridir.

**11. Kibaku** – Assuriya çarı II Aşşurnasirapal Kadmuhidən yola çıxdı, İştarate ölkəsində ilahələr aşırımını keçərək, Kibaku istehkamlı məskənində gecələdi. Məlumatlardan görünür ki, Kibaku-Kibaki yaşayış məskənini Kadmuhi bölgəsi və Matiatu yaşayış məskəni ilə qonşuluqda axtarmaq lazımdır.

**12. Kibşu(na)** – Kipşu (na)– Kibşa – Kiyşa – I Tiqlatpalasarın salnaməsinə əsasən, Kipşuna – (Kibşuna) Kumani ölkəsinin istehkamlı çar şəhəridir.

Sinaheribin salnaməsindəki məlumata əsasən isə, Kiyşu dik Nibur dağının (müasir Cudi dağı) kənarında yerləşir. Sinaheribin Cudi dağındakı kitabəsində həmçinin Kipşu-Kipşa Kudmuhu (Kudmuhi) bölgəsinin sərhədində yerləşir.

**13. Kilissa** – III Tiqlatpalasarın kitabəsinə əsasən, Kilissa İzzeda, Diuabli, Abbisa, Harbisinna, Tasa ilə yanaşı, Enzi ölkəsinin məskənlərindən biri olmuşdur. Kilissa İzzeda, Diuyabli, Uallia, Tasu və Ura məskənləri ilə birlikdə Bazu bölgəsinin tərkibinə daxil idi. Kilissa istehkamlı məskəni Silvan şəhərindən qərbdə, Diyarbəkirə gedən yolun yaxınlığında yerləşir.

**14. Kiştan** – III Tiqlatpalasarın yazısında qeyd edilir ki, çar Kumuhu ölkəsinin Kiştano və Xalpu şəhərləri arasında Urartulu Sarduru, Melidli Sulumalu, Qurqumlu Tarhularu və Kummuhlu Kuştaşpini məğlubiyyətə uğratmışdır.

Deyilənlərdən belə çıxır ki, Kiştan Ayntapdan 35 km şimal-şərqdə, Fəratın cənub dönüşündə, sağ sahildə, Merzumen çayının mənsəbində, Halpu-Halfetidən şimalda Fəratyanı Kummuhu ölkəsinin istehkamlı mərkəzlərindən biri olmuşdur.

**15. Kutume (Kotum)** – Çar Menuanın kitabəsinə əsasən, urartulular Kutume şəhərini məhv etmiş, daha sonra yenidən bu şəhər-qalanı tikmişdilər, Alzi ölkəsini, Şaşnu (ini) ölkəsini işğal etmişdirlər. Urartu dövrünə aid Kutume məskəni Van gölünün cənub-şərq hissəsi yaxınlığında oxşar olan Kotum adı ilə mövcud olmağa davam edir.

**16. İrdaniuni** – I Argiştinin kitabəsində deyilir ki, o, Eriahi ölkəsini və istehkamlı İrdainuni şəhərini işğal etmişdir. Ola bilər ki, İrdainuni Katarza bölgəsinin istehkamlı çar şəhəri (paytaxtı) olmuşdur.

**17. Mantupa** – Nal dağı yaxınlığında yerləşən istehkamlı məskənlərdən biri kimi çıxış edir.

**18. Markasu/i/a** – II Sarqonun salnaməsində istehkamlı Markasu şəhərinin mərkəzi Qurqum bölgəsinə daxil idi.

**19. Matar** – Nirdui ölkəsinin hökmdarı, Tubusunun oğlu Lapturunun istehkamlı Matar şəhəri.

**20. Matyati/e/u** – Kibaku yaxınlığında yerləşən istehkamlı məskəndir.

**21. Melite(y)a – Melid(d)u –** Milidia-Milide. Urartu çarı Menuanın Balu kitabəsində ərazilərə yürüşün təsviri zamanı, Melitea şəhərinin çarının tabe edilməsi Tsupani ölkəsinin işğal edilməsindən sonra göstərilir. Elə buradaca Melitea Hate-Hatniili ölkəsi ilə qonşuluqda çıxış edir. Melitea və Hatenin yaxınlığı I Argiştinin Xorxor salnaməsində bildirilir, burada Hatinilinin adı bir tərəfdən, istehkamlı Melitea şəhəri və ya çar Hilaruadanın şəhərinin (Malitea şəhərinin –dövlətinin çarı) adı digər tərəfdən çəkilir.

I Tiqlatpasarın kitabələrindən Milidia Böyük Hett Ölkəsinin şəhəri hesab olunur. II Sarqonun salnaməsində isə Melidu Kammanu ölkəsinin çar şəhəri hesab olunur. Sonuncunun tərkibində həmçinin Til-Qarimmu şəhərinin adı çəkilir.

**22. Mehri/u –** Assur mənbələrində bildirilir ki, assuriyalılar kutiləri, ukumaniləri, Elhunia, Şarnida, Mehri ölkələrini, yəni Yauri dağlarında babhiləri və ukumaniləri fəth etmişlər.

Mehri həm də hett mixi mənbələrindən məlumdur. Burada Şırnakdan şimal-şərqdə, Hezil-Hazil çayının sol sahilində, Şərqi Habura qolu tərəfdə yerləşən müasir Mehri məskəni maraq yaradır.

**23. Nabula** – I Adadnerarinin kitabəsində Nabulanın adı istehkamlı Taidu, Şuru, Eluhat şəhərləri, Kaşiyari dağları ilə yanaşı çəkilir. Nabula Kaşiyari dağının (müasir Midyat dağ silsiləsi) cənub qolu yaxınlığındakı müasir Nibllə

**24. Natsibina** – II Adadnerarinin kitabəsində Natsibina istehkamlı məskəninin adı Kaşiyari dağları və Haniqalbat ölkəsi ilə əlaqədar hallanır.

**25. Nih(i)ri(y)a –** Sardurun kitabəsinə əsasən, Nihiria(ni) məşhur Arme ölkəsinin istehkamlı çar şəhəridir.

Hett mixi mənbələrində Nihirya şəhəri haqqında müəyyən məlumatlar var. Assur, Urartu və hett yazılı mənbələri əsasında Arme ölkəsinin Nih(i)ria şəhərinin və ya Nih(i)ria bölgəsinin dəqiq yerini müəyyən etmək mümkün deyil.

B.B.Piotrovski Urartu mənbələrindəki Nihiriani və Assur və hett mənbələrindəki Nihrianı sonrakı mənbələrdə adı çəkilən, Amid-Diyarbəkirdən şimal-şərqdə yerləşən Neferkert (Mayafarkin) şəhəri (yerində Tiqranakert tikilmişdir) ilə eyniləşdirir. Müasir xəritələrdə Nih(i)ria – Neferkert – Mayafarkin/ Mayafarkin artıq Silvan adı ilə mövcuddur.

**26. Sinihini** – Luvr lövhəsində deyilir ki, Assuriya çarı Surikaşa – "karallu və Allabriya ilə qonşu olan" Manna ölkəsinin bölgəsinə endikdə, Manna çarı Uilusunu İzirtudan – öz çar şəhərindən ölkəsinin sərhəd qalası olan Sinihiniyə çıxaraq və ona xərac gətirmişdir.

Yuxarıda qeyd edilən məlumatlardan görünür ki, Manna çarlığının sərhəd yanı şəhər-qalası Sinihini xüsusi ədəbiyyatda Banedən şimal-şərqdə, təxminən 10 km məsafədə yerləşən müasir Simah ilə eyniləşdirilir.

Sinihili Manna çarlığının Surikaş bölgəsinin qalası idi.

**27. Til-Barsib, Til-Barsiy** – istehkamlı məskən, xüsusi ədəbiyyatda Sarjur çayının mənsəbi yaxınlığında, Fəratın qarşı (sol) sahilində, Karkamış-Cerablusdan cənub-şərqdə yerləşən müasir Tell-əl-Ahmarla eyniləşdirilir.

**28. Tumeişki** – II Sardurun yürüşünün təsvirində onlarla qalanın, o cümlədən Tumeişki istehkamlı məskəninin fəth edilərək, Urartunun tərkibinə daxil edildiyi bildirilir.

**29. Tuşpa** – Urartu kitabələrinə əsasən, Biaynili (Urartu) Qədim Şərq dövlətinin paytaxtının adıdır. Müasir adı Van gölünün şərq sahilində yerləşən Van şəhəridir.

**30. Tuşha (i)** – II Aşşurnasirapalın salnaməsində qeyd edilir ki, Assur çarı Mataradan yola düşmüş və istehkamlı Tuşha şəhərinə daxil olmuşdur. Burada o, Nirdun ölkəsinin xəracını qəbul etmişdir.

**31. Uşurnu** – III Tiqlatpalasarın kitabəsindəki məlumata görə, Assur çarı Uşurnu istehkamlı məskənini Enu, Sassu, Luba, Lukia, Şamira, Uzurra, Auibi və Gidirla ilə birlikdə Kormuhi bölgəsinə aid etmişdir.

**32. Uşhu** – II Aşşurnasirapalın salnaməsindəki məlumata əsasən, e.ə. 882-ci ildə assuriyalılar Nubur və Pasate dağının ətəklərində yerləşən istehkamlı məskənlərə qarşı yürüşlər etmişdir. Burada o, Atkun, Uşhu, Pilazi və s. işğal etmişdir.

**33. Halpu-Halpa** – Fəratyanı Kummuh bölgəsinin istehkamlı şəhəri və mərkəzi olmuşdur. Urartu mixi mənbələrində isə Halpa (in) kimi bənzər adı ilə çıxış edir.

Halpa (in) Kumaha bölgəsinin çar şəhərlərindən biridir.

**34. Elugia** – III Tiqlatpalasarın salnaməsində Elugia istehkamlı məskəninin adı digər yaşayış məskənləri – Daikanşa, Sakka İppa, Elizanşu, Kuda, Danziun, Dania, Lukia, Abrania və Eusa ilə birlikdə çəkilir. Elugianın Fəratın sol (şərq) sahilində müasir Yenicə kəndi yaxınlığında yerləşdiyini müəyyən etmək olar.

# AZƏRBAYCANIN MADDİ MƏDƏNİYYƏTİ

### Silahlar

Silahlar tez-tez dəyişən və tez bir zamanda mənimsənilən maddi mədəniyyətin ən az konservativ elementlərindən biridir. Tarixi Azərbaycan ərazisində müxtəlif növ silahlara rast gəlinir və onların tədqiqi xronologiyanın, onların komplekslərinin tərkibin dəqiqləşdirilməsinə və coğrafi cəhətdən yayılma xüsusiyyətlərinin müəyyən olunmasına müsbət təsir göstərir. Ümumi silah formalarının aşkar edildiyi zaman Azərbaycan ərazisinin Ön Asiya mədəniyyəti sahəsinə daxil olması faktı və bu bölgənin ərazisində yaradılmış bir çox silah formalarının yalnız ümumi Ön Asiya silah növlərinin yerli variantı olması və nəticədə onların məlum oxşarlığının bundan irəli gəldiyini nəzərə almaq lazımdır. Amma bununla yanaşı qeyd etmək lazımdır ki, tarixi Azərbaycan ərazisində şimal, cənub və qərb bölgələri arasında şübhəsiz birbaşa əlaqələrə dəlalət edən xüsusi silah formalarına da rast gəlinir.

Azərbaycanda aşkar edilmiş tunc və dəmir silahlar arasında formalarının əmələ gəlməsinə görə bir-biri ilə əlaqəli olan bir neçə növü ayırmaq olar.

Tarixi Azərbaycan ərazisində tədqiq edilən dövrə aid kifayət qədər çox silahlar aşkar edilmişdir. E.ə. II minilliyin əvvəllərindən etibarən, demək olar ki, hər bir kişi məzarında silah aşkar olunmuşdur.

### Qılınclar və xəncərlər

Bütün qədim dövr ərzində əsas silah növləri qılınc, xəncər, nizə, ox, kaman, döyüş baltaları olmuşdur. E.ə. III minilliyin ortalarından etibarən Azərbaycan ərazisində silahlar geniş şəkildə təmsil edilmişdir və müxtəlif olmalarına görə fərqlənir (1; 2; 3; 4) (şək. 108, 113, 116, 118, 124).

Hər bir silah kateqoriyasında onların xronoloji və ya coğrafi əhəmiyyət kəsb edən bir sıra növlərini və variantlarını ayırmaq olar (5).

Hazırkı dövrdə tarixi Azərbaycan ərazisi maddi mədəniyyətinə görə bir-birinə çox yaxın olan rayonlara bölünürdü və silah formaları müvafiq olaraq bu rayonlar üzrə paylaşdırılır, baxmayaraq ki, bu rayonlar çərçivəsində də məhdudlaşmır.

Həmçinin coğrafi prinsipə görə ayırd olunan tunc qılınc və xəncərlər formalarının və ayrı-ayrı detallarının müxtəlifliyi ilə daha çox fərqlənir.

Hələ 1935-ci ildə Azərbaycan ərazisində, həmçinin bütün Qafqazda aşkar edilmiş Ön Asiya tipinə aid bir qrup tunc xəncəri A.A.İessen tərəfinfən qeyd edilmişdir (6, s. 162-163).

E.ə. II minillik boyunca və I minilliyin başlanğıcında Egeydən İran yaylasının şərq hüdudlarına qədər bu növ xəncərlər və qılınclar geniş yayılmışdı.

Tarixi Azərbaycan ərazisində onlar Ön Asiyadan gətirilmə zamanı meydana çıxmışdır. Son illər yaranmış vəziyyəti genişləndirməyə və inkişaf etdirməyə imkan verən yeni materiallar qazılıb çıxarılmışdır.

Bu vaxta qədər Ön Asiya tipli xəncərlər Azərbaycanda, Cənubi və Şimali Qafqazda aşkar edilmişdir.

Qafqaz ərazisində aşkar edilmiş bütün bu xəncər növləri əsasən e.ə. II minilliyin sonu – I minilliyin əvvəlinə aid edilir (7).

Belə bir fikir mövcuddur ki, tarixi Azərbaycan ərazisində aşkar edilmiş Ön Asiya tipli xəncərlər formasına görə Assuriya xəncərlərinə yaxındır (8).

Alimlərin araşdırmaları göstərdi ki, Ön Asiya tipli xəncərlərin yayıldığı sahədə bu formanın müəyyən tipoloji xüsusiyyətləri səciyyəvi olan bir neçə böyük regionu ayırmaq olar. Bu regionlar Egey dənizinin sahili (9, s. 84), Aralıq dənizinin şərq sahili; Misir; Assuriya (10, s. 53) və Azərbaycandır (11; 12).

Yuxarıda deyilənlərdən belə çıxır ki, Ön Asiya xəncər tipi e.ə. II minilliyin ortalarında Şərqi Aralıq dənizi bölgəsində formalaşmışdır və burada onun inkişafını izləmək olar. E.ə. II minilliyin ikinci yarısı müddəti ərzində bu forma bütün Ön Asiyada yayılır, həmçinin hər bir bölgə üçün səciyyəvi olan variantları yaranır. Azərbaycanda Ön Asiya "dəbindən" kənarda qalmadı. Tarixi Azərbaycan ərazisində də, bütün Qafqazda olduğu kimi, xəncərlərin kənarlara malik dəstəyi olan yerli variantları yaradıldı, bu xəncərlər e.ə. I minilliyin başlanğıcına qədər mövcud olmuşdur. Bəzi bölgələrdə bu formadan gələcəkdə də dəmir silahların hazırlanması zamanı istifadə olunmuşdur.

Xəncərlərin Ön Asiyanın məhz hansı bölgəsi vasitəsilə Qafqaz ərazisinə nüfuz etməsi barədə məsələyə qayıtsaq, bir sıra alimlərin araşdırmaları göstərdi ki, onlar Azərbaycanın Cənub bölgəsindən daxil olmuşdur.

Səciyyəvidir ki, Azərbaycanın Cənub bölgəsinin xəncərləri şimala doğru, Mil düzündən və Naxçıvan vilayətindən Şimali Osetiyaya qədər nüfuz edərək, əsasən Qafqazın şərq hissəsində, çox güman ki, cənuba doğru yerləşmiş bölgələrlə sıx əlaqəli olan hissədə cəmləşmişdir. Qafqazın gətirilmə və ya gətirilməyə bənzədilən silahlarının əsas qrupunu təşkil edən xəncərlərin eyniliyi onların Qafqaza tarixi Azərbaycan ərazisinin bir və ya bir neçə qonşu mərkəzindən və çox güman ki, nisbətən qısa zaman kəsiyində daxil olduğunu ehtimal etməyə imkan verir. Çox güman ki, bu, e.ə. II minilliyin sonu – I minilliyin başlanğıcı ola bilərdi.

Cənubi Azərbaycan ərazisində kənarlara malik dəstəyi olan dəmir xəncər formalarının mənşəyi məsələsi isə dəmir metallurgiyasının ilkin mənbələri ilə əlaqədar dəfələrlə müzakirə olunmuşdur. Mümkün mənbə kimi Cənubi Qafqazın adı çəkilmişdir (13, s. 172), amma Cənubi Qafqazda belə dəmir xəncərlər ən erkən e.ə. VIII əsrə aid edilir, e.ə. VII-VI əsrlərdə isə daha geniş yayılmışdır. Kənarlara malik dəstəyi olan dəmir xəncərlər bu dövrdə Cənubi Qafqazın həm Şərq, həm də Qərb bölgəsində, yəni tarixi Azərbaycan ərazisində məlumdur (14, s. 45-46). Burada bu forma e.ə. IX əsrdən tez olmayaraq təşəkkül edir. Və bu, belə bir fikir yaradır ki, tarixi Azərbaycan ərazisində dəmir xəncərlərin Cənubi Qafqazın təsiri nəticəsində yaranması mümkün deyildir.

Ön Asiya tipli tunc xəncərlərin təhlili göstərir ki, e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində Cənubi Azərbaycan ərazisindəki abidələrdə geniş yayılmış silah intensiv şəkildə Azərbaycanın Şimal ərazilərinə və qismən artıq vasitəli şəkildə Şimali Qafqazın mərkəzi və şərqi hissəsinə nüfuz etmişdir. Amma Azərbaycanın Cənub bölgəsindən Şimal bölgəsinə yalnız formasına görə kassetli xəncərlərlə müəyyən əlaqəsi olan Ön Asiya tipli silah daxil olmur.

Bu silah növü ikiağızlı başlıqlı dəstəyi olan formaya malik qılınc və xəncərlər şəklində təqdim olunur (14, s. 64) (şək. 113, 114).

İkiağızlı başlıqlı dəstəyi olan tunc qılınclara Cənubi Qafqazda (tarixi Azərbaycanın Şimal hissəsi) Qarakilsə kompleksində (14, s. 64), Muğan düzündə dağılmış Uzun-təpə qəbiristanlığında – burada beş qılınc və xəncər aşkar edilmişdir (3), Mingəçevir qəbiristanlığındakı məzarda (15, s. 78) rast gəlinmişdir. Bütün bu abidələr e.ə. II minillik – I minilliyin əvvəllərinə aid edilir (şək. 113).

Ümumilikdə, bu xəncərlərin forması kifayət qədər bir-birinə oxşardır, baxmayaraq ki, bəzi variantları fərqlənə bilər.

Tədqiqatçılar A.Qodar və F.Qançar hesab edirlər ki, qılınc və xəncərlərin dəstəyinin ikiağızlı sonluğu, güman ki, dekorativ xarakter daşıyırdı (12, s. 78). Azərbaycanda, həm də bütün Qafqazda ikiağızlı başlığı olan dəstələr yalnız tunc silahlar kimi tanınmır, bu formanın geniş yayılması hələ tunc dəstələrini qoruyub saxlamış dəmir qılıncların yaranması ilə də bağlıdır.

Tarixi Azərbaycan ərazisində, eləcə də bütün Qafqazda belə qılıncların mövcud olduğu əsas dövr IX-VIII əsrlərə aiddir. Ayrı-ayrı hallarda qılıncların bu forması e.ə. VII əsrə qədər mövcud olmuşdur – bunu tarixi Azərbaycanın Qərb bölgəsində Mhart kəndi yaxınlığındakı qəbirdə yelpikşəkilli dəstəyi olan qılıncın tapılması sübut edir (14, s. 64). Onun forması e.ə. VII-VI əsrlər üçün səciyyəvidir. Mingəçevirin torpaq qəbirlərdə da belə bir qılınc tapılmışdır, onun başlanğıc tarixi e.ə. VII əsrdən əvvəl ola bilməzdi.

Gördüyümüz kimi, ikiağızlı və ya yelpikşəkilli dəstəyi olan xəncər və qılınclara tarixi Azərbaycanın bütün ərazisində rast gəlinir. Təkcə Lənkəranda və Muğan zonasında bir abidədə bir neçə belə xəncər nümunəsi aşkarlanmışdır.

Lənkəran zonasında Şaqula-dərə qəbiristanlığında tunc dəstəli, ikiağızlı başlıqlı dəmir xəncərlərə rast gəlinmişdir (16, s. 270), onlar e.ə. XII-XI əsrlərə aid edilir.

Qeyd etmək lazımdır ki, Lənkəran zonasında tapılan ikiağızlı və ya yelpikşəkilli dəstəyi olan xəncər və qılınclar Qafqazda yayılmış dəstəy formasından kəskin fərqlənir. Qafqazda dəfələrlə bu silahın alınma xarakterli olduğu və onun Cənubi Azərbaycanda buna bənzər silah növü ilə şübhəsiz əlaqəsi olduğu haqqında fikir səslənmişdir (14, s. 64; 17).

Şimali Azərbaycanın Cənub hissəsi ərazilərində (Lənkəran zonası) təsvir edilən tipli müxtəlif növ xəncərlərin tədqiqi belə bir nəticəyə gətirib çıxarır ki, bu formanın spesifikliyinə baxmayaraq, o, Ön Şərqdə geniş yayılmış silahla əlaqəlidir və Cənubi Azərbaycan ərazisindəki (İran) Ön Asiya tipli xəncərlər variantına bənzəyir.

Lakin Ön Asiya tipli xəncərlərdən fərqli olaraq, İran ərazisindəki ikiağızlı dəstəli qılınclar kifayət qədər məhdud coğrafi sahədə yayılmışdır. Onlar

əsasən Luristanda cəmlənmişdir, hərçənd ki, yalnız bu bölgə üçün səciyyəvi olan əşyalara dazxil deyil və Luristan kompleksinin özünəməxsusluğunu təşkil etmir (18, s. 153-154).

Luristandan kənarda belə silah tapıntıları Cənubi Azərbaycanda qeydə alınmışdır.

İkiağızlı dəstəli qılınc və xəncərlərin aid olduğu və hamı tərəfindən qəbul edildiyi tarixi e.ə. II minilliyin ikinci yarısıdır. Bu tip, amma sümük haşiyəli xəncər Elamda, Çoğa-Zenbildə İşnikarab məbədində tapılmışdır, o, e.ə. XIII əsrin sonu - XII əsrə aid edilir (16, s.59). Luristanda dəstəyi bu cür tərtib edilən, amma bir qayda olaraq daimi haşiyəsi olmayan xəncər və qılınclar əsasən dəmir dövrünə aiddir (16, s. 55).

T.A.Medlum təsvir edilən silahı Assuriya relyeflərində əks olunmuş bəzi xəncərlərlə müqayisə edərək, onları e.ə. IX əsrə aid edir (19, s. 48).

Bütün bu məlumatlar ikiağızlı dəstəli xəncərlərin və qılıncarın e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərinə aid olduğu müəyyən edilir. Cənubi Qafqaz komplekslərində tapılmış silah da bu tarixi təsdiq edir.

Ayrı-ayrı hissələrdən ibarət bu silahın hazırlanmasının mürəkkəb texnologiyası dəmir metallurgiyasının mənimsənilməsinin ilk addımlarını göstərir (13; 20; 21). Belə bir fikir mövcuddur ki, bu silah zadəganlara məxsus idi (20, s. 49) və süvari döyüşləri zamanı istifadə olunurdu (13, s. 168).

Yuxarıda qeyd edildiyi kimi, ikiağızlı dəstəyi olan xəncərlər və qılınclarla tanışlıq Cənubi Qafqaza İran vasitəsilə gəlmişdir, amma Ön Asiya tipli xəncər forması kimi, yelpikşəkilli dəstəyi olan xəncərlər də Cənubi Qafqaz üçün tamamilə yad deyildi. Cənubi Qafqazda yelpikşəkilli dəstəyi olan xəncər-qılıncların asanlıqla yayılmasını bu hazır zəminin mövcudluğu izah edir. Eyni zamanda, Cənubi Qafqaz formalarının məlum özünəməxsusluğu sadəcə idxal ehtimalını istisna edir. Cənubi Qafqaz qılınclarının və xəncərlərinin xüsusi variantlarının olmaması müəyyən bir mərkəzin olduğunu, onların nisbətən qısa müddət ərzində bu mərkəzdən sözügedən sahəyə yayıldığını ehtimal etməyə imkan verir.

Cənubi Qafqaz xəncərlərinə Luristan xəncərlərindən daha çox, Cənubi Azərbaycandan tapılmış xəncərlər və tunc dəstələr daha yaxındır (22). Bəzi cüzi fərqlərlə yanaşı onlar üçün sadə şəkil xarakterikdir. Lakin bu xəncərlərin sayının az olması müvafiq Cənubi Qafqaz silahlarının mənşəyini Cənubi Azərbaycanla qəti şəkildə əlaqələndirməyə imkan vermir. Burada əks təsir də ola bilərdi.

Luristan və talış silahlarının bilavasitə əlaqəsini qeyd etmək lazımdır. Yuxarıda qeyd edildiyi kimi, Cənubi Qafqazda nəzərdən keçirilən tunc silahların əksəriyyəti Muğan düzündə və Lənkəran zonasında cəmlənmişdir, yelpikşəkilli və ya ikiağızlı dəstəyi olan Cənubi Qafqaz xəncər növlərinin məhz burada formalaşdığını əminliklə demək olar.

Tarixi Azərbaycan ərazisində erkən dəmir dövrü mədəniyyətinin inkişafı e.ə. I minilliyin əvvəllərindən əsasən qrup şəklində olan məzarlarda müşahidə edilir. Bu, məzarların içindəki əşyalardan, ilk növbədə silahlardan görünür. Əvvəlcə, yuxarıda qeyd edildiyi kimi, silah tunc və dəmirdən hazırlanırdı,

sonradan tuncdan ayrı-ayrı silah detallarının (şək. 108-112; 115; 117) və bəzək əşyalarının (şək. 118-123) hazırlanması üçün istifadə etməyə başladılar.

Silahın tədqiq edilməsi və onların aid olduğu tarixin müəyyən edilməsi onların aşkar edildiyi komplekslərin müəyyən və tədqiq edilməsi ilə əlaqəlidir (saxsı və bəzək əşyaları).

Bu məzarların içərisində tapılmış əşyalara baxarkən görürük ki, onlarda saxsılar əsasən boz və qonur rənglərdədir və e.ə. X-IX əsrlərə aid edilir. Bütün tarixi Azərbaycan ərazisində - Mingəçevir, Gədəbəy, Qarabağ, Qazax, Vardanlı, Naxçıvan AR-də də oxşar boz saxsı qablara və qonur səhənglərə rast gəlinir. Bu saxsı tarixi Azərbaycan ərazisində içərisində dəmir əşyalar aşkar edilən yeraltı qəbirlər üçün, yəni erkən dəmir dövrü üçün səciyyəvidir.

Çoxlu sayda silah əşyalarının olmasını dəfn edilən şəxsin ictimai vəziyyətinin göstəricisi hesab edilə bilər. Kütləvi şəkildə olan məzarlardan gördüyümüz kimi, dəmir qılıncları yalnız tayfa zadəganları nümayəndələrinin qəbirlərinə onlara məxsus bütün əşyalarla birlikdə qoyurdular. Dəmir çox az sayda rast gəlindiyi müddət ərzində ondan zinyət əşyaları hazırlayırdılar (şək. 118, 119), amma e.ə. I minilliyin əvvəllərindən etibarən silahlarən hazırlanması üçün dəmirdən geniş istifadə etməyə başladılar.

Beləliklə, görünür e.ə. I minilliyin əvvəllərində tarixi Azərbaycanın Şimal hissəsində ikiağızlı dəstəyi olan xəncər və qılıncların yeni növü, bəzən tunc, əsasən isə tunc dəstəli və dəmir tiyəli bimetallik növləri yaranır. Belə bimetallik xəncər və qılıncların əsas mövcud olduğu dövr e.ə. IX əsrə - VIII əsrin əvvəllərinə aid edilir. Onların yayılma sahəsi Azərbaycan ərazisini və Cənubi Qafqazın mərkəzi hissəsini əhatə edir, yəni əsasən Ön Asiya növlü idxal tunc xəncərlərin yayıldığı sahə ilə üst-üstə düşür.

Ola bilər ki, bütün Azərbaycan və Cənubi Qafqazın mərkəzi hissəsi, habelə Azərbaycanın Cənub bölgəsinin ərazisi üçün səciyyəvi olan spesifik tip Muğan düzündə və Lənkəran zonasında təşəkkül etmişdir.

**Baltalar –təbərzinlər**

Baltalar-təbərzinlər – bütün Ön Asiyada yayılmış silahlar.

Tunc dövründə təbərzinlərdən kifayət qədər geniş – Çindən Qərbi Avropaya qədər istifadə olunurdu. Onlar formasına, ölçülərinə, naxışlarına və təyinatına görə fərqlənirdi. Qərbi Avropa təbərzinləri əsasən xalq təyinatlı idi. Şərq ölkələrində təbərzinlərdən daha çox döyüş silahı kimi istifadə edirdilər, buna dəmir tiyəli baltalar dəlalət edir.

Döyüş baltaları həmişə qədim döyüşçünün yaraqlarının əsas hissəsi olmuşdur. Cənubi Qafqazda baltalar hələ e.ə. III minillikdən məlumdur, bu zaman düz dəlikli baltalar yaranır (23), sonradan onlar asma küplü baltalarla əvəz olunmuşdur (23; 24). Bir sıra tədqiqatçıların fikrincə, hər iki formanın mənşəyi İran və Azərbaycanla bağlıdır. Onlar əsasən tarixi Azərbaycanın Şimal və Şərq bölgəsində, Azərbaycanın Cənub bölgəsinin (İran) cənubunda, şimalda isə Qroznı ərazisində yayılmışdı (25).

E.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində Cənubi Qafqazda müxtəlif növ oymaqlı baltaların iki yayılma bölgəsi dəqiq ayırd edilir: Cənubi Qafqazın Qərb hissəsində Kolxid baltaları tətbiq edilmiş və Azərbaycanda balta-təbərzin səciyyəvi olmuşdur. Bu hər iki növ dəmirin meydana çıxmasına qədər mövcud olur və sonradan yerini dəmir baltalara verir.

Təbərzinlərin yayılma sahəsi Kürün orta axını bölgəsini, Sevan (Göyçə) gölü ərazisini və oradan cənuba doğru, Şimalda Alazani çayının hövzəsini, şərqdə Şəki və Şuşanı əhatə edir. Qərbə doğru iki qol vasitəsilə – Svanetiyaya daxil olan şimal qol ilə Leçhumi rayonuna, Ahıskadan bir qədər cənubda bitən və Gümrü rayonunu əhatə edən cənub qolu ilə Qars vilayətinə uzanır. Əsasən isə balta-təbərzinlərin yayılma sahəsi Azərbaycan ərazisində arxeoloji mədəniyyətlərin yayılma zonası ilə üst-üstə düşür (şək. 124).

Azərbaycan ərazisində döyüş baltalarından – təbərzinlərindən geniş istifadə olunmuşdur.

Tovuz və Oğuz rayonlarında aşkar edilmiş Koban-Kolxid növlü balta-təbərzinləri nəzərə almasaq, Azərbaycan ərazisində asimmetrik baltalara-təbərzinlərə rast gəlinməmişdir.

Həmçinin qeyd etmək lazımdır ki, bir sıra alimlərin araşdırmaları belə bir nəticəyə gəlməyə imkan vermişdir ki, Quba rayonunda, Xoraçda, Bəykilsə və Raçda, həmçinin Cəlilabad, Göytəpə, Qırma-qala və Şəmşədiddə tapılmış balta-təbərzinlər Lənkəran zonasına aid döyüş baltaları əsasında inkişaf etmişdir.

Tarixi Azərbaycan ərazisində kifayət qədər çox sayda döyüş balta-təbərzini tapılmışdır. Bu ərazi böyük mis filizi yataqları olan və balta-təbərzin hazırlanan qədim metallurgiya mərkəzlərindən biridir (şək. 124-131).

İ.M.Cəfərzadə Xanlar və Şəmkir rayonlarında aşkar edilmiş tunc döyüş balta-təbərzinlərin yerli istehsal xarakteri daşıdığını qeyd edir (26, s.9). K.X.Kuşnareva Azərbaycanla bağlı araşdırmalarında qeyd edir ki, Dağlıq Qarabağda Dovşanlı kurqanında aşkar edilmiş tunc balta-təbərzinlər yerli istehsaldır (27, s. 137-177). Azərbaycanın Qəbələ rayonunda da balta-təbərzinlər aşkar edilmişdir (28).

Gəncəçay ərazisində Azərbaycan arxeoloji abidələrinin sonrakı tədqiqi belə bir nəticəyə gəlməyə imkan verdi ki, ən qədim dövrlərdən tunc dövrünün sonuna qədər balta-təbərzinlər müxtəlif növlərə bölünmüşdür. C.A.Xəlilov öz elmi işlərində bir sıra tədqiqatlar əsasında Azərbaycanda aşkar edilmiş döyüş baltalarına qiymətləndirmişdir. O qeyd edib ki, balta-təbərzinlərin yaradılması və tətbiqi prosesi yerli xarakter daşıyır (29, s. 87-88; 39, s.14-15).

Balta-təbərzinlər həmçinin tipoloji fərqlərinə görə lokal və xronoloji əhəmiyyətə malik bir neçə qrupa bölünmüşdür. Tarixi Azərbaycan ərazisində balta-təbərzinlər isə əsasən qövsşəkilli simmetrik tiyəli oymaqlı sabit silaha aiddir.

Oymağın nisbətən böyük ölçüsü və balta-təbərzinin ağırlığı onların böyük faydalı iş əmsalına malik olduğunu göstərir.

Təbərzinlərin döyüş xarakterli olduğu şübhə doğurmur. Onların bir sıra zəngin komplekslərdə və açıq-aşkar döyüşçülərə aid olduğu görünən məzarlarda tapılması, habelə bu növ silahın şərq və qərb analogiyaları buna

dəlalət edir. Təbərzinin vurduğu geniş kəsici zərbə, habelə ağrı döyüşdə özünü doğrultmuşdur. Tiyə paralel olan oymaq zərbənin istiqamətini üzərinə götürür və beləliklə dəstəyin üst hissəsini qoruyurdu ki, bu da əlbəttə döyüş zamanı böyük rol oynayırdı.

Seqmentşəkilli tiyəli balta-təbərzinlərin Ön Şərqdə hələ e.ə. III minillikdə mövcud olduğu təsdiq edilmişdir.

İran ərazisində tiyəli təbərzinlər e.ə. II minilliyin sonlarında peyda olmuş və onlar boruşəkilli qısa oymaqdan kəskin şəkildə ayrılır.

Luristanda bu növ təbərzinlər kifayət qədər uzun müddət mövcud olmuşdur, buna eyni süjetin tədricən üslublaşdırılması dəlalət edir. Bu formalı balta-təbərzinlər dəmir meydana çıxana qədər mövcud olmuşdur. Tipoloji təhlilə əsasən, Luristan balta-təbərzinləri e.ə II minilliyin sonlarından e.ə. VIII-VII əsrlərə qədər dövrə aid edilir.

Tarixi Azərbaycan ərazisində kifayət qədər çoxlu sayda qövsşəkilli tiyəli baltalar-təbərzinlər məlumdur və onların döyüş silahı kimi əhəmiyyəti şübhəsizdir. Azərbaycanda aşkar edilmiş balta-təbərzin forması qətiliklə sübut edir ki, onların spesifik forması yerindəcə hazırlanmışdır. Ördəklidə (tarixi Azərbaycanın Qərb bölgəsi) aşkar edilmiş materiallar göstərir ki, e.ə. XIV-XIII əsrlərdə Azərbaycanda artıq balta-təbərzin tamamilə formalaşmışdır. Görünür, e.ə. II minilliyin ikinci yarısında tarixi Azərbaycan ərazisində digər silah növləri ilə yanaşı, müvafiq olaraq bütün Qafqaz üçün səciyyəvi olan oymaqlı balta-təbərzinin formalaşması prosesi getmişdir.

Bu növ baltalar, çox güman ki, spesifik Cənubi Qafqaz formasının formalaşmasında mühüm rol oynamışdır. Lakin bu baltalar onların yeganə prototipi deyildir.

Çox güman ki, bu silahın tərtib edildiyi ərazi Sevan (Göyçə) gölündən qərbə doğru olan ərazi olmuşdur. Məhz burada e.ə. II minilliyin ikinci yarısının əvvəllərində formasına görə ən müxtəlif tunc balta-təbərzinlərə rast gəlinmişdir. E.ə. I minilliyin əvvəllərində bu sahədə təbərzinlərin forması vahid şəklə salınır və az sayda dəyişkənliyi ilə fərqlənir. Və tamamilə mümkündür ki, qövsşəkilli tiyəli Ön Asiya balta-təbərzinləri Azərbaycan ərazisində yerli əsaslar və müvafiq yerli şəraitdə yaranan balta-təbərzinlərin formalaşmasına təsir göstərmişdir.

Şimali Azərbaycanın cənub rayonlarında abidələrdə aşkar edilmiş, əsasən e.ə. II minilliyin ikinci yarısına aid balta-təbərzinlər kifayət qədər müxtəlifdir. Bu təbərzinlərin bəzi formaları Azərbaycanın Şimal bölgəsinin əhalisinin Mesopotamiya və Misirin nisbətən cənub bölgələrinin əhalisi ilə əlaqələrinə işarə edir.

Azərbaycanda yeganə ikili təbərzin aşkar edilmişdir (31). Bütün digər təbərzinlərdən fərqli olaraq, bu silah, çox güman ki, əsasən parad təyinatlı idi (şək. 126).

Təsvir edilən dövrdə Xurvin kolleksiyasında (Dağıstan) ikili təbərzin şəklində asma bəzək əşyaları məlumdur. Şərqdə və Avropada da ikili təbərzinin rəmzi mənası olduğu məlumdur. İkili təbərzinə sitayişi öküz və aya sitayişlə əlaqələndirirlər (32). Erkən orta əsrlər dövründə ikili təbərzin şəklində asma bəzəklər Qafqazda geniş yayılır.

Çox güman ki, bu forma təbərzinlərin Qərb dairəsində – Kritdə, Olimpiyada yayılması ilə bağlıdır. Burada ikili balta-təbərzinlər yaxşı tanınır. Azərbaycandakı balta-təbərzinlər İran və Suriyadan olan bənzər formalı balta-təbərzinlərlə tanışlığını göstərir. Lakin onların üzərində üçbucaq şəklində naxışlar Azərbaycan üçün həddindən artıq səciyyəvidir və xəncərlərdə də bu naxışa tez-tez rast gəlinir.

Təbərzinin küpünün dişli şəkildə tərtibi üsulunda da Ön Asiya formaları ilə əlaqə izlənir. Azərbaycanda bu növ balta-təbərzinlər nisbətən az məlumdur (şək. 124, 125).

Onlara ilk növbədə tarixi Azərbaycanın həm şimal, həm də qərb bölgələrindəki e.ə. II minilliyin sonlarına aid abidələrdən (Xanlar, Gəncə, Ördəkli) məlum olan "tikanlı" balta-təbərzinlər aiddir. Nisbətən nadir olmasına baxmayaraq, bu forma bilavasitə Azərbaycanda hazırlanırdı, buna qədim məskən olan Çarbaxqala ərazisində aşkarlanmış belə təbərzinlər üçün tökmə qəlibi dəlalət edir.

Baltanın küpünün kəskin dişli şəkildə tərtib edilməsi prinsipi özü, şübhəsiz Ön Şərqdən gəlir. Dişlər hələ incə tiyəli qədim babil baltalarında meydana çıxır, amma baltalarda iti çıxıntılar İran – elam və daha çox Luristan silahlarında xüsusilə inkişaf edir.

"Tikanlı" – küpü dişli olan balta-təbərzinlər e.ə. II minilliyin sonlarına aid Marlik və Xurvin kimi abidələrdə aşkar edilmişdir. Bu, coğrafi cəhətdən Azərbaycana ən yaxın tapıntılardır. Onların formasında kiçik fərqlər var və Luristan silahlarını xatırladır. Görünür bu, Ön Şərq, çox güman ki, İran nümunələrinin bilavasitə təsiri altında yaranmış Azərbaycan təbərzini formasıdır, amma yalnız təsir altında hazırlanmışdır, belə ki, bu balta-təbərzinlər sırf yerli, Azərbaycan silahlarıdır.

Verilən nümunələr göstərir ki, tədqiq edilən dövrdə İran (Cənubi Azərbaycan bölgəsinin də daxil olduğu) üçün bir sıra səciyyəvi silah formaları tarixi Azərbaycanın Şimal və Qərb bölgəsinin materiallarında əksini tapmışdır. Çox güman ki, həm ayrı-ayrı nümunələr Azərbaycanın Cənub bölgəsindən tarixi Azərbaycanın Şimal və Qərb bölgəsinə bilavasitə keçmişdir, həm də onların bənzəri hazırlanmışdır.

Bu silahın yayılma coğrafiyası əsasən tarixi Azərbaycan ərazisi hüdudları ilə məhdudlaşır.

Qeyd etməliyik ki, e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində bu silah formalarında tarixi Azərbaycanın Cənub bölgəsi Azərbaycanın Şimal və Qərb bölgəsinə digər Ön Asiya bölgələrinin təsirindən daha intensiv təsir göstərmişdir.

Sonradan tarixi Azərbaycan ərazisində silahlarda Assur, Urartu və skif formaları aydın seçilir, amma dəmirin yarandığı dövrdə silahda Xəzər dənizindən cənuba və cənub-qərbə doğru uzanan ərazidə yayılmış silahla əlaqələr xüsusilə aydın görünür.

## ƏDƏBİYYAT

1. Contenan G.et. Ghirshman R. Fovilles de Təpə Giyan pres de Nihavend. 1931, et 1932, ets. P.1935.
2. Погребова М.Н. Восточнозакавказские кинжалы эпохи поздней бронзы и раннего железа. Археологический сборник. М., 1960 («Труды ГИМ», вып.40).
3. Джафарзаде И.М. Элементы археологической культуры древней Мугани. «Изв. АН Аз.ССР», Баку, 1946, №9.
4. Ивановский А.А. По Закавказью. МАК, 6. 1941.
5. Nərimanov İ.Q. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı, 1958.
6. Иессен А.А. Древнешая металлургия Кавказа и ее роль в Передней Азии. Труды III Межд. конгресса по иранскому искусству и археологии в 1935 г. Л., 1937.
7. Погребова М.Н. Бронзовые кинжалы переднеазиатского типа из Кедабекского могильника в Северном Азербайджане. Археологический сборник. М., 1960 («Труды ГИМ»), вып.37.
8. Алиев В.Г. К изучению культуры расписной керамики в Азербайджане МКА. В 1965 (на азерб. яз.).
9. Schaeffer C. Stratiqraphic comparae et Chronologie de I`Asia Occidentale. L., 1948.
10. Andrae W. Der Ann – Adad-Tempel in Assur. Lpz., 1909.
11. Morgan J. De Mission scientifique en Perse. T.IV, p.1896.
12. Godar A. Les bronzes du Luristan. "Ars Asiatica" P.Vol.17, 1931.
13. Maxwell-Hyslop P. and Hodges N.W. Theree Iron Swards from Luristan. "Iraq" vol.28.1966.
14. Куфтин Б.А. Археологические раскопки в Триалети. Тбилиси, 1941.
15. Алексеев В.А. Происхождение народов Кавказа. М., 1974.
16. Morgan J. De Le Prehistoire Orientale. Vol., III, p.1927.
17. Погребова М.Н. Некоторые формы Закавказского оружия раннескифского времени. КСИА, 189, 1962.
18. Vandenberqhe L. Het archeologisch anderroek naarde bronscultur van Luristan. Brussel, 1968.
19. Madhloom T.A. The Chronology of Neo-Assyruan Art. L., 1970.
20. Terubach J. Technical Aspects of the Herzfeld bent Irom Dagger of Luristan – Dark Ages and Nomads 1000 B.C. Istanbul, 1964.
21. Pleiner R. Untersuchung cines Kurzschwertes des Luristanischen Typus – "Archäologischer Auzeiger" H. I. 1969.
22. Moorey P. Ancient Persian Bronzes in the Adam Collection. L., 1974.
23. Куфтин Б.А. К вопросу о ранних стадиях бронзовой культуры на территории Грузии. КСИМК, Вып.8, 1940.
24. Кушнарева К.Х., Чубинишвиши Т.Н. Древние культуры Южного Кавказа. Л., 1970.
25. Асланов Г.Г. Бронзовые топоры-секиры Азербайджана (на азерб.яз.). Баку, 1982.
26. Джафарзаде И.М. Древнейший период истории Азербайджана. Сб.: «Очерки по истории Азербайджана». Баку, 1956.
27. Кушнарева К.Х. Некоторые памятники поздней бронзы Нагорного Карабаха. СА, XXVII, 1957.
28. Казиев С.М. Археологические раскопки в Мингечауре. МКА, т.I, Баку, 1949.
29. Нариманов И. Археологические памятники Гянджачайского района. Баку, 1958. (на азерб. яз.).
30. Халилов Дж.А. Археологические памятники Западного Азербайджана эпохи бронзы и раннего железа. Баку, 1959 (на азерб. яз.).
31. Hummel J. Zur Archeologie Azerbeidzans ESA. Vol. 8., 1933.
32. Абрамов М.П. О пережитках культа двойной секиры в раннесредневековом Дагестане. Археологический сборник.

**Saxsı qablar**

Azərbaycan ərazisində minillikləri əhatə edən tarixi inkişaf prosesi onun təbii-coğrafi şəraitindən əhəmiyyətli dərəcədə asılı idi. Azərbaycan ərazisinin əlverişli təbii şəraiti kifayət qədər erkən dövrlərdə burada insanların məskunlaşmasına şərait yaratmışdır (1, s. 78-85). Sonrakı iqtisadi və sosial inkişaf prosesi də təbii mühitlə sıx qarşılıqlı təsir şəraitində baş vermişdir. Təsadüfi deyil ki, VII minillikdə Azərbaycan ərazisi erkən əkinçilik mədəniyyətinin inkişaf mərkəzlərindən biri olmuşdur.

Tarixi Azərbaycan ərazisində tunc dövrü yüksək inkişaf səviyyəsinə malik və özünəməxsus mədəniyyətlə müşayiət olunmuşdur.

Tarixi Azərbaycan ərazisində arxeoloji abidələrin tədqiqi göstərir ki, e.ə. III minilliyin ikinci yarısında naxışlı saxsılarla səciyyələnən mədəniyyət yaranmışdır.

Bu mədəniyyətə məxsus olan məişət abidələrinin tədqiqi onun özündən əvvəlki mədəniyyət əsasında inkişaf etdiyini göstərir. Bu zaman qeyd etmək lazımdır ki, monoxrom naxışlı saxsı qablar formasına görə Kür-Araz mədəniyyəti qablarının təkrarıdır (şək. 132-138).

Orta tunc dövründə də boz gildən cilalanmış saxsı qablar inkişaf edir. Azərbaycan ərazisində bu saxsı əşyalar uzun müddət ərzində aşkar edilmişdir, onlar hətta erkən dəmir dövrünə aid abidələrdə mövcud olmuşdur (şək. 132).

Hələ erkən tunc dövründə Azərbaycan ərazisində boyalı – çəhrayı, qara və boz rəngli qablar məlum idi. Bu (Kür-Araz) mədəniyyətin yaranması və inkişafı qapalı xarakter daşımırdı və qonşu ölkələrin mədəniyyəti ilə sıx əlaqəli idi (şək. 135).

Naxışlı saxsı qablar Kür-Araz mədəniyyətinin ayrı-ayrı mərhələlərinin inkişafı haqqında təsəvvürümüzü genişləndirir.

Araşdırmanın bu mərhələsində qeyd etmək olar ki, naxışlı saxsı qabların inkişafı müvəqqəti qısa tənəzzüllərlə müşayiət olunurdu ki, bu da, şübhəsiz, sosial-iqtisadi təzahürü əks etdirir. Naxışlı saxsı qablar Naxçıvan ərazisində və onun hüdudlarından kənarda geniş surətdə yayılmışdı ki, bu da orta və son tunc dövründə bu bölgədə və onun sərhədlərindən kənarda vahid mədəniyyət yarandığını göstərir (şək. 139, 140).

Tarixi Azərbaycan ərazisində tunc və erkən dəmir dövrünə aid abidələrin tədqiqi, həmçinin onların qonşu ərazilərin abidələri ilə müqayisəsi Naxçıvan ərazisinin naxışlı saxsı qabların istehsal mərkəzlərindən biri olduğunu düşünməyə imkan verir. Naxçıvan vilayətindən naxışlı saxsı qablar tarixi Azərbaycanın digər ərazilərinə də yayılırdı.

Azərbaycanın erkən dəmir dövrünə aid maddi mədəniyyəti orta və son tunc dövrünə aid elementləri davam etdirərək, yeni şəkil alır. Bu dövrdə saxsı əşyaların forması inkişaf edir: yeni formalar yaranır (şək. 139). Boz gil saxsı qabların cilalanması tədricən aradan qalxır.

Tarixi Azərbaycanın son tunc dövrü – erkən dəmir dövrünə aid mədəniyyətinin qonşu ölkələrlə bir çox ümumi cəhətləri var. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş qədim məskənlər və qalalar, döyüş silahları və saxsı qablar Azərbaycanın qədim mədəniyyətinin tarixi səhifələrini təsdiq edir.

Şübhəsiz, bu dövrdə Azərbaycan ərazisi Assuriyalılar və Urartulularla yaxşı tanınırdı.

Erkən dəmir dövründə tarixi Azərbaycan ərazisində əsasən hamar, boz və qonur rəngli qablar hazırlanır, boyalı saxsıdan cüzi istifadə olunurdu. Artıq e.ə. IX-VIII əsrlərin sonlarında boyalı saxsı qablar yenidən əvvəlcə ayrı-ayrı abidələrdə, daha sonra isə daha geniş ərazidə yayılır.

Həmin dövrdə tarixi Azərbaycanın Cənub bölgəsində əsas saxsı formaları sadə qulplu fincanlar, lüləyi sərbəst şəkildə yerləşən səhənglər və qədəhlər və ya altlıqlı yüksək parçlar idi (3, s.72).

Bu qab formaları bütün komplekslərdə var idi. Lakin buna baxmayaraq, hər abidənin saxsı qabları, bir qayda olaraq, özünəməxsus xüsusiyyətlərə malik idi. Naxış çox vaxt cilalama vasitəsilə salınırdı, bəzən yapma naxışlardan istifadə olunurdu (şək. 132).

İnkişaf etmiş dəmir dövründə boz rəngli qablar müxtəlifliyi keramika ilə fərqlənirdilər (3, s. 75-76). (Şək. 136-139).

Tarixi Azərbaycanın Şimal və Qərb bölgəsinin ərazisində e.ə. II minilliyin ikinci yarısında boyalı və sarımtıl-qonur saxsı qabların aradan qalxması prosesi davam edirdi. Azərbaycan ərazisində boyalı qabların çox yayıldığı dövrdə də tünd saxsı qablar ənənəsi davam edirdi, buna görə boyalı saxsıların sıxışdırılması cənub bölgələrdəkindən nisbətən daha yavaş gedirdi.

Bir-birinə çox yaxın, bəlkə də qohum mədəniyyətlərlə əhatə olunmuş bütün tarixi Azərbaycan ərazisində e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində saxsı qab formalarında da müəyyən yaxınlıq müşahidə edilirdi.

Cənubi Qafqaz mədəniyyəti üçün, habelə bu mədəniyyətlərin tərkibinə daxil olan ayrı-ayrı bölgələr üçün, yaxud da ayrı-ayrı abidələr üçün daha səciyyəvi olan qab növləri ayrılır.

Cənubi Qafqaz saxsı qablarının həm əsas, həm də lokal formaları İran ərazisindəki saxsı qablardan müəyyən dərəcədə fərqlənir. Bu və ya digər bölgənin materiallarında bəzən başqa elementlər də görmək olar.

Bildiyimiz kimi, İran və Azərbaycan arasında qablar metaldan daha nadir mübadilə obyekti olmuşdur, bu proses baş vermişdir, daha çox isə ayrı-ayrı saxsı qab formalarının və ya onların detallarının bənzədilməsi geniş yayılırdı. Tədqiq edilən dövrdə Azərbaycan ərazisində xüsusən Assuriya şirli saxsı qabları geniş təmsil olunmuşdur (4, s. 120).

Bu dövrdə Azərbaycanda yayılmış və Ön Asiyada geniş yayılmış növlərə aid bəzi saxsı qab formaları İran-Azərbaycan regionunun müəyyən rayonları ərazisində bilavasitə əlaqələrin dəlili ola bilər. Lakin ayrı-ayrı nümunələr üçün daha dəqiq analogiyalar ola bilər. Ayrı-ayrı Cənubi Qafqaz-İran saxsı qab formalarının bənzərliyinə artıq diqqət yetirilmişdi (5), amma hazırda tarixi Azərbaycan ərazisinin həm bu, həm də digər bölgəsi, eləcə də bütünlükdə Cənubi Qafqaz və İran üçün kifayət qədər çox material toplanmışdır ki, bu da analogiylar dairəsini genişləndirməyə və yeni formaları dövriyyəyə daxil etməyə imkan verir.

**Uzadılmış şəkildə olan səhənglər (qədəhlər)**

Azərbaycan ərazisində səhənglər arasında kiçik altlıqda qoyulmuş və dulusçu kürəsində parıldadılmış tünd boz, qaraya yaxın gildən hazırlanmış qulplu zərif hündür uzadılmış səhənglər ayrılır.

Belə səhənglər (qədəhlər) Naxçıvanda (Qızılvəng, Qalacıq, Gavurqala, Şahtaxtı), Azərbaycanın Qazax və Gədəbəy rayonlarında, Cənubi Azərbaycan ərazisində (Həsənli), habelə İranda (Xurvin kolleksiyası, Təpə-Sialk, nerkopol və Xorvin-Çandar) aşkarlanmışdır (şək. 130).

Səhəngşəkilli forma və yüksək keyfiyyətli cilalama Azərbaycan dulusçuluğu üçün səciyyəvidir, adı çəkilən səhənglər (qədəhlər) düzgün şəkildə uzadılmış gövdə forması və kiçik, kəskin fərqlənən altlığı ilə fərqlənir. Bu qədəhlər Azərbaycanın son tunc – erkən dəmir dövründə Azərbaycan saxsı qabları üçün səciyyəvi olan altlıqlı səhəngləri xatırladır.

Bu formanın genezisini əvvəlki dövrə aid İran saxsı qablarında da izləmək olar, amma o, e.ə. II minilliyin sonlarında tam inkişafını tapmış və geniş yayılmışdır. İran materialında Giyan I, Göytəpə, Xorvin-Çandar və Xurvində son tunc – erkən dəmir dövrünə aid komplekslərdə tapılmış altlıqlı qədəhlər əslində tarix müəyyən edilməsi üçün əhəmiyyət daşıyır.

Tarixi Azərbaycan ərazisində aşkar edilmiş qədəhlərin İran nümunələri ilə çox bənzərliyi olsa da, onların tam analogiyası deyil.

Səciyyəvidir ki, növünə görə bir-birinə yaxın olan qabların istehsalı Azərbaycan hüdudlarından xeyli uzaqlara yayılır. Tamamilə eyni olmasa da, bənzər qab formaları Pakistanın Şimal-Qərb vilayətində qeydə alınmışdır.

E.ə. I minilliyin əvvəllərində Azərbaycanda bu qablar istifadədən çıxır, buna görə e.ə. II-I minilliklərdən sonra bu formanın təsiri ola bilməzdi (şək. 138).

**Qablar – "çaydanlar"**

Azərbaycan ərazisində boz saxsılardan "çaydan" kimi qabların geniş çeşidləri aşkarlanmışdır. "Çaydanlar" yalnız Şimali Azərbaycanın cənub hissəsində - Naxçıvanda, Ağrıdağ vadisində, qismən Azərbaycanın Cənub bölgəsində və İranda aşkarlanmışdır (10, s. 235-240; 11, s. 324; 12, s.98; 13, s.63) (şək. 141-144).

Qızılvəng kimi abidələr e.ə. II minilliyin sonu Azərbaycan mədəniyyətində xüsusi təzahürdür. Burada, çox güman ki, Ön Asiyanın tunc dövrünə aid boyalı saxsı qabları ilə genetik əlaqəsi olan və erkən dəmir dövrünə aid boz saxsı qablardan kəskin şəkildə fərqlənən boyalı saxsı əşyalara rast gəlinmişdir.

Tarixi Azərbaycanın digər bölgələrində tədqiq edilən dövrə aid belə bir forma, demək olar ki, məlum deyil. Mingəçevir qəbiristanlığı istisna təşkil edir. Buna bənzər qablar Xurvin kolleksiyasında və Həsənli nekropolunda da (Cənubi Azərbaycan) məlumdur. Onlar tünd gildən hazırlanmışdır və tünd-boz səthə malikdir. Naxçıvan "çaydanlarında" onlar şarşəkilli formaya malikdir. Sadə və naxışlı nümunələri var. Onlar boz, qara və ya qırmızı rənglərdədir. Onların özünəməxsusluğu irəliyə doğru çıxan çaydan lüləyini xatırladan buğumlu "burunlarındadır". Onların bəziləri quş başı şəklində hazırlanmışdır. Dəstəyin əvəzinə bir-dörd ədəd, bəzən ikitərəfli dəlikləri olan qulplar ("ulaqlar") var (şək. 139-142).

Naxçıvan ərazisində "çaydanı" xatırladan özünəməxsus nümunələrin aşkarlandığı ilk abidə Qızılvəng qəbiristanlığıdır (9, s.2-15). Qızılvəngdə tapılmış qablardan birinin səthi qırmızı boya ilə örtülmüşdür və üzərinə qara boya ilə özülü aşağıda olan torşəkilli üçbucaqlar çəkilmişdir. Torun cizgiləri qırmızı boya ilə çəkilmişdir. Bu abidədən çıxan digər qablar – "çaydanlar" naxışsızdır. Yalnız bir qabın ağzından aşağı hissədə oyma texnikası ilə torşəkilli qövsşəkilli naxışlar və özülü aşağıya doğru olan üçbucaqlardan ibarət naxış salınmışdır.

Məlumdur ki, Qızılvəngdə bilavasitə erkən dəmir dövrünə aid məzarlar aşkarlanmışdır (10, s. 235-140). Bu məzarlarda tapılmış çaydanlar formasına görə tunc dövrünün buna bənzər qablarının təkrarıdır. Qızılvəng tapıntılarından qırmızı rəngli qablar formasına görə çaydanlara aiddir (14, s. 184).

İkinci növ "çaydanlar" Şortəpə abidəsində aşkarlanmışdır (15, s. 55), onlar formasına görə Qızılvəng qablarından fərqlənmir. Boz-qara rəngli çaydanlara oyma texnikası ilə naxış salınmışdır (14, s. 164) (şək. 139, 140).

Kültəpə I-də yaxşı bişmiş olması və qırmızı rəngi ilə fərqlənən "çaydanların" tək-tük hissələri tapılmışdır (14, s. 158). Onlar Qızılvəng və Şortəpə çaydanlarına bənzər dimdikşəkilli formaya malikdirlər.

Kültəpə II-də də çaydanlar hissələr şəklində aşkar edilmişdir (16, s. 58). Onlar boz və qırmızı rənglərdədir. Qablar ağzı əyilmiş şarşəkilli gövdəyə malikdir (şək. 139).

Bu qrupa Culfa tapıntılarından çaydan və uzunboğaz çəkməni özündə birləşdirən bir qabı da aid etmək olar (16, s. 68). Qab sarı rəngdədir və yaxşı bişirilmişdir. Onun yuxarı hissəsi bizə məlum olan buğumlu lüləli "çaydanların" formasını təkrar edir. Aşağı hissəsi isə uzunbuğaz çəkmə şəklindədir (şək. 139).

Son vaxtlar Qanacıq nekropolunda da "çaydan" növlü qablar aşkarlanmışdır (17). Onlar sadə, boz rənglidir. Bəziləri oyma naxışlarla bəzədilmişdir. Onların bir hissəsi şaquli kannelürlərlə bəzədilmişdir.

Yuxarıda qeyd edildiyi kimi, "çaydan" növlü qablar yalnız Naxçıvan vilayəti abidələri üçün səciyyəvidir. Tarixi Azərbaycanın digər regionlarında saxsı qablarda onların bənzəri yoxdur. Yalnız tarixi Azərbaycanın Qərb bölgəsində "çaydan" növlü qablara tək-tük rast gəlinmişdir (18, s. 228). Gürcüstan ərazisindəki abidələrdə də belə qablar aşkarlanmamışdır.

İran ərazisində "çaydan" növlü qablar daha qədim dövrlərə aiddir. Onlar böyük müxtəliflik və zəngin naxışları ilə fərqlənən kifayət qədər təkmilləşmiş formaya malikdir (şək. 143, 144). Qeyd etmək lazımdır ki, "çaydan" növlü Naxçıvan qabları formasına və bir sıra detallarına görə İran qablarından ilk növbədə daha sadə formaya malik olması ilə fərqlənir. Lakin Naxçıvan vilayətindəki abidələrdən tapılmış bütün çaydanların yerli saxsı məmulatları olduğu şübhə doğurmur. Bununla belə, Naxçıvanda çaydanşəkilli qabların istehsalının bilavasitə İranın təsiri altında başladığı istisna deyil. Ərazilərin qonşuluğu və sıx mədəni-iqtisadi əlaqələrin olduğu bir şəraitdə bu, tamamilə mümkündür. Qeyd etmək lazımdır ki, ayrı-ayrı tədqiqatçıların fikrincə, Naxçıvan ərazisində belə qabların istehsalı orta tunc dövründə, yəni e.ə. II minilliyin ortalarında başlamışdır (16, s.67). Bu ehtimal kifayət qədər məqbuldur. Lakin onların bu ərazidə məhz son tunc dövrü – erkən dəmir dövründə yayıl-

ması heç bir şübhə doğurmur, yuxarıda sadalanmış çoxsaylı tapıntılar bunu sübut edir.

Tarixi Azərbaycan ərazisində son tunc – erkən dəmir dövrünə aid saxsı qabların bölgüsü belədir.

Bu günə qədər Azərbaycanın qədim dövrü çox az işıqlandırılmışdır. Azərbaycanın Assuriya, Urartu çarlığı və Qədim İran dövlət birlikləri ilə qarşılıqlı münasibətləri məsələsi, demək olar ki, araşdırılmamışdır. Hələ XX yüzilliyin əvvəllərində Y.N.Smirnov Azərbaycanda və Şimali Qafqazda tapılmış, şübhəsiz Ön Asiya mənşəli olan bir sıra əşyaları təsvir etmişdir (19, s. 278, 326-331).

Azərbaycanın tarixi ərazilərində kurqan qəbirlərində bu əşyaların tapılması və dəfn mərasimləri sözügedən dövlətlərlə qarşılıqlı əlaqələrə dəlalət edir.

Assur çarlarının Araza doğru yürüşlərinin və Urartuluların Kiçik Qafqaz bölgəsinə, xüsusən tarixi Azərbaycanın Qərb bölgələrinə basqınlarının təsviri onların naməlum ölkələrə getmədiklərini, Cənubi Qafqazla yaxşı tanış olduqlarını ehtimal etmək üçün əsas verir. Şübhəsiz, Arazdan şimala doğru, uzaqlarda yerləşən ölkələr belə yuxarıda qeyd edilən mədəniyyətlərin təsir dairəsində olmuşdur və onlarla qarşılıqlı əlaqələri olmuşdur.

Dağlıq Qarabağda və Naxçıvan AR-də arxeoloji abidələrin öyrənilməsi Kiçik Qafqazın şimal-şərq yamaclarının, Qazaxdan Beyləqana qədər ərazilərin, habelə bir sıra mədəni məskənlərin olduğu Araz çayının yuxarı axını rayonlarının, Ağrıdağ vadisinin mədəniyyətini anlamağa yardımçı olmuşdur.

Naxçıvan ərazisində növbəti arxeoloji tədqiqatlar göstərmişdir ki, boyalı saxsı qabların yayılma sahəsi bu ərazi ilə məhdudlaşmır. Bu qablara təkcə Arazın düzənlik sahillərində deyil eləcə də onun qolları ilə daha yüksəkliklər dağlarda rast gəlinir. Bütün bu məlumatlar şübhəsiz əkinçiliyin yüksək səviyyədə inkişafından, cəmiyyətin inkişafının yeni, daha yüksək mərhələsindən xəbər verir. Şübhəsiz, bu mədəniyyət burada yerindəcə inkişaf edirdi və ən azından, ayrı-ayrı dövrlərdə, xüsusən, Assuriyalıların və xaldların Araz sahillərinə ekspansiyası zamanı Qədim Şərq mədəniyyətləri ilə təması olmalı idi.

Yaxın Şərqin bir sıra rayonlarında boyalı saxsı qabların tapılmasını yalnız mərhələliklə izah etmək və cəmiyyətin tamamilə təcrid olunmuş şəkildə inkişaf etdiyini hesab etmək olmaz. Əsasən qədim şəhər yerlərində tapılmış boyalı saxsı qablar, çox güman ki, həmin dövrə aid əkinçiliyin xeyli inkişaf etmiş olduğu şəhər məntəqələrinə məxsus olmuşdur.

Şübhəsiz, həmin dövrün şəhərləri təcrid edilməmişdi, əksinə, bir-biri ilə iqtisadi əlaqələr saxlayırdılar, eyni zamanda bir-birində xeyli uzaq məsafədə tapılan təxminən eyni dövrlərə aid məmulatların bənzərliyi bununla izah olunur. Xüsusən, Naxçıvan vilayətinin qabları formasına görə Boğazköydə hettlərə məxsus şəhər yerində tapılmış saxsı qablara bənzəyir. Elə oradaca həndəsi naxışlı qırmızı gil səhənglər və "çaydan" növlü qablar aşkar edilmişdir (20, s. 144-153).

Təpə-Sialkda (İran) "çaydan" növlü qablar formasına və şəkillərinə görə eyni "çaydanların" daha geniş inkişaf etmiş, amma buynuzlu heyvan rəsmli Naxçıvan saxsı qablarına (cəd.) yaxındır. Şahtaxtı kəndindən tapılmış dəyirmi qabda təsvir edilmiş rəsmlər arasında da bu heyvan rəsminə bənzərlik görmək

olar. Türkmənistandan tapılmış, formasına görə Naxçıvan qablarından fərqlənən səhənglər isə uzunbuynuzlu çöl keçisi rəsmini təkrarlayır. Müxtəlif rayonlarda və bölgələrdə aşkarlanmış bütün bu saxsı qablar e.ə. I minilliyə aid edilir. Onlar hamısı Naxçıvan qabları ilə eyni dövrə aiddir (21, s. 7-8).

E.ə. I minillik üçün səciyyəvi olan Şərqdə siyasi mərkəzlərin tez-tez köçürülməsi, bununla əlaqədar isə böyük ərazilərin Nineviya, Babilistan, Suza, Tuşpa və s. kimi bir mərkəzin təsiri altında birləşməsi daha sıx iqtisadi və mədəni münasibətlərə gətirib çıxarırdı. Ərazilərin işğal edilməsi çox vaxt keçmiş mərkəzlərin dağılmasına və məğlub edilmiş ölkələrdən ayrı-ayrı qrupların zorla köçürülməsinə gətirib çıxarırdı. İşğal edilmiş ölkə ərazisinin bir hissəsi tarla işlərinə, inşaata, süni suvarmaya göndərilirdi, əsasən dağıdılmış şəhərlərin sənətkarlarından ibarət digər hissəsi isə yeni yaradılan mərkəzlərə köçürülürdü. İnsan işçi qüvvəsinin bu şəkildə ələ keçirilməsi təkcə bir-birinə yaxın ölkələrdə baş vermirdi, göründüyü kimi, xüsusi olaraq insan qüvvəsi ələ keçirilməsi üçün uzaq rayonlara da hücumlar baş verirdi. Belə ki, xald çarı Sardur, Argiştinin oğlu şimala yürüşlərində on minlərlə insanı ələ keçirərək özü ilə aparmışdır.

Bütün bu nəticələr arxeoloji işlər nəticəsində ortaya çıxır və Araz çayı hövzəsində bu kəşflər bizə təkcə tarixi Azərbaycan ərazisinin Yaxın Şərq dövlətləri ilə sıx əlaqələri barədə deyil, həm də burada böyük mədəniyyət mərkəzlərinin olması haqqında yeni biliklər verir.

Həmçinin qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində qırmızı və qara gil qablarla eyni təbəqələrdə aşkarlanmış təsərrüfat təyinatlı daş alətlərin (çəkiclər, sürtgəclər, həvəngdəstələr) doğru olaraq neolitə aid olduğu iddia edilir, belə ki, onlar eyni mədəni təbəqələrdə aşkar edilmişdir. Onlar eyni dövrə aid abidələrdir (22, s. 39-42). Unutmaq olmaz ki, istehsal üsulunun xarakteri Urartu çarlarının öz məbədlərində asdıqları qalxan və qılıncla deyil, istehsal alətləri ilə müəyyən olunurdu. Həmin dövrdə dəmir hasilatı ondan alət hazırlanması üçün kifayət qədər də çox deyildi. Metaldan əsasən hərbi silah və zinət əşyaları hazırlanmasında istifadə olunurdu. Lakin qula çevrilmiş hərbi əsirlər hətta istehsal alətlərinin texniki cəhətdən zəif olduğu halda belə bu cəmiyyətə inkişaf etməsi üçün imkan verirdi. Belə primitiv daş alətlərin və kobud qara gil qabların tapılması və tədqiqi, şübhəsiz, Azərbaycanın ən qədim dövründə cəmiyyətin inkişafı tarixini işıqlandırmağımıza kömək edəcək.

## ƏDƏBİYYAT

1. Джафаров А.Г. Мустьерская стоянка Газма. «Известия» АН Азерб. Баку, 1991, №31.
2. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого поселения Азербайджана. Баку, 1987.
3. Young C. Comparative Ceramic Chronology for Western Iran. Vol., III, 1965.
4. Кушнарева К.Х. Ходжалинский могильник. ИФЖ. 1970, №3.
5. Hančar F. Kaukasus Luristan. ESA. Vol. 9. 1934.
6. Алиев В.Г. Археологические раскопки в урочище Баба-Дервиш. СА., 1971, №2, с.228.
7. Алиев В.Г. Последние эпохи поздней бронзы и раннего железа в Баба-Дервиш. Итоги полевых археологических исследований за 1972 г. в Азербайджанской ССР. Тезисы докладов. Баку, 1973, с.109.
8. Агаев Г.Г. Шахтахты в эпоху поздней бронзы и раннего железа. Б-М., 2002.

9. Спицын А.С. Некоторые Закавказские могильники. ИАК, вып.29. Санкт-Петербург, 1909, с.3-15.
10. Мещанинов И.И. Краткие сведения о работе археологических экспедиций в Нагорный Карабах и Нахичеванский край. Сооб. ГАИМК, вып. I. М., 1926, с.235-240.
11. Миллер А.А. Археологические исследования в Нахичеванской Республике летом 1926 г. Сооб. ГАИМК, вып.I. Л., 1926, с.326.
12. Иессен А.А. Изображение человека на плите из Кызылванка. КСИА, вып.94, 1963, с.98.
13. Мартиросян А.А. Армения в эпоху бронзы и раннего железа. Ереван, 1964, с.63.
14. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССИ. Баку, 1982, с.184.
15. Алекперов А.К. Исследования по археологии и этнографии Азербайджана. Кращеная керамика Нахчиванского края и Ванского царства. Баку, 1960, с.55.
16. Алиев В.Г. Культура расписной керамики эпохи бронзы в Азербайджане. Баку, 1977.
17. Сеидов М.М. Памятники Карабаглара эпохи бронзы и раннего железа. Итоги полевых археологических и этнографических исследований за 1973 г. Баку, 1974.
18. Байбуртян Е.А. Проблема кращеной керамики Армении. Изв. Инс-та искусства науки Арм. ССР. Кн.II. Ереван, 1937, с.228.
19. Смирнов Я.Н. Восточное серебро. СПб., 1908, I-II.
20. Захаров А.А. Хеттская керамика из Богазкея и некоторые закавзкаские параллели. «Изв. Общ-ва изучения Азербайджана». Баку, 1928, №5, с.144-153.
21. Веймари Б., Деннике Б. Итоги Иранского Конгресса. «Искусство», 1936, №1.
22. Байбуртян Е.А. Псевдонеолитические поселения Армении. ГИМК, 1933, №1 и 2. с.39-42.

# AZƏRBAYCANIN QƏDİM MÜDAFİƏ TİKİLİLƏRİNİN İNKİŞAF MƏNBƏLƏRİ

Azərbaycanda qədim dövrə aid istehkam tikililəri qeydə alındıqdan sonra tədqiqatçılar qarşısında onların məqsədlərinin, funksiyalarının və inkişaf mənbəyinin müəyyən edilməsi vəzifəsi yarandı. Lakin uzun müddət elmi ədəbiyyatda müzakirələr getmişdir, bəzən memarlıq-arxeoloji tədqiqatlar nəticəsində aşkar edilmiş səhih materiallar olmadığı üçün formal-tipoloji metodlar əsasında qurulmuş ziddiyyətli fərziyyələr səslənirdi (Xəritə 1).

Qədim istehkam tikililərinin funksional təyinatı haqqında ilk dəfə akademik İ.İ.Meşaninov öz təsəvvürlərini dilə gətirmişdir (1, s.68). Bu tikililərin karvan yollarında, dağların və təpələrin zirvələrində yerləşdiyini nəzərə alaraq, o, onların ticarət yollarında müdafiə funksiyasını həyata keçirdiyini təxmin etmişdir (1, s.4). Bu ehtimalı o, Daşkəsən rayonunda bir sıra tədqiqatlardan sonra səsləndirmişdir (1, s.4-5-).

Sonradan artıq tarixi Azərbaycanın qərb bölgəsində qədim istehkamlarla tanış olan İ.İ.Meşaninov belə bir nəticəyə gəlir ki, onlar Urartu mixi yazılarında adı çəkilən istehkam məskənləridir (1, s. 4-5).

Digər məşhur alim - İ.M.Cəfərzadə də bu tikililərin mənbəyini və funksiyalarını izah etməyə cəhd etmişdir, onların əksəriyyətini ibadət tikililərinə, çox az sayda tikilini isə qalalara aid etmişdir (2, s.50-52).

İ.M.Cəfərzadə bildirirdi ki, inşaat texnikasında və tikildiyi vaxtda fərqlərə baxmayaraq, bu tikililər eyni məqsədə xidmət edirdi (2, s.50-52).

O, aşağıdakı dəlilləri irəli sürür: 1. – bu tikililər təbii maneə rolu oynamayan yerlərdə tikilmişdir; 2. – bu istehkamların sahəsi kiçik idi, burada kifayət qədər insanla müdafiə təşkil etmək mümkün olmazdı və 3 – divarların hündürlüyü 3 metrdən çox deyildi və bu tikililərdə su çənləri tapılmamışdır.

İ.M.Cəfərzadə həmçinin qeyd edir ki, bir sıra istehkam tikililəri yalnız adlarına görə ibadət yeri deyil, (məsələn, Pir-dağ qala – ibadətgah, Ağ kilsə və s.), həm də ziyarət, ibadətgah rolunu oynayırdılar (2, s.51-52).

Bu fərziyyə ilə razılaşmamaq olar. Bunun əksini təsdiq edən çox sayda artefakt var. Məsələn, Beşbarmaq qalası. Indiyə qədər dağın zirvəsində qala divarları ilə əhatə edilmiş ibadətgah var. Bunu nəzərə alan digər tədqiqatçı C.A.Xəlilov əsaslı olaraq bildirir ki, bu xüsusiyyət yay otlaqlarında heyvanların saxlanması məqsədi ilə tikilən bir sıra tikililərə xasdır (3, s.44).

Qeyd etmək lazımdır ki, bir sıra istehkam tikililərinin strateji zirvələri var idi, burada müdafiə xətti qurmaq olardı. Məlumdur ki, ibtidai icma quruluşunun dağıldığı dövrdə qəbilələr, tayfalar və tayfa ittifaqları arasında müharibələr istila, qənimət və əmlak əldə etmək məqsədi daşıyırdı. Qarşıdurmalarda ayrı-ayrı insan qruplarının iştirak etdiyini nəzərə alsaq, sahəsi 0,5 ha-dan çox olma-

yan tədqiq edilən abidələrin müdafiə üçün əlverişli yüksəkliklərdə yerləşdiyi, təxminən 500 nəfər insanın cəmlənməsi üçün qala olduğu təklifi ilə razılaşmaq olar.

Yuxarıda qeyd edilmişdi ki, qalaların heç birində su çəni və ərzaq anbarı yoxdur. Qalaların əksəriyyətində, demək olar ki, həmişə çaylara gedən tunellər və ya su gələn gizli boru kəməri kanalları var idi. Həmçinin qeyd etmək lazımdır ki, bu zonada tez-tez yağış yağır, bu yağışlar qalada müdafiə olunanların su ehtiyatını təmin edirdi. Müəyyən edilmişdir ki, əsasən quraqlıq olan Naxçıvan AR-in ərazisində yerləşən Əlincə qalasının içərisində dağın şimal yamacında kanallar qazılmışdır, onlardan qayada oyulmuş çənlərə su toplamaq üçün istifadə olunurdu (4, s. 13).

Bir çox istehkamlarda da yağış sularının yığılması üçün böyük quyular olduğu istisna deyil. Bir sıra qalalarda arxeoloji tədqiqatlar həm təsərrüfat, həm də ərzaq təyinatlı çoxsaylı quyular aşkarlamağa imkan vermişdir.

Biz yuxarıda qeyd edilən bu tikililərin ibadət təyinatlı olması haqqında fərziyyələri təkzib edən bir sıra faktlar təqdim etdik. Amma biz, həmçinin bir sıra istehkam binalarında ibadət tikililərinin mövcud olduğunu, burada əhalinin mənzillərini və rifahını qoruması ilə yanaşı, tanrıya təşəkkür etdiklərini və tanrılara qurbanlar verdiklərini inkar etmirik.

Lakin qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində tunc dövrünün sonunda mərkəzləşmiş dövlət təsisatı real görünür, çünki yalnız dəmir dövrünün əvvəllərində böyük tayfa ittifaqları meydana gəlmiş və tayfaların qapalı həyat tərzinin aradan qaldırılması üçün şərait yarandı (5, s. 37).

Tunc dövrünün sonunda və dəmir dövrünə keçid zamanı cəmiyyət hələ tayfa və qəbilə birliklərindən ibarət idi. Hələ təbəqələşmə, fərqlənmə, mərkəzi dövlət və insanların ticarət üzrə ixtisaslaşan qrup və ya təbəqəsinin olduğunu nəzərdə tutan ticarət yox idi. Lakin bu o demək deyil ki, karvan yollarının müdafiə məntəqələri fikri təkzib olunur. Sonradan ilkin təyinatını itirən bəzi istehkam tikililərinin gələcəkdə müdafiə üçün istifadə edildiyi ehtimalı istisna deyil. Azərbaycan ərazisində bir sıra qalalarda erkən və son orta əsrlər dövrünə aid mədəni təbəqələrin aşkarlanması bu fikri qismən təsdiq edir.

Yuxarıda deyilənlərdən qədim istehkam tikililərinin əsasən müdafiə əhəmiyyəti daşıdığı, bəzilərinin isə daimi məskən olduğu və öz müdafiə sistemləri olan istehkam halına salınmış məskənlər kimi qəbul edilməli olduğu barədə bəzi nəticələrə gəlirik (6, s. 37).

İstehkam tikililərinin mənbəyi və funksional təyinatları haqqında nöqteyi-nəzərin şərhinə keçərkən qədim yazılı abidələrdə yer alan məlumatlarla tanış olmağı zəruri hesab edirik.

Biz artıq qismən Assur və Urartu çarlarının salnamələrində və mixi yazılarında qədim istehkam tikililəri haqqında yazılı mənbələrə toxunmuşduq.

Əvvəlcədən qeyd edək ki, indiyə qədər Azərbaycanın şimal bölgəsi ərazisində mixi yazılar tapılmamışdır. Lakin tarixi Azərbaycanın Qərb bölgəsi ərazisində, qədim dövr istehkam tikililərinin yayıldığı yerlərdə Urartu kitabələri tapılmışdır. Onlarda Urartu çarlarının işğal etdiyi ölkələrin adları, qənimətlərin təsviri və toponimlər əksini tapmışdır.

Qədim tikililərin inkişaf mənbəyini, funksiyalarını və aid olduqları dövrü müəyyən etmək üçün ilk növbədə e.ə. 733-714-cü illərdə hakimiyyətdə olan Urartu çarı I Rusanın mixi kitabəsini qeyd etmək lazımdır. Kitabə Sevan (Göyçə) gölünün cənub sahilində Kalian kəndi yaxınlığında qayada oyulmuşdur, Aluçulu kimi məşhurdur. 1826-cı ildə kitabənin surəti çıxarılaraq, Moskvada "Russkiy Vestnik" jurnalında dərc olunmuşdur.

1889-cu ildə alman alimi V.Belk və A.Seys bu kitabənin II Sardura (e.ə. 750-ci illər) aid olduğunu təxmin etmişdir (7, s. 1-2).

Alim M.V.Nikolski kitabənin Assur çarı Sarqon dövründə yaşamış I Rusaya aid olduğunu sübut etməyə müvəffəq olmuşdur (7, s.1-2). Sonradan başqa alimlər də kitabənin mətni üzərində işləmişdir (8; 9; 10).

Kitabədə deyilir: "Mən bir yürüşdə bu ölkələri işğal etdim (və) əsarətim altına aldım: Alahuni, Uelikuxi, Lueruxi, Arkunini, gölün bu tərəfində dörd çarı (habelə) Qurkumeli, Şanatuani, Terpunşaini, Rişuani, Zuaini, Arnani, Zamani, Piruani, Şilaini, Erieltuanini, Anlamainuni, Qurnaini, İrximatari. Alzirani, Şilaini, Uiduaini, Atezaini, Ernaini, Azemurunini ölkələrini, bir ildə 19 çarı – hamısını ələ keçirdim, kişiləri və qadınları Biannili ölkəsinə apardım. Xərac ilində gəldim, bu qalaları tikdim, bu əzəmətli .... (?) ölkəsində tanrı Teyşabın qalasını tikdim, (onun üçün) "Tanrı Teyşebin şəhəri" adını verdim; (onu tikdim) Biannimi ölkəsinin qüdrəti (və) düşmən ölkələrin qarşısının alınması üçün (?)". Rusa deyir: "... bu kitabəni kim məhv etsə..." (9, s.218).

Yuxarıda qeyd edildiyi kimi, kitabədə adı çəkilən ölkələrin 4-ü Sevan (Göyçə) gölünün cənub sahilində, 19-u gölün şimalında, yüksək dağlarda yerləşirdi.

Kitabələrin oxunması üzrə məşhur alim P.K.Uşakov bu "ölkələrdə" tədqiqatlar apararaq, onlardan 4-nün Nur-Bəyazit ətrafında, Sevan (Göyçə) gölündən cənubda, 19-nun Kür çayı hövzəsində, göldən şimala və şimal-şərqə doğru Azərbaycan ərazisində siklopik tikililərin yerləşdiyi zonada yerləşdiyini ehtimal etmişdir (11, s. 40-41).

M.V.Nikolski ehtimal edirdi ki, I Rusanın "Kelan-Kirlan" kitabəsində adı çəkilən "ölkənin" işğalı cənub-şərq istiqamətində, Naxçıvana doğru həyata keçirilmişdir (7, s.5).

Akademik İ.İ.Meşaninov Argiştinin oğlu Sardurun adından Zaxalu, Kalan-Kirlan (Alaçulu) kitabələrinə əsaslanaraq, öz ehtimalını irəli sürmüşdür: "... mən çar Sardurun və onun oğlu Rusanın yürüşlərinin Arkukini ölkəsindən, yəni Sevan (Göyçə) gölünün şərq sahilindən Şərqə doğru, Xəzər dənizi istiqamətində, ilk növbədə Gəncə istiqamətində olduğuna dair müəyyən nəticəyə gəldim" (1, s. 37-50; 12, s. 51, 53). Sonradan bir sıra alimlər bu fikirlə razı olduqlarını bildirmişlər və I Rusanın varisi II Argiştinin dövründə Urartunun Assuriyaya qarşı silahlı bitərəfliyə riayət edərək, Urmiya gölünün şimal-şərq rayonlarına işğal yürüşlərini davam etdirdiyini və hətta Xəzər dənizinə qədər gedib çatdığını qeyd etmişlər (13, s.42; 14, s.292).

Azərbaycanda aparılan arxeoloji tədqiqatlar bu günə qədər yuxarıda qeyd edilən ehtimalların həqiqətə uyğunluğunu sübuta yetirməmişdir. Hələ 1926-cı ildə İ.İ.Meşaninov Azərbaycanın şimal bölgəsi ərazilərində belə bir dəlilin – xald mixi yazılarının tapılmasının mühüm rol oynaya biləcəyini qeyd edirdi.

Lakin, çox güman ki, urartuluların Azərbaycanda qısamüddətli təsadüfi hücumları bu bölgədə güclü tayfalar olduğunu göstərir (3, s. 42; 14, s.38).

Mixi kitabədə adı çəkilən kiçik ərazidə yerləşən çoxlu sayda çarlıq və ölkə nə ola bilərdi? E.ə. VIII əsrdə Sevan (Göyçə) gölü ətrafında bu qədər şəhər olduğu nə dərəcədə həqiqətə uyğundur? Tədqiqatçıların fikrincə, icma başçıları çar kimi keçir və burada çarlıq hərfi mənada deyil, şərti qəbul edilməlidir (15, s.42).

Tədqiqatçı İ.A.Babayev hesab edir ki, tarixi Azərbaycan, o cümlədən bütün Cənubi Qafqaz ərazisində qədim müdafiə tikililəri şəhər deyildi və başqa düşmən tayfaların hücumları zamanı məskunlaşmaq üçün sığınacaq funksiyasını yerinə yetirirdi (16, s.10). Deyilənlərdən belə çıxır ki, urartuluların ələ keçirdikləri və şəhər adlandırdıqları məskənlər məhz belə istehkam məskənləridir.

Cənubi Qafqaz ərazisində qədim istehkam məskənlərini tədqiq edən A.P.Novoseltsev qeyd edir ki, bu məskənlər sosial-iqtisadi cəhətdən şəhər ola bilməzdi (17, s.94).

Əksər tədqiqatçıların ümumi fikri e.ə. I minilliyin ortalarına qədər Ön Asiyada "şəhərlərin" və "kəndlərin" bir-birindən fərqlənmədiyi qənaətindədir (16, s. 10).

Bu məsələni aşağıdakı hal izah edə bilər.

E.ə. I minilliyin əvvəllərində İtaliyada şəhərlərin yaranması tarixi ilə bağlı mənbələr həmin dövrün şəhərləri haqqında təsəvvür yaradır. Böyük Plini bildirir ki, etrusklar kimmerlərin 300 şəhərini işğal etmişdir (18, s. 162). Təbii ki, e.ə. I minilliyin ortalarında, Romayaqədərki dövrdə İtaliyada 300 şəhər olduğunu təsəvvür etmək olmaz. Çoxsaylı şəhərlər haqqında məlumat verən mixi abidələrdə də eyni halla qarşılaşırıq.

Digər alim V.İ.Xudadovun fikrincə, ayrı-ayrı tayfaların yaşadığı ərazilər həddindən artıq məhdud idi və çox güman ki, orada əsas hökmdar çar və ya, daha doğrusu, tayfa başçısı idi. Yalnız bu halda Urartu mixi yazılarında adı çəkilən bu qədər çoxlu sayda istilaçı "çarlıqlar" olduğunu izah etmək olar (19, s. 208).

Daşkəsən və Gədəbəy rayonlarında qədim istehkam məskənlərini və qalaları tədqiq edən C.A.Xəlilov da qeyd edir ki, adı çəkilən çarlıqlar bir-birinə yaxın yerləşən ayrı-ayrı tayfa qruplarından başqa bir şey deyildir (3, s. 41).

Mixi abidələr Cənubi Qafqazda Urartu istilasına qədər qədim müdafiə tikililərinin olduğunu istisna etmir. Məsələn, Kalian kitabəsində Sevan (Göyçə) gölündən cənubda dörd ölkənin adı çəkilmişdir, hazırda onların yeri müəyyən edilmişdir. Onlar qədim müdafiə tikililəridir. Kitabədə yer alan "bu qalaları vergi ilə tikdim" ifadəsi həmin vaxtlar burada bu qalaların artıq mövcud olduğunu istisna etmir. Urmiya gölü yaxınlığında Libliuni qalası buna əyani misal ola bilər. Qeyd etmək lazımdır ki, çox güman ki, Urartu çarı "bu qalaları tikdim" ifadəsi ilə özünün dağıtdığı bu qalaları bərpa etdiyini nəzərdə tuturdu.

Bir sıra alimlər həmçinin qeyd edirlər ki, Cənubi Qafqaz ərazisində qədim müdafiə tikililəri çoxəsrlik istehkam tikintisi ənənəsi – tunc dövründə yerli substrat əsasında və eyni dövrə aid Mesopotamiya və Kiçik Asiya dövlətlərinin təsiri altında istehkam inşaatı bazasında öz memarlıq formasını əldə etmişdir.

Akademik İ.İ.Meşaninov qeyd edirdi ki, qədim müdafiə tikililərinin tikintisi texnikası xald dövlətinin süqutundan sonra da, qalan xalq mədəniyyəti ilə qətiyyən əlaqəli deyildir (21, s.69).

Tarixi Azərbaycan ərazisində, eləcə də bütün Qafqaz ərazisində Urartu dövrü Qafqaz İkiçayarasının tarixi dövrünün yalnız bir hissəsidir, həm də "şəhərlərin" tikintisi bu dövrdə başlamamışdır, amma bu dövrdə başa çatır (22, s.7).

## ƏDƏBİYYAT


1. Мещанинов И.И. Циклопические сооружения Закавказья ЦГАИМК, XIII, вып.4-7, 1932, с.105 с рис.
2. Джафарзаде И.М. Циклопические сооружения Азербайджана. Тр.Аз.ФАН СССР, 1938, т.55, 54.
3. Халилов Дж.А. Археологические памятники Западного Азербайджана в эпоху бронзы и начало железного века. Бассейн реки Шамхорчай и Зегамчай. Баку, Изд. АН Азерб.ССР, 1959, 170 с. (на азерб.яз.).
4. Керимов В.И. Оборонительные сооружения Нахичеванской АССР, Автореф. дисс. канд. искусствоведения. Тбилиси, 1981, 21 с.
5. История Азербайджана. Баку, Изд. АН Азерб.ССР, 1961, т.I, 448 с.
6. Алиев В.Г. По следам истории. Баку, «Гянджлик», 1975, 77 с. (на азерб. яз.).
7. Никольский М.В. Клинообразная надпись Руса I в Келаны-Кирланы (Алучулу) на берегу оз. Гекча в Эриванской губернии 1893, 4 с., и VII с. прилож.
8. Капанцян Гр. Халдская надпись Руса I из Келаны на южном берегу озера Севан-Ереван, 1941, 12 с.
9. Меликишвили Г.А. Урартские клинообразные надписи ВДИ. 1953, №4, с.175-252.
10. Меликишвили Г.А. Древние восточные материалы по истории народов Закавказья. Тбилиси. Изд. АН Груз. ССР, 1954, 446 с.
11. Ушаков П.К. К находкам урартийцев в Закавказье. ВДИ., 1946, №2, с.31-44.
12. Мещанинов И.И. Ассирийская бусина из Азербайджана. ИСИА, 1926, №2, с.49-57.
13. Есаян С.А. Ереван. Археологический очерк. Ереван, Апастан, 1969, 154 с. с илл.
14. Арутюнян Н.В. Чтение и интерпретация урартийской надписи из Гарни. ИФЖ, 1966, №2, с.293-297.
15. Мещанинов И.И. Краткие сведения о работе археологических экспедиций в Нагорный Карабах и Нахкрай. Сообщ. ГАИМК, вып.I, Л., 1926, с.217-240.
16. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. III в. н.э. Баку, 1983.
17. Новосельцев А.П. Генезис феодализма в странах Закавказья. М., Наука, 1980, 285 с.
18. Немировский А.И. История раннего Рима и Италии. Возникновение классового общества и государства. Воронеж, 1962, 298 с.
19. Худадов Н.В. Мегалитические памятники Кавказа. ВДИ., 1937, №1, с.195-215.
20. Кафадрян К.К. Заметки по Урартской фортификации ИФЖ, 1972, №2, с.151-162.
21. Мещанинов И.И. Восточное Закавказье времен халдских завоеваний ВДИ, 1957, №1, с.66-77.
22. Мелитаури К.И. Крепости до феодальной и раннефеодальной Грузии. Тбилиси, Мецщераба, 1969, т.1, 117 с. с илл.

# AZƏRBAYCANIN QƏDİM DÖVR İNŞAAT SƏNƏTİ

Alimin nəzərləri əsrlərin dərinliklərinə çevrildikdə, o, qeyri-iradi olaraq uzaq keçmişdə bir çox halların izahını axtarır. Və yaşanmış əsrləri və minillikləri tədqiq edərək, tarixi Azərbaycan ərazisində yaşamış xalqların hadisələrlə zəngin olan tarixini və taleyini izləyirik.

Tarixi Azərbaycan ərazisi zəngin və qədim tarixi olan bir ölkədir. Onun böyük hissəsi tədricən ovalığa keçən dağ silsilələri ilə əhatə olunmuş geniş düzənlikdir, Azərbaycan xalqı burada formalaşmışdır və minilliklər boyunca onun müxtəlif dövlət birlikləri mövcud olmuşdur.

Tədqiq edilən dövrdə tarixi Azərbaycan ərazisində ən qədim tayfa ittifaqlarının inşaat sənəti hələ bu yaxınlara qədər insan fəaliyyətinin az tədqiq edilmiş sahəsi hesab olunurdu. Bizə məlum olan ən qədim dövr abidələrinin sayının məhdud olması, onların əsasən dağılmış vəziyyətdə olması və kifayət qədər dərindən tədqiq edilməməsi bu ərazidə inşaat sənətinin inkişaf tarixinin yalnız bütünlükdə bu dövrü haqqında deyil, onun ayrı-ayrı mərhələləri haqqında da ümumi təsəvvür yaratmaq imkanından məhrum etmişdir. Yerli alimlərin plana uyğun şəkildə həyata keçirdikləri tədqiqatlar e.ə. VII minillik ərzində çoxsaylı yeni maddi mədəniyyət abidələrini aşkar etməyə imkan vermişdir. Bu, tarixi Azərbaycan ərazisində məskunlaşan xalqın inşaat sənətinin yüksək inkişaf səviyyəsinə dəlalət edən qədim məskənlərdir (1; 2; 3; 4).

Müntəzəm olaraq dərc edilən araşdırmalar əsasən tək-tək yeni tapılan abidələrə həsr edilirdi. Xronoloji cəhətdən bir-birinə yaxın maddi mədəniyyət abidələrinin və təyinatına görə yaxın tikililərin tədqiq edildiyi əsərlərin sayı xeyli az idi. Bununla belə, faktiki olaraq toplanmış materiallar bizi maraqlandıran dövrün qədim tikililərinin inşaatı haqqında nisbətən tam təsəvvür formalaşdırmağa imkan verir (5; 6; 7; 8; 9).

Bütün dünyada olduğu kimi, Azərbaycan ərazisində bəşər cəmiyyətinin formalaşması prosesi onun mədəniyyətinin inkişafının müxtəlif mərhələlərinin üslub xüsusiyyətlərini müəyyən edən istehsalat və mövcud istehsal münasibətlərinin inkişaf səviyyəsindən asılı şəkildə baş verirdi.

Bu qanunun inkişafının elmi cəhətdən əsaslandırılmış dövr bölgüsünü nəzərə alaraq, bu araşdırmanı memarlıq-bədii və inşaat-texniki xüsusiyyətlərinə görə bir-birindən fərqlənən iki hissəyə bölürük:

Birincisi – daş dövrünün başlanğıcından e.ə. I minilliyin sonlarına qədər ibtidai icma quruluşunun mövcud olduğu ən qədim dövr (10, s. 23-27).

İkincisi – son tunc və erkən dəmir dövrü – e.ə. I minillikdə, e.ə. VII əsrə qədər ən qədim tayfa ittifaqları və dövlətlər dövrü.

Tarixi Azərbaycan ərazisi bir-birini əvəz edən yüksək dağ silsilələri, yaylalar, dərin dərələr, çay vadiləri və göl hövzələri olan ölkədir. İqlimi müntəzəm şaquli qurşaqlar,mövsüm və günlük temperaturların kəskin şəkildə dəyişməsi ilə səciyyələnir. Torpaqları kifayət qədər məhsuldardır, bitki və heyvanat aləmi müxtəlifdir, yeraltı faydalı qazıntılarla zəngindir. Böyük bərk süxur – bazalt və qranit yataqlarına rast gəlinir. Daha yumşaq süxurlardan mərməri, əhəngdaşını, süngər daşını, vulkan qumu və şlakları qeyd etmək olar. Demək olar ki, hər yerdə özlü maddələrə - inşaat gilinə, gipsə, müxtəlif əhəng daşlarına; inşaat ağaclarına – iynəyarpaqlılara və enliyarpaq ağaclara, xüsusən yüksək keyfiyyətli qoz ağacı növlərinə rast gəlinir.

Azərbaycan ərazisində metalların (mis, dəmir və s.) mövcudluğu və hasilatın nisbətən asan olması ən qədim zamanlardan etibarən inşaatda onlardan istifadə etməyə imkan verirdi. Hələ e.ə. III minillikdə Azərbaycan ərazisində dəmir filizi çıxarılırdı.

Müxtəlif, asan əldə olunan tükənməz inşaat materialları ehtiyatları və metaldan əmək aləti hazırlamaq imkanı hələ ən qədim dövrlərdə tarixi Azərbaycan ərazisində hər yerdə daş tikililərin yayılmasına şərait yaratmışdı.

Bütün bu təbii şəraitlər, çoxsaylı flora və fauna növləri, habelə Azərbaycanın coğrafi mövqeyi, çox sayda təbii və süni mağaraların mövcudluğu, habelə Azərbaycan hüdudlarında tapılmış ayrı-ayrı daş alətlər və məmulatlar şəklində maddi mədəniyyət fraqmentləri buna dəlalət edir.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan ərazisində insanların inşaat fəaliyyəti çox qədim zamanlardan məlumdur. Aşkar edilmiş daş əmək alətləri (əl çapacağı, hamar ərsinlər, itiuclular və s.) qədim daş dövründən burada insanların yaşadığına və inşaat fəaliyyətinə dəlalət edir (11, s. 125). İnsanların ilk yaşayış məskənləri meşə kolluqları, böyük və kiçik oyuqlar, mağaralar və kahalar idi (10, s. 7-19).

Azərbaycanda yüzlərlə mağara var. Onlar Kiçik və Böyük Qafqazın dağətəyi rayonlarında yaylalarda, habelə Talış dağlarında yerləşir. Naxçıvan MR-də kifayət qədər çoxlu sayda mağara var. Bəzi mağaralarda isə yüz illərlə həyat olmuşdur.

Pre-neandertalın alt çənəsinin qalıqları tapılmış Azıx mağarası, habelə neandertal uşaq qalıqları tapılmış Şanidar mağarası (Azərbaycanın qərb bölgəsi) nümunə ola bilər (11, s. 125; 12; 13) (şək. 1).

Bütün Yaxın Şərqdə "Əshabi-Kəhf" adı ilə tanınan, Naxçıvan şəhərindən 25 km şimal-şərqdə yerləşən mağara xüsusilə məşhurdur (14).

Azərbaycanda indiyədək bu mağara ibadətgah hesab olunur. Dünyanı su basması və "Əshabi-Kəhf" mağarası haqqında əfsanənin qədim dövrdə Naxçıvan bölgəsində mağara insanı və buz dövrü ilə əlaqəli olduğu şübhə doğurmur.

Tarixi Azərbaycan ərazisində, Qazax rayonunun Şıxlı kəndi ətrafında açıq tipli qədim paleolit abidələri, habelə Qayalı, Hacıdərə, Şişgüzey və s. kimi aşel abidələri məlumdur.

İnsan həyatı üçün əlverişli olan dağ dərələrində, yerli yaylalarda və çay vadilərində qurulan düşərgələr geniş yayılmışdı. Tarixi Azərbaycanın Qərb bölgəsində belə yaşayış məskənləri Arzni, Nurpus, Cer, Mastada tapılmışdır.

Qazax rayonundakı Damcılı və Daşsalahlı mağaralarında, Azıx mağarasının üst qatlarında olduğu kimi, Qadir-dərə, Çamıxlı, Marallı kimi açıq yaşayış məskənlərində də mustye mədəniyyətinə aid əmək alətləri tapılmışdır. Alətlərin hazırlanması üçün ilkin xammal kimi daşdan başqa obsidiandan (vulkanik şüşə) istifadə edirdilər (15, s. 4-5).

Erkən və orta paleolit dövründə Azərbaycan ərazisində insanlar ən qədim ictimai birlik forması olan "kiçik qruplar" şəklində yaşayırdılar. Bu qrupun əsasını kollektiv əmək təşkil edirdi (şək.2).

Orta paleolit dövründə Azərbaycanda, çox güman ki, artıq qəbilə quruluşu yaranmışdı.

Ən qədim bəşər tarixinin növbəti mərhələsi – üst paleolit Azərbaycanda Tağlar, Damcılı, Yataqyeri, Buzeir, Qazma, Zar mağaralarında təmsil olunur (13; 16; s.4). Bu dövrdə əmək alətlərinin hazırlanmasında nisbətən təkmilləşmiş metodlar tətbiq olunurdu. Tağlar və Damcılı mağaralarında çaxmaqdaşından, bazaltdan, obsidiandan və dolomitdən hazırlanmış əmək alətlərinə rast gəlinmişdir.

E.ə. X minilliyin əvvəllərinə doğru Azərbaycanda qədim daş dövrünü mezolit – orta daş dövrü əvəz edir.

Qobustanda qazıntılar qədim yaşayış düşərgələrini, qədim qayaüstü rəsmlərin nadir kolleksiyasını, habelə çaxmaqdaşından hazırlanmış çox sayda müxtəlif əmək alətləri aşkarlamağa imkan vermişdir (şək. 1).

Maldarlıq və əkinçilik inkişaf etdikcə, insanlar oturaq həyat tərzinə keçməyə başladılar. Neolit dövründə - yeni daş dövründə (e.ə. VII-VI minilliklər) artıq daimi düşərgələr meydana çıxdı və tədricən qədim qəbilə yaşayış məskənlərinə çevrildi. Onlar dağların yamaclarında, vadilərdə və düzlərdə, çayların və göllərin sahillərində aşkarlanmışdır. Araşdırmalar göstərmişdir ki, bu yaşayış məskənlərinin əksəriyyəti zaman keçdikcə genişlənir və abadlaşdırılırdı.

Tarixi Azərbaycan ərazisində neolit abidələri Damcılı mağarasında, Qobustanda, Naxçıvan yaxınlığında Kültəpə I-də, Gəncə yaxınlığında Killikdağ yanında, Xanlar rayonunda Gəncəçay vadisində, Sisianda, İrəvanda, Sevan (Göyçə) gölünün cənub sahilində tapılmışdır.

Həmin vaxtlar insanlar ayrı-ayrı qəbilə icmaları şəklində yaşayırdılar. Hər yerdə oturaq yaşayış məskənləri müşahidə olunurdu (şək. 3).

Azərbaycan ərazisində bəşər cəmiyyətinin inkişafının növbəti mərhələsi – eneolit dövrü qısa sürmüşdür (e.ə. VI-III minilliklər). Hələ daş alətlərdən istifadə dövründə möhkəm daş süxurların axtarışında insan mis külçələri ilə qarşılaşmışdır və ilk dəfə metalla tanış olmuşdur. Həmin dövrə aid arxeoloji abidələrdə artıq metal əşyalar – bıçaqlar, iynələr, bizlər, rombşəkilli ox ucları tapırıq (18) (şək. 4).

Tarixi Azərbaycan ərazisində eneolit dövrünə aid abidələr Naxçıvan MR-in hər yerində, Mil-Qarabağ və Muğan düzlərində, Kür çayı və Kiçik Qafqaz dağı arasında, Quba-Xaçmaz zonasında, Qobustanda, Təbriz yaxınlığında, Urmiya gölünün qərb sahilində, Sevan (Göyçə) gölünün cənub sahilində, Sisianda tapılmışdır. Bütün bu yaşayış məskənləri istehsal təsərrüfatı olan oturaq əkinçilik-maldarlıq cəmiyyətləri növünə aiddir (18) (şək. 5-8).

Daş alətlərin təkmilləşdirilməsi və xüsusən əvvəlcə mis, daha sonra tunc və dəmirdən hazırlanan metal alətlərin tətbiqi ilə müxtəlif sənətlərin inkişafı fəallaşırdı.

Əhalinin əsas məşğuliyyətinin maldarlıq və ya əkinçilik olmasından asılı olaraq, ictimai əmək bölgüsü baş verirdi. İqtisadi və ərazi əlaqələri güclənirdi, qəbilə qrupları tayfalarda, daha sonra isə tayfa ittifaqlarında birləşmişdir. Yaşayış məskənləri inkişaf edərək, istehkamlı məntəqələrə - ərzaq məhsullarının və mal-qaranın saxlandığı yerlərə çevrilirdi. Qəbilə zadəganlarının mal-qaranı və digər əmlakı ələ keçirməsi ilə şəxsi mülkiyyət və icma üzvləri arasında maddi bərabərsizlik yaranmış və bu, sinfi cəmiyyətin formalaşmasına gətirib çıxartmışdır.

Düşərgələrin və yaşayış məskənlərinin salınması bütün qəbilə və icma tərəfindən həyata keçirilirdi. İnşaata tayfa və ya icma başçısı rəhbərlik edirdi, o, yalnız işlərin rəhbəri deyil, həm də ideya yaradıcısı, yaşayış məskəninin yerini, plan-kompozisiya strukturunu müəyyən edən şəxs idi.

Düşərgələrin və icma məskənlərinin tikilmə müddəti uzun deyildi. Bu, zərurətdən irəli gəlirdi və tikinti yerində inşaat materialının – daş, ağac, gilin mövcudluğundan, habelə inşaatçıların, əmək alətinin və üsulların inkişaf səviyyəsindən asılı idi. İnşaatın bir-iki il davam etməsi kiçik yaşayış məskənlərinin tikilməsi üçün normal müddət idi. Məskənlər düzənliklərdə və ya dağ yaylalarında, strateji cəhətdən səmərəli yerlərdə yerləşirdi.

Hazırda Cənubi Qafqaz ərazisində 170-dən çox son neolit və əsasən eneolit dövrünə aid erkən əkinçilik məskəni məlumdur. Onların böyük əksəriyyəti (4/5-dən çox) tarixi Azərbaycanın Şimal bölgəsində yerləşir. Gürcüstan ərazisində erkən əkinçilik məskənləri əsasən Kür çayının orta axınının sağ sahilində (tarixi Azərbaycan ərazisinin Marneuli və Bolnisi rayonlarında), habelə Ağrıdağ düzündə tədqiq edilmişdir (10).

XX yüzilliyin 60-cı illərinin ortalarına qədər Cənubi Qafqazın ən erkən əkinçilik mədəniyyəti e.ə. III minilliyə aid edilən Kür-Araz eneolit mədəniyyəti hesab olunurdu. Naxçıvanda Kültəpə I-in aşağı təbəqəsinin qazılmasından sonra tarixi Azərbaycan ərazisinin müxtəlif rayonlarında bir sıra qədim oturaq əkinçilik abidələrinin tapılması e.ə. VII-III minilliklərdə bu regionda mədəni-tarixi prosesin gedişi haqqında ümumi təsəvvürü xeyli dəyişdi (şək. 3, 4).

Müəyyən edilmişdir ki, Kür-Araz eneolit mədəniyyəti erkən tunc dövrünə aiddir, ondan əvvəl Azərbaycanın əsl eneolitini və ən qədim erkən əkinçilik mədəniyyətini səciyyələndirən qalın çöküntüləri olan məskənlər şəklində abidələr var. Beləliklə, aydın oldu ki, tarixi Azərbaycan ərazisində erkən əkinçilik mədəniyyətinin ən qədim inkişaf mərkəzlərindən biri mövcud olmuşdur.

Cənubi Azərbaycan ərazisində həmçinin Azərbaycanın Şərq bölgəsi ərazisində aşkar edilmiş abidələrlə yazılı əlaqələri üzə çıxaran bir qrup erkən əkinçilik məskənləri aşkar edilmişdir (şək. 9, 15).

Həmçinin qeyd etmək lazımdır ki, Mil-Qarabağ düzündə ən qədim məskənlərin tədqiqi göstərdi ki, tarixi Azərbaycan ərazisinin başqa heç bir bölgəsində ekən əkinçilik mədəniyyətinə aid məskənlərin bu qədər çox cəmləşməsi qeydə alınmamışdır. Əksər hallarda bu məskənlərdə sonrakı dövrlərə aid mədəni çöküntülər yoxdur. Bu araşdırmalar nəticəsində Azərbaycanda eneolit

dövründə memarlıq-planlaşdırma həllərinin, onun lokal xüsusiyyətlərinin, əlaqələrinin və qarşılıqlı təsirinin, xronologiyasının öyrənilməsi və tarixi Azərbaycan ərazisində erkən əkinçilik məskənlərinin Ön Asiyanın mədəniyyət mərkəzləri, Orta Asiya və Yaxın Şərqin cənubunda sinxron mədəniyyətlərlə birlikdə dövrlərə bölünməsi üçün mühüm materiallar əldə olunmuşdur.

Tarixi Azərbaycan ərazisində ən qədim tayfaların mədəniyyətinin öyrənilməsi üçün Mil-Qarabağ düzündə Şahtəpə, Kəlmiltəpə, Dölləktəpə, Qaratəpə, Ağdam rayonu yaxınlığında İlanlıtəpə və Çalağantəpə məskəni kimi abidələr də əhəmiyyət kəsb edir (şək. 7; 14). Həmçinin Əliköməktəpə, Cinnitəpə, Arzamas təpəsi, Leylatəpə və digər məskənləri qeyd etmək lazımdır (şək. 7-13; 23). Bu məskənlərin tədqiqinin yekunları onların e.ə. IV-III minilliklərin ən dəyərli abidələri olduğunu qeyd etməyə imkan verir.

Azərbaycanın Cənub bölgəsində, Urmiya gölü yaxınlığında Göytəpə, Qaratəpə (Yanıqtəpə), Həsənli, Bələutəpə və Dalmatəpə məskənlərində erkən əkinçilik abidələrinin araşdırılması maraqlı nəticələrə gətirib çıxarmışdır (şək. 15; 19) (20, s. 39-42; 21). Bu abidələrin hər birinin spesifik xüsusiyyətləri var.

Belə bir fakt müəyyən edilmişdir ki, bu məskənlərin erkən çöküntülərindən tapılmış kütləvi sadə saxsı qabların Mil-Qarabağ düzünün e.ə. III-IV minilliklərə aid eneolit saxsı qablarından heç bir fərqi yoxdur.

Kür çayının orta axınında erkən əkinçilik tayfalarının mədəniyyətinin tədqiqinin də müstəsna əhəmiyyəti var.

Şulaverisqora, Aruxlo, İmirisqora, Xramis Didiqora və Marneuli ovalığında aşkar edilmiş digər erkən əkinçilik məskənlərinin tədqiqi nəticəsində onların Töyrətəpə, Göytəpə, Şomutəpə, Qarğalartəpə və Babadərviş yaşayış məskənlərindən çox az fərqləndiyi müəyyən edilmişdir.

Marneuli ovalığında bu abidələr qrupu Azərbaycan ərazisində Kür-Araz eneolit abidələrinin müəyyən qrupuna çox bənzəyir. Saxsı qablarda izlənilən bənzərlik bu abidələrin ümumi eneolit mədəniyyəti olduğunu göstərir. Tarixi Azərbaycanın bu qonşu bölgələrində hər birinin öz spesifik xüsusiyyətləri olan lokal mədəniyyət qruplarının inkişaf etdiyi ehtimalı istisna deyil.

Marneuli ovalığında eneolit dövrünə aid abidələrdə həmçinin Trialet silsiləsindəki eneolit abidələri ilə kifayət qədər yaxın əlaqələr olduğunu, e.ə. IV minilliyin sonlarından e.ə. III minilliyə qədər dövrə aid edilən Didubi-Kiket qrupuna yaxınlaşdığını görürük. (şək. 8; 26).

Bu, bir daha göstərir ki, bu bölgədəki məskən Kür-Araz eneolit mədəniyyətinin erkən abidələrinə aiddir və e.ə. IV-III minilliklərə aid edilir.

Kür çayının orta axarındakı bir mədəniyyətdə birləşən bu məskənlər tarixi Azərbaycanın şimal bölgəsində vahid etnik mədəniyyət zonasını təşkil edirdi. Onlar arasında Tehut və Şengavit məskənləri fərqlənir (şək. 25). Bu məskənlərin tədqiqinin nəticələri onu göstərir ki, burada müxtəlif saxsı qabların bir neçə qrupu bir-biri ilə tarixi Azərbaycanın digər bölgələrindən daha çox əlaqəlidir.

Son illər ərzində Azərbaycan ərazisində (Leylatəpə) Böyük Kəsik I, Böyük Kəsik II, Poylu I, Poylu II, Ağılıdərə, Göytəpə və Ovçulartəpə kimi məskənlər aşkarlanaraq tədqiq edilmişdir (şək. 18-22). Bu məskənlər tarixi Azərbaycan ərazisində etnik-mədəni inkişaf mərhələsini daha yaxşı anlamağa, Cənubi Qaf-

qaz ənənəsinin Ön Asiya və Cənub-Şərqi Avropa ilə əlaqələrdə rolunu müəyyən etməyə imkan vermişdir. Bu, bir daha tarixi Azərbaycan ərazisində ən qədim tayfa ittifaqlarının yaşadığını göstərir.

Yuxarıda adı çəkilən abidələrin Cənubi Kültəpə mədəniyyətindən xeyli fərqlənən vahid Şomutəpə mədəniyyətində birləşdirilməsi erkən əkinçilik-maldarlıq məskənlərinin tədqiqində yeni səhifə açmağa imkan vermişdir. Qədim Şomutəpə məskənlərinin xüsusiyyəti inşaat fəaliyyətində hamar-qabarıq (plan-konveks) kərpiclərdən istifadədən və dəyirmi planlı mənzillərdən ibarətdir. Bu qrupa aid məskənlər arasında Şomutəpə məskəni xüsusi yer tutur (19, s.45-53).

400 $m^3$ sahəsi olan oval təpədə yaşayış və təsərrüfat tikililərinin bir cərgə müxtəlif ölçülərdə çiy kərpicdən ibarət qalıqları aşkarlanmışdır.

Şomutəpə yaşayış məskənində tədqiq edilmiş materiallar e.ə. V-IV minilliklərdə Azərbaycan ərazisində məskənin tarixi inkişafının mədəni mərhələsini kifayət qədər açıq şəkildə səciyyələndirir (şək. 5).

Dağ silsilələrinin Araz çayına doğru daha çox uzanmış qolları çayın orta axını hissəsini bir neçə düzən zonaya bölür. Burada Sədərək düzü Daralagöz silsiləsinin qolları ilə şoran Böyükdüz düzənliyindən ayrılır, Naxçıvançay çayı isə onu Naxçıvan düzündən ayırır. Bu ərazidə neolit dövrünə aid qədim məskənlər aşkar edilmişdir. Bu yerlərdə oturaq həyat tərzi qeyri-daimi və qısamüddətli idi, Kültəpə I isə Cənubi Qafqazda aşkarlanmış ilk eneolit məskənidir və bu gün Naxçıvan MR ərazisində, demək olar ki, yeganə ən qədim erkən əkinçilik məskənidir. Lakin Şahtaxtı və Sədərək kəndləri yaxınlığında eneolit məskəni izləri, habelə yeni aşkarlanmış Ovçulartəpə (Xalac, Arabiyengincə, Şortəpə, Aşağı Daşarx və s.) məskəni qeydə alınmışdır. Naxçıvan düzündə digər bizə məlum olmayan eneolit məskənlərinin də olduğunu ehtimal etmək olar (22; 23; 24; 25).

Kültəpə I məskəninin neolit təbəqəsində əsasən daş bünövrə üzərində gildən tikilmiş dairəvi və yarımdairəvi planlı yaşayış və təsərrüfat məskənlərinin olduğu 18 inşaat təbəqəsi müəyyən edilmişdir. Kültəpə I məskənində aşkar edilmiş saxsı qabların Ağrıdağ düzü abidələrindəki saxsı qablarla xeyli yaxınlığı var. Ən aşağı təbəqələrdə hətta xələf tipli naxışlı qablar aşkarlanmışdır (1) (şək. 4).

Həmçinin qeyd etmək lazımdır ki, süni təpələrdə inşaat da təcrübə edilirdi, bu, təbii ki, daha zəhmətli idi və uzun müddət tələb edirdi. Belə yaşayış məskənlərinin tikilməsi, çox güman ki, bir neçə il davam edirdi. Türkiyənin şərq hissəsində Van gölü ətrafında e.ə. V-IV minilliklərə aid Şamiram-Altı məskəni nümunə ola bilər (26). 7 m hündürlüyü olan təpədə yalnız 80 $m^2$-dən çox sahəsi olan zirvənin mərkəzi hissəsi qalmışdır (26, s.280-304).

Tarixi Azərbaycanın Cənub bölgəsi ərazisində də qonşu Ön Asiya ölkələrinin süni təpə şəklində olan qədim məskənlərinə bənzər erkən əkinçilik məskənlərinə rast gəlirik. Onlardan bəziləri bu ərazilərdə oturaq həyat tərzinin inkişafının erkən mənbələri ilə əlaqədardır. Su ehtiyatları məhsuldar düzlərdə kənd-təsərrüfat bitkiləri becərməyə imkan verirdi. Məhz belə yerlərdə ən qədim əkinçi tayfaları məskunlaşmışdı. Burada müxtəlif vaxtlarda Göytəpə,

Həsənli, Hacı-Firuz, Dalmatəpə, Pijdəlitəpə və Yanıqtəpə məskənlərində qazıntılar həyata keçirilmişdir (27; 28).

Bu ilk erkən əkinçilik məskənlərinin hələ müdafiə tikililəri yox idi, hələ heç kimdən müdafiə olunmağa ehtiyac yox idi, heç kifayət qədər uzaqda olan qonşularda həsəd doğura biləcək sərvətlər də yox idi.

Ən qədim məskənlərdə sahə tədqiqatları belə bir nəticəyə gəlməyə imkan verdi ki, yaşayış tikililəri yerli inşaat materialları ilə tikilirdi. Dağlıq ərazilərdə əsasən çiy kərpic şəklində və özlü maddə kimi gildən geniş istifadə olunurdu. Çayların və göllərin yaxınlığında xırda çay daşlarından da istifadə olunurdu. Örtü üçün müxtəlif ağaclardan, kollardan və qamışdan istifadə olunurdu.

İnşaat alətləri tədricən, xüsusən tunc və dəmir dövründə təkmilləşən primitiv daş alətlər idi. Ölçüsünə və formasına görə müxtəlif olan diorit daş çəkiclərin təkcə taxta dəstələr üçün dəlikləri deyil, həm də cilalanmış səthi var idi (şək. 36).

Metaldan ən qədim inşaat alətlərinin forması və təyinatı haqqında qazıntılar zamanı aşkarlanmış nümunələr əsasında təsəvvür formalaşdırmaq olar. Tunc dövründə Azərbaycanda aşkarlanmış baltalar, iskənələr, təbərzinlər və kiçik əl baltaları geniş yayılmışdı (29, s. 13; 30; 31, s. 251-260; 32, s. 77; 33).

İnsan məskənlərinin tarixi yalnız insanın onu süni olaraq, ən sadə əmək alətlərinin – dəyənək, daş və s. vasitəsilə yaratmağa çalışdığı zaman başlayır.

İnşaat istehsalı müəyyən mənada mütəşəkkil əmək prosesi kimi yalnız xüsusi alətlərin, çox sadə belə olsa, inşaat üçün yararlı olan alətlərin yaranması ilə başlaya bilərdi.

Xüsusi əmək alətlərinin sistemli şəkildə tətbiqi insan məşğuliyyətinin bu növünü onun əmək fəaliyyətinin müəyyən sahəsinə və formasına – inşaata çevirdi.

Və yalnız kürək və daş balta, kəsici və mişarlayıcı alətlərin meydana çıxması ilə inşaat sənəti tam olaraq inkişaf etməyə başlamışdı.

İnşaat sənətinin meydana çıxması tarixi təkcə əmək alətlərinin yaranması zərurətinin ortaya çıxması ilə deyil, həm də təbii mühitin, cəmiyyətdə ailə və qəbilə birliyinin formalaşmasının ona göstərdiyi təsirlə də müəyyən olunurdu.

Kobud şəkildə qırılmış, həmçinin cilalanmış daş, ağac, mis, tunc və dəmir həm eramızdan əvvəl, həm də bizim eramızda insanın istehsal alətləri və silah hazırlamasına xidmət etmişdir. Bütün bu təbii, həmçinin çətin əmək sayhəsində hasil edilən materiallar uzun inkişaf yolunda insanı müşayiət etmişdir.

İnşaat sənətinin necə yaranıb inkişaf etdiyini mühakimə etmək üçün onun inkişafını təhlil etmək və insanın yaşayış yeri yaratmaq tələbatının hansı mərhələdə meydana çıxa biləcəyini müəyyən etmək lazımdır.

Məlum olduğu kimi, əllərin inkişafı süni alətlər yaratmaq imkanı vermişdir, sinantrop – protoantropların* ən erkən nümayəndələrindən biri də praktiki olaraq bunu etmişdir, taxta nizə (bir tərəfi itilənmiş), primitiv daş alətlər (eolit) düzəltmişdir.

Beləliklə, pitekantroplar ən sadə alətlərin yaranmasından daş əsrinin başlanğıcına – şel dövrünəqədərki dövrə davam edən ən qədim insan mədəniyyətinin yaradıcıları olmuşdur.

*Protoantroplar - ən qədim insanlar (pitekantroplar, sinantroplar, Haydelberq insanı).

Amma nə pitekantropların, nə də avstralopiteklərin çuxurlara və yarğanlara, mağaralara sığınıb, onları öz məskənlərinə çevirmək zərurəti yox idi; onlar isti iqlimdə yaşayırdılar və bundan başqa, bu hazır sığınacaqların sahibləri – mağara ayıları və mağara pələngləri (qılıncdişlilər) – maxayrodlarla mübarizə üçün kifayət qədər silahları da yox idi.

Buna görə insanın yaranmasının başlanğıcından mağaralara yerləşməsinə qədər keçən uzun əsrlərə aid inşaat fəaliyyətinin maddi qalıqları yoxdur. İbtidai alətlər geniş tətbiq olunurdu; onlarda inşaata xas olan heç nə yox idi. Buna görə arxeoloji məlumatlar əsasında insanın ibtidai sığınacaq forması haqqında danışmaq mümkün deyil. Yalnız bəşər mədəniyyətinin növbəti pilləsi əsl məskənlərin başlanğıcına gətirib çıxartmışdı.

Orta paleolit dövründə yaşayan insanlar – neandertallar insanın inşaat fəaliyyətinin inkişafının başlanğıcını qoydular. Bu, sonradan yaşayış məskənlərinə, hissələrə ayrılmış daxili məkana gətirib çıxaran həddindən artıq mühüm addım idi. Neandertalların məskənlərində divarlar və tavanlar yarandı, baxmayaraq ki, onlar əlbəttə, hələ təbii, hissələrə ayrılmamış, müxtəlifləşdirilməmişdi və birindən digərinə keçirdi. Sonradan, son paleolit dövründə insanın – inşaatçının şüurlu fəaliyyəti bu daxili məkanları tərkib hissələrinə ayırdı və onları əvvəlcə örtülü qazmalar şəklində torpağın altına, daha sonra isə artıq divarları və tavanları ayrılan yerüstü tikililərə çevirdi.

Vəhşi heyvanların əlindən alınmış mağaralar insanların bu ada layiq olan ilk məskəni olmuşdur. Sonradan həm eramızdan əvvəl, həm də bizim erada mağaraların yaşayış məskəninə uyğunlaşdırılması prosesi getmişdir.

İnsanın bu ən erkən (təbii) daimi yaşayış məskənlərini mənimsəməsində aşağıdakı iki əsas amil həlledici rol oynamışdır.

Birincisi, son buz dövründə ümumi soyuqlaşma insanları soyuq küləkdən, yağışdan və qardan qorunmaq üçün daha etibarlı sığınacaqlar axtarmağa məcbur etmişdir.

İkincisi, eyni səbəbdən süni oda daha ciddi surətdə sahib olmaq və onu tətbiq etmək zərurəti yaranmışdır.

Beləliklə, ilk inşaatçı-insan sosial inkişaf yoluna möhkəm qədəm basaraq, onu insan kimi təsdiq edən ilk nailiyyətlərinə alət, silah və geyim hazırlamaq bacarığı ilə yanaşı, yaşayış məskəni yaratmaq bacarığını da əlavə etdi (şək. 16, 17; 23-25; 28).

Daş əsri və daş sənayesi hər yerdə yayılmış təzahür idi, buna görə həmin dövrdə bütün insanların məişətdə və alət istehsalında gündəlik istifadə üçün zəruri olan daş xammalın yerləşdiyi yerlərə meyl etməli olduğunu ehtimal etmək təbiidir.

Beləliklə, ehtimal etmək olar ki, erkən paleolit dövrünün ortalarından (aşel) başlayaraq, təbii mağara, kaha və yarğanlar sığınacaq, mustye dövründən etibarən isə gündəlik yaşayış yeri – məskən rolu oynamalı idi.

Yalnız uzun əsrlər boyunca bu sığınacaqlardan istifadə təcrübəsi və əsasən əhalinin say tərkibinin artması, habelə daha mütəşəkkil alətlər insanları təbii sığınacaqların təkmilləşdirilməsi və müvafiq şəkildə təchiz edilməsi fikrinə sövq edə bilərdi.

Mağaralar təkcə soyuqdan və yağışdan deyil, həm də bürküdən yaxşı qoruyur, buna görə insanların ən qədim zamanlardan onlardan məskən olaraq istifadə etməsi təəccüb doğurmur. Nəzərə almaq lazımdır ki, sonradan insanların ictimai istehsal üsulundan (ov və daş sənayesi) irəli gəlməyən, sırf məskənin ən ciddi tələbatlarını həll edən və ya ibadət yerlərinin yaradılmasından ibarət olan təbii mağaralardan istifadə və süni mağaraların yaradılması "mağara həyatı" termini ilə əlaqələndirilməməlidir və yalnız adda mağaralara aid edilə bilər.

İstisnasız olaraq bütün qitələrdə mağara məskənlərinin qalıqları aşkarlanmışdır.

Ən qədim insanların təbii mağaraların mənimsənilməsi yolunda ilk addımları o qədər qədimdə atılmışdır ki, indi bu barədə mühakimə yürütmək çox çətindir, bununla belə, bir şey aydındır ki, oddan istifadə olmadan, bu, baş verə bilməzdi.

Arxeoloji qazıntılardan göründüyü kimi, odun yaranması ilə mağaralarda tonqallar yandırıldı. Onlar adətən mağaranın girişində yerləşirdi. Burada od üç əsas funksiyanı yerinə yetirirdi – qoruyur, işıqlandırır və isidirdi.

Beləliklə, qədim dövrün mağara sakinləri haqqında danışarkən onları əbəs yerə mağara inşaatçıları adlandırmırıq, belə ki, yalnız məişət deyil, ərzaq nöqteyi-nəzərdən də mağaradan asılı olan və neandertal əcdadlarımız kimi, onsuz yaşaya bilməyən bu insanlar belə adlandırıla bilər.

İlk dəfə mağaralara məskunlaşan insan inkişafının növbəti pilləsinə yaxınlaşdıqda məlum oldu ki, o, artıq müəyyən inşaat təcrübəsi, mənzilə və böyük daxili məkanı olan mağaraya uyğunlaşma təcrübəsi, habelə mərkəzində ocaq olan dairəvi və ya dördbucaqlı çuxurların qazılması təcrübəsi əldə etmişdir.

Ən qədim məskən tikintisinin tamamilə yeni olan bu elementləri müasir yaşayış evimizin əsl əcdadı idi, necə ki, neandertalları əvəz edən yeni "homo sapiens" müasir insanların əcdadı olmuşdur.

Məhz bu yeni insanlar bu ada layiq ilk inşaat tikilisini – qazmaları tətbiq etməyə və inkişaf etdirməyə başlamışlar.

Yaşayış məskəninin belə təşkili prinsipini bütün "qədim memarlığın" inkişafında onun izahına ən çox kömək edən həlledici amil hesab etmək olar. İbtidai və erkən insan məskəni formalarının yaranması və inkişafı tarixini elmi cəhətdən işıqlandırarkən bununla razılaşmamaq olmaz.

Tarixi Azərbaycan ərazisində qədim tayfa və ittifaqların qəbilə yaşayış məskənlərində də məişət və mənzilin bu şəkildə təşkilini görürük.

Məişətin fərdiləşdirilməsi və deməli, həm də xüsusiləşmiş yaşayış məskənləri ictimai inkişafın yalnız cəmiyyətdə əmək bölgüsünün ortaya çıxdığı, ixtisasın və əmək alətlərinin məskən tikintisinin kiçik "mütəxəssislər" qrupu tərəfindən tikintisinin mümkün olacağı səviyyədə təkmilləşdiyi və bu insanlar qrupunun kollektivdən ayrılaraq, nisbətən müstəqil mövqe tutduğu mərhələsində yarana bilərdi.

İnsanların yaşayış məskənlərinin yaranmasının ən erkən pillələrində onun inkişafını iki əsas amil müəyyən edirdi: ailənin, qəbilənin say tərkibi və onların sərəncamında olan maddi-texniki vəsait. Bu zaman sonuncuların sırasına sırf

sosial maddi vəsaitlərlə (əmək alətləri) yanaşı, inşaatın aparıldığı təbii şəraiti də aid etmək lazımdır.

Belə bir məskən hətta od və ocaq olmadan belə, qəbilənin tərkibinə əlverişli təsir göstərə bilərdi. Daim bir dam altında bərabər olma faktı özü, şübhəsiz, buna şərait yaradırdı.

Qobustanda qaya talvarı altında böyük daşlardan mağara məskəni tikilmiş sığınacaq tapılmışdır (Çalmalı düşərgəsi). Burada bütün təbii sığınacaqlardan istifadə olunmuşdur. Qərb divarı üçün daş qaya parçalarından istifadə olunmuşdur. Şərq tərəfdə divar kiçik daşlardan tikilmişdir və kiçik dəlik – mağaraya giriş var.

Bütün Qafqaz ərazisində də bu növ məskənlərin nümunəsi var (Kaniza və Tsilto düşərgəsi).

İnşaatda istifadə olunan müxtəlif alətlərin forması və təyinatı haqqında müəyyən bir şey demək çətindir. Ehtimal etmək olar ki, onlar kifayət qədər primitiv idi, inşaat daşlarının daşınması və qaldırılması işini asanlaşdırırdı. Çox güman ki, fəhlələr ağır daşları qaldırarkən bərk ağac növlərindən hazırlanmış sadə vasitələrdən istifadə edirdilər. Həmçinin müəyyən edilmişdir ki, qədim inşaatçılar vərdənələrdən istifadə edirdilər. Onların köməyi ilə iri daş qayaları, xüsusən qala divarlarının tikintisində (Bastam, Oğlanqala, Ördəkliqala, Nur-Bəyazit və s.) istifadə olunan bazalt blokları diyirlədirdilər.

Azərbaycan ərazisində insanın mövcud olduğu erkən mərhələdə yaşayış və təsərrüfat tikililərinin konstruksiyasında ən sadə inşaat üsullarından istifadə olunurdu. Əvvəllər bünövrə qoyulmurdu, buna görə təkcə kiçik ölçülü binalar deyil, qala divarları da heç bir hamarlaşdırma işləri həyata keçirilmədən təbii səthə qoyulurdu (şək. 27).

Bünövrələr ən erkən e.ə. IV minillikdə yaranır. Onlar əsasən çiy kərpicdən tikilmiş ən qədim məskənlərdə aşkarlanmışdır. Kültəpə II və Şengavitin tikintisində bünövrələr çay daşından və daş qırıntılarından tikilmişdir. Kültəpə I-də bünövrə kəsiyinin ölçüləri 1, 90 metrə, hündürlüyü 0,9 metrə, Şengavitdə bünövrənin hündürlüyü 0,9 metrə, eni təxminən 1,0 metrə çatır. Ehtimal etmək olar ki, binada bünövrənin olması gil divarların nəm çəkməsinin qarşısını almaq zərurətindən irəli gəlirdi.

Çiy kərpicdən divarlar əsasən gillə zəngin olan aran və dağətəyi rayonlarda tikilirdi. Kərpiclər nisbətən böyük ölçülərdə, hər bir məskən və bəlkə də rayon üçün standart ölçüdə hazırlanırdı; Kültəpə I və Kültəpə II –də (40x30x10); Naxçıvan MR-də: Qaraköpəktəpə (42x18x12), Füzuli rayonu; Üzərliktəpə (42x16x12); Şengavit və Tehut (40x30x10); tarixi Azərbaycanın qərb bölgəsində Klor-dərə (40x50x10) sm. Düzbucaqlı kərpiclər geniş yayılmışdı, onlar, dördbucaqlı kərpiclərdən fərqli olaraq, daha müxtəlif hörgü sistemləri əldə etməyə, divarları müxtəlif qalınlıqlarda – Kültəpə II-də (42x16x12), Üzərlik Təpədə (42x16x12) sm - tikməyə imkan verirdi. (34, s.146) (Şək. 29).

Divarların eni tikilinin ölçüsü, konfiqurasiyası və yüksəkliyi əsasında müəyyən edilirdi. Dairəvi məskənlərdə divarların eni az – 0,7-0,9 m olurdu, düzbucaqlılarda divarın uzunluğundan asılı olaraq 1,0 – 1,1 metrə çatırdı. Çiy divarlar 2-3 sm enində gil mala ilə örtülürdü.

Tarixi Azərbaycan ərazisində erkən tunc dövrü Kür-Araz mədəniyyətinə aid qədim məskənlərlə səciyyələnir. Tuncun mənimsənilməsi dövrünə təsadüf edən və böyük sosial-iqtisadi dəyişikliklərlə səciyyələnən bu mədəniyyət yerli tayfaların və yerli ittifaqların mədəni-tarixi inkişafında yeni və mühüm mərhələ olmuşdu.

Metallurgiyanın yaranması, əkinçiliyin və maldarlığın istehsal təsərrüfatının əsas formasına çevrilməsi, qədim məskənlərin tikintisi, üstünlük təşkil edən patriarxal münasibətlərin güclənməsi, mədəni-iqtisadi əlaqələrin genişlənməsi və nəhayət, Qafqaz etnik birliyinin formalaşması və inkişafı bu regionun özünəməxsus qədim mədəniyyətinin çiçəklənməsi və yayılması dövründə əsas radikal irəliləyişlər idi.

Memarlıq-arxeoloji tədqiqatlar nəticəsinə müəyyən olunmuşdur ki, qədim Kür-Araz mədəniyyəti məskənlərinin yayılma sahəsi kifayət qədər geniş idi, Qafqazın böyük hissəsini (35; 36; 37; 38), İranın Şimal-Qərb bölgəsini (Azərbaycanın Cənub bölgəsi) (39; 40; 41) və Şərqi Anadolunu (42; 43) əhatə edirdi. Kür-Araz mədəniyyətinin ayrı-ayrı elementləri daha dərinə - Şərq, Aralıq dənizi, Suriya və Fələstinə qədər nüfuz etmişdir (44a; 45).

Kür-Araz mədəniyyəti bütün Qafqazın maddi mədəniyyət tarixində maraqlı təzahür idi. Tarixi Azərbaycan ərazisində və geniş qonşu ərazilərdə - Van və Urmiya gölü ətrafında, Şərqi Anadoluda maddi mədəniyyət bu mədəniyyətin mövcud olduğu dövrdəki ilə eyni görünmür (46). Kür-Araz erkən tunc mədəniyyətinin Qafqazın və ümumilikdə Qədim Şərq dünyasının qədim tarixində əhəmiyyəti daha böyük idi. Oturaq əkinçilik tayfaları və tayfa ittifaqları - bu yüksək mədəniyyətin daşıyıcıları e.ə. III minillikdə Ön Asiya qədim tarixinə böyük töhfə vermişlər (17; 48; 49; 50; 51; 52). Və təsadüfi deyil ki, tunc dövrünün erkən pilləsini əhatə edən Kür-Araz mədəniyyəti tarixi bu günə qədər dünya tarixinin diqqət mərkəzində qalmaqda davam edir.

Son onilliklər ərzində Kür-Araz mədəniyyəti tarixinin öyrənilməsində böyük uğurlar əldə olunmuşdur. Yeni abidələrin kəşf edilməsi və onların dərindən öyrənilməsi Kür-Araz mədəniyyəti ilə bağlı bir çox mühüm məsələləri genişləndirməyə imkan vermişdir.

Deyilənlər fonunda tarixi Azərbaycan ərazisində erkən tunc dövrünə aid çox sayda qədim məskən aşkarlandığını qeyd etmək lazımdır.

Qədim məskənlərin memarlıq-arxeoloji cəhətdən tədqiqi tarixi Azərbaycan ərazisində tayfaların yalnız təsərrüfat-tarixi deyil, həm də sosial inkişafını səciyyələndirmək, habelə bu dövrlə bağlı tarix məsələlərini uğurla həll etmək imkanı yaratmışdır.

Bildiyimiz kimi, Azərbaycan ərazisində ən erkən əkinçilik məskənləri neolit dövrünə - e.ə. VII-V minilliklərə aiddir, memarlıq-arxeoloji komplekslər bunu kifayət qədər sübut edir. Hələ e.ə. IV minilliyin ikinci yarısından bu ərazi Kür-Araz erkən tunc mədəniyyəti daşıyıcıları tərəfindən mənimsənilmişdir. Onlara Qaraköpəktəpə, Günəştəpə, Meynətəpə, Üzəntəpə, Kültəpə, Xantəpə, Şomulutəpə, Babadərviş, Qəfləttəpə və s. abidələri aid etmək olar.

Beləliklə, həm yuxarıda təsvir edilmiş, həm də indi adı çəkilən bu abidələrin tədqiqi ümumilikdə tarixi Azərbaycan ərazisində erkən tunc məskənlərinin

strukturunu və ümumi təsərrüfat həyatını dolğun şəkildə səciyyələndirməyə imkan verən yeni və kifayət qədər zəngin faktiki materiallar yaradır.

Kür-Araz mədəniyyətinin yayıldığı geniş tarixi Azərbaycan ərazisində eyni zamanda bir neçə təpəni əhatə edən qrup şəklində məskənlər məlumdur. Belə erkən məskənlərdə sahəsindən asılı olmayaraq, ayrı-ayrı təpələrdə insanlar eyni zamanda məskunlaşırdı və hər bir təpə qohum ailə-qəbilə icmasının yaşayış yeri idi. Azərbaycanın bu və ya digər bölgəsində bütün tədqiq edilmiş qədim məskənlərdə insanların ilk məskunlaşdığı mərhələyə aid materialların bənzərliyini, yəqin ki, bununla izah etmək olar. Sonradan, ümumi mədəni-tarixi inkişaf prossində tayfaların birləşməsi əsasında daha böyük tayfa ittifaqları formalaşdı, bununla əlaqədar olaraq kiçik təpələrin sakinləri onları tərk etdilər və yaşayış yalnız ən böyük təpədə cəmləşdi. Böyük məskənlərdə (Qaraköpəktəpə, Meynətəpə, Kültəpə, Qəfləttəpə, Qayakənd, Vəlikənd və s.) daha güclü mədəni təbəqələrin mövcudluğu açıq şəkildə göstərir ki, müdafiə divarları məhz belə böyük məskənlər üçün səciyyəvidir. Qaraköpəktəpə, Üzərliktəpə, Şengavit, Kültəpə II məskənlərinin erkən tunc dövrünə aid üst təbəqələrində kobud daşlardan hörülmüş müdafiə divarlarının qalıqları aşkarlanmışdır (9; 53;, 54, s. 89-105; 55, s.9) (şək. 10; 26; 29; 41). Gördüyümüz kimi, müdafiə divarları 0,9-1,9 m enə malik idi. Ehtimal etmək olar ki, Meynətəpə, Şomulutəpə, Kültəpə və digər məskənlər də belə divarlarla möhkəmləndirilmişdi.

Tarixi Azərbaycan ərazisində Qobustanda Dayra məskəni də istehkamlı məskənlərə aiddir (56). Erkən tunc mədəniyyətinə aid olan mədəni təbəqələrdə daşdan təsərrüfat tikililərinin, habelə yüngül tikililərin qalıqları aşkarlanmışdır.

Cənubi Qafqazda erkən müdafiə divarları Şengavit, Şreşqala, Muhannatəpə (57), Qudabertka (Gürcüstan) və digər məskənlərdən yaxşı məlumdur. Bir sıra məskənlərin müdafiə divarları çiy kərpicdən hörülmüşdür (4).

Tarixi Azərbaycanın Cənub bölgəsində (37) və Şərqi Anadoluda (44) erkən tunc dövrünə aid məskənlərdə də müdafiə divarları aşkarlanmışdır.

Həmçinin qeyd etmək lazımdır ki, Kür-Araz erkən tunc mədəniyyətinə aid məskənlərin formalaşması strukturu hələ də kifayət qədər tədqiq edilməmişdir. Bu, əsasən qazılmış məskənlərin sayının az olması ilə əlaqədardır ki, bu da sözügedən qədim mədəniyyətin şəhərsalma strukturuna təsir edən birbaşa amillərin müəyyən edilməsini çətinləşdirir. Kəlbəcər dağında yerləşən məskəni də bu tezisə əlavə etmək lazımdır. Burada 22 m-ə yaxın diametri olan güclü dairəvi tikililərin qalıqları tapılmışdır, onların xarici divarlarının eni 2 metrə çatır. Onun daxili hissəsi mürəkkəb plana malikdir. Bu tikili ətrafında diametri 3-5 metr olan daha kiçik dairəvi planlı tikililərin qalıqları aşkar edilmişdir. Çox güman ki, böyük tikili ibadətgah və ictimai bina idi, onun ətrafında kiçik yaşayış tikililəri yerləşirdi (şək. 27).

Dağıstanda dağ tipli Qalqalatlı məskəninin planı tamamilə fərqlidir. Bu məskənin nisbətən kiçik ərazisində iri daş tikililərin qalıqları aşkarlanmışdır (41).

Qaraköpəktəpə də analoji tikinti ilə səciyyələnir. Qaraköpəktəpə yaşayış məskənində gördüyümüz kimi, erkən tunc mədəniyyətinin uzun dövrü ərzində evlər formalarının fərqli olmasından asılı olmayaraq, bir-birinə yaxın

tikilərək, bütöv plan təşkil edirdilər. Tikililər arasında küçə keçidləri, bir qayda olaraq, kiçik çay daşı və ya çınqıllarla döşənirdi (şək. 16).

Şübhəsiz, düz sahədə yaranan yaşayış məskənlərinin plan xüsusiyyətləri fərqli idi. Belə yaşayış məskənlərində evlər daha sərbəst – ictimai əhəmiyyət daşıyan böyük tikilinin ətrafında kiçik qruplar şəklində yerləşirdi – Üzərliktəpə, Kültəpə II, Sərkərtəpə və s.

Yaşayış evlərinin divarları kiçik, emal edilməmiş daşlardan quru hörgü ilə, çiy divarlarla eyni endə tikilirdi. İnşaat təcrübəsində qatışıq, xüsusən gil qatışıq tətbiq edildikdən sonra, onunla yalnız daş divarları malalamırdılar, həm də sonradan kiçik daşlardan olan hörgünü möhkəmləndirirdilər.

E.ə. IV minillikdən III minilliyin yarısına qədər Azərbaycanın dağlıq ərazilərində siklopik tikililərin divarları quru hörgü ilə təsadüfi formalı kiçik daşlardan və iri buzlaq daşı və qaya parçalarından tikilirdi (34, s. 23; 58, s. 50).

Qobustanda Dayra qalasında uzunluğu 1-1,2 metrə çatan qaya süxurlarından istifadə olunmuşdur (şək. 1). Armudluqala qalasında (Azərbaycanın Qərb bölgəsi) divar hörgüsündə daş qayaların uzunluğu 3 metrdən çox təşkil edirdi.

Qala divarlarının konstruksiyası iri daşlardan daxili və xarici səthi təşkil edən hörgü sırasından ibarət idi, onların arası kiçik daşlarla doldurulurdu. Hörgünün cərgəliliyinə riayət olunmurdu. Divarlar arasında bənd yerləri dəyişkən enə və özünəməxsus əyriliklərə malik idi ki, bu da siklopik tikililərin divarlarının xarici səthinə gözəllik verirdi.

Divarların eni müxtəlif idi, bir çox istehkamlarda 2 metrdən 5 metrə qədər çata bilirdi, məsələn, Vayxırqala və Armudluqala (şək. 43). Bu, təkcə kontroforsu olmayan hamar divarların hündürlüyündən deyil, həm də qalanın təyinatından, nisbətən nüfuzlu qəbilə icmasına, daha sonralar isə hökmdara məxsus olmasından irəli gəlirdi.

Metal əmək alətləri meydana çıxdıqca binaların tikilməsi texnikası sürətlə inkişaf etməyə başladı. Buzlaq daşı və qaya parçalarından istifadə ilə həyata keçirilən tikintidə əvvəlcə kobud şəkildə qırılmış daşlardan, daha sonralar isə nisbətən düzgün blok şəklində emal edilmiş daşlardan istifadə olunurdu. Belə daşlardan hörgü daha sıx, müxtəlif növ dağıntılara daha davamlı olurdu (şək. 38-40; 46-50; 53). Bu hallarda cərgəliliyə və daşların seçiminə riayət olunmasa da, bu hörgü divarın konstruksiyasını tədricən təkmilləşdirməyə imkan verirdi.

Vayxırqala və Ördəkliqalada divarlar hələ təxminən 4-5 m enində daha böyük qalınlığa malikdir (şək. 60). Qarabağlarqala və Eylərqalada kontroforsun mövcudluğu nisbətən kiçik enli müdafiə divarı tikməyə imkan vermişdir, bu divarlar e.ə. XIIV-IX əsrlərdə artıq 2-2,5 metr təşkil edirdi. Bu müdafiə tikililərində hörgünün təkmilləşdirilməsi, nisbətən cərgəliliyə riayət edilməsi və bəndlərin üfüqi və şaquli şəkildə həyata keçirilməsi təmayülü izlənir (şək. 43; 58).

Bəzi qala divarları uzun müddət mövcud olduğu zaman dəfələrlə yenilənir və genişlənirdi. Onların eninin və qatlarının fərqli olması- məsələn, Ördəkliqala və Vayxırqalada - bununla izah olunur, belə ki, divarın möhkəmləndirilməsi üçün o, xarici səthi örtən yeni hörgü hesabına qalınlaşırdı (şək. 43; 58).

Qapı yerləri yaşayış yerlərində ağacdan, müdafiə və monumental tikililərdə daşdan hazırlanan arxitravlarla örtülürdü. Arxitravların hazırlanmasının çətin

olması oyuqların ölçüsünü müəyyən mənada məhdudlaşdırırdı. Bu oyuqlar binalarda 1,0 metr, müdafiə tikililərində 1,0-1,2 m. arasında dəyişirdi. Qalaların yük heyvanlarının keçməsi üçün nəzərdə tutulan əsas qapılarının arxitravlarının eni Oğlanqala, Aznabürcqala, Çalxanqala, Qarabağlarqala kimi qalalarda 2-2,5 metr idi, hündürlüyü 1,0 metr və daha yüksək idi (şək. 41-43; 45). Həmçinin daha geniş qapı yeri nümunələri məlumdur, məsələn, Süqutluqalada – təxminən 4,0 m, Vayxırqalada 5 m., onların örtüsünün konstruksiyası naməlum olaraq qalır (34; 58).

Düzbucaqlı məskənlərin örtüləri hamar, taxta tirdən ibarət idi. Tirlərin üstünə şüvül və ya ağac budaqları, daha sonra qamış və ya başqa bir material qoyurdular, saman və ya quru otla örtürdülər və üstünə gil-torpaq təbəqə tökərək, sukeçirməz sürtgü çəkirdilər (şək. 33).

Tunc dövrünə aid sahəsi kiçik olan dairəvi mənzillərin çadırşəkilli konstruksiyalarında, məsələn, Sərkərtəpə və Şengavitdə, çiy kərpic 1,0 m səviyyəsinə qədər qaldırılırdı. 20-25 mm məsafədə dairə üzrə daxili tərəfdən şüvülləri dərinləşdirir və onları yuxarı hissədə bağlayırdılar. Şüvüllərin üstünə qamış qoyur, daha sonra həm içəridən, həm də bayırdan gil sürtürdülər (şək. 24).

Daş örtülərdən daha nadir, bir qayda olaraq, monumental tikililərdə istifadə edirdilər. Dolmenlərin ən sadə örtüləri iri və qalın daş plitələrdən təşkil olunmuşdur. Oşaxan yaxınlığında (Azərbaycanın Qərb bölgəsi) böyük dolmenlərdə bəzi daş plitələrin daxili uzunluğu 8 metrə, eni 3 metrə çatırdı. Daha mürəkkəb konstruksiyanın – saxta qübbənin - tək-tük nümunələri məlumdur. Oşaxan dolmenlərindən birində həyata keçirilmiş belə bir qübbənin ən sadə növü üç daşdan – iki daralan aşırımdan və bir arxitravdan ibarətdir. Digərinin örtüyü (daxili ölçüləri 7,5x3,1 m) müxtəlif istiqamətlərdə bucaq altında düzülmüş, daş çadıra bənzəyən şəkil almış 1,0x1,7 m ölçüsündə plitələrdən təşkil olunmuşdur. Sisian yaxınlığında e.ə. III-II minilliklərə aid Xoşun-daş yaşayış məskəninin(Azərbaycanın Qərb bölgəsi) saxta qübbə növlü maraqlı örtüyü var. O, 2-3 metr uzunluğunda daşlardan maili şəkildə düzülmüşdür. Onlar arasındakı boşluq arxitravlarla örtülmüşdür (şək. 2).

Qeyd etmək lazımdır ki, bütün yaşayış tikililəri və məskənləri yüz illər boyunca eyni yerdə yerləşir, gil və kərpic evlər tikilirdi. Demək olar ki, bütün tikililər yerin üstündə idi.

Bir qrup yaşayış tikililəri əlverişli təbii-iqlim şəraitində, iqtisadi və strateji cəhətdən səmərəli yerlərdə yerləşirdi. Böyük yaşayış məskənləri birdəbirə yaranmırdı. Onlar adətən qəbilə icması üzvlərinin sayı artdıqca və bir neçə tayfanın düşməndən birgə müdafiə üçün ittifaq şəklində birləşməsi nəticəsində kiçik məskənlərin inkişafı ilə yaranırdı.

Belə yaşayış məntəqələrinin mövcud olma müddəti ən qədim dövrlərin sosial-iqtisadi və siyasi şəraiti ilə müəyyən olunurdu. Böyük yaşayış məskənlərinin tədqiqi yüz və min illər boyunca onlarda insanların yaşadığını təsdiq edir. Şomutəpə və Üzərliktəpənin yaşı iki, Əliköməktəpə, Kültəpə I, Ördəkli və Şengavitin üç, Kültəpə II-nin yaşı isə 7 min il olaraq müəyyən edilir. Mədəni təbəqələrdə aşkar edilmiş müdafiə, yaşayış və yardımçı tikililərin qalıqları bu qədim yaşayış mərkəzlərinin inkişaf mərhələləri, növləri və planlama xüsusiyyətləri haqqında təsəvvür formalaşdırmağa imkan verir.

Əhatə etdiyi ərazinin ölçüsünə görə yaşayış məskənləri bir-birinə çox yaxın idi. Əliköməktəpə, Üzərliktəpə, Sərkərtəpə, Böyük Kəsik kimi (şək. 21; 23; 27; 29; 56) 1-3 ha sahəsi olan kiçik yaşayış məskənləri ilə yanaşı, sahəsi 10 ha-dan çox olan məskənlər də var idi, məsələn, Naxçıvan MR ərazisində ən qədim yaşayış məskəni olan Kültəpə II, Mahta və Ördəkli (şək. 4; 12; 13; 58) (Azərbaycanın Qərb bölgəsi).

Yerləşdiyi yerə görə tarixi Azərbaycan ərazisindəki, habelə Kiçik Asiya, İraq və Mesopotamiyadakı məskənlər iki növə bölünürdü: 1 –təbii təpələrdə və yüksəkliklərdə tikilənlər və 2 – süni təpələrdə tikilənlər.

Birinci növ yaşayış məntəqələri ətraf ərazidə yüksələn təpələri və dağlıq və dağətəyi zonaların terraslarını əhatə edirdi. Onlara çayların yaylalarında tikilmiş Kültəpə II və Şengavit kimi yaşayış məskənlərini aid etmək olar. Üç tərəfdən çay suları ilə əhatə edilən bu məskənlərin dik yamacları var idi, buna görə yalnız ən meylli tərəfdə xəndək qazılmışdı. Yalnız inşaat materialı kimi deyil, düşmənin hücumlarından müdafiə üçün silah kimi istifadə olunan daşla örtülmüş yaylalara üstünlük verilirdi. Məskənin planının konfiqurasiyası toxunulan zirvənin xüsusiyyətlərinə görə müəyyən olunurdu və əksər hallarda yığcam, müdafiə nöqteyi-nəzərdən səmərəli formaya malik idi. Uzununa planlı istehkamlar, məsələn, Kaftarlıqala və Ağqala, daha az tətbiq olunurdu, onların çətin çıxıla bilən zirvələrdə yerləşməsi az sayda müdafiəçi ilə müdafiəni təmin edirdi (şək. 56; 57).

İkinci növ yaşayış məntəqələri düzən yerlərdə, Qarabağ və Muğan vadisi, tarixi Azərbaycanın Cənub və Qərb bölgəsinin düzləri kimi yerlərdə tətbiq olunurdu. Süni təpələr əl altında olan materiallardan, əsasən giltorpaqdan, nadir hallarda daşdan ucaldılırdı. Süni təpələrin ölçüsü müxtəlif idi – 7 metrdən 17 metrədək, məsələn, Şamiram-Altı və Kültəpə, Qaratəpə (Yanıqtəpə), Qaratəpə. Şübhəsiz, yaşayış məskənləri uzun müddət mövcud olduğu halda və mədəni təbəqə çoxaldıqca, belə təpələrin yüksəkliyi getdikcə artırdı. Həmçinin, daha yüksək təpələr də məlumdur: Naxçıvan MR-də Kültəpə I-də mədəni təbəqənin qalınlığı 21 metrdən çox idi.

Süni təpələrdə yaşayış məskənləri üçün planın həndəsi cəhətdən nisbətən düzgün forması səciyyəvidir. Kültəpə I, Əliköməktəpə, Üzərliktəpədə dairəvi, Azərbaycanın Qərb bölgəsindəki Kültəpədə hamar zirvə nisbətən düzbucaqlı şəklində (eni 65x70 m), Qaratəpədə yumurtaşəkilli (40x60 m) idi (şək. 11; 15; 23; 29).

E.ə. VI minillikdən I minilliyə qədər dövr ərzində mal-qara və otlaq uğrunda mübarizə nəticəsində tarixi Azərbaycan ərazisindəki bu yaşayış məskənləri dəfələrlə yenidən tikilir, istehkamlara çevrilir və hər dəfə yeni, daha çox inkişaf etmiş və təkmilləşmiş plan həllərinə nail olurdu. Üzərliktəpə, Qaraköpəktəpə, Kültəpə II, Armudluqala qalaları məskənlərə aiddir. Buna görə yalnız az sayda yaşayış məskənində - məsələn, Ördəkli, Şengavit və s. –qismən bu günə qədər qalmış ilkin formaları izləmək olar (şək. 26; 58).

E.ə. VI-V minilliklərdə yaşayış məskənləri əsasən kiçik idi, bir-birinə çox sıx yerləşən gil evlərdən ibarət idi, məsələn, tarixi Azərbaycan ərazisində Ovçulartəpə, Sərkərtəpə, Əliköməktəpə, Böyük Kəsik, Leylatəpə, Şomutəpə və s. Bu, Kiçik Asiya, İraq və Fələstinin müxtəlif bölgələri üçün də səciyyəvi idi.

Görünür, e.ə. V-IV minilliklərdə məskənlərin möhkəmləndirilməsinə və abadlaşdırılmasına başlanmışdı. Onlar möhkəm yüksək hasarlara, su mənbəyinə və qaladan məcburi çıxış üçün yeraltı keçidə (Şengavit, Bərkqala), daha sistemləşdirilmiş tikintiyə, sabitləşmiş yaşayış və təsərrüfat tikililəri növlərinə malik idi.

İstehkam tikililərinin ucaldıldığı ilk mərhələdə imkan daxilində çox inşaat materialı işlətməmək və işləri sürətləndirmək üçün yaşayış məskənlərinin sakinləri yalnız perimetrik yerləşən mənzillərin kənar divarları arasındakı boşluqları möhkəmlədirirdilər ki, bunun sayəsində yaşayış məskəni ətrafında qapalı halqa yaranırdı. Siklopik Geridarqalanın tikilisi və Ördəkliqalanın bürcü buna nümunə ola bilər (şək. 55; 58), onların divarları sonradan dəfələrlə yenilənmiş və gücləndirilmişdir. Yaşayış binaları ilə əlaqəsi olmayan qala divarları da tikilirdi, onlar müdafiəçilər üçün daha səmərəli və hücumçular üçün daha çətin keçilən yerlərdə nəzərdə tutulurdu. Belə tikililərə Kültəpə II və Qumlax nümunə ola bilər (şək. 41; 55). Qala dərənin kənarında, çıxılması mümkün olmayan dik yamaclarda yerləşdikdə (Çalxanqala, Qarabağlarqala və Qumlaxqala kimi) divarlar yalnız hücumun mümkün olduğu tərəfdən tikilirdi. Belə hallarda istehkamlar ucları dərənin dik yamacının kənarları ilə birləşən qırıq halqa forması alırdı (şək. 41; 55).

Divarların yüksəkliyi yerli şəraitdən asılı idi və çox güman ki, 6-8 m və ya daha çox olurdu. Qarabağlarqalada iri dağ süxurlarından hörülmüş divarın hündürlüyü bəzi yerlərdə 5-6 m olaraq qalmışdır.

Qeyd etmək lazımdır ki, hücum silahları və hücum taktikası təkmilləşdikcə, qalanın möhkəmliyini artırmaq üçün müxtəlif vaxtlarda əsas divarlardan müəyyən məsafədə əlavə müdafiə xətləri tikilirdi. Bəzən belə möhkəmlənmiş müdafiə xətləri bir neçə cərgədə yerləşirdi, məs. Sevan (Göyçə) gölü yaxınlığında Cil kəndindən şimalda yerləşən Daşlıqala (e.ə. III-II minilliklər) (şək. 54) və Naxçıvan MR-də Qazançı kəndi yaxınlığında Qazançıqala (e.ə. II-I minilliklər) (şək. 42). Talinqala (e.ə. XI-IX əsrlər) qalasında beş cərgəli, Qazançıqalada üç cərgəli divarlar var idi, bu, dərin eşelonlaşdırılmış müdafiə sistemi yaradırdı. Dağın zirvəsində süni gölü olan Alagöz dağı yaxınlığında Hacı-Xalin istehkamı buna misal ola bilər. Tikililərin əhatə etdiyi üst sahələrin perimetr boyunca hasarlanması ilə yanaşı, yamaclar da müdafiə xətləri ilə möhkəmləndirilmişdir. Sonuncular təkcə təpəni konsentrik halqalarla əhatə etmir, həm də zirvədən özülə qədər radial istiqamətdə keçərək, halqaları ayrı-ayrı hissələrə bölürdü.

Mövcud qalaların içərisində əlavə müdafiə xətti yaradan ara divarların ucaldılması halları da məlumdur. Səngərqala (e.ə. II minillik), Kültəpə II (e.ə. II minillik), Danalı və Ahudərəqala (e.ə. I minillik) qalalarında belə divarlar ərazini bölmələrə ayırırdı, perimetrik hasardan incə və alçaq idi (şək. 54; 81).

Nisbətən böyük, mühüm strateji əhəmiyyət daşıyan qalalara və ya yaşayış məskəni qruplarına girişlərdə əlavə divarlar hörülürdü. Divarlar giriş yollarında yerləşərək, relyefin dikliyini gücləndirirdi (Ördəkliqala, birinci bürc) və ya hərəkət üçün nisbətən əlverişli ərazidə yolu kəsirdi (Kaftarlıqala) (şək. 56). Sevan (Göyçə) gölünün cənub sahili yaxınlığında düşmənlərdən birgə müdafiə üçün bir neçə yaşayış məskəninin sakinləri tərəfindən tikilmiş müdafiə xəttinin qalığı qalmışdır.

İstehkamların müdafiə gücünü artıran səmərəli tədbirlərdən biri e.ə. IV minillikdə təcrübədə tətbiq edilmiş kontrofors konstruksiyası olmuşdur. Erkən nümunələrdə, məsələn Şengavitdə, kontrforslar hələ sırf müdafiə funksiyası yerinə yetirmirdi. Sistemsiz şəkildə yerləşən bu kontrforslar əsasən gil divarların möhkəmliyi üçün zəruri olan qalınlaşdırma məqsədinə xidmət edirdi. Zaman keçdikcə, kontrforslardan daha məqsədyönlü şəkildə istifadə etməyə başladılar. Onları təhlükəli, düşmənin hücumuna məruz qalan yerlərdə, məsələn, qala qapılarında, müdafiə xəttinin xarici küncündə və çıxıntılı hasarlar kimi yerlərdə yerləşdirilirdilər. Kontrforslarla çox vaxt köhnə istehkamların divarlarını gücləndirirdilər.

Kontrforsların geniş yayılmış forması düzbucaqlı kontrforslar idi. Yarımdairəvi, hazırlanması zəhmətli olan kontrforslar nisbətən gec meydana gəlmişdi (Səngərqala,Nordevani, Oğlanqala, Miandob, Qazançıqala) (şək. 42; 54; 63; 89). Yerləşmə sıxlığı istehkamın təyinatından və ərazinin relyefindən asılı idi. Kültəpə I, Qarabağlarqala, Vayxırqala, Aşağı Korul, Xalatqala, Qalətqala və s. qalalarda kontrforslar hasarın kənar tərəfində nəzərdə tutulmuşdur (59) (şək. 65; 67; 69; 72; 73; 76; 84). Böyük eni olan bu kontrforslar divarı uzununa ahəngli şəkildə növbələşən qısa qalın və uzun incə hissələrə bölürdü.

Kontrforsların ölçüləri müxtəlifdir: tarixi Azərbaycan ərazisində siklopik qalalarda orta hesabla 5x5 metrə çatırdı. Lakin qeyd etmək lazımdır ki, bütöv qala şəklində böyük kontrforslar da tikilirdi (Həsənli – 10x10 m; Bastam – 8x8 m.; Səngərqala 6x12 m., Sufyanqala, Dosoq-Təpə, Qayalıdərə kimi qalalarda), onların zirvəsindən müdafiəçilər düşmən hücumlarını dəf edirdilər (şək. 54; 69; 70; 71; 82; 85-87; 89).

Oğlanqala və Vayxırqala qalalarının bəzi kontrforslarını da döyüş qüllələrinə aid etmək olar, hücum zamanı mühasirəyə alınanlar onların zirvəsindən müdafiə olunurdular. Bəzi qalalarda kontrforslar təkcə qala divarlarının xaricində deyil, daxili hissəsində də tikilmişdir. Bu, qala divarlarını xeyli gücləndirirdi (Gavurqala) (şək. 80).

Cənubi Azərbaycan ərazisində çıxıntılı kontrforsları və qüllələri olan istehkam tikililərinə e.ə. IX-VII əsrlərdə kütləvi şəkildə rast gəlirik. Bu, Haydərə, Danalı, Farəhrəm, Qala oğlu və s. qalalarıdır (59) (şək. 64; 66; 68; 74; 75; 77-79). İstehkam tikililərində kontrforslardan başqa, qalanın möhkəmlənməsində mühüm rol oynayan rizalitlərə də rast gəlirik.

Siklopik tikililərin müdafiə divarlarının uzunluğu yaşayış məskəninin ölçüsünə və ərazinin relyefinə əsasən müəyyən olunurdu. Ən böyük yaşayış məskənlərindən biri olan Ördəkli qalada 3,5-4 m eni olan qalın divarların ümumi uzunluğu 5000 metrə çatırdı.

Böyük qalaların müdafiə qabiliyyətini artırmaq üçün onlara gedən yollarda adi gözlə görünən məsafələrdə yerləşən kiçik istehkamlı məntəqələr tikilirdi, Naxçıvan MR-də Oğlanqala və Qız qalası; tarixi Azərbaycanın Qərb bölgəsində Qala yeri və Bərk qalası; Azərbaycanın Cənub bölgəsində Bastamqala və Aşağı Korul qalalarında buna rast gəlinir (şək. 73), onların ətrafında bir neçə istehkam yerləşirdi, onlarda azsaylı qarnizon olurdu. Bu istehkamlar sonralar da hərbi təyinatını itirmirdi.

Altı min ildən çox müddət ərzində qədim yaşayış məntəqələri müəyyən inkişaf mərhələlərindən keçmişdir. İlk qəbilə yaşayış məskənləri bir dam altında birləşən özünəməxsus məhəllə əmələ gətirən bir-birinə çox yaxın yaşayış və təsərrüfat məskənləri kompleksi idi. Onlardan hər biri müstəqil şəkildə, müvafiq olaraq öz daxili qanunları ilə inkişaf edir və genişlənirdi. Məsələn, Kəlbəcər rayonunda e.ə. III minilliyə aid qədim yaşayış məskəni (şək. 17).

Eyni yerdə bir neçə qəbilə yaşadığı zaman, bu məhəllələr öz aralarında əyri dar keçidlərlə bölünürdü. Sonradan bu keçidlər nisbətən çəkilmiş küçə şəkli almağa başladı. Qarğalartəpə, İlanlıtəpə yaşayış məskənlərində belə bir hal izlənir, burada yaşayış evləri müəyyən qaydada yerləşir. Küçələrin eni əhalinin sayından və istifadə edilən arabaların növündən asılı idi. Şengavitdə küçənin eni 2-3 m., Ördəkli qalada 5-8 m., uzunluğu, demək olar ki, bir kilometr olurdu.

E.ə. III minilliyin ikinci yarısından etibarən tayfaların və tayfa ittifaqlarının birləşməsi və qəbilə zadəganlarının ayrılması şəraitində köhnə siklopik qalalar bərpa edilir və yeniləri tikilirdi. Onlarda mərkəzi yeri bürc tutmağa başladı, bürclər onları əhatə edən məhəllələrdən yüksək olurdu. Məhəllələrin ölçüləri onlarda yaşayan insanların sayı ilə tənzimlənirdi.

Bu dövrdə ərazinin relyef xüsusiyyətlərindən asılı olan bir neçə yaşayış məskəni növünə rast gəlinir. Belə ki, Daşlıqalada konsentrik şəkildə yerləşmiş qala divarları arasında bütün məkanı məhəllələr, Maşkanqalada az meylli təpə yamacları, Ördəkliqalada isə bürcə birləşən düzənlik əhatə edir (şək. 54).

Tarixi Azərbaycan ərazisində ev və ibadət tikililəri məsələsinə toxunarkən qeyd etmək lazımdır ki, o, birotaqlıməkandan mürəkkəb kompleksə qədər uzun inkişaf yolu keçmişdir (şək. 30-35).

İbtidai insanın məskəni olan mağaraların da şəklinin dəyişməsi müəyyən mərhələlərdən keçmişdir. Mağara seçimi zamanı dağ yamaclarında yerləşən, cənuba doğru və külək tutmayan tərəfə yönəlmiş mağaralara üstünlük verilirdi. Bu şəraitdə atmosfer qalıqları tez çəkilirdi və qaya massivi yaxşı isinirdi ki, bu da məkanların quru olmasına və qışda istinin uzun müddət qalmasına şərait yaradırdı.

Daş alətlər təkmilləşdikcə mağaraların biçimsiz məkanları tədricən uzunmüddətli yaşayışa uyğunlaşdırılırdı: kiçik təbii mağaralar genişləndirilir, dərinləşdirilir, onların ayrı-ayrı hissələri keçidlərlə birləşdirilir, tavanlar və döşəmələr hamarlaşdırılırdı. Məskənlərə, xüsusən yaşayış məskənlərinə nisbətən düzgün həndəsi forma verilirdi, girişdə perimetri boyunca daşlardan tikilmiş hasarla əhatə olunan meydança qurulurdu. Yerüstü tikililərdən fərqli olaraq, mağaraların yaşayış məskəninə uyğunlaşdırılması üçün daha az əmək və maddi vəsait tələb olunurdu, onların istismarı daha qənaətli və zəlzələ zamanı daha davamlı idi. Onların dik uçurumlarda yerləşməsi az sayda müdafiəçi ilə daha səmərəli müdafiəni təşkil etməyə imkan verirdi. Metal inşaat alətlərinin meydana çıxması ilə isə yumşaq daş süxurlarda süni məskənlər və təsərrüfat yerləri qazılırdı, onların əksəriyyəti minilliklər boyunca mövcud olmuşdur.

Kənd, şəhər yerlərinin və Qobustanda, Kəlbəcərdə, Naxçıvanda (Gəmiqaya) və Abşeronda qayalarda oyulmuş çoxsaylı rəsmlərin tədqiqi belə bir nəticəyə gəlməyə imkan verdi ki, tarixi Azərbaycan ərazisində qədim yerüstü

məskənlərin ən geniş yayılmış forması dairəvi planlı tikililər idi. Bu formanın ibtidai insanların daxmalarından götürüldüyü ehtimalı istisna deyildir (şək. 17) (60-66).

Dairəvi məskənlər əsasən özək rolu oynayırdı, onlara müxtəlif ölçülü dördbucaqlı məskənlər birləşirdi (şək. 23; 25; 27). Kültəpə I, Üzərliktəpə, Şengavit, Şomutəpə, Leylatəpə, Böyük Kəsik, Göytəpə, Eylər, Yanıqkənd və Azərbaycanın digər yerlərində aşkar edilənlərə bənzər əkinçilik-maldarlıq yaşayış məskənləri Ön Şərqdə, Gürcüstanda və Şimal-Şərqi Qafqazda da yayılmışdı (67-70). Onlar Mesopotamiya və Şərqi Aralıq Dənizinin erkən mədəniyyəti üçün də səciyyəvidir.

Eneolit dövründən məlum olan dəyirmi məskənlərin ölçüləri, çox güman ki, onlarda yaşayan qəbilə ailəsinin sayı ilə müəyyən edilirdi. Evlərdə onların diametri 4 metrdən 6,5 metrə, Kültəpə I və Şengavitdə 6 metrdən 8 metrə qədər çatırdı. İnşaat texnikasının və istifadə olunan materialların inkişaf səviyyəsinə müvafiq olaraq, bu növ binalar, çox güman ki, bu ölçülərlə məhdudlaşırdı. Böyük yaşayış sahəsinə malik olmaq zərurəti yarandıqda, onun yanında eyni, amma daha kiçik ölçülü evlər tikirdilər. Buna Kültəpə I, Şomutəpə, Ördəkli, Şengavit, Sərgərtəpə və digər yaşayış məskənlərinin (şək. 5; 26; 28) Cənubi və Şimali İkiçayarası əkinçilik tayfalarının e.ə. IV-III minilliklərə aid tikililərini xatırladan evləri nümunə ola bilər. Onlar böyük və kiçik otaqlardan ibarət idi ki, bu da onların böyük patriarxal ailənin ümumi təsərrüfatında birləşən müxtəlif ailələrə məxsus olduğunu göstərir.

Daş bünövrə üzərində daş və ya gil divarlardan hörülmüş dəyirmi evlər konus şəklində idi, mərkəzdən daş altlığın üzərindəki taxta dirəklə dəstəklənirdi. Damın üstündə işıq-tüstü dəliyi açılmışdı, otağın mərkəzində isə taxıl üçün çuxurlar və bişirilmiş gildən hazırlanmış, oyma naxışlarla bəzədilmiş daşınan təsərrüfat və ibadət ocaqları yerləşirdi. Divar boyunca 0,5 metr hündürlüyündə gil oturacaq və ya taxt yerləşirdi (Şengavit). Divarlar adətən gillə malalanırdı. Evin döşəmələri bayırdakı yer səviyyəsindən bir qədər hündürə qaldırılırdı, bunun üçün əsasən şərq tərəfdə yerləşən kiçik otağın girişinin önündə bir-iki pillə qoyulurdu. Döşəmələr gildən hazırlanırdı, Şengavitdə müstəsna hal olaraq xırda çay daşından döşənmişdir, üzəri çiy kərpiclə örtülmüş, üstünə gil sürtgü çəkilmişdir. Bəzən interyerlər boyanırdı: Əliköməktəpə və Sərgərtəpədə divarlar boyanmışdı.

Dairəvi evləri müxtəlif təsərrüfat təyinatlı dördbucaqlı otaqlar əhatə edrdi. Onların bəziləri yerin bir qədər dərinliyində yerləşirdi və onlarda qalan heyvan qalıqlarından göründüyü kimi, pəyə kimi istifadə olunurdu (Üzərliktəpə) (şək. 29). Adətən belə otaqların sayı iki-üç, bəzən daha çox olurdu. Təsərrüfat yerlərinin ölçüsü müxtəlif – 3-4 metrdən 10 metrə qədər olurdu.

Kültəpə I, Şomutəpə, Şengavit, Göytəpə, Leylatəpə, Eylər, Yanıqtəpə, Üzərliktəpə və s.-də mədəni təbəqələrin tədqiqi göstərdi ki, hələ eneolit dövrünün başlanğıcından tarixi Azərbaycan ərazisində tayfaların inşaat işi o dövrə görə kifayət qədər yüksək inkişaf səviyyəsinə malik idi. Həmin vaxtlar yalnız mənzil və təsərrüfat yerləri üçün təkmilləşmiş memarlıq formaları və onların paylanması qaydası deyil, həm də yararsız hala düşmüş gil tikililərin ayrı-

ayrı hissələrinin müntəzəm olaraq bərpası tətbiq olunurdu ki, bu da yaşayış məskəninin yeni, daha yüksək abadlaşdırma tələblərinə uyğun olaraq yenidən planlaşdırılmasının həyata keçirildiyini göstərir.

Ən qədim zamanın ibadət tikililəri haqqında çox az məlumat vardır. Kiçik evlərdə və digər qədim məskənlərdə tapılmış ibadət ocaqlarından, kiçik tanrı heykəllərindən və saxsı qablardan göründüyü kimi, dini mərasimlər əsasən qəbilə icmasının tikililər kompleksinin ən böyük dairəvi otaqlarında həyata keçirilirdi.

E.ə. IV-II minilliklərə aid Pirmalai və Babadərviş ibadətgahları maraq doğurur.

Bu iki yaşayış məskənində maraqlı və mürəkkəb kompozisiyaya malik mehrabı olan iki ibadət tikililərinin aşkarlanması çox mühüm əhəmiyyət kəsb edir.

İnteryerdə mehrabların yerləşməsi və onların tutduğu yer eyni tanrı üçün tikilən mehrabların həlli üçün səciyyəvi olan vahid həcm-məkan üsuluna dəlalət edir.

Mehrabların və onların yerləşdiyi otaqların məkanının çoxplanlı olması həmişə interyer kompozisiyasına dərin düşünülmüş bədii ifadə verirdi. Otaqların pəncərəsi yox idi, kiçik mərasim ocağı və damda tüstü çıxması üçün açılan dəlikdən işıqlanırdı. Bundan başqa, çox güman ki, ibadət zamanı məşəllər yandırılırdı, onlar daxili məkanı müxtəlif yerlərdən işıqlandıraraq, mehrablara daha mistik məna verirdi. Onlar sanki əbədi qaranlıq üçün yaradılmışdı və qəflətən işıq düşdükdə, mehrabların çoxplanlı həcmi və rənglərinin ahəngi həddindən artıq kəskin, amma təsirli olurdu.

Zalın müxtəlif nöqtələrindən ibadət edənlərə gözlənilmədən həm mehrablarda, həm də Babadərviş və Pirmalai mehrablarının divarlarının səthini bəzəyən rəmzi naxışların dərin relyeflərində işıq və kölgələrin ahəngi açılırdı. Forma və rəng uyğunluğu yaranırdı, bu da məkanda bədii ahəng əmələ gətirirdi.

Beləliklə, ən qədim binaların tikilməsinin texniki üsulları, siklopik tikililərin şəhərsalma prinsipləri, yaşayış məskənlərinin və ibadət tikililərinin kompozisiya və konstruktiv xüsusiyyətləri tarixi Azərbaycan ərazisində son tunc və erkən dəmir dövründə memarlığın inkişafında böyük rol oynamışdır.

Yuxarıda qeyd edildiyi kimi, Qədim Şərqdə formalaşmış sinfi cəmiyyət e.ə. III minilliyin başlanğıcında Mesopotamiyada, e.ə. II minillikdə isə tarixi Azərbaycan ərazisində quldarlıq dövlətlərinin yaranmasına gətirib çıxarmışdır, burada inkişaf etmiş mədəniyyətə malik kuti, lullubi, kassit və manna tayfa birlikləri yaranmışdır. Sonuncular tarixi Azərbaycanın cənub bölgəsini əhatə edirdilər.

# QULDARLIQ DÖVLƏTİNİN YARANMASI DÖVRÜNDƏ AZƏRBAYCAN MEMARLIĞI (e.ə. IX-VI ƏSRLƏR)

E.ə. I minilliyin əvvəllərində Van gölü bölgəsində paytaxtı Tuşpa olan Urartu hərbi-quldarlıq dövləti yarandı. Assuriyalıların şimala doğru irəliləməsinə mane olan Urartulular tədricən tarixi Azərbaycanın Qərb bölgəsini işğal edərək, şimalda Çaldır və Sevan (Göyçə) gölləri və Alagöz dağı, habelə qismən Urmiya gölünün Qərb sahili, Manna çarlığı ərazisi ilə həmsərhəd olur. Urartu dövləti I Argişti, II Sardur və I Rusanın çarlığı dövründə ən böyük qüdrətinə nail olmuşdur. 200 ildən çox mövcud olan Urartu tədricən Assuriya ilə, daha sonra isə mannalılarla mübarizədə qüdrətini itirərək, e.ə. 585-ci ildə tamamilə tənəzzül etdi. Daha sonra Manna, skif və Midiya qoşunları ittifaqının zərbələri altında paytaxtı Tuşpa olmaqla onun mərkəzi hissəsini özünə tabe etdi.

Qeyd etmək lazımdır ki, yerli tayfaların mədəniyyəti ilə, xüsusən vaxtilə qüdrətli dövlət olmuş Mitaini əhalisi ilə genetik əlaqələri olan Urartulular yeni mədəniyyət yaratdılar. Bu mədəniyyətin təsiri nəinki Kiçik Asiya və Mesopotamiya ərazilərinə yayıldı, həm də tarixi Azərbaycanın qədim ərazilərində yaşamış tayfaların inkişafında öz əksini tapmışdı.

Onu da qeyd edək ki, Urartunun hökmranlığı dövründə bütün incəsənət növlərindən ən çox memarlıq inkişaf etdi. Memarlıq-arxeoloji tədqiqatlar və çoxsaylı Urartu və Assur mixi yazılarının tədqiqi Urartu dövləti ərazisində və onun işğal etdiyi ərazilərdə çoxsaylı, müxtəlif təyinatlı tikililəri olan (dünyəvi və dini binalar, qaya məkanları, xatirə abidələri, mühəndislik tikililəri – yollar, körpülər, suvarma kanalları, akveduklar və tunellər) qalalar və şəhərlər tikildiyini göstərir.

Qeyd etməliyik ki, Urartu xalqının memarlıq irsi hələ hərtərəfli tədqiq edilməmişdir. Doğrudur, son onillər ərzində Türkiyə ərazisində Urartu istehkamlı məskənlərinin və qalalarının, məsələn, Ürek qalası, Papaz qalası, Meydan təpə, Avzini qalası, Enzaf qalası və s.-nin tədqiqi kifayət qədər uğurla həyata keçirilir (şək. 97-107). Azərbaycanın Qərb bölgəsi ərazisində də Urartu qalaları ilə bağlı arxeoloji qazıntılar aparılmışdır, bu, Altın təpə, Qayalı dərə, Səngərqala, Ağqala və s.dir (şək. 59; 61; 62). Urmiyayanı ərazilərdə bir neçə Urartu qalası və şəhəri – Fərahramqala, Qala Ziyah, Haydari qala və s. qazılmış və tədqiq edilmişdir (şək. 83; 88; 90-96). Naxçıvan MR-də (şək. 44; 51; 52) və Azərbaycanın Şimal-Qərb bölgəsində (cəd...) son tunc və erkən dəmir dövrünə aid istehkamlı məskənlərin aşkar edilməsi zamanı Azərbaycan alimləri böyük elmi-tədqiqat işləri həyata keçirmişdir (5; 9; 34; 59). Buna görə nəzər saldığımız dövr üzrə materialların izahı əsasən tarixi Azərbaycan və Şərqi Anadolu (Türkiyə) ərazisində araşdırmalar aparan bu alimlərin məlumatlarına əsaslanır.

İnşaat işinin vəziyyəti haqqında danışarkən qeyd etmək lazımdır ki, e.ə. IX-VI əsrlərdə inşaat işlərinin həyata keçirilməsi ən qədim dövrə nisbətən daha yüksək inkişaf səviyyəsinə malik idi.

Urartu dövlətinin hərbi idarəetmə sistemi inşaatın, xüsusən Urartu çarlarının və onların canişinlərinin tapşırığı ilə həyata keçirilən tikililərin və monumental binaların tikintisinin təşkilini müəyyən edirdi.

Kiçik həcmli və böyük əmək tələb etməyən kütləvi və sıravi tikililərin tikintisi işləri adətən bir inşaat mövsümündə, onların sahibinin ideyası və qüvvəsi hesabına, ola bilər ki, az sayda köməkçi dəvət edilməklə həyata keçirilirdi.

Böyük obyektlərdə vəziyyət fərqli idi. Dövlətin siyasi quruluşunu nəzərə alaraq, ehtimal etmək olar ki, belə binaların tikintisinə hökmdarların təyin etdiyi xüsusi şəxslər, bəlkə də hərbi birləşmələrin rəisləri rəhbərlik edirdi. Çox güman ki, bu şəxslər yalnız tikintinin keyfiyyətinə görə deyil, həm də inşaat müddətinə görə məsuliyyət daşıyırdı. Tikinti müddəti obyektin ölçülərinə, təyinatına və inşaat müddətinə əsasən müəyyən olunurdu. Alagöz qala, Sufyan, Mahmudabad, Qala Qauxar və digər kiçik qalalar tez – bir-iki ildə tikilirdi (şək. 72; 83; 89). Bastam, Həsənli, Qanlıqala, Çarxabqala, Qalatqala kimi böyük kompleks təşkil edən daha böyük qalalar isə 5 il və daha çox müddətə tikilirdi. İnzibati-ictimai təyinatlı böyük istehkamlar, Urartu dövlətinin təsərrüfat və ibadət mərkəzləri – Musasir (hazırda Ardın), Menuaxinili (Daşburun) və Argiştixinili (Kürdüklüqala) – müqayisə olunmaz dərəcədə daha uzun müddətə tikilirdi. Onlar qədim şərq istibdad hakimiyyətinin analoji şəhərləri kimi, onillər boyunca abadlaşdırılır və genişləndirilirdi.

Təəssüf ki, bu binaları tikən memarlar haqqında məlumat qalmamışdır, bu da bizi Qədim Misir memarları haqqında olduğu kimi, onların ictimai mövqeyi haqqında təsəvvür formalaşdırmaq imkanından məhrum edir. Lakin Urartu çarlarının, xüsusən I Argişti və II Sardurun mixi yazılarının məzmunu elmi maraq doğurur. Bu yazılarda onların həyata keçirdikləri böyük inşaat işləri sadalanır (15, s. 8, 9). Bu, Urartu çarlarının təkcə gələcək tikililərin yerini seçmədiyini, həm də müəyyən mənada onların memarlıq və mühəndislik ideyalarının müəllifi olduqlarını ehtimal etməyə əsas verir (65).

Urartunun hökmranlığı dövründə monumental tikililərin, xüsusilə böyük komplekslərin tikintisi çox sayda icraçı tələb edirdi. Onlar adətən fəth edilmiş xalqların və Urartu dövlətinin tərkibinə daxil edilmiş dövlətlərin sakinlərindən yığılırdı. Bu dövlətlərin üzərinə müəyyən xəracdan başqa, hərbi və inşaat mükəlləfiyyətləri də qoyulurdu. Bu, mixi lövhələrdəki məlumatlarda təsdiqini tapır. Həmin lövhələrdə deyilir ki, tikilən şəhərlərin, qalaların, kanalların və digər tikililərin inşaatına çoxsaylı fəhlələr cəlb edilmişdi. Tuşpa şəhərinin (Türkiyə) (şək. 101-104) tikintisi işlərini müxtəlif yerlərdən gətirilmiş daş, ağac, mis və dəmir emalı ustaları yerinə yetirirdi.

I Argiştinin Van qayasındakı mixi yazısı da maraq doğurur. Bu yazıda Qanlıqala şəhərinin salınması haqqında qeydlə yanaşı, onda Şimali Suriyada yerləşən Xate və Tsupani ölkələrindən ələ keçirilmiş 6600 ailəsi olmayan əsir döyüşçünün məskunlaşdırıldığı bildirilir (71; 72). Bu əsirlər Qanlıqala inşaatını həyata keçirən əsas qüvvə idi (73, s. 258). Əsirlərin konkret olaraq hansı öhdəlikləri yerinə yetirdiyi məlum deyil. Onların asılı vəziyyətinə əsasən ehtimal etmək olar ki, onlar əsasən yardımçı işlərdə, daha doğrusu inşaat materiallarının hazırlanmasında və nəqlində, torpaq işlərində və s. məşğul idilər.

Şübhəsiz, əsirlərə nəzarəti yerli tayfalardan inşaat mükəlləfiyyətlərini yerinə yetirən ustalar həyata keçirirdi, onların başında Urartu mütəxəssisləri və hərbi rəisləri dururdu.

Urartulular dövründə inşaatın, xüsusən böyük və əsaslı obyektlərin maddi təchizatı ən mühüm təşkilati problemlərdən biri idi. Yaxşı nəqliyyat vasitələrinin olmaması, dərə-təpə ərazilərdə daşıma çətinliyi və xüsusən iqtisadi səbəblər yerli inşaat materiallarından, əsasən daş, gil və ağacdan istifadə etmək zərurətinə gətirib çıxarırdı.

Daş süxurlardan, bir qayda olaraq, Azərbaycan ərazisinin hər yerində olan bazalt, qranit, əhəngdaşı və tuf daşından, müxtəlif növlü, bərklikli və rəngli daşlardan istifadə olunurdu. Görünür, əvvəlcə inşaatçılar daşın fiziki-mexaniki xüsusiyyətləri ilə tanış deyildilər və ona görə eyni hörgüdə həm bazaltdan, həm tuf daşından istifadə edirdilər. Sonradan bazaltdan daha məsul yerlərdə - bünövrələrdə, daş hörgünün aşağı cərgələrində istifadə etməyə başladılar. Bir sıra Urartu qalalarında: tarixi Azərbaycan ərazisində yerləşən Bastam, Həsənli, Fareahram, Oğlanqala, Aznabürcqala, Eylərqala, Nur-Bəyazit, Kolagirənqala və s.-də (şək. 42; 43; 64; 69; 85) buna rast gəlinmişdir. Bazaltdan fərqli olaraq, emalı asan olan əhəngdaşı və tufdaşından müxtəlif memarlıq detallarının – taxta sütunların altına dəyirmi bazaların, taxta lövhələrin dayaqlarının, bəndlərin hazırlanmasında istifadəyə üstünlük verirdilər.

Kütləvi tikililərin bünövrələri, kürsülükləri və divarları üçün daşı kobud şəkildə qırırdılar. Nadir hallarda, adətən monumental tikililərdə kub şəkilli daş bloklardan istifadə olunurdu, məsələn, Bastam və Həsənli məbədlərində, Menuaxinilidə böyük binada, II Sardurun qala divarında və Van bürcündə (Tuşpa) (Türkiyə) (şək. 101; 104). Səliqəli yonulmuş blokların üz səthlərinin emal edildiyi hallar məlumdur. Bu daşlardan Çarxabqala – Teyşebaini bürcünün üst mərtəbəsinin tacqoyma pərvazı və pilonları, Qanlıqalada məbəd hörgüsünün aşağı iki cərgəsi bu daşlardan hörülmüşdür. Daşların ölçüləri müxtəlifdir. Nisbətən kiçik daşlarla yanaşı, kifayət qədər böyük daşlardan da istifadə olunurdu: Həsənli, Bastam (Azərbaycanın Cənub bölgəsi), Çarbaxqala (Azərbaycanın Qərb bölgəsi), Oğlanqala (Naxçıvan MR) və Van-Tuşpa (Şərqi Anadolu – Türkiyə) kənar divarlarının hörgüsündə iki metr və daha çox uzunluğu olan daşlar aşkarlanmışdır (şək. 42; 59; 69; 85; 101).

Qırmızı və sarı rəngli gil yaxınlıqda çıxarılırdı. Gildən monumental tikintidə geniş tətbiq olunan çiy kərpic və qatışıq hazırlanırdı.

Çiy kərpicin standart ölçüləri və düzgün həndəsi forması onun daş qəliblərdə hazırlandığını göstərir. Çiy kərpicin möhkəmliyini artırmaq üçün yağlı gilə qum və ovulmuş saman əlavə edirdilər, kərpic səthlərdə və qırıq yerlərdə bunun izləri görünür. Kərpiclər dördbucaqlı və düzbucaqlı kəsimə və nisbətən böyük ölçülərə malik idi. Çox güman ki, ilkin olaraq kərpic standartı yox idi, belə ki, böyük, tarixinə görə üst-üstə düşməyən tikililər müxtəlif kərpiclərdən tikilmişdir. Qanlıqalada dördbucaqlı kərpiclərin ölçüləri 47,4x47,4x12,5 sm, düzbucaqlı kərpiclər isə 47,4x32,3x12,5 sm.; Kültəpə II-də – 40x40x11, düzbucaqlılar – 42x16x12 sm.; Qırmızıtəpə - Teyşebani qalasında və Alagöz qalasında isə müvafiq olaraq 51,8x51,8x14,9 və 51,8x35x14,9 sm idi. Çiy kərpiclərin

ölçülərinin dəyişməsi, çox güman ki, kərpicin qurutma zamanı sıxılmasından asılı idi. A.V.Sivkovun araşdırmalarını da qeyd etmək lazımdır, o, Urartuluların uzunluq ölçüsü vahidini – qulacı 51,8 sm olaraq müəyyən etmişdir. O, ölçüsünə görə Nippur qulacı ilə eynidir (74). Ola bilər ki, Urartuluların qulacı dövlət ölçü vahidi kimi təsdiq etməsindən sonra o, onların inşaat təcrübəsində tətbiq edildi; ona əsaslanan memarlıq nisbətlərinin qurulmasının modul sistemi Urartu memarlığının bir sıra əsərlərində müəyyən edilmişdir.

Gil qatışıqdan divarların kiçik və kobud qırılmış daşlardan (Bastam, Danalı qalası) və çiy kərpicdən (Kültəpə II, Üzərlik təpə) hörülməsi zamanı özlü maddə kimi istifadə olunurdu (şək. 29; 41). Gil, bəzən xırda ovulmuş samanla qarışdırılmış mala (Qala Qafur qalası) (şək. 91), suvaq şəklində hazırlanırdı, kobud hörgünün nahamar yerləri onunla hamarlaşdırılırdı, duru mala qatışığını isə yaşayış evlərinin döşəmələrinə çəkirdilər. Qanlıqalanın parad zallarında malalanmış divarlar qalın ağartma təbəqəsi ilə örtülür, onların üzərinə naxışlar çəkilirdi.

Çınqıldan, çay və karxana qumundan inşaat yerinin yaxınlığında mövcud olub-olmamasından asılı olaraq, məhdud miqdarda istifadə olunurdu.

İnşaat taxtaları yarpaqlı və iynəyarpaq ağac növlərindən hazırlanırdı. Bu dövrə aid bir sıra abidələrdən götürülmüş taxta qalıqlarının tədqiqi nəticəsində onların qovaq, göyrüş, cökə, palıd və şam ağacına aid olduğu müəyyən edilmişdir. İstifadə olunan ağac materiallarının böyük hissəsini təşkil edən şam ağacı, görünür, gətirilmə idi, belə ki, bu ağacın gövdəsindən başqa heç bir hissəsi aşkarlanmamışdır. Oduncaqdan şalban və düzbucaqlı şəklində tirlərin, taxtaların, şalban yarının və kötüklərin kəsilməsində istifadə olunurdu, onlardan isə sütunlar, bəndlər, örtülər, qapılar, pilləkənlər, məişət əşyaları hazırlanırdı.

İkinci dərəcəli inşaat materiallarından qamışdan geniş istifadə olunurdu, xüsusən örtülərdə. Metal, əsasən dəmir və tunc qapı dayaqlarının və qapı panellərini birləşdirmək üçün istifadə olunan Assuriya "ziqqatisi" tipli mıxların (şək. 36; 37) hazırlanmasına gedirdi (71, s.58). Bu mismarların başlarının özünəməxsus forması onlardan eyni zamanda qapı və darvazaların dekorativ bəzək elementi kimi də istifadə olunduğunu göstərir.

Həmin dövrün inşaat alətləri haqqında çox az şey məlumdur. Onlar haqqında Urartu dövrünə aid abidələrdə arxeoloji qazıntılar prosesində aşkarlanmış tək-tük nümunələr və onların emalı zamanı daş və ağacın səthində qalan izlər əsasında təsəvvür formalaşdırmaq olar. Şübhəsiz, alətlərin keyfiyyəti yüksək idi, bunun sayəsində onlardan başqa ölkələrdə də istifadə edirdilər. Mingəçevir qəbirstanlığında və Dolanlar kəndində (Dağlıq Qarabağ), habelə Şimali Qafqaz (Kelermes) və Dnepryanı (Kiyev yaxınlığında) kurqanlarında dəmir alətlər aşkarlanmışdır (75-77). Alətlər, xüsusən bazalt kimi möhkəm daş süxurların emalında istifadə olunan alətlər möhkəm dəmirdən hazırlanırdı. Möhkəm alətlər olmadan qaya massivlərində kanal üçün tunel qazılması mümkün olmazdı. İrəvan rayonunda (müasir adı) Çarbaxqala yaxınlığında andezit-bazalt süxurda tikilmiş Dalmin və Umeşini kanalları belədir (şək. 36; 37).

Daşlarla iş üçün əsas alətlər dəmir ling, gürz, çəkic, tiyə və qələm idi. Linglə daşları qırır, ağır blokları döndərirdilər. Möhkəm süxurların hasil edilməsi

üçün çəkiclə əllə oyulmuş dəliklərə çaxılan tiyə və qələmdən istifadə edirdilər. Daşyonma işlərində gürz və çəkiclə blokları kobud şəkildə qırırdılar, qələmlə kiçik çıxıntıları düzəldir, buçarda (iki zərbə müstəvisi olan çəkic) iləisə daşın üz tərəfinin səthini hamarlaşdırırdılar.

Gil əldə etmək üçün toxalardan istifadə olunurdu, onun dəmir ucluğu Çarbaxqala şəhər yerindəki evlərdən birində aşkar edilmişdir (71, s.40). Çarxabqala bürcündə bir sıra məskənlərdə qazıntılarda zərbə alətlərindən istifadə etmədən bərk süxurlarla işləməyə yararlı olan bir neçə üçbucaq şəklində, uzun saplı dəmir süngü bel tapılmışdır (71, s.39). Çalovşəkilli və düzbucaqlı bellərdən istifadə olunub olunmadığı məlum deyil, belə ki, tapılmış nümunələrin işlək səthinin eninin az olması (6 sm) inşaatda onlardan istifadənin mümkün olmadığını göstərir. Qazıntılar zamanı tapılmış dəmir əmək alətləri arasında çəngəlləri – üçbaşlı əsaları qeyd etmək lazımdır, onlardan yalnız kənd təsərrüfatında deyil, görünür, həm də samanlı kərpiclərin hazırlanmasında istifadə olunurdu (şək. 37).

Dülgərlik və xarratlıq işləri əsasən balta və kərki ilə yerinə yetirilirdi. Qırmızıtəpə bürcündə aşkar edilmiş taxta məmulatların bu günə qədər qalmış parçalarından göründüyü kimi, kiçik işlər üçün iskənələrdən, müxtəlif formalı kəsici alətlərdən və qədim zamanlardan məlum olan mişardan istifadə edirdilər. Ondan təkcə ağacın mişarlanması üçün istifadə olunmurdu. Tapılmış mişarların kiçik dişləri var idi buynuzdan məmulatların hazırlanması üçün nəzərdə tutulurdu. Qalanın bürcündə onların hissələri aşkarlanmışdır (şək. 37). Qazıntılar zamanı tapılmış, xətkeş və pərgardan istifadə edildiyini göstərən düzgün rombşəkilli və dairəvi oyuqlarla bəzədilmiş taxta mebel detalı maraq doğurur.

İnşaatda istifadə olunan müxtəlif vasitələr haqqında, demək olar ki, heç nə məlum deyil. Ehtimal etmək olar ki, urartulular materialların uzaq məsafələrə daşınması üçün təkərli nəqliyyat vasitəsindən istifadə edirdilər. İnşaat sahəsi içərisində ağır daşların və səpələnən materialların və suyun daşınması üçün xərəklərdən və müxtəlif vasitələrdən (səhəng, dəri və ipək torbalar və s.) istifadə edirdilər. Yükü yüksəkliyə inşaat müddətində hazırlanmış daşınan və müvəqqəti nərdivanlarla qaldırırdılar. Göründüyü kimi, tamamilə müasir tipli dik, 600-800 üfiqi meylli daşınan nərdivanlar və asma nərdivanlar bir nəfərin gücü yetəcək ağırlığın qaldırılması üçün nəzərdə tutulurdu. Xərəklərlə daşınan yük üçün bir-birinə bağlanmış tirlərdən nisbətən meylli (400 az meylli) körpülər qurulurdu, çox güman ki, onlar düz aralardan qalxmağı asanlaşdıran tamasalarla təchiz edilmişdi. Kənar körpülər, çox güman ki, qurulmurdu, belə ki, kütləvi inşaatda binaların hündürlüyü çox deyildi, monumental tikililərdə isə divarların böyük eni inşaatçılara divarın üstündə duraraq hörgünü həyata keçirməyə imkan verirdi.

Tarixi Azərbaycan ərazisində qazıntılar nəticəsində aşkarlanan Urartu abidələrinin planlı şəkildə tədqiq edilməsi son tunc və erkən dəmir dövründə inşaat konstruksiyaları haqqında müəyyən təsəvvür formalaşdırmağa imkan verir.

Təkcə kütləvi inşaatda deyil, monumental tikintilərdə də bir qayda olaraq, bütöv bünövrələr qurulmurdu. Kiçik tikililərin divarları bilavasitə torpa-

ğın üzərində, nadir hallarda döşəmə yer səviyyəsindən aşağıda olmalıdırsa, yerdə qazılmış kiçik çökəkliklərdə tikilirdi. Monumental tikililərdə divarlar nisbətən hamarlaşdırılmış yer səthinə qoyulurdu. Özül qayalıq olduqda kiçik nahamarlıqlar yonulurdu, daha böyükləri isə bir növ bünövrə rolunu oynayan, divarının əsasının özülünü təşkil edən, eni ondan bir qədər çox olan hörgü ilə düzəldilirdi (şək. 60). Böyük enişlərdə divarlar qayanın hamarlaşdırılmış çıxıntılarında hörülürdü, onların üst nişanəsi divar özülünün ayrı-ayrı yerlərinin müxtəlif səviyyələrini müəyyən edirdi (Bastam, Çarxabqala, Oğlanqala bürcləri). Qonşu otaqların səviyyələri arasında fərq böyük olduqda ayırıcı divarın üz səthi alçaq tərəfdən maili tikilirdi, dayaq divarlarında olduğu kimi (Bastam və Çarxabqala yamacındakı evlər) (şək. 59).

Bir qayda olaraq, bünövrə rolunu gil qatışığın üzərində kobud qırılmış daşdan düzəldilmiş 1,5 m hündürlüyündə kürsülük oynayırdı. Onun üstü otağın döşəməsinin səviyyəsindən yüksək olduğu üçün o, çiy kərpic divarların aşağı cərgələrini təkcə yerdən nəm çəkməkdən deyil, həm də təsadüfi mexaniki zədələrdən qoruyurdu.

Həsənli, Bastam, Çarxabqala, Qanlıqala, Alagözqala kimi yaşayış məskənlərində birmərtəbəli kütləvi tikililərin divarları əksərən kobud şəkildə qırılmış daşdan quru hörgü ilə, nadir hallarda gil qatışıq və maladan istifadə ilə tikilirdi. Azərbaycan ərazisində inşaat təcrübəsində, indi də olduğu kimi, hörgü üz tərəfdən başlayırdı, bundan sonra daxili boşluq doldurulurdu. Binanın xarici küncləri və qapı oyuqları iri, daha səliqəli qırılmış daşlarla çərçivələnirdi. Hörgü cərgələri nisbətən şaquli döşənirdi. Həm xarici, həm də daxili tərəfdən hörgünün eyni cərgəsinin üst səviyyələri həmişə üst-üstə düşmürdü, belə ki, eyni cərgədə istifadə olunan daşlar eyni deyildi. Divarların eni tikilinin hətta cüzi seysmik təkanlar zamanı möhkəmliyini təmin edirdi.

Həmçinin, müxtəlif hörgü sistemlərindən istifadə olunurdu, məsələn, Qırmızıtəpə ətrafında yerləşən mənzillərdə. Onların eni 50 sm olan divarları gil qatışıq üzərində çay daşından hörülmüşdür, buna görə, bizə elə gəlir ki, onların hündürlüyü az idi – 2,5 metrdən çox deyildi. Monumental və müdafiə tikililərinin divarları, qonşu Hett, Assuriya, Urartu ölkələrində olduğu kimi, günəşdə qurudulmuş və ya çiy gil kərpiclərdən tikilirdi. Azərbaycan ərazisində inşaatda çiy kərpiclərdən, yuxarıda qeyd edildiyi kimi, hələ neolit dövründə, Göytəpə, Kültəpə I, Kültəpə II, Şomutəpə, Sarıtəpə, Yanıqtəpə, Şengavit və s. kimi tikililərdə istifadə olunurdu. Son tunc və erkən dəmir dövrünün Həsənli, Çarxabqala, Kürdüklüqala kimi bütün böyük mərkəzlərində şəhər divarlarının hündürlüyü 3,5-5 m, Qanlıqala, Bastam, Qırmızıtəpə, Danalı bürclərində isə 2 metrdən 3,5 metrə qədər dəyişirdi, bu da dördbucaqlı və düzbucaqlı kərpiclərin yerləşməsi sistemi ilə müəyyən olunurdu.

Arslanqala, Həsənli, Gavurqala, Kültəpə II, Üzərlik Təpə və s.-də çiy kərpicdən qala divarlarının yaxşı qalmış ayrı-ayrı hissələri hörgü sistemini müəyyən etməyimizə imkan vermişdir. Çay daşı və daş qırıqlarından hörülmüş alçaq kürsülük istisna olmaqla, qala divarlarının və qüllələrin üst hissəsi kərpicdən hörülmüşdür. Qala divarları kərpicdən səliqə ilə tikilirdi, kərpic hörgü şəklində düzülürdü. Kərpiclərin yerləşmə qaydası və işlərin həyata

keçirilməsi ardıcıllığı bəndlərin hündürlük, uzununa və eninə istiqamətlərdə müvafiq şəkildə hörülməsini təmin edirdi. Sonuncuya ya hörgü sisteminə görə eyni növ cərgələrin yerdəyişməsi, yaxud da növbələşən cərgələrdə dördbucaqlı və düzbucaqlı kərpiclərin ahənginin dəyişdirilməsi sayəsində nail olunurdu. Hər cərgədə kərpiclər və cərgələr öz aralarında şaquli şəkildə duru gil qatışıqla 2-4 sm enində doldurulurdu, bu, divarı monolitə çevirirdi. Qədim Azərbaycanda iri formatlı dördbucaqlı və düzbucaqlı kərpic (40x40x10; 42x16x12) uzun əsrlər boyunca əsas inşaat materiallarından biri olmuşdur (34, c.142-143; 78, c.138; 79, c.121).

Tarixi Azərbaycan ərazisində çiy kərpicdən istifadə əsasən yerli xammal resurslarının bolluğu ilə izah olunur.

Divarların hündürlüyü 12 metrdən çox deyildi. Bununla belə, eni qalın olmasına baxmayaraq, qalanındirəkarası uzunluğu çox qısa idi. Qala divarları ritmik yerləşən kontrforslar və iri qüllələrlə gücləndirilmişdi. Assuriyada (Dur-Şarrukin) və Urartuda (Tuşpa) da analoji qala divarları sisteminə rast gəlirik.

Həm tarixi Azərbaycan ərazisində, həm də bütün Qafqazda və Orta Şərq ölkələrində istehkam tikililərində perimetrik qala divarlarının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilirdi. Onların məsul yerlərdə və künclərdə qüllələri var idi, bu qüllələr arasındakı boşluq kontrforslarla, eni eyni olan çəpər dirəkləri ilə gücləndirilirdi. Kontrforslar təkcə qala divarlarının bu və ya digər hissəsini gücləndirmirdi, həm də özülü dağılmadan qoruyurdu. Qanlıqala və Çarxabqala (Azərbaycanın Qərb bölgəsi) qalalarında kontrforslar bir-birindən 8-10 m; Qala Ziyah, Haydari qala, Bastam, Xalatqala və digər (Azərbaycanın Cənub bölgəsi) qalalarda 6-10 m məsafədə yerləşirdi. Bastam, Həsənli və Çarxabqala qalası daha güclü idi. Məsul yerlərdə və künclərdə 12x12 m; 11x11 m; 10x10 m ölçüsündə qüllələri var idi (şək. 53; 69; 85).

Kobud qırılmış daşlardan və xüsusən çiy kərpiclərdən hörülmüş divarlar kiçik pərvazlarla yağışla yuyulmadan və aşınmadan müdafiə olunurdu. Qırmızıtəpə bürcündə xalis yonulmuş bazaltdan pərvaz ahəngdar olaraq bir-birini əvəz edən çıxıntı və oyuqlara bölünmüş taxçalardan və hasarlardan ibarət idi (şək. 59).

Ayrıca duran dayaqlar sütun və pilon şəklində tikilirdi. Taxta sütunlardan kütləvi tikintilərdə, yaşayış evlərində və Qalareyalarda gil-saman örtünün əsas yükünü üstünə almaq üçün nəzərdə tutulmuş dayaq kimi istifadə olunurdu.

Qanlıqala bürcündə - cənub-şərq portikində, tanrı Haldinin məbədində, Bastam qalasının peristil həyətində, Həsənlidə sütunlu zalda və digər tikintilərdə belə sütunlardan istifadə halları məlumdur. 30-35 sm-ə qədər və daha çox diametri olan dəyirmi taxta sütunlar (Qanlıqala – 40 sm, Bastam – 45 sm, Həsənli – 43 sm) 3-4 m hündürlüyə malik idi. Onlar dördbucaqlı və ya dairəvi, bəzilərinin kənarları meyili olan daş "balışların" üzərinə qoyulurdu. Belə sütun özüllərinə Həsənli, Oğlanqala, Qanlıqalada rast gəlinib. Sütunlar dəstəkləyici tirlər və ya dayaqlarla tamamlanırdı, örtü tirləri onlara dayanırdı. Pilonlardan nadir hallarda istifadə olunurdu. Çarxabqala bürcünün anbalarında aşkarlanmış pilonlar ən az 3x3 metr kəsimə malik idi ki, bu da onları binanın çiy divarlarının hörgü sistemi üzrə tikməyə imkan verirdi. Şərqi Anadoluda –Türkiyədə

Ənzafkale və Çavuştəpədə (Sardurixanili) belə örtü konstruksiyası prinsipinə rast gəlirik.

Döşəmələr əsasən gildən hazırlanırdı. Kütləvi inşaatda mövcud yer səthinin nahamarlıqlarını doldurma ilə düzəldirdilər; üstdən bir qat torpaq və ya gil tökürdülər, möhkəm şəkildə döyəcləyirdilər və üstünə gil qatışıq sürtürdülər. Monumental tikililərdə döşəmələr daha mürəkkəb hazırlanırdı. Əvvəlcə qaya özülün nahamarlıqları arasındakı çalaları doldururdular, daha sonra bir sıra kərpic və bir təbəqə döyəclənmiş gil və ya torpaq döşənirdi, onun üstünə səliqəli şəkildə yerləşdirilmiş kərpiclərdən əsas cərgə düzülürdü və üzərinə iki dəfə gil tərkib çəkilirdi: birincisi 5-7 sm qalınlığında, ikincisi isə 2 sm (şək. 36).

Bastam və Qanlıqala bürcündə döşəmələrin konstruksiyası fərqli idi. Tanrı Haldinin məbədinin zalında döşəmələr gil kütlə ilə hamarlaşdırılır, daha sonra bir cərgə kərpiclə örtülür, üzərinə ikiqat suvaq çəkilir, onun üstündə isə kiçik ağac lövhələrdən döşəmə düzülürdü. Taxıl anbarlarında döşəmələr daşdan düzülmüşdür, daha sonra bir qat çınqıl, onun üstündə isə qalın döyəclənmiş saman qatı gəlir. Döşəmənin belə hazırlanması onun hiqroskopikliyini təmin edir və taxılı nəm çəkməkdən qoruyurdu.

Daha sadə döşəmə konstruksiyaları da var idi. Məsələn, Susi məbədində döşəmə döyəclənmiş kiçik daş parçalarından, digər bir məkanda gil suvaqla örtülmüş qumdan ibarət idi. Deyilənlərdən görünür ki, inşaatçılar müxtəlif döşəmə hazırlama üsulları ilə tanış idilər, məkanın təyinatından və mövcud materialdan asılı olaraq bu üsulları tətbiq edirdilər.

Yaşayış, ibadət və müdafiə sistemlərində pilləkənlər daşdan, gildən, çiy kərpicdən və ağacdan hazırlanırdı. Qonşu otaqların döşəmə səviyyələri arasında kiçik fərqlər olduqda qapı girişlərində iki pillə əmələ gətirən girintili daş bloklar yerləşdirilirdi; daha böyük fərq olduqda maili pilləkənlər düzəldilirdi. Kənar pilləkənlər daşdan idi, onların pillələri iki səki arasındakı hissənin enindən asılı olaraq, bir və ya bir neçə daşdan ibarət idi, Qanlıqala bürcünün parad pilləkənində olduğu kimi (şək. 58). Otaqlarda gil pilləkənlər və taxta lövhələrdən örtük, nadir hallarda taxta pilləkənlər nəzərdə tutulurdu. Azərbaycanın bu dövrə aid istehkam tikililərində, Qədim Şərq istibdad hakimiyyətinin böyük memarlıq komplekslərində olduğu kimi, həm binanın içindən, həm də kənardan panduslar düzəldilirdi, onlar saray binalarının və istehkamların üst mərtəbələrinə gedirdi. Alagözqala, Xalətqala, Danalı, Gavurqala, Zegindel, Qala Znah və Arslanqalanın bürcündə belə panduslar mövcud olmuşdur.

Kütləvi və monumental tikililərdə qapı yerlərinin örtüləri arxitrav idi, onlar ağacdan bir-birinin üzərinə sıx-sıx qoyulmuş şalbanlar şəklində hazırlanırdı. Şalbanların diametri örtülən aşırımdan asılı idi. Qapı və pəncərə oyuqlarında aşırım 2 m-dən çox olmurdu. 5-metrə qədər çatan daha geniş aşırımlar da məlumdur, Çarbaxqala anbarlarında olduğu kimi.

Otaqların örtüyü, bir qayda olaraq, hamar, 60 sm məsafədə paralel cərgələr şəklində düzülmüş 20-30 sm diametrli taxta şalbanlardan hazırlanırdı (şək. 35). Örtü düzəldilməsini asanlaşdırmaq üçün monumental binaların böyük otaqlarında belə ölçüsü 4-5 metr hüdudlarında olan aşırım tətbiq edilirdi, bu

səbəbdən otaqlar nisbətən dar və uzun olurdu. Şalbanlar bilavasitə divar hörgüsü daşlarının və ya çiy kərpiclərinin üzərinə, daxili dayaqlar olduqda onların tutduğu dayaq tirinin üzərinə düzülürdü. Tirlərin üstünə şüvül, şalbanyanı, kötük düzülürdü, daha sonra qamış və ya budaqlar qoyulurdu və 20-40 sm qalınlıqda sıxlaşdırılmış gil-torpaq təbəqə ilə örtülürdü. Su keçirməməsi üçün bu səthin üstünə yağlı gil qatışıq çəkilirdi.

Çarbaxqalanın bürcündə fərqli örtü konstruksiyası görürük. Şimal hissədə dəhlizin örtüsündə 38 sm eni olan, kənarları yonulmuş lövhələr eninə düzülmüşdür, onlar uzununa istiqamətdə yerləşən düzbucaqlı tirləri saxlayırdı (12x16 sm). Şalbanbaşılı divarların yanında tirlərin başı mauerlatlara, xüsusi olaraq açılmış oyuqlara söykənirdi. Tirlərin üzəri şüvüllərlə, daha sonra qamışla və sonra yenə şüvüllə örtülür, üstünə döyəclənmiş torpaq tökülürdü. Keçid zalında aşkarlanmış ikinci örtü növü kənarları yonulmuş lövhələrdən əmələ gələn bütöv döşəmədən ibarət idi.

Qanlıqala bürcündə kiçik Od məbədində qapı və taxçaların tağşəkilli örtükləri aşkarlanmışdır. Bu dövrdə tağşəkilli konstruksiyalardan istifadə olunması Menuaxinilidəki məbədlərdən birində yarımdairə şəklində apsida olduğunu sübut edir. Lakin Qanlıqaladakı məbədin təyinatını nəzərə alsaq, bu konstruksiyaların son tunc və erkən dəmir dövründə, yoxsa daha sonrakı dövrdə, Əhəmənilər dövründə olduğunu demək çətindir. Bununla belə, onlar tarixi Azərbaycan ərazisində məlum olan ən erkən nümunələrdir. Tağların aşırımları kiçik – 1,2 metrdən 1,7 metrə qədər ölçüyə malikdir. Əyrinin çevrəsi bir qədər çatma, ikimərkəzlidir. Tağlar qatı gil qatışıq üzərində yaxşı qurudulmuş çiy kərpiclərdən döşənmişdir. Kərpiclərin qalınlığın müxtəlif – 6,5 sm-dən 8,5 sm-ə qədərdir. Hörgü Misir və Assuriyanın tağlı örtülərində, məsələn, Sarqonun Dur-Çarrukindəki sarayında olduğu kimi maili deyil, şaquli qoyulmuş eninə kəsiklərdən həyata keçirilmişdir.

Son tunc və erkən dəmir dövründə artıq tarixi Azərbaycan ərazisində böyük dəyişikliklər baş verdi. Bu regionun sakinləri tərəfindən tikilməkdə davam edən primitiv planlı yaşayış məskənlərindən başqa, tarixi Azərbaycan ərazilərinin bir sıra bölgələrinin urartulular tərəfindən işğal edildiyi dövrdə nisbətən daha abad şəhərlər və uzunmüddətli müdafiəyə uyğunlaşdırılmış qalalar tikilirdi. E.ə. IX əsrin sonlarından VIII əsrin ortalarına qədər Assur və Urartu mixi mətnlərində şəhər və qala adlandırılan çox sayda yeni məskənin əsası qoyulmuşdur. Təkcə Urmiya gölü ətrafında əllidən çox belə məskən adı çəkilirdi. Tarixi Azərbaycan ərazisinin Qərb bölgəsində, Ağrıdağ düzündə və Sevan (Göyçə) gölünün hövzəsində qırxdan çox məskən var idi. Bu istehkamlı şəhərlər və qalalar əsasən e.ə. VIIIəsrin əvvəllərinə, yəni bu ərazilərin Van çarlığının tərkibinə daxil edildiyi dövrə aiddir.

İstehkamlı şəhər və qalaların tədqiqi göstərmişdir ki, urartulular öz qalalarını və şəhərlərini təkcə yeni deyil, strateji cəhətdən səmərəli yerlərdə salırdılar, məsələn, Liblihuni, Alagözqala və digər qalalar (şək. 59; 77). Azərbaycanın qəsb edilmiş ərazilərində istehkamlı məskənlər və qalalar onlar tərəfindən dağıdılmış məskənlərin yerində tikilirdi. Onlara Kürdüklüqala, Menuaxinili, Çarxabqala, Zegindeli aid etmək olar. Qədim dövrdə tarixi Azərbaycan ərazisində

geniş yayılmış süni təpələrdə istehkamlı tikililərin inşası İkiçayarasında tətbiq edilmirdi. Bir qayda olaraq, son tunc və erkən dəmir dövründə artıq qala tikililəri daşlı təpələrdə tikilirdi ki, bu da, çox güman ki, təkcə hərbi deyil, həm də iqtisadi səbəblərdən irəli gəlirdi.

Bu dövrdə tikilmiş istehkamlı şəhər və qalaların mövcudluq müddəti müxtəlif idi. Səciyyəvidir ki, onların hamısı düşmən əhval-ruhiyyəli qonşular - əvvəlcə assuriyalılar, daha sonra isə urartulularla amansız müharibələr zamanı dağıdılmışdır.

E.ə. VII əsrin birinci rübündə Argiştinin oğlu II Rusa tərəfindən tikilmiş Çarxabqala təxminən bir əsr mövcud olmuşdur. E.ə. VI əsrin əvvəllərində o, yerli tayfaların skiflərlə birgə hücumu nəticəsində dağılıb və onun viranəliyində həyat artıq bərpa edilməyib. Bastam qalasında da analoji tale yaşanmışdır. E.ə. VI əsrdən Bastam qalasının mövcudluğuna son qoyulmuşdur. Qanlıqalanın taleyi isə fərqli olmuşdur. Menuanın oğlu I Argişti tərəfindən e.ə. 782-ci ildə tikilmiş (Bu barədə Xorxor salnaməsində yazılır) Qanlıqala Çarxabqala tikildikdən sonra tərk edilmişdir və yalnız Əhəmənilərin dövründə qismən bərpa edilərək, daha bir neçə əsr mövcud olmuşdur. Kürdüklüqala I Argiştinin orta tunc dövrünə aid yaşayış məskəninin yerində, Qanlıqaladan altı il sonra – e.ə. 776-cı ildə tikilmişdir. Van çarlığının bu ən böyük istehkamlı şəhəri, Ağrıdağ düzündə mühüm təsərrüfat-mədəniyyət və din mərkəzi olmuşdur, bu səbəbdən Urartunun paytaxtı Tuşpanın süqutundan sonra Manna-skif tayfaları tərəfindən dağıdılana qədər 200 ildən çox genişlənmiş və abadlaşdırılmışdır. Sonradan, e.ə. III əsrdə onun yerində yeni qala tikilmişdir.

Tarixi Azərbaycan ərazisində Urartu fəthi dövrünə aid istehkamlı məskənlərin və qalaların və yazılı mənbələrin tədqiqi Urartu istehkamlarını dörd əsas növə: - kiçik hökmdarların iqamətgahları, hərbi məntəqələr, inzibati-təsərrüfat və ibadət tikililərinə bölməyə imkan vermişdir. Tarixi şərtlərdən asılı olaraq, istehkamlı şəhərlərin və ya qalaların təyinatı dəyişirdi və onlar əlavə funksiyalar alırdı ki, bu da onların plan xüsusiyyətlərinin dəqiqləşdirilməsinə gətirib çıxarırdı.

Birinci növ istehkamlı şəhərlərə Bastam qalası yaxınlığında yerləşən istehkamı aid etmək olar. Urartulular tərəfindən qəsb edilmiş Qanlıqala tarixi Azərbaycanın qərb ərazisinə nəzarət edən hərbi-strateji əhəmiyyət daşıyırdı, bunu qazıntılar zamanı aşkar edilmiş tunc altlığında mixi yazı olan boyanmış silahlı döyüşçü heykəlciyi təsdiq edir. Bu kiçik heykəl Urartu incəsənətinin ən yaxşı nümunələrinə aiddir. İnzibati-təsərrüfat mərkəzi Çarbaxqala idi, burada kənd təsərrüfatı məhsulları ehtiyatı qalmışdır, ibadət yeri isə Musasir – tanrı Haldiyə həsr olunmuş əsas məbədlərin yerləşdiyi yer idi.

Urartu dövlət idarəçiliyinin hərbiləşdirilmiş sistemi məskənlərin və qalalarının xarakterində, həm Urartu ərazisində, həm də onun tərəfindən qəsb edilmiş tarixi Azərbaycan ərazilərində onların yerləşməsində əksini tapmışdır. Dövlət ərazisinin inkişaf etmiş müdafiə sistemi işlənib hazırlanmış və müxtəlif növ qalalar inşa edilmişdir. Urartunun paytaxtı Tuşpa kimi böyük şəhərlər və mühüm mərkəzləri – Musasir, Menuaxinili, Kürdüklüqala, Qanlıqala, Çarxabqala, Bastam, Ferahram onlara gedən yollarda yerləşən kiçik istehkamlarla

əhatə olunmuşdu, ən qədim dövrlərdə olduğu kimi. Qalayeri və Nur-Bəyazit qalaları ətrafındakı istehkam sistemləri diqqətəlayiqdir. Tuşpa və Bastam ətrafında ən az beş-altı güclü qala var idi – (Tuşpa – Altıntəpə, Yuxarı və Aşağı Ənzaf, Hakkari, Yunca Təpə, Çavuştəpə) Şərqi Anadolu (Türkiyə); (Qalayeri – Ördəkliqala, Süqutluqala, Eylərqala), Azərbaycanın Qərb bölgəsi (Bastam-Aşağı Korul, Türk Təpə, Qız Xaxlu, Qayalıdərə, Qara Ziya-ad-Din); Azərbaycanın Cənub bölgəsi (Oğlanqala – Qızqala, Qalacıq qalası, Qarabağlarqala, Şahtaxtıqala), Naxçıvan MR.

Müdafiə sisteminə daxil olan qalalar arasında məsafələr onlardan verilən siqnalların adi gözlə görülə bilməsi mümkünlüyü nəzərə alınaraq müəyyən edilirdi (80, s. 328-329).

İstehkamlı şəhərlərin sahəsi onların təyinatından asılı idi və 50-200 ha arasında dəyişirdi. Çox güman ki, daha böyükləri də var idi. Kürdüklüqala istehkamlı şəhərinin ərazisinin relyef xüsusiyyətlərini nəzərə alaraq, bir sıra alimlər onun xeyli böyük sahəni əhatə etdiyini hesab edir.

İstehkamlı yaşayış məskəninin əhalisinin sayı onun əhatə etdiyi ərazidən asılı idi və 50 min nəfərdən çox ola bilərdi. Qədim Şərq istibdad hakimiyyətlərinin eyni dövrə aid şəhərlərinin əhalisinin çox olduğunu nəzərə alsaq, bu rəqəm tamamilə həqiqətə uyğundur. E.Ungerin məlumatına görə, e.ə. VII-VI əsrlərdə Babilistanın əhalisi 200 min nəfərə çatırdı (61, s. 212).

Tarixi Azərbaycan ərazisində Urartu fəthləri dövrünə aid istehkamlı şəhərlərin və qalaların, o cümlədən kiçik məskənlərin qalan viranələri onların dəqiq plan strukturuna malik olduğunu göstərir. Azərbaycan ərazisində hettlərin və tayfa ittifaqlarının şəhərsalma ənənələri ilə əlaqəli olan istehkamlı şəhər və qalalar planlarına görə Assuriya, Babilistan və Urartu şəhərlərinə yaxın idi. Onlar bürcdən, şəhərdən və şəhər divarlarından kənarda məskənlərdən ibarət idi.

Bürc ətraf ərazidəki ən yüksək təpədə yerləşirdi və əksər hallarda şəhərin kənarında, qayalıq çıxıntının əmələ gətirdiyi dik, çıxılması çətin olan yamacda yerləşirdi (Bastam, Oğlanqala, Alagöz, Qanlıqala). Bürclərin kəskin dik yamaclı iki təpədə yerləşərək, bir-birindən ayrı hissələrdən ibarət olduğu hallar məlumdur, məsələn, Kürdüklüqalada. Bu, onlardan hər birinin müdafiə qabiliyyətini gücləndirirdi. Əvvəllər ən qədim istehkam halına salınmış məskənlərdə, xüsusən tarixi Azərbaycanın Qərb bölgəsində, Ördəkliqala, Armudluqalada da analoji hallar var.

İstehkamlı sistemlərin belə strukturuna Urartu şəhərlərində - Tuşpada, Ənzaf qalası və Kehf qalasında də rast gəlirik (82).

Bürcün sahəsi yerli şəraitdən və istehkamlı şəhərin təyinatından asılı idi və adətən 2-3 ha təşkil edirdi. Daha böyük bürclər də məlumdur, məsələn, Alagözqala – 0,65 ha, Qala Oğlu – 0,75 ha, ilkin Kürdüklüqalada 1 ha, Çarxabqalada isə təxminən 4 ha. Bürcün konfiqurasiyasını ərazinin təbii relyef xüsusiyyətlərindən maksimum istifadə zərurəti müəyyən edirdi, bu da tikililərə fərdi xüsusiyyətlər qazandırırdı.

Bürclər əvvəlcədən tərtib edilmiş plan əsasında, daxili həyətlər ətrafında tikilirdi, otaqlar dəqiq təşkil edilirdi, bunda hett və assur ənənələri izlənir.

Baxmayaraq ki, bəzi komplekslərin konfiqurasiyasında onların ayrı-ayrı hissələrinin bənzərliyini görmək olar (83, s. 76-79), bununla belə, eynitipli layihələr mövcud deyildi. Zamanla bürclərin əksəriyyəti yenidən tikilir və genişləndirilirdi ki, bu da onların bədii görünüşünü dəyişdirirdi. Çarbaxqala bürcünün tədqiqi təkcə kənardan qala divarına bitişik tikilən otaqları deyil, həm də əsas korpusun sol cinahının, göründüyü kimi, iki dəfəyə tikilmiş bir hissəsini aşkar etməyə imkan vermişdir (71, s. 45).

Dəfələrlə genişləndirilmiş və təkrar tikilmiş Qanlıqala bürcündə də oxşar hal müəyyən edilmişdir. Orada aşkar edilmiş Urartu mixi yazılarına əsasən, I Argişti tərəfindən tikilmiş əsas qərb hissəyə hələ onun dövründə və II Sardurun dövründə binanın sahəsi xeyli böyük olan şərq yarısı əlavə edilmişdir. Əhəməni təsiri dövründə sarayın sahəsi daha dərindən abadlaşdırılmışdır.

İstehkamlı Bastam şəhərində biz sonrakı dövrlərdə tikilmiş bürc hissəsinin eyni mənzərəsini görürük.

Bürclər uzunmüddətli müdafiə üçün nəzərdə tutularaq tikilirdi. Perimetri qalın, bəzi yerlərdə iki (Oğlanqala, Qazançıqala, Qalet qala, Lumbad-Təpə, Çarxabqala, Qanlıqala, Kürdüklüqala) cərgədə, çox vaxt kontrfors və qüllələrlə möhkəmləndirilmiş divarla əhatə olunurdu (şək. 42; 58; 59). Əsas qapıları cinahlardan qoruyan dördbucaqlı plana malik qüllələr ölçülərinə görə xüsusilə fərqlənirdi (Qala Ziyah, Qala Qafur, Xalat qala, Danalı və s.) (şək. 65; 72; 76; 81).

Bürclərin sahəsi maksimum abadlaşdırılırdı, bununla əlaqədar, bir qayda olaraq, çox sayda otaqlar kənar divarlara bitişik idi ki, bu da onların möhkəmliyini artırırdı. Bürclər birmərtəbəli (Qanlıqala, Qala Livar, Kiş Qalası), bir neçə cərgədə düzülmüş düzbucaqlı otaqlar şəklində tikilirdi.

Qala Ziyah bürcü plan kompozisiyasına görə ən sadəsidir, təxminən 40X69 m-lik bünövrədə, künclərdə güclü qüllələrlə, onlar arasındakı məsafələrdə pilonlarlamöhkəmləndirilmiş ayrıca düzbucaqlı binadan ibarət idi (cəd. ...). Alagözqalada da analoji plana rast gəlirik. Hücumun mümkün olduğu tərəfdən kontrforslu divarlar nəzərdə tutulmuşdu, onlar istehkam halına salınmış həyəti qoruyurdu.

Bastam və Qanlıqala qalalarının planı daha mürəkkəbdir. Onların bürcləri kiçik parad meydanın ətrafında yerləşən saray, ibadət, yaşayış və təsərrüfat tikililərindən, məbəd və saray hissəsindən ibarət böyük kompleks təşkil edirdi.

Qanlıqaladan fərqli olaraq, Çarxabqala bürcü vahid monumental tikili kimi düşünülmüşdü. Sonradan genişlənərək, şəhərdən ayrı möhkəm qala divarı ilə qərb tərəfdən ona birləşən həyətlə П-şəkilli forma almışdı. Binanın birinci mərtəbəsində kənd təsərrüfatı məhsullarının emalı üzrə emalatxanalar və ərzaq, habelə məişət əşyalarının, silah və digər əşyaların saxlanılması üçün çoxsaylı anbarlar yerləşirdi. Böyük miqdarda kənd təsərrüfatı məhsulları və çaxır saxlanılan nəhəng təsərrüfat küpləri anbarların çox böyük həcmi olduğunu sübut edir. Çavuştəpə (Sardurixinili)qalasında da 250-dən çox belə küp aşkar edilmişdir. Hər bir küpün üzərində içində çaxır və ya başqa kənd təsərrüfatı məhsullarının saxlandığı barədə qeyd mövcud idi. Hər bir küpün həcmi 1000 litrə çatırdı (Qala Ziyah) (şək. 34; 105; 107).

Yaşayış və parad otaqları, habelə ibadət tikililəri ikinci mərtəbədə yerləşirdi.

Qanlıqala, Bastam, Kürdüklüqala, Çarxabqala və digər bürclərin otaqları ərazinin relyefindən asılı olaraq, müxtəlif səviyyələrdə yerləşmişdir, bu otaqların pilləli tikilməsinə səbəb olmuşdur ki, bu da öz növbəsində binaya monumentallıq və təbii mühitlə vəhdətlilik şəkli vermişdir.

İstehkamlı yaşayış məskənlərinin və qalaların belə kompozisiyası tarixi Azərbaycan ərazisində ən qədim dövrlərdən məlumdur, məsələn, Ördəkliqalada, Kanik Zərqalada, Qala Zendanda, Akudarran qalada. Şərqi Anadoluda (Türkiyə) – Tuşpa, Darani, Çavuştəpədə, habelə Hattuşaşda hettlərin Böyükkale kimi tikililərində də analoji sistemə rast gəlirik (61, s.242). Şəhər məskənləri adətən bürcün ətəyində nisbətən hamar ərazidə yerləşirdi. Tuşpa və Kürdüklüqalada olduğu kimi, iki bürc olduqda, onlar hər tərəfdən tikililərlə əhatə olunurdu ki, bu da şəhər ərazisinə uzun planlı forma verirdi.

Şəhərin istehkam sistemi bürcün istehkamları ilə sıx əlaqələndirilirdi. Düşmən hücumuna qarşı zəif olan yerlərdə yaşayış tikililərinin perimetri qalın divarlar, gücləndirilmiş kontrforslar və məsul müdafiə yerlərində qüllələrlə əhatə olunmuşdu. Belə istehkamlı şəhərlərə Qala Ziyahı (Kiş-Qalası), Həsənlu, Qalet qala, Qala Livar və digərlərini aid etmək olar (şək. 65; 74; 79; 84).

Alagözqala, Akudarran qala, Qalet qala kimi istehkamlı məskənlərdə təkcə bürcə bitişik şəhər məhəllələri istehkam divarları ilə əhatə olunmamışdı. Divarlar yaşayış tikilisinin daxilindən də keçərək, onu ayrı-ayrı hissələrə bölürdü. Belə divarlar hələ e.ə. III-II minilliklərdə tarixi Azərbaycan ərazisində (Hacı-Xəlil, Armudluqala, Kültəpə II, Səngərqala qalaları), Şərqi Anadoluda (Türkiyə – Hattuşaş və Samal şəhərləri, müasir Zencerli)tikilirdi (81, s.242, 246), onların xüsusi təyinatı var idi. Onlar düşmənlərə çətinlik yaradırdı, belə ki, düşmən xarici istehkamlardan içəriyə keçərək, hər bir hissəyə ayrı-ayrılıqda hücum etmək məcburiyyətində qalırdı. Bu yaşayış tikililərinin qalan hissələrindən göründüyü kimi, onlarda cəmiyyətin müxtəlif zümrələrinə məxsus şəxslər yaşayırdı: bürcə yaxın yerlərdə daha yüksək dərəcəli, uzaq hissələrdə isə daha aşağı təbəqənin insanları. Yuxarıda deyilənləri nəzərə alaraq, güman etmək olar ki, divarlar həm də rəhbərliyə qarşı üsyana qalxan şəhər əhalisindən təcridetmə üçün də nəzərdə tutulurdu.

Urartu fəthləri dövründə Azərbaycan ərazisində istehkamlı şəhərlər və qalalar işlənib hazırlanmış plan üzrə tikilirdi. Bir sıra istehkamlı yaşayış məskənlərinin və qalaların tədqiqi göstərmişdir ki, onların tikintisi birdəfəyə deyil, mərhələli şəkildə həyata keçirilirdi. Əvvəlcə yerli sakinlərin evlərinin yanında fəhlə və keşikçilər üçün evlər tikilirdi, bundan sonra bürcün tikintisi başlayırdı. Onun birinci cərgəsi bitdikdən sonra bürc genişləndirilir və sənətkarların və kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan şəxslərin yerləşdirilməsi üçün yeni şəhər məhəllələri salınırdı.

İstehkamlı məskənlərdə küçə şəbəkəsinin strukturu yerli şəraitlə şərtlənirdi. Məhəllələrin nişanlanması dörd yol ağzı künclərində mövcud binaların kürsülüyü kimi istifadə olunan böyük sədd daşları ilə həyata keçirilirdi. Qeyd etmək lazımdır ki, küçələrin gölünməsində əsas şərtlərdən birini ərazi relyefinin mürəkkəbliyidir.

Ç.Barney və Q.Lausan tərəfindən Van gölünün şimalında, Zernakitəpə ətrafında yerləşən Urartu şəhərində aşkar edilmiş düzbucaqlı massivlər təşkil edən yaşayış məhəllələri və düz bucaq altında kəsişən küçələr Urartu inşaatı üçün səciyyəvidir. Van gölündən şərqdə Ənzaf yaxınlığında və Maku yaxınlığında Duçqaç ərazisindəki Urartu şəhərlərinin planı da buna bənzərdir (58).

Göstərilən nümunələr şəhərsalma təcrübəsində bu planın yayıldığını göstərir. Planın əsasını e.ə. V əsrdən Miletli memar Hippodamın adını almış paralel və düz bucaq altında kəsişən küçələrdən şəbəkə prinsipi təşkil edir.

Bu dövrdə (son tunc və erkən dəmir dövrü) şəhərlərin nə dərəcədə abadlaşdırıldığı hələ hərtərəfli öyrənilməmişdir. Böyük meydanların olub-olmadığı hələ dəqiq müəyyən edilməmişdir. Böyük şəhərlərdə - Tuşpa, Kürdüklüqala, Bastam – zəruri yerlərdə küçələr genişləndirilərək, atların və döyüş arabalarının keçməsi üçün nəzərdə tutulan böyük meydanlar əmələ gətirirdi. Vəzifəli şəxslərin və qonaqların görüşü üçün bürclərdə mövcud olan geniş həyət və meydanlardan istifadə edilirdi (Bastam, Həsənli, Qanlıqala) (şək. 58; 69; 85).

Su təchizatına böyük diqqət yetirilirdi. Bütün istehkamlı yaşayış məskənlərində və qalalarda su bir-biri ilə boru bilərziyi ilə birləşən ayrı-ayrı halqalardan təşkil edilmiş borularla verilirdi. Nadir hallarda yaşayış məskənlərində quyular və gölə birləşən tunellər olurdu. Əhalinin su ilə təmin edilməsi üçün düzbucaqlı formaya malik çən şəklində su anbarları tikilirdi.

Şəhər küçələrində döşənmə tətbiq edilib-edilmədiyi müəyyən olunmamışdır. Bastam, Qanlıqala, Həsənli bürcündə hissələri salamat qalmış daş döşəmələrə əsasən ehtimal etmək olar ki, böyük şəhərlərin həm əsas küçələri, həm də onların bürclərinin meydanları döşənirdi.

Şəhərətrafı yaşayış məskənləri böyük şəhərlərdə olurdu (Həsənli və Ördəkliqala), burada onlar kortəbii şəkildə, divarların sayı artdıqca yaranırdı. Orada əsasən həyətyanı torpaq sahəsi olmayan fəhlələr yaşayırdı. Şəhər sakinlərinin evləri fərqlənirdi. Onların kiçik tikililəri təcrid olunmuş şəkildə yerləşirdi, ətrafında yaşıllıq olurdu.

Son tunc və erkən dəmir dövründə kənd evlərinin tikintisində əvvəlki dövrün ənənələri saxlanmışdı. Evin əsasını ortasında ocaq olan yaşayış otağı təşkil edirdi. Onun ətrafında ikinci dərəcəli otaqlar qruplaşırdı. Bu otaqların sayı ailənin tərkibinə və gəlirinə əsaslanırdı. Həm insanların, həm də ev heyvanlarının yaşadığı cəmi bir otaqdan ibarət evlərin mövcud olduğu ehtimalı istisna deyil.

İmkanlı insanların, inzibatçıların və döyüşçülərin evi şəhərin mərkəzi hissəsində yerləşirdi, sənətkarların və kənd təsərrüfatı ilə məşğul olanların evləri isə kənarlarda. Bundan asılı olaraq şəhər məhəllələri ya bir neçə ayrı-ayrı evlərdən ibarət qrupdan, yaxud da kiçik və ya böyük evdən ibarət idi ki, məhəllələrin ölçülərinin müxtəlif olması da bundanirəli gəlirdi. Kiçik evlərin 2-3, böyük evlərin isə 5-8 və daha çox otağı olurdu.

Evin yayda əsas təsərrüfat-məişət proseslərinin baş verdiyi əsas hissəsi otaqları bir-birinə birləşdirən kiçik həyət idi (şək. 32; 34). Burada ocaq və günəşdən və yağışdan qorunmaq üçün talvar var idi. Evlər bir-birinə o qədər sıx bitişirdi ki, onların qonşu divarları ortaq idi.

İmkanlı insanlara məxsus olan çoxotaqlı evlərdə yaşayış kompleksinin kompozisiya nüvəsi əsas, ümumi otaq idi, onun ətrafında digər tikililər qruplaşırdı (şəh. 32). Mövcud binaya əlavə olaraq yaşayış və təsərrüfat təyinatlı otaqlar tikilirdi. Ev kompozisiyasının belə tikilməsi prinsipi bir çox şəhər yaşayış məntəqələri üçün də səciyyəvidir.

Bu yaşayış tikililəri qapı oyuqlarının və kontrforsların yerləşməsinə görə (şək. 70; 71) Vanda Toprak-kaledə tapılmış tunc lövhədə əks olunmuş üçmərtəbəli binanın fasadına çox yaxındır (şək. 103), bu da inşaat təcrübəsində eynitipli yaşayış evlərinin yayıldığını göstərir, məsələn, Bastamda, Çarxabqalada (şək. 59; 69).

Yaşayış evlərində otaqların əksəriyyəti dörd künclüdür, nisbətən düzgün formadadır, bu, çox güman ki, tətbiq edilən örtüyün konstruktiv tələblərindən irəli gəlirdi. İşıqlandırma üstdən və üst-yan tərəfdən, örtülər yastı idi. Qapılar döngəyə və kiçik dalana açılırdı, bu və kənar fasadlarda qapı yerinin və dekorativ bəzəklərin olmaması dar küçələri Qədim Şərq şəhərlərinin əksəriyyəti üçün səciyyəvi olan sakit uzun dəhlizlərə çevirirdi.

Çarxabqala şəhərinin cənub sərhədinin ortasında yerləşən böyük bina maraq doğurur (62x33 m), bu binada, çox güman ki, yüksək vəzifəli şəxslər yaşayırdı. Bina dəqiq düzbucaqlı formaya malik idi, hər tərəfdən künclü qüllələri və kontrforsları var idi (şək. 32). Eninə divarlar binanı planına görə eyni olan on bir otaqlı mənzillərdən ibarət dörd bölməyə ayırırdı.

Bu dövrdə evlər əsasən birmərtəbəli idi, bu, onların çiy kərpicdən və ya kobud şəkildə kəsilmiş kiçik daşlardan, özlü maddədən istifadəsiz tikilməsindən, amma gil qatışıqla suvanmasından irəli gəlirdi.

Həmçinin, qeyd etmək lazımdır ki, çoxmərtəbəli binalar da tikilirdi. Bunu Vanda Toprak Kaledə tunc lövhədə Vanda iki və üçmərtəbəli binaların tikilməsinin relyef təsviri və Dur-Şarrukində Musasirdə tanrı Haldinin məbədini əks etdirən Assur relyefi, habelə Argiştixinili və Bastamda aşkar edilmiş iki-üç mərtəbəli evlərin viranəlikləri sübut edir.

Yerli hökmdarların və canişinlərin iqamətgahları sıravi sakinlərin və imkanlı insanların evlərindən daha böyük və təmtəraqlı tikilirdi. Saraylar, bir qayda olaraq, bürclərdə yerləşirdi, bu şəkildə onların düşmənin qəfil hücumundan müdafiəsi təmin olunurdu. Digər tikililər arasında onlar ən əhəmiyyətli tikili idi və bürclərin planında ən yaxşı yeri tuturdu, onların memarlıq-bədii kompozisiyasında əsas rolu oynayırdı.

Saraylar yaşayış, parad və xidməti otaqlardan ibarət idi, Qanlıqalada belə otaqların sayı 50-dən çox, Bastamda 23, Çarxabqalada isə təxminən 150-yə bərabərdir.

Saray tikililəri birmərtəbəli (Qanlıqala) və ikimərtəbəli (Alagözqala, Bastam, Çarbaxqalatikilirdi ki, bu da örtülərdə işıq dəlikləri qoyulması zərurətindən, relyefin xüsusiyyətlərindən və əhatə olunan sahənin ölçüsündən irəli gəlirdi. Birmərtəbəli binada saray otaqları təyinatına görə qruplaşırdı: ən yaxşı yer parad zallarına ayrılırdı, onların qarşısında yaşayış otaqları, kənarda isə xidməti otaqlar nəzərdə tutulurdu. İkimərtəbəli binalarda köməkçi otaqlar və anbarlar birinci və yarımzirzəmi mərtəbədə yerləşirdi.

Saray komplekslərinin planı dəqiq idi, kontrforslu xarici qala divarlarına qədər bütün ərazini əhatə edən həndəsi cəhətdən düzgün və əsasən düzbucaqlı formalı tikililərdən ibarət idi (Həsənli) (Şək. 85). Bəzi bürclərdə sarayların sahələri xeyli böyük olsa da, onların daxili müdafiə divarları ilə hissələrə ayrılması təcrübəsi tətbiq olunmurdu. Ayrı-ayrı otaqlar qruplarının bir-birindən təcrid edilməsi zərurəti yarandıqda (məsələn, saraya daxil olmuş düşmənin dəf edilməsi üçün) onlar arasında əlaqə rolu oynayan azsaylı qapı girişləri bağlanırdı.

Otaqların sahəsi kifayət qədər müxtəlif idi. Yaşayış otaqları orta hesabla 20-40 m$^2$ və daha çox, parad otaqları 100 m$^2$-dən çox idi. Həsənlidə dörd zal var idi, onların hər birinin sahəsi 270 m$^2$, 300 m$^2$, 460 m$^2$və 500 m$^2$; Bastamda 275 m$^2$, Qanlıqalada kiçik zal 120 m2, böyük zal 600 m$^2$, Kürdüklüqalada 660 m$^2$ idi.

Parad zalları məkanın bütövlüyü və bəzəklərin çox olması ilə fərqlənirdi. Otağın forması, bir qayda olaraq, düzbucaqlı olurdu, tərəflərin nisbəti 1:2 – 2,5 təşkil edirdi. Böyük aşırımın yastı örtülərini tutmaq üçün daş bünövrə üzərində taxta sütunlar qoyulurdu (baza). Həsənlidə 12, Bastamda 14, Kürdüklüqalada 20 belə dayaq var idi, onlar iki cərgədə yerləşir və zalı eninə görə bir-birinə bərabər olan uzununa üç hissəyə bölürdü. Qanlıqalanın böyük zalında uzununa oxdan bir qədər zalın cənub-qərb tərəfinə çəkilmiş beş dayaq onun böyük sahəsinə müəyyən ritmik bölgü verirdi. Zalın geniş hissəsi, çox güman ki, dar olan yan hissədən yüksək idi. Qanlıqala sarayından göründüyü kimi, parad zalları imkan daxilində ətrafdakı otaqlardan təcrid edilmişdi. Həsənli və Kürdüklüqala sarayında fərqli üsul tətbiq edilmişdir. Zallarda yan tərəflərdə yerləşən otaqlara açılan qapı girişləri var idi ki, bu da zalı keçid məkanına çevirirdi.

Zalın daxili məkanının təşkilində freskalar mühüm rol oynayırdı. Divar naxışları eyniplanlı kompozisiyaya malik idi və bir-birini əvəz edən şaquli yerləşmiş cərgələr şəklində tikilirdi. Qanlıqalanın kiçik zalında divar naxışları divarların ortasında və tavanın altında, palmetta, pilləli qüllə, müqəddəs ağac və tanrıların, səkkizləçəkli bəzək və ornamentlərlə bəzənmiş dördbucaqlar, növbələşən bir-birinə baxan şir və öküzlərin təsviri olan geniş zolaqlar şəklində yerləşirdi. Qanlıqalanın böyük zalında divarlar 4,5 metr yüksəkliyə qədər divar naxışları ilə örtülmüşdür. Freskalarda dünyəvi süjetlər: çarın ov səhnəsi, torpaq becərilməsi, müxtəlif ev və vəhşi heyvanlar əks olunmuşdur. Qanlıqaladakı freskalar Qədim Şərq üçün səciyyəvidir. Onlar Assur freskaları ilə səsləşir, amma öz səciyyəvi xüsusiyyətləri var.

Azərbaycan xalq memarlığında yayılmış, yaşayış evinin girişinin qarşısında şalbanlar üzərində talvarlarla genetik əlaqəsi olan peristilli həyətlər Qədim Şərqin nadir memarlıq əsərlərinə aiddir. Qanlıqala bürcündə tarixi Azərbaycan ərazisində ən qədimi olan 14 sütunlu (5-in 4-ə) peristilli həyət sarayın müxtəlif hissələri arasında əlaqələndirici halqa rolunu oynayırdı. İki qonşu tərəfdən hökmdarın otaqları, digər iki tərəfdən məbəd və ona xidmətlə bağlı otaqlar yerləşirdi. Həyətin bürcün mərkəzi meydanının arxasında yerləşməsi, onun ölçüləri (17x19 m) və onu əhatə edən divarların gözəl naxışları onu işgüzar görüşlərin və qəbulların keçirildiyi kompleksin parad elementlərindən birinə çevirirdi.

Bu dövrə aid ibadət tikililəri böyük maraq doğurur. Bir çox mixi mətnlərdə onlar haqqında məlumatlara rast gəlinir, bu da təkcə bu və ya digər yaşayış

məntəqəsində məbədlərin sayını müəyyən etməyə deyil, həm də onların hansı tanrıya həsr olunduğunu öyrənməyə imkan verir. Yuxarıda qeyd edildiyi kimi, urartulular tanrı Haldiyə sitayiş edirdilər. Tanrı Haldi üçün xüsusilə çox sayda ibadət mərkəzləri tikirdilər, onlardan Musasir ümumdövlət əhəmiyyətinə malik idi. Ağrıdağ düzündə bu rolu, çox güman ki, Kürdüklüqala və Bastam oynayırdı. Onların təkcə qala divarları yaxınlığında iki-beş məbəd var idi. Həsənlidə, habelə Çarbaxqala bürcündə bir neçə məbəddən ibarət ibadət kompleksləri mövcud idi, burada onlar mərtəbə səviyyəsində yerləşirdi. Qanlıqalada iki məbəd var idi.

Təyinatından (az sayda insan və ya çoxsaylı ziyarətçilər üçün) asılı olaraq, məbədlər müvafiq ölçü və növdə tikilirdi. Həmin dövr memarlığı üçün səciyyəvi olan ən sadə məbədlər Qanlıqala və Altıntəpədə kiçik, 25-40 $m^2$ ölçüsündə, düzbucaqlı şəklində idi və tanrı İubşaya həsr edilmişdi. Məbədə işıq qapıdan və otağın dərinliyində yerləşən qurbangah üzərindəki yastı örtüdəki dəlikdən daxil olurdu. Çiy kərpicdən tikilmiş məbəd divarları kifayət qədər qalın idi (3 m-dən çox), bu da həmin tikililəri möhkəm edirdi. Massivlik təəssüratının azaldılması üçün məbədlərin fasadları qala divarlarında olduğu kimi çıxıntılar ilə bölünmüşdür.

Kütləvi ziyarətçilər üçün nəzərdə tutulmuş məbədlərin kompozisiyası fərqli idi. Onların sahəsi böyük olan (250 $m^2$-dən çox) ibadət zalları, analoji assur nümunələrində olduğu kimi, uzunsov otaqlar idi, bu, çox güman ki, konstruktiv tələblərdən irəli gəlirdi. Çox güman ki, ibadət zallarında çoxlu bəzəklər var idi.

Qanlıqalada tanrı Haldi məbədində binanın kompozisiyası yan tərəfdən çoxsütunlu portikin mövcudluğu ilə mürəkkəbləşdirmişdir. в Sahəsi böyük olan bu zal (təxminən 400 $m^2$) iki cərgədə düzülmüş, ibadət zalına girişdə geniş talvar əmələ gətirən 12 sütundan ibarət idi, yaşayış evlərinin memarlığında olduğu kimi. Relyefin dəqiq formalarından göründüyü kimi, binanın planı simmetrik kompozisiyaya malik idi, əsas giriş yan tərəfdə idi. Bütöv qüllə və divarlarla cinahlanmış portiklər bürcün mərkəzi meydanı tərəfindən məbədin bədii tərtibatının mühüm komponenti idi.

İbadət zalı və portik, saray otaqlarında olduğu kimi, zəngin bəzəklərə malik idi. Binanın əsas bəzək elementləri, İkiçayarası və Mesopotamiya ölkələrinin monumental tikililərinin bəzəklərində tez-tez rast gəlinən döyüşçü fiqurları idi (61, s. 196-222).

Və sonda qeyd etmək lazımdır ki, ən qədim dövrdə tarixi Azərbaycan ərazisində inşaat sənətinin formalaşması qonşu Yaxın Şərq ölkələrinin mədəniyyəti ilə sıx əlaqəli şəkildə gedirdi.

Bu dövrdə memarlığın inkişafı prosesində inşaat texnikası daha yüksək səviyyəyə qalxmış, bu da istehkamlı məskənlərin, dövlətin müdafiə sisteminin planlaşdırılmasında, sarayların və məbədlərin təbii təpələrdə, istehkamlı bürclərdə yerləşməsində özünü göstərən bir sıra səciyyəvi xüsusiyyətlərin mənimsənilməsinə şərait yaratdı. İstehkamların xarici görünüşü üçün nəhənglik və böyük qüvvə təəssüratı yaradan qüllə və kontrforslarla əhatə olunma səciyyəvidir. Məbədlər orijinal kompozisiyaları ilə fərqlənir. Daş relyefin əhəmiyyətli rolu olmadan ibadət binalarında freskalar inkişaf etmişdir.

Günümüzə qədər gəlib çatmış daş baza və sütun parçalar üzərində bəzəklərə rast gəlinməmişdir.

Bu araşdırmada işıqlandırılmış memarlıq əsərləri bir daha tarixi Azərbaycan ərazisində ən qədim tayfa ittifaqlarının və dövlətlərin inşaat sənətinin yüksək səviyyədə olduğunu, öz yolu ilə inkişaf etdiyini sübut edir. Qonşu ölkələrlə mədəni əlaqələr Azərbaycan abidələrinə spesifik xüsusiyyətlər bəxş edən yeni üslub istiqamətlərinin formalaşmasına şərait yaradırdı, bu da onların yaradıcılarının böyük nailiyyətlərindən xəbər verir. Bu abidələr gələcəkdə Azərbaycan xalqının milli memarlığının formalaşması üçün əsas olmuşdur.

## ƏDƏBİYYAT

1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР, Баку, 1982.
2. Алиев И.Г., Нариманов И.Г. Культура северного Азербайджана в эпоху позднего энеолита. Баку, 2001.
3. Нариманов И.Г., Ахундов Т.И., Алиев Н.Г. Лейлатепе – Поселение, традиция, этап в этно-культурной истории Южного Кавказа.
4. Мусеибли Н.А. Энеолитическое поселение Беюк Кесик. Баку, 2007.
5. Джафарзаде И.М. Циклопические сооружения Азербайджана (Обследования 1927-1934 гг.). Труды Аз.ФАН СССР, т.55, 1938.
6. Ивановский А.А. Материалы по археологии Кавказа. Вып.VI, 1911.
7. Исмаилов Г.С. Поселение Гаракепектепе. Баку, 1985.
8. Мещанинов И.И. Циклопические сооружения Закавказья. «Известия ГАИМК», т.XIII, вып.4-7, 1932.
9. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991.
10. История Азербайджана. 1979.
11. Иванова И.К. Геологический возраст ископаемого человека. М., 1965.
12. Гусейнов М.М. Раскопки в Азыхской пещере в 1971 г. МСАЭИ, Баку, 1972.
13. Гусейнов М.М., Исмаилов Г.С. Энеолитические находки в пещерах Азых и Таглар. Изв.АН Азерб.ССР. Баку, 1968.
14. Qədirzadə Q. Əshabi Kəht: Müqəddəslik Tarixilik və İnancların genezisi. Bakı 2002.
15. Мансуров М.М. Мустьеро-Леваллузское местонахождение у села Кечаскар. Матер. к сессии МСАЭИ. 1971 г. в СССР. Баку, 1972.
16. Джафаров А.Г. Разведочные раскопки в Шушинской пещере. ИПАЭИ Азербайджана за 1972 г. Баку, 1973.
17. Джафарзаде И.М. Наскальные изображения Гобустана. АНА, Баку, 1965.
18. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку, 1987.
19. Dyson R.H. A Decade in Iran – Expedition, 1969, vol. 11, №2
20. Dyson R.H., Young T.C. The Solduz valley. Iran, 1960.
21. Нариманов И.Г. Археологические исследования Шомутепе в 1963 г. В сб.: Археологические исследования в Азербайджане. Баку, 1965.
22. Абибуллаев О.А. Некоторые итоги изучения холмов в Кюльтепе в Азербайджане. СА, 1963, №3.
23. Aşurov S.H. Naxçıvanda arxeoloji tədqiqatlar (2001-2002). Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı, 2003, №1.
24. Aşurov S.H. Ovçular təpəsində arxeoloji tədqiqatlar. Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı, 2005.
25. Rəhimova M.N. Naxçıvanın eneolit dövrü abidələri və Araz çayının yuxarı axarı boyunda eneolit dövrü problemi Azərbaycan arxeologiyası вя етнографийасы. Бакы, 2005.
26. Jenny A. Schamiramalti Prehistorische Zeitschrift. 1928, XIX, №3/4, c.280-304.
27. Burney C.A. The Excavations at Janiq Təpə, Azerbaijan Second Preliminary Report "Iraq", vol. XXIX, 1961.

28. Brown T.B. Excavations in Azerbaijan. 1948, London, 1951.
29. Куфтин Б.А. Археологические раскопки в Триалети. Тбилиси, 1941.
30. Гурко-Кряжин В.И. Циклопические сооружения Закавказья. «Новый Восток», 1926, №5.
31. Аретян Г. Орудия труда Артинского могильника ИФЖ. Ереван, 1970, №3.
32. Абибуллаев О.А. К вопросу о древней металлургии в Азербайджане. МИА, М-Л., 1965, т.II.
33. Древний Мингечаур. Баку, 1959.
34. Керимов В.И. История развития оборонительного зодчества Азербайджана с древнейших времен до XIX в. Баку, 2007.
35. Куфтин Б.А. Урартский «колумбарий» у подошвы Арарата и Куро-аракский энеолит. ВГМГ, XIII-В, Тбилиси, 1944.
36. Мунчаев Р.М. Древнейшая культура Северо-Восточного Кавказа. МИА СССР, №100, 1961.
37. Мунчаев Р.М. Кавказ на заре бронзового века. М., 1975.
38. Кушнарева К.Х., Чубинашвили Т.Н. Древние культуры Южного Кавказа. М., 1970.
39. Burton-Brown T. Excavations in Azerbaijan, 1948, London.
40. Burney C.A. Excavations at Janic-təpə, north-west Oran. "Iraq" XXIII, №2, Bagdad, 1961.
41. Burney C.A. Excavations at Janic-təpə, Azerbaijan, 1961. Secod preliminary report, "Iraq", XXIV, №2.
42. Kosay H., Vary H. Pulur kazisi, 1960, Mevsimi çalışmalari raporuç Ankaraç 1964.
43. Kosay H. Pulur in the Reban region "Archaeology" oct. 1969, vol.22, №4.
44. Braidwood R., Braidwood L. Excavation in the plain Antioco. Chicago, 1960.
45. Mellart J. The chalcolothic and early bronze age in the Hear East and Anatolia, Beirut, 1966.
46. Казиев С.М. Археологические раскопки в Мингечауре (1946-1947 гг.) МКА, вып. I, Баку, 1949.
47. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку, 1987.
48. Ахундов Т.И. Северо-западный Азербайджан в эпоху энеолита и бронзы. Баку, 2001.
49. Ашуров С.Г. Раннебронзовая керамика Нахчывана. Баку, 2002.
50. Мусаев Д.Л. Серкертепе – поселение эпохи ранней бронзы. Баку, 2006.
51. Сеидов А.Г. Раннебронзовые памятники Нахчывана и их хронология. Баку, 2000.
52. Сеидов А.Г. Нахчыван в VII-V тыс. до н.э. Баку, 2003.
53. Исмаилов Г.С. Поселение Гаракепектепе. Баку, 1985.
54. Кушнарева К.Х. Севано-узерлинская культура периода средней бронзы на территории Южного Кавказа. В кн.: Культурное наследие Востока. Ленинград, 1985.
55. Ханзарян Э.В. Культура Армянского нагорья в III тыс. до н.э. Ереван, 1967.
56. Мурадова Ф.М. Гобустан в эпоху бронзы. Баку, 1989.
57. Пиотровкий Б.Б. Археология Закавказья. 1949.
58. Микаелян Г.А. Циклопические крепости Севанского бассейна. Ереван, 1968.
59. Керимов В.И. Оборонительные сооружения Азербайджана древнего периода (III-II тыс. до н.э.). Баку, 2003.
60. Керимов В.И. Гямигая. Баку, 2005.
61. Джафарзаде И.М. Следы древнейших культур человека на территории Азербайджана. Изв. Аз.ФАН, 1944, №9, с.60-66.
62. Джафарзаде И.М. Гобустан (наскальные изображения). Баку, 1973.
63. Müseyibli N. Gəmiqaya rəsmləri. Bakı, 2002.
64. Асланов Г.М. Образы человеческих жертвоприношений в древнем Азербайджане. МКА, т.VIII, Баку, 1976.
65. Алиев И. Взаимовлияние древних культур Азербайджана (Апшерон) и Передней Азии. III Бакинский Международный симпозиум. 1997.
66. Ахундов Д.А. Архитектура древнего и средневекового Азербайджана. Баку, 1986.
67. Burney C.A. Excavation at Janic-təpə. North-West Iron. "Iraq".V.XXVIII, №3, 1961.

68. Джапаридзе О.М. К истории грузинских племен на ранней стадии меднобронзовой культуры. Тбилиси, 1961 (на груз. яз).
69. Чубинишвили Г.Н. Амиранис-гора. Тбилиси, 1963.
70. Мунчаев Р.Я. Древнейшая культура Северо-Восточного Кавказа. МИА, 100, М-Л., 1961.
71. Пиотровский Б.Б. Кармир-блур I. Результаты раскопок 1939-1949 гг. Ереван, 1950.
72. Меликишвили Г.А. Некоторые вопросы социально-экономической истории Наири-Урарту. ВДИ, №4, 1951. с.27.
73. Меликишвили Г.А. Древневосточные материалы по истории народов Закавказья, 1, Наири-Урарту, Тбилиси, 1954, с.258.
74. Сивков А.В. Об основных линейных мерах Урарту и древней Армении. «Изв. АН Арм. ССР», №1-2, Ереван, 1944.
75. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку, 1959.
76. Асрян Ю. Археологические находки в Нагорном Карабахе. ИФЖ, 1973, №2.
77. Галанина Л.К. Раннескифские уздечные наборы (по материалам Келермесских курганов). АСГЭ, вып.24, Л., 1983.
78. Махмудов Ф.Р., Нариманов И.Г. Поселение Аликемектепеси. АО, 1973, М., 1974.
79. Нариманов И.Г. Исследование энеолитических поселений Азербайджана. АО, 1966, М., 1967.
80. Дьяконов И.М. Ассиро-вавилонские источники по истории Урарту. ВДИ, М., 1952, 2. с.328-329.
81. Всеобщая история архитектуры, т.I, М., 1970.
82. Oktay B., Erkan K. Doğu Anadolu bölgesinde erken demir çağı kale ve nekropolleri. 2003, İstanbul.
83. Burney C.A. Lawsan G.R. Urartian reliefs at Adilcevaz, an lake Wan. A.S., VIII, 1958.

# AZƏRBAYCAN MEMARLIĞINDA QƏDİM MÜDAFİƏ TİKİLİLƏRİNİN ROLU

Qədim müdafiə tikililəri haqqında faktiki material kifayət qədər genişdir, bu da bizə malik olduğumuz bilikdəki boşluqlar üzərində fərziyə körpüləri qurmadan, tunc və erkən dəmir dövrü abidələrinin rolunun ümumi mənzərəsini təsəvvür etməyə imkan verir. Mövcud materiallar bizə ən müxtəlif ziddiyyətli şərhləri görmək imkanı yaradır(1; 2; 3). Onlar həm də tədqiq edilən abidələrin xarakteri haqqında tam mülahizə yürütmək üçün də kifayət etmir. Onlar əsasında yalnız birinci dərəcəli rəylər vermək, bu və ya digər istehkamlı tikilini erkən sinfi və ya erkən sinfi cəmiyyətlərə aid etmək olar. Daha ətraflı məlumat və istehkam tikililərinin hansı dövrə aid edilə biləcəyi haqqında nəticə çıxarmaq üçün heç bir əsas yoxdur (4; 5).

Deyilənlərdən görünür ki, Azərbaycan memarlığında qədim müdafiə tikililərinin rolu haqqında təklif olunan sxem erkən sinfi cəmiyyətlər dövründə tarixi mənzərənin mümkün rekonstruksiyalarından yalnız biridir.

Azərbaycanın eramızdan əvvəl III-I minilliklərə aid qədim müdafiə tikililəri kifayət qədər çox tədqiq edilmişdir. Onların yalnız bir hissəsi geniş təsvir və tədqiqat predmeti olmuşdur.

Tarixi Azərbaycan ərazisində bu tikililər əsasən tarixi Azərbaycanın Qərb, Şimal-Qərb bölgəsində, Naxçıvan MR-də, tarixi Azərbaycanın Cənub bölgəsində (Urmiyayanı bölgə) və Abşeronda qeydə alınmışdır.

Azərbaycanın Şimal-Qərb bölgəsindəki qədim müdafiə tikililərinin tədqiqi nəticəsində müəyyən olunmuşdur ki, onların çox az hissəsi orta tunc dövrünə, digərləri isə arxeoloji materiallara əsasən, son tunc və erkən dəmir dövrünə aiddir.

Bu tikililər memarlıq formalarına və konstruktiv həllərinə görə aşağı memarlıq imkanları səviyyəsindədir.

İndi isə Şimal-Qərb bölgəsindəki istehkam tikililəri ilə Naxçıvan, Qərb bölgəsi və Urmiyayanı bölgədəki tikililər arasındakı qarşılıqlı əlaqələrə nəzər salaq. İki mümkün həll var; 1. – Bu abidələrin müəyyən məlum vaxt kəsiyi ərzində mövcud olması; 2. – Onların sürətlə yayılması. Baxmayaraq ki, bu həllərin olması ehtimalı eynidir. Lakin ikinci ehtimalın lehinə məlumatlar var. Memarlıq-arxeoloji məlumatlar təsdiq edir ki, Naxçıvan vilayətinin, Qərb bölgəsinin, Abşeronun və Urmiyayanı bölgənin istehkam tikililəri orta və son tunc dövrünə, Azərbaycanın Şimal-Qərb bölgəsinin abidələri isə son tunc-erkən dəmir dövrünə gedib çatır. Lakin ümumilikdə məsələ həll edilməmiş olaraq qalır.

Yuxarıda qeyd edilmişdi ki, Azərbaycanın Şimal-Qərb bölgəsinin istehkam tikililərinin quruluşu primitiv xarakter daşıyır. Onların mənşəyi və funksional-

lığı mübahisəlidir. Abidələrdən bəzilərində mədəni təbəqələşmə yoxdur. Yalnız bu tikililərin Naxçıvan, Urmiyayanı, Qərb bölgəsi və Abşeronun mühəndis-istehkam tikililəri ilə heç bir ümumi cəhəti olmadığını qeyd etmək olar.

Bu bölgədə siklopik tikililərin mənşəyi də memarlıq-arxeoloji nöqteyi-nəzərdən bir növ tapmacadır. Onun bu bölgəyə gətirildiyi, yoxsa buradaca yaranıb inkişaf etdiyi məlum deyil. Təkcə onu qeyd etmək olar ki, bu memarlıq inkişaf etməmişdir və Azərbaycanın digər bölgələrinin siklopik tikililərinə bənzəmir. O, özünəməxsus arxaik memarlıq üslubunu qoruyub saxlamışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın Şimal-Qərb bölgəsində dağlarda aşkar edilmiş e.ə. II-I minilliklərə aid siklopik tikililər, bir sıra tədqiqatçıların qeyd etdiyi kimi, yalnız Gürcüstan ərazisində qədim siklopik tikililərə təsir göstərmişdir (şək. 38; 39; 40; 63). Elmi ədəbiyyatda onların qonşu bölgələrə təsirinə yalnız xronoloji göstərici kimi baxılırdı. Onun konkret təzahürləri təhlil edilmirdi. Amma, mövcud abidələrdə belə, onların konstruksiyalarının və tikilmə texnikasının kifayət qədər məhdud hissələrində Naxçıvan MR, Qərb Bölgəsi və Urmiyayanı bölgələrdəki müdafiə tikililəri ilə Azərbaycanın Şimal-Qərb bölgəsinin abidələri arasında fərqləri görmək olar.

Şimal-Qərb bölgəsinin siklopik tikililərində də divarların tikilmə konstruksiyasının inkişafını açıq-aşkar görürük.

Sonrakı dövrlərdə bu bölgədə siklopik tikililər yoxa çıxır. Onlar yalnız dəmir dövrünə qədər mövcud olmuşdur və sonradan inkişaf etməmişdir. Amma qeyd etmək lazımdır ki, onun memarlığı tamamilə izsiz keçməmişdir, onun, məsələn, planlaşdırma strukturuna olan təsiri daha sonrakı dövrlərə aid müdafiə tikililərində gözə çarpır.

Azərbaycanın Qərb bölgəsində yerləşən istehkam tikililərini müqayisə edərkən bir qədər fərqli mənzərə ilə qarşılaşırıq. Bu abidələr daha çox son tunc dövrünə aiddir. İri daş bloklardan hörülmüş mövcud qalalar və konstruktiv həllərlə yanaşı, üslub bir qədər müxtəlif memarlıq üsullarında təcəssüm etdirilmişdir, lakin bu, həmin dövrə aid Azərbaycan memarlığı üçün ortaq cəhət idi. Qeyd etmək lazımdır ki, tarixi Azərbaycanın Qərb bölgəsində qədim müdafiə tikililəri Urartu memarlığının təsiri altına düşmüşdür. Məsələn, Qanlıtəpə, Qırmızıtəpə qalaları. Bu bölgədə özünəməxsus Urartu memarlığının mövcudluğu təsirin həddindən artıq dərin olmadığını bir daha sübut edir.

Urartu müdafiə memarlığının tarixi Azərbaycanın bufer ərazilərinə bitişik ərazilərə təsiri də o qədər güclü olmamışdır. Bu ərazilər ümumilikdə tarixin həmin dövrünə aid yerli ənənələrini davam etdirirdi. Bu ənənələr yalnız bir sıra yeni memarlıq-konstruktiv həllərin meydana çıxdığı zaman zəiflədi.

İstehkam tikililərinin tikilməsi üzrə köhnə ənənələrin mövcud olmaqda davam etməsi ilə yanaşı, yeni qala növlərinin meydana gəlməsinin məhz bu xüsusiyyətini müşahidə edirik.

Urmiyayanı ərazilərdə, Azərbaycanın Qərb bölgəsində yerləşən qədim istehkamları Naxçıvan istehkamları ilə müqayisə edərkən görürük ki, onların tipoloji cəhətdən bənzər formaları və konstruktiv həlləri var idi. Amma onlar qonşu regionlar üçün səciyyəvi olmur, şəklini dəyişir və sonradan öz müstəqil inkişafını tapır.

Naxçıvan vilayətinin istehkamlı tikililərini tədqiq edərkən görürük ki, onlar o qədər də aydın deyil. Bu abidələrin tikilmə ənənəsi özünəməxsus, həddindən artıq bənzərsiz təcəssüm tapır və memarlıqda tamamilə yerli əsası olan yeni obrazlarla tamamlanır. Onların tədqiqi zamanı bir mədəniyyətin iki dövrü ayrılmışdır.

Naxçıvan MR ərazisində istehkam tikililərini konstruksiya xüsusiyyətlərinə görə fərqləndirmək olardı. Qədim istehkam tikililərində, daha dəqiq desək, orta tunc dövründə böyük daş bloklardan qülləli qala divarları ucaldılırdısa, məsələn, Kültəpə II, Oğlanqala və Qazançıqalada olduğu kimi, nisbətən sonrakı dövrlərdə - son tunc və erkən dəmir dövründə qala divarlarının qüllələri ortadan qalxır və onların əvəzinə rizalitlər ortaya çıxır – Vayxırqala, Çalxanqala, Qarabağlarqala və Aznabyurdqala.

Naxçıvan vilayətinin qədim istehkam tikililərində Hett dövlətinin erkən qalaları ilə memarlıq əlaqələri daha çox hiss olunur.

Müşahidələrimizdən görürük ki, Naxçıvan MR ərazisində tunc dövrünə aid istehkam tikililəri Hett mədəniyyətinə gedib çıxır, baxmayaraq ki, bir sıra planlaşdırma və konstruksiya qərarları onları fərqləndirir.

Tarixi Azərbaycanın Qərb bölgəsindəki qədim istehkamlarda, Geridərə, Qumluq və Səngər kimi qalalarda da analoji planlaşdırma və konstruksiya həlləri görürük.

Lakin Naxçıvan MR-in və tarixi Azərbaycanın Qərb bölgəsinin müdafiə memarlığında hett mədəniyyətinin ardıcıllıq yoluyla keçməsini qala divarlarının tikilməsi ənənələrinin davam etdirilməsi və inşaat materialları təsdiq edir. Həm Naxçıvan MR-də, həm də Qərb bölgəsində bütün qədim istehkam tikililərində böyük daş qayalardan kürsülük tikildiyini müşahidə edirik, onların yuxarı hissələri isə çiy kərpicdən tikilirdi.

Naxçıvan vilayətində və Qərb bölgəsində qədim müdafiə tikililərini tədqiq edən alimlər bu tikililərin əmələ gəlməsi və yox olması məsələlərini həll etməyin mümkünsüzlüyü ilə qarşılaşmışlar. Və tədqiqatın bu mərhələsində, nəticədə onlardan birincisinin bəzi həlli yollarını müəyyən etmək mümkün olubsa, ikinci məsələ ilə bağlı heç bir məlumatımız yoxdur. Axı tunc və erkən dəmir dövrünə aid qədim istehkamların yerini onlarla heç bir ortaq cəhəti olmayan mədəniyyətlər tutur.

Biz bu tikililərdə xronoloji ardıcıllığa rast gəlmirik (6).

Müdafiə tikililəri artıq onları antik dövrün istehkamları ilə birləşdirən xüsusiyyətlərə malikdir.

Urmiyayanı bölgənin istehkam tikililərində də Naxçıvan istehkamları ilə müəyyən yaxınlıq müşahidə edirik. Urmiyayanı qalalarla yaxınlıq saxsı materiallarında da görünür. Burada bəzi saxsı motivləri Naxçıvan prototiplərini olduğu kimi təkrar edir, baxmayaraq ki, daha çox üslublaşdırılmış görünür və Kür-Araz mədəniyyətinə aid edilir.

Naxçıvan MR ərazisində daha çox istehkamlar həm də qala divarları içində ibadətgahların və kiçik yaşayış otaqlarının olması ilə Urmiyayanı abidələrə bənzəyir. Tarixi Azərbaycanın Qərb bölgəsində də eyni inşaat prinsipi ilə qarşılaşırıq. Onlara Naxçıvan bölgəsində Oğlanqala, Azanberdqala, Qazançıqala və

Vayxırqala; tarixi Azərbaycanın Qərb bölgəsində Geridərəqala, Qumlaqqala, Daştılarqala və Səngərqala; Urmiyayanı bölgədə Bastam, Qala Ziyah, Danalı, Zegindeyi, Libliuni və s. aid etmək olar.

Azərbaycanın bu üç bölgəsinin qədim istehkamları arasında genetik əlaqələr olduğunu qəti demək olmaz. Onlar arasında böyük xronoloji uyğunsuzluqlar var. Lakin güman etmək olar ki, onlar Hett və Urartu müdafiə tikililəri ilə qohum olan eyni mədəniyyətə aiddir (7).

Həmçinin, eramızdan əvvəl I minilliyin sonlarında Urmiyayanı bölgənin istehkam tikililərinin də mövcudluğuna son qoyulur və tarixi Azərbaycan ərazisində sonrakı dövrlərə aid tikililərdə onun heç bir izi aşkarlanmamışdır.

Urmiyayanı bölgənin müdafiə memarlığının Naxçıvan memarlığına təsiri məsələsi daha mürəkkəbdir. Naxçıvan vilayətində siklopik istehkam tikililəri aşkar edilməzdən əvvəl onları Urartu inşaat mədəniyyətinin bilavasitə təsiri ilə əlaqələndirirdilər. Naxçıvan bölgəsinin qədim abidələri elmi dövriyyəyə girdikdən sonra isə məhz onların Urmiyayanı bölgəyə, bəlkə də hələ son tunc və erkən dəmir dövründə Urartu abidələrinə təsir mənbəyi olduğu barədə fikir yarandı. Həqiqətən, Naxçıvan vilayətinin istehkam tikililərinə baxarkən və onları Urmiyayanı və Urartu abidələri ilə müqayisə edərkən görürük ki, Naxçıvan abidələri, tarixi Azərbaycanın Qərb bölgəsindəki istehkamlar kimi, bu bölgələrə və dövlətlərə təsir etmiş Kür-Araz mədəniyyətinə aiddir. Həm Naxçıvan, həm də Qərb bölgələrindəki müdafiə tikililəri bir sıra qonşu bölgə və regionlarda istehkam tikililərinin inşaatında bənzətmə mənbəyi olmuşdur.

Amma bu rəy problemi tamamilə həll etmir. Onların qarşılıqlı təsirinin və qarşılıqlı əlaqələrinin necə getdiyi məsələsi həll edilməmiş qalır. İndiyədək bu, tədqiqatçıların layiqli diqqətini çəkməyib. Və bu, tamamilə qanunauyğundur, belə ki, tədqiqatçılar bu tikililərə yalnız xronoloji göstərici kimi baxırdılar.

Bir sıra nümunələrdə istehkam tikililəri tipoloji təsnifatına, inşaat materiallarına və funksional təyinatlarına görə qruplara ayrılmışdır.

Müdafiə tikililərinin tipoloji əlamətlərinə görə bölündüyü birinci qrupda əsasən onların planlaşdırma strukturuna və üslubuna diqqət yetirilmişdir.

Bu tikililərin ikinci qrupuna inşaat materiallarına və konstruksiyalarına görə "siklopik"tikili olan bütün müdafiə tikililəri aid edilmişdir.

İstehkamlı tikililərin tədqiqi belə bir nəticəyə gəlməyə imkan verdi ki, üçüncü qrupa istehkamlı məskən, qala və mal-qara saxlanması üçün yer hesab edilə bilən abidələri aid etmək olar.

Bu tədqiqat prosesində həmin dövr müdafiə memarlığının qanunauyğun inkişafının mənası itirdi. İstehkam tikililərinin qruplara ayrılması uzun müddət hamı tərəfindən qəbul edildi, baxmayaraq ki, onları bir qədər dəyişmək cəhdləri edilirdi.

Bu məsələni xüsusi olaraq tədqiq edərkən, tarixi Azərbaycan ərazisində müdafiə memarlığının üç inkişaf dövrünü müşahidə etdik: 1-ci dövr – erkən tunc dövrü – Qobustanda Dayra istehkam tikilisi; II dövr – orta tunc dövrü – Kültəpə II (Naxçıvan MR) və Üzərliktəpə (Azarbaycanın Ağdam rayonu) istehkam məskəni; III dövr – son tunc və erkən dəmir dövrü – Azərbaycanın Urmiyayanı bölgəsində Həsənlu, Bastam qalaları, Naxçıvan MR-də Oğlanqala,

Qazançıqala; Azərbaycanın Şimal-Qərb bölgəsində Qrekqala və Heydər qalası; tarixi Azərbaycanın Qərb bölgəsində Qırmızıtəpə və Qanlıtəpə.

Yuxarıda deyilənlərdən belə bir nəticəyə gəlirik ki, istehkam tikililərinin daha çox cəmləşdiyi yer, şübhəsiz ki, 240-dan artıq Azərbaycanın Şimal-Qərb vilayəti, daha sonra 60 tikili ilə Urmiyayanı bölgəsi, 12 Naxçıvan MR və 50 tikili Azərbaycanın Qərb bölgəsidir.

Lakin qeyd etmək lazımdır ki, qala divarları, tipoloji təsnifatı, inşaat materialları, habelə funksional təyinatları ilə istehkam tikililərinin yayılması hələ eneolit mədəniyyətinin son mərhələsində məlum idi. Eneolit dövrünə aid bu abidələr tədqiqini gözləyir.

Bütün yuxarıda deyilənlərə əsaslanaraq hesab etmək olar ki, tarixi Azərbaycan ərazisində istehkam tikililərinin yayılması birbaşa Ön Şərqdən deyil, bu prosesdə vasitəçi rolunu oynayan qarşılıqlı əlaqə və qarşılıqlı təsir mədəniyyəti vasitəsilə gəlirdi, baxmayaraq ki, yaxınlıqda yerləşən regionlar və bölgələrlə şübhəsiz birbaşa əlaqələr də var idi. Buradan belə çıxır ki, bu yayılmanı, çətin ki, adətən elmi ədəbiyyatda yazıldığı kimi, qədim şərqdə quldarlıq çarlıqlarının böyük imperiyalarının mövcudluğu ilə izah etmək olsun. Qədim istehkamların inkişafını Ön Şərq mədəniyyətinin daşıyıcıları və onların bu bölgə və regionlarda yaşayan yerli tayfalar və xalqlarla əlaqələri ilə bağlamaq daha məntiqlidir.

## ƏDƏBİYYAT


1. Мещанинов И.И. Циклопические сооружения Закавказья. ЦГАИМК, т.XIII, вып. 4-7, 1932.
2. Джафарзаде И.М. Циклопические сооружения Азербайджана. Тр.Аз.ФАН СССР, 1938, т.55, 54.
3. Халилов Дж.А. Археологические памятники Западного Азербайджана в эпоху бронзы и начала железного века. Баку, 1958.
4. Керимов В.И. История развития оборонительного зодчества Азербайджана с древнейших времен до XIX века. Баку, 2007.
5. Керимов В.И. Оборонительные сооружения Азербайджана древнего периода. Баку, 2003.
6. Новосельцев А.П. Генезис феодализма в странах Закавказья. М., 1980.
7. Мещанинов И.И. Восточное Закавказье времен халдских завоевания. ВДИ, 1937, №1.

# AZƏRBAYCANIN QƏDİM MÜDAFİƏ TİKİLİLƏRİ, ŞƏHƏRSALMA SƏNƏTİ ABİDƏLƏRİ

Azərbaycanın qədim dövr müdafiə memarlığı abidələrinin əsas tərəfini diyarın tarixi və mədəniyyətini xarakterizə edə bilərik.

Tunc və erkən dəmir dövrü tarixi Azərbaycan ərazisində neolit dövrü abidələrinin əvəzinə "siklopik" istehkamlı məskən və qala tikililərinin gəlməsi ilə səciyyələnir. Bu tikililər Kültəpə II, Şahtaxtıqala, Üzərliktəpə, Həsənli, Qala Ziyah, Bastam, Oğlanqala, Qrekqala, Fereahram, Ağqala, Geridərə, Qumluq, Daştılar, Qanlıtəpə, Qırmızıtəpə və s. tikililərin dağıntılarında təmsil olunmuşdur.

Təpələrdə və alçaq dağlıq ərazilərdə yerləşən bu istehkam tikililəri, alçaq yerdə və ya dağların yüksək yerlərində yerləşməsindən asılı olmayaraq, bilavasitə onları təchiz edən su magistralında yerləşirdilər.

Tunc və erkən dəmir dövrünə aid qala divarları və kənara çıxan qüllələrlə əhatə olunmuş istehkam tikililəri və qalalar əsasən ərazi relyefinin formasına malik idi. Bu istehkam tikililərinin daxili planı onların təyinatından asılı idi. Mədəni qalıqlardan, demək olar ki, tamamilə məhrum olan istehkam tikililərinə də rast gəlinirdi. Əminliklə iddia etmək olar ki, bu istehkamlardan yaşayış yeri olaraq istifadə olunmurdu. Bütün həyat istehkamlı məskənin və ya qalanın güclü qala divarları massivinin içərisində, qala divarları yaxınlığında, bəzən isə kiçik bürclərin mərkəzində yerləşən kiçik yaşayış evlərində cəmlənmişdi.

Bu istehkamlı məskənləri və qalaları yaşayış yerləri ilə müqayisə edərkən görürük ki, qala divarları və kənara çıxan bürcləri olan bu tikililər şəhərsalma strukturunun bilavasitə inkişafıdır. Əslində bu, şəhər sivilizasiyasının törəməsi idi.

Bu məskənlərin və qalaların istehkamlarının müdafiə xətləri kifayət qədər mükəmməl idi. Divarlar xaricdən də güclü qüllələr və kənara çıxan kontrforslarla müdafiə olunurdu.

Divarlar və qüllələr baca səviyyəsinə qədər qalmasa da, divarların və qüllələrin konstruksiyasının strukturundakı ümumi yaxınlıq, həmçinin istehkam tikililərinin növləri bu tikililərin şəhərsalma xarakterini, demək olar ki, tamamilə yenidən qurmağa imkan verir.

Daxili sahəsi böyük olan bir sıra istehkamlı məskənlərin və qalaların təyinatı məsələsi qalır. Bizə elə gəlir ki, bir sıra istehkamlardan bu bölgə və ya regionda məskunlaşan qədim tayfaların müdafiə olunacaq əsas sərvəti olan mal-qaranın və çox sayda insanın saxlanması üçün istifadə olunması haqqında ehtimal daha həqiqətəuyğundur.

Rast gəldiyimiz yaşayış tikililəri olan istehkamlı məskənlər və qalalar bəzi mixi yazılarda təsvir edilmiş və ya Assuriya və Urartu çarlarının fərmanı ilə qaya süxurlarında qabarıq şəkildə əks olunmuş məskən və ya qalaların növünü yaxından təkrar edir.

Mixi yazılar və Assuriya və Urartu çarlarının göstərişi ilə yerinə yetirilmiş relyef təsvirləri yekdilliklə güclə ələ keçirilmiş və məhv edilmiş güclü istehkamlı məskən və qalalardan, əsir götürülmüş əhalinin və sərvətlərin aparıldığından xəbər verir.

Lakin qeyd etmək lazımdır ki, mixi yazılarda Urartu və Assur çarları tərəfindən ələ keçirilmiş çox sayda qalanın adı çəkilir. Çox güman ki, bu rəqəmlərin bəziləri şişirdilib. Lakin tarixi Azərbaycan ərazisində Assuriya və Urartu müşahidəçiləri üçün çox sayda istehkamlı məskən və qalaların mövcudluğu haqqında qəti danışmaq təmayülü səciyyəvidir.

Siklopik istehkam tikililərinin məhz bu arxaik planlaşdırılma növü qədim tarixçilərin qeyd etdiyi paradoksal faktın izahıdır.

Həqiqətən, tarixi Azərbaycan ərazisində tunc və erkən dəmir dövrünə aid memarlıq abidələri arasında daxili yaşayış tikililəri olan istehkamlı məskənlər və qalalar həmin dövrə görə böyük sahəyə malik idi. Həmin dövrə aid bizə məlum olan ən böyük abidələr Kültəpə II, Şahtaxtıqala, Oğlanqala, Həsənli, Bastam, Qala Ziyah, Çobanabdanlı, Ağqala, Geridərə, Qırmızıtəpə, Qanlıtəpədir, onların sahəsi 7-10 ha-dan çox idi.

Etnoqrafik müqayisələrə müraciət etsək, Türkiyənin şərq hissəsi ərazisindəki istehkamlı məskən və qalalarda bənzər abidələr görə bilərik – qədim Van şəhəri, Tuşpa, Anaşe, Arbakku, Uşurnu, Mehri, Uşhu, Mantupa, Kibaku və s.

Beləliklə, tarixi Azərbaycan ərazisində tunc və erkən dəmir dövrünə aid qədim istehkamlı məskən və qalaların geniş daxili məkanı, kiçik tikililər və bürcü olan planı, zənnimizcə, Azərbaycanın demək olar ki, bütün qədim mixi mənbələrdə adı çəkilən saysız-hesabsız şəhərləri məsələsini həll edir.

Ən erkən mənbələr Assur çarlarının Manna dövləti haqqındakı dəlilləridir. Mixi yazılarda çoxsaylı əlçatmaz istehkamlı məskən və qalalardan, silah gücünə ələ keçirilən çox sayda böyük şəhərlərdən xəbər verilir.

Bununla əlaqədar Cənubi Qafqazın, xüsusən Azərbaycanın qədim xalqlarının tarixi ilə bağlı araşdırmalar aparmış bir sıra alimlərin Azərbaycandakı istehkamlı icma məskənlərinin yalnız Assuriya və Urartu çarlarının istilalarından sonra ortaya çıxdığı, onların bu bölgələri fəth etdikdən sonra çox sayda qala və istehkamlı məskən tikməsi barədə fikirlərini xatırlamaq yerinə düşərdi. Onlardan əvvəl, guya, yerli tayfaların istehkamsız məskənləri var idi.

Elmi-tədqiqat araşdırmalarına əsaslanan faktiki materialımız tarixi Azərbaycan ərazisində tunc və erkən dəmir dövründə tamamilə fərqli ictimai məişət mənzərəsi ortaya çıxarır. Burada bizim qarşımızda Assuriya və Urartu çarlarının ekspansiyası deyil, ibtidai icma quruluşunun quldarlıq elementləri ilə birləşən güclü mədəniyyət təbəqələri, tayfaların məskənlərinin kəşfi deyil, ibtidai icmaların yüksək divarlarla və qüllələrlə əhatə olunmuş istehkamlı məskən və qalaları durur. Bu zaman arxeoloji qazıntılar zamanı aşkar edilmiş artefaktlar həm Assur, həm də Urartu mixi mətnlərinin göstəriciləri ilə əlaqələndirilir. Memarlıq-arxeoloji tədqiqatlar bir daha sübut edir ki, güclü müdafiə xətləri olan istehkamlı məskənlər və qalalar xeyli əvvəl ortaya çıxmışdır.

Əvvəldə bəhs etdiyimiz, bir çox tərəfləri qaranlıq qalan yürüşlərlə bağlı birbaşa dəlillər, onların ələ keçirilən istehkamlı tikililər haqqında göstərdikləri rəqəmlərin

açıq-aşkar şişirdilməsinə baxmayaraq, indi yalnız bu istehkamlı məskənlər və qalalar haqqında dəlil kimi təfsir edilə bilməz. Deyilənlərdən belə bir nəticə çıxarmaq olar: Azərbaycan tarixində istehkamlı məskənlər və qalalar əsasən hündür ərazilərdə yerləşirdi və müdafiə etmək qabiliyyəti ilə fərqlənirdi. Qeyd etmək lazımdır ki, bu tikililər kifayət qədər böyükdür, daha sonrakı dövrlərə aid əlimizdə olan bütün məskən və qalaların, yaşayış tikililərinin ölçülərindən xeyli böyükdür ki, bu da Assuriya və Urartu çarlarının qoyduğu qayaüstü rəsmlərdə məhz bu növ məskən və qalalar görməli olduğumuz barədə nəticəyə gəlməyə imkan verir.

Yalnız bu tezisin (fikrin) qəbul edilməsi bu məskənlərin və qalaların həddindən artıq böyük ölçülərini anlamağa kömək edir.

Azərbaycanın qədim dövr istehkam tikililəri bizə həmçinin müqayisə olunmaz dərəcədə zəngin və müxtəlif materiallar verir. Bu tikililərin dağıntıları müstəsna olaraq yaxşı vəziyyətdə qorunub saxlanmışdır. Müdafiə memarlığının bir sıra abidələrində divarların və qüllələrin yaxşı vəziyyətdə qorunub saxlandığını görmək olar. Yaşayış tikililərinə gəlincə, onlar istehkam xətlərindən daha pis vəziyyətdə qalmışdır. Göründüyü kimi, vaxt öz təsirini göstərmişdir. Bu abidələrin hansı tarixə aid olduğunu müəyyən etmək üçün əsas material saxsı qablardır. İkinci tarixqoyma materialı istehkam tikililərində istifadə olunan inşaat materialı -qala divarlarının tikintisində istifadə olunan böyük daş bloklar, habelə konstruksiyalarda istifadə olunan çiy kərpicdir.

Beləliklə, bütün məlumatlar tarixi Azərbaycan ərazisindəki müdafiə tikililərini e.ə. III-I minilliklərə - tunc və erkən dəmir dövrünə, erkən sinfi cəmiyyətin əmələ gəlməsi dövrünə aid etməyə imkan verir.

Azərbaycanın müdafiə tikililərinin xarakteristikasına qayıtdıqda, əgər orta tunc dövründə istehkamlı müdafiə xətlərində kənara çıxan qüllələrə rast gəlinirdisə, bu zaman son tunc və erkən dəmir dövründə onların rizalitlər – kənara çıxan və dərinləşən müdafiə xətləri ilə əvəz olunduqları qeyd edildiyini görmək olar.

Və qeyd etməliyik ki, daha sonrakı dövrdə müdafiə sistemi həddindən artıq primitiv xarakterə malikdir. Bəzi qalalarda istifadə olunmamış, qüllələrin köməyilə divarların cinahdan müdafiəsinin daha səmərəli üsuluna rast gəlirik. Müdafiə sistemində qüllələrdən istifadə edilməməsinin bu qədər səmərəsiz üsulu bu tikililərin qədimliyindən və şübhəsiz yerli mənşəli olduğundan xəbər verməsi tamamilə təbiidir, çünki Qədim Şərqdə qüllələrin köməyi ilə divar və künclərin müdafiəsi sistemi ən azından e.ə. III minilliyə gedib çıxır.

Bununla əlaqədar olaraq, bir sıra alimlərin Azərbaycan ərazisinin assuriyalılar, daha sonra isə urartulular tərəfindən işğal edilməsinə qədər yerli əhalinin istehkam sistemlərinin inşası ilə bağlı məlumatlı olmadıqları barədə fərziyyələrini bir daha xatırlatmaq istərdik. Lakin Azərbaycan alimlərinin araşdırmaları göstərmişdir ki, Azərbaycan ərazisində erkən dövrlərdə istehkam tikililərinin qüllələri var idi, sonrakı dövrlərdə isə onlar yoxa çıxır ki, bu da Qədim Şərq ölkələrindən istehkam prinsiplərinin mənimsənildiyi ehtimalını istisna edir, bu da öz növbəsində həmin fərziyyəni təkzib edir.

Bu istehkam növü, ibtidai demokratiya ənənələrinin bütün əlamətlərini özlərində daşıyan müdafiənin təşkilinin kifayət qədər arxaik xarakterindən xəbər verir.

Beləliklə, bütünlükdə həm istehkamlı yaşayış məskənlərin və qismən qalaların planlaşdırılması, həm də onun sahəsi üzərində üstün və küçəni kəsən tikilinin xüsusiyyətləri tarixi Azərbaycan ərazisində qədim tayfaların dərin ənənələrini və onların ictimai quruluşunun qədimliyini göstərir.

Şəhər həyatının çiçəklənməsi, sənətdə və incəsənətdə ictimai əmək bölgüsünün xeyli irəlilədiyini göstərən yüksək inkişaf səviyyəsi, siniflərin və güclü dövlətlərin şübhəsiz mövcudluğu Assuriya, daha sonra isə Urartu dövrünün cəmiyyəti ilə ziddiyyətli vəhdətdədir. Bu cəmiyyətlər ictimai birliyin həddindən artıq qədim xüsusiyyətlərini qoruyub saxlayan, əlçatmaz qala divarları arxasında yaşayan qəbilə icmasıdır.

Ümumilikdə tarixi Azərbaycan ərazisində tunc və erkən dəmir dövrünə aid müdafiə tikililərinin mənzərəsi daha dolğun açılır, bizim mixi yazılar əsasında irəli sürdüyümüz fərziyyəni təsdiq edir ki, bu tikililər kifayət qədər qədim ictimai-məişət quruluşu ilə bağlı olan böyük tayfa icmalarının cəmi idi.

Dəmir dövrünün sonlarında istehkamlı məskənlər və qalalar əsas xüsusiyyətlərində tunc dövrünün istehkamlı tikililəri üçün müəyyən etdiyimiz həyat tərzini, hətta məskənin sənətkar məhəllələrinə bölünməsi ənənəsini qoruyub saxlamaqda davam edir.

Ümumilikdə, Azərbaycanın qədim dövr müdafiə tikililərinin memarlıq kompozisiyası – qala divarlarının və qüllələrinin şaquli bölgüsü, habelə mərkəzi binanın bürc şəklində yüksəkliyi, qala divarlarına bitişik yaşayış tikililərinin ön plana çıxması klassik Qədim Şərq memarlığının formaları ilə assosiasiya edilir.

Beləliklə, Azərbaycanın qədim dövr müdafiə tikililəri öz inkişafında Qədim İkiçayarası memarlığının vaxtilə keçdiyi çoxəsrlik memarlıq üslubunu təkrar etməsi tunc dövrünün sosial-iqtisadi əlamətlərinin müəyyən edilməsi üçün kifayət qədər mühüm faktdır.

Beləliklə, qarşımızda tunc və erkən dəmir dövrünün inkişaf etmiş memarlığının ictimai quruluşunun xüsusiyyətləri açılır və biz onun bəzi inkişaf xüsusiyyətlərini izah etməyə çalışdıq.

Azərbaycanın qədim dövr müdafiə memarlığı arxeoloji abidələr əsasında səciyyəvi Qədim Şərq memarlığı kimi qarşımızda durur.

Azərbaycanın qədim dövr müdafiə memarlığı səciyyəvi qədim şərq memarlığı nümunələri kimi, öz təcəssümünü arxeoloji abidələrində tapır, burada bir tərəfdən güclü quldarlıq zadəganlarının rəhbərliyi altında inkişaf etmiş şəhər həyatının ziddiyyətləri, digər tərəfdən isə özündə qəbilə quruluşunun müxtəlif və möhkəm ənənənələrini daşıyan həddindən artıq qədim və sabit icma quruluşu birləşir.

Azərbaycanın qədim dövr istehkam tikililərinin təhlili göstərir ki,məhz onlar antik, daha sonra isə feodalizm elementlərinin əmələ gəlməsini əks etdirən yeni sosial-iqtisadi təmayüllərin təzahürü sahəsidir.

# NƏTİCƏ

Tarix elminin inkişafı fasiləsiz mütərəqqi prosesdir. Yeni materiallar toplandıqca yeni ideyalar yaranır, əvvəlki qiymətləndirmələr və konsepsiyalar dəqiqləşdirilir və ya onlara yenidən baxılır. Bu, elmi araşdırmalara yekun vurmaq, nailiyyətləri cəmləşdirmək, yeni aşkar edilmiş materiallara nəzər salmaq və artıq məlum olan materialları yenidən qiymətləndirmək məqsədi daşıyan ümumiləşdirici əsərlər yaradılmasını zəruri edir.

Hazırki mərhələdə Azərbaycan ərazisində qədim tayfa ittifaqlarının və dövlətlərin inşaat sənəti ilə bağlı toplanmış material, müxtəlif bölgələrdə və müxtəlif mərhələlərdə onun təkamül xüsusiyyətlərinin aydınlaşdırılması onların inkişafının ümumi qanunauyğunluqlarını daha dolğun anlamağa imkan verir.

Sizə təqdim edilən "Azərbaycan ərazisində ən qədim tayfa ittifaqlarının və dövlətlərin inşaat sənəti tarixi" Azərbaycan ərazisində neolit dövründən son tunc və erkən dəmir dövrünə qədər qədim məskənlərə və istehkamlara həsr edilmiş ümumiləşdirici müstəqil elmi işdir. Elmi araşdırma qədim tarix, arxeologiya və memarlıq sahəsində ən yeni kəşf materiallarına əsaslanmışdır və XIX əsrin sonları – XXI əsrin əvvəllərinə aid elmi biliklərimizi əks etdirir.

Tarixi Azərbaycan ərazisində qədim dövr inşaat sənəti ən qədim sinfi cəmiyyətlərin tarixi, cəmiyyətin mədəni inkişafında ən mühüm mərhələ, müxtəlif elmlərin, tarixin, memarlığın və təsviri incəsənətin ortaya çıxması dövrüdür.

Tarixi Azərbaycan ərazisi Qədim Şərqin mədəni inkişaf sahəsinə daxil idi. Qədim Şərq ərazisi Qafqaz dağlarından və Orta Asiyadan Fars körfəzinə, Cənubi Ərəbistana, Afrika gölləri ölkələrinə, İran və Hindistan hüdudlarından Herakl sütunlarına qədər uzanır. Xalqların mədəniyyət sahəsində nailiyyətlərini qarşılıqlı olaraq zənginləşdirməsinə şərait yaradan yazı ilk dəfə məhz Şərqdə meydana gəlmişdir.

Hələ XX yüzilliyin əvvəllərində qədim mərkəzlərin yayılmasına və onların bəşər tarixində rolunun müəyyən edilməsinə tərif verilmişdir. Fələstin, Livan, Suriya, Türkiyənin Cənub hissəsi, Şimali Mesopotamiyanın dağətəyi və çay vadilərini əhatə edən, orada Şərqə, İran və Cənubi Qafqaz bölgəsinə, habelə Orta Asiyanın Cənubuna qədər uzanan Cənub-Qərbi Asiya mərkəzi xüsusilə diqqətəlayiqdir. Sivilizasiyanın meydana gəlməsi bu mərkəzlə bağlıdır.

Yuxarıda sadalanan bütün subkontinentlərdə torpağın işlənməsi üçün sahilyanı ərazilərdən istifadə edirdilər. Məhz Nil, Dəclə, Fərat, Araz, Kür çaylarının vadiləri ən qədim sinfi cəmiyyət və sivilizasiya mərkəzləri olmuşdur.

Qədim dövr memarlıq tarixi bəşəriyyətin mədəni inkişafında ən mühüm mərhələlərdən biridir. Müxtəlif mərhələlər məhz memarlıqda daha aydın hiss olunur. Xalqların mədəniyyət nailiyyətləri ilə zənginləşməsinə şərait yaradan ilk memarlıq tikililəri məhz Qədim Şərqdə meydana gəlir.

Tarixi Azərbaycan ərazisində qədim memarlıq məsələsinə toxunarkən qeyd etmək lazımdır ki, bir çox səbəblərdən qədim dövrün inşaat sənətinin bütün tərəflərini, Yunanıstan və ya Roma memarlıq tarixində olduğu kimi hərtərəfli şərh etmək bir çox səbəblərdən, demək olar ki, mümkün deyil. Bu, həmin tikililərin daha çox dağılması, habelə onların tikilməsi haqqında məlumatların olmaması ilə əlaqədardır.

Tarixi Azərbaycan ərazisində ən qədim dövr inşaat sənəti bu yaxınlara qədər insan fəaliyyətinin az tədqiq edilmiş sahəsi hesab olunurdu. Onların plana uyğun şəkildə tədqiq edilməsi e.ə. VII minilliyə aid çoxsaylı yeni abidələr aşkar etməyə imkan vermişdir. Bu, tarixi Azərbaycan ərazisində məskunlaşan xalqın inşaat sənətinin yüksək inkişaf səviyyəsində olduğunu sübut edən qədim məskənlərdir.

Aşkar edilmiş daş əmək alətləri qədim daş dövründən etiba rən burada insanların yaşadığına və inşaat fəaliyyətinə dəlalət edir. İnsanların ilk yaşayış məskənləri meşə kolluqları, böyük və kiçik oyuqlar, mağaralar və kahalar idi. Onlar Kiçik və Böyük Qafqazın dağətəyi rayonlarında yaylalarda, habelə Talış dağlarında yerləşir. Bəzi mağaralarda yüz illərlə həyat olmuşdur.

Pre-neandertalın alt çənəsinin qalıqları tapılmış Azıx mağarası, habelə neandertal uşaq qalıqları tapılmış Şanidar mağarası diqqətə layiqdir.

Tarixi Azərbaycan ərazisində qədim paleolit abidələri məlumdur. Damcılı, Daşsalahlı mağaralarında, Azıx mağarasının üst qatlarında olduğu kimi, Qadir-dərə, Çamıxlı, Marallı kimi açıq düşərgələrdə də mustye mədəniyyətinə aid əmək alətləri tapılmışdır.

Erkən və orta paleolit dövründə Azərbaycan ərazisində insanlar ən qədim ictimai birlik forması olan kiçik qruplar şəklində yaşayırdılar. Bu qrupun əsasını kollektiv əmək təşkil edirdi. Orta paleolit dövründə artıq qəbilə quruluşu yaranmışdı.

Ən qədim bəşər tarixinin növbəti mərhələsi – üst paleolit Azərbaycanda Tağlar, Damcılı, Yataqyeri, Buzeir, Zar, Qazma, Yataqyeri mağaralarında öz əksini tapmışdır.

E.ə. X minilliyin əvvəllərinə doğru Azərbaycanda qədim daş dövrünü mezolit əvəz edir. Qobustanda qazıntılar qədim yaşayış düşərgələrini, qədim qayaüstü rəsmlərin nadir kolleksiyasını, habelə çaxmaqdaşından hazırlanmış çox sayda müxtəlif əmək alətləri aşkarlamağa imkan vermişdir.

Neolit dövründə (e.ə. VII-VI minilliklər) artıq daimi düşərgələr meydana çıxmışdı və tədricən qədim qəbilə yaşayış məskənlərinə çevrilirdi. Azərbaycanda neolit abidələri Damcılı mağarasında, Qobustanda, Naxçıvanda, Gəncə yaxınlığında, Xanlarda, Sisianda, Sevan (Göyçə) gölünün cənub sahilində aşkar edilmişdir.

Tarixi Azərbaycan ərazisində bəşər cəmiyyətinin inkişafının növbəti mərhələsi – eneolit dövrü qısa sürmüşdür (e.ə. VI-III minilliklər). Hələ daş alətlərdən istifadə dövründə möhkəm daş süxurların axtarışında insan mis külçələri ilə qarşılaşmış və ilk dəfə metalla tanış olmuşdurlar. Həmin dövrə aid arxeoloji abidələrdə artıq metal əşyalar – bıçaqlar, iynələr, bizlər, rombşəkilli ox ucları tapırıq.

Tarixi Azərbaycan ərazisində eneolit dövrünə aid abidələr Naxçıvan MR-in hər yerində, Mil-Qarabağ və Muğan düzlərində, Kür çayı və Kiçik Qafqaz dağı arasında, Quba-Xaçmaz zonasında, Qobustanda, Təbriz yaxınlığında, Urmiya gölünün qərb sahilində, Sevan (Göyçə) gölünün cənub sahilində, Sisianda tapılmışdır. Bütün bu məskənlər istehsal təsərrüfatı olan oturaq əkinçilik-maldarlıq cəmiyyətləri növünə aiddir.

Hazırda Cənubi Qafqaz ərazisində 170-dən çox son neolit və əsasən eneolit dövrünə aid erkən əkinçilik məskəni məlumdur. Onların böyük əksəriyyəti Azərbaycanda yerləşir.

Eneolit dövrünə aid məskənlərdə tədqiq edilmiş materiallar e.ə. VI-III minilliklərdə tarixi Azərbaycan ərazisində mədəni inkişaf mərhələsini kifayət qədər aydın səciyyələndirir.

Eneolit dövründə məskənlər əsasən məhsuldar düzlərdə süni təpə şəklində olan daş bünövrə üzərində gildən dairəvi və yarımdairəvi formada tikilirdi.

Bu ilk erkən əkinçilik məskənlərinin hələ müdafiə tikililəri yox idi. Evlərin yarandığı ən erkən mərhələlərdə onun inkişafını bir sıra amillər müəyyən edirdi – bu, ailənin tərkibi və maddi-texniki vəsaitlər idi. İnşaat üsulları və konstruksiyalar sadə idi. Çiy kərpic divarlar gillə zəngin olan aran və dağətəyi rayonlarda tikilirdi.

Tarixi Azərbaycan ərazisində erkən tunc dövrü qədim Kür-Araz mədəniyyəti məskənləri ilə səciyyələnir.

Metallurgiyanın yaranması, əkinçiliyin və maldarlığın istehsal təsərrüfatının əsas formasına çevrilməsi, məskənlərin tikintisi, mədəni-iqtisadi əlaqələrin genişlənməsi və nəhayət, Qafqaz etnik birliyinin formalaşması və inkişafı bu özünəməxsus qədim mədəniyyətinin çiçəklənməsi və yayılması dövründə əsas radikal dəyişikliklər hesab olunurdu.

Kür-Araz mədəniyyətinin yayıldığı geniş tarixi Azərbaycan ərazisində eyni zamanda bir neçə təpəni əhatə edən qrup şəklində məskənlər məlumdur. Sahəsindən asılı olmayaraq, belə məskənlərdə insanlar eyni zamanda məskunlaşırdı və hər bir təpə qohum ailə-qəbilə icmasının yaşayış yeri idi. Məhz bu cür məskənlər üçün müdafiə divarları artıq səciyyəvidir – bu, Qaraköpəktəpə, Kültəpə II, Üzərliktəpə və Şengavit məskənləridir.

Bu məskənlərin müdafiə divarları daşdan quru hörgü ilə tikilirdi. Qala divarlarının konstruksiyası xarici və daxili səthi əmələ gətirən və ara hissələri kiçik daşlar ilə oldurulan iki hörgü sıralarından ibarət idi. əşkil edən iki onların arası kiçik daşlarla doldurulurdu.

Metal əmək alətləri meydana çıxdıqca binaların tikilməsi texnikası sürətlə inkişaf etməyə başladı. İnşaatda emal edilmiş daş bloklardan istifadə etməyə başladılar. Belə daşlardan hörgü daha sıx, müxtəlif növ dağıntılara daha davamlı olurdu.

Qala divarlarının ucalmasının başlanğıc mərhələsində yaşayış məskənlərinin sakinləri yalnız perimetrik şəkildə yerləşən yaşayış yerlərinin xarici divarları ara hissələrini möhkəmləndirirdilər ki, bunun da sayəsində yaşayış məskəni ətrafında qapalı halqa yaranırdı. Mövcud qalaların içərisində əlavə müdafiə xətti yaradan ara divarların ucaldılması halları da məlumdur.

İstehkamların müdafiə gücünü artıran səmərəli tədbirlərdən biri hələ e.ə. IV minillikdə təcrübədə tətbiq edilmiş kontrfors konstruksiyası olmuşdur. Kontrforsların geniş yayılmış forması düzbucaqlı kontrforslar idi.

Kontrforsların ölçüləri müxtəlif idi. Bəzi kontrforsları döyüş qüllələrinə aid etmək olar, hücum zamanı mühasirəyə alınanlar onların zirvəsindən müdafiə olunurdular. Cənubi Azərbaycan ərazisində çıxıntılı kontrforsları və qüllələri olan istehkam tikililərinə e.ə. IX-VII əsrlərdə kütləvi şəkildə rast gəlirik. İstehkam tikililərində kontrforslardan başqa, qalanın möhkəmlənməsində mühüm rol oynayan rizalitlərə də rast gəlirik.

E.ə. III minilliyin ikinci yarısından etibarən tayfaların və tayfa ittifaqlarının birləşməsi və qəbilə zadəganlarının ayrılması şəraitində köhnə siklopik qalalar bərpa edilir və yeniləri tikilirdi. Onlarda mərkəzi yeri bürclər tutmağa başladı. Onların sırasında əsas yeri iç qalalar tuturdu.

E.ə. I minilliyin əvvəllərində Van gölü bölgəsində Urartu hərbi-quldarlıq dövləti yarandı. Assuriyalıların şimala doğru irəliləməsinə mane olan Urartulular tədricən tarixi Azərbaycanın Qərb bölgəsini işğal edərək, şimalda Çaldır və Sevan (Göyçə) gölləri və Alagöz dağı, habelə qismən Urmiya gölünün Qərb sahili, Manna çarlığı ərazisi ilə həmsərhəd olur.

E.ə. IX-VI əsrlərdə inşaat işlərinin həyata keçirilməsi yüksək inkişaf səviyyəsinə malik idi.

Urartunun hökmranlığı dövründə monumental istehkamlı tikililərin ucaldılması üçün çox sayda icraçı tələb olunurdu.

İstehkamlı şəhərlərin və qalaların mövcud olma müddəti müxtəlif idi.

Tarixi Azərbaycan ərazisində Urartu işğalı dövrünə aid məskənlərin və qalaların tədqiqi istehkam tikililərini dörd əsas növə: - kiçik hökmdarların iqamətgahları, hərbi məntəqələr, inzibati-təsərrüfat və ibadət tikililərinə bölməyə imkan vermişdir.

İstehkamlı məskənlərin və şəhərlərin sahəsi onların təyinatından asılı idi və 50-200 ha arasında dəyişirdi.

Yerli hökmdarların və canişinlərin iqamətgahları sıravi mənzillərdən və imkanlı insanların evlərindən daha böyük və təmtəraqlı idi. Saraylar, bir qayda olaraq, bürclərdə yerləşirdi, bu şəkildə onların düşmənin qəfil hücumundan müdafiəsi təmin olunurdu.

İbadət tikililəri böyük maraq doğurur. Bir çox mixi mətnlərdə onlar haqqında məlumatlara rast gəlinir, bu da yalnız bu və ya digər yaşayış məntəqəsində məbədlərin sayını müəyyən etməyə deyil, həm də onların hansı tanrıya həsr olunduğunu öyrənməyə imkan verir. Təyinatından asılı olaraq, məbədlər müvafiq ölçü və növdə tikilirdi.

Ən qədim dövrdə tarixi Azərbaycan ərazisində inşaat sənətinin formalaşması qonşu Yaxın Şərq ölkələrinin mədəniyyəti ilə sıx əlaqəli şəkildə gedirdi. Qonşu ölkələrlə mədəni əlaqələr Azərbaycan abidələrinə spesifik xüsusiyyətlər bəxş edən yeni üslub istiqamətlərinin formalaşmasına şərait yaradırdı, bu da onların yaradıcılarının böyük nailiyyətlərindən xəbər verir. Bu abidələr gələcəkdə Azərbaycan xalqının milli memarlığının formalaşması üçün əsas olmuşdur.

# TARİXİ AZƏRBAYCAN VƏ ŞƏRQİ ANADOLU (TÜRKİYƏ) ƏRAZİSİNDƏ MÜDAFİƏ TİKİLİLƏRİ XƏRİTƏSİNƏ ƏLAVƏ

**Azərbaycanın qərb bölgəsi**

1. Camışlı təpə – Bedridaş
2. Açkula təpə – Teplkar
3. Ərk qalası – Aşot Erkat
4. Cinqatan təpə – Poloz Zar
5. Qayalı dərə – Kayalı dere
6. Gözəl dərə – Qeqxarot
7. Səngər qala – Araqattsı berd
8. Mərdqala – Mirak
9. Hacı Xəlil qalası – Tsakaxovit
10. Düz təpə – Qeqxadzor
11. Xınaqala – Xnaberd
12. Armudluqala – Oromos
13. Sahaqqala – Sahakaberd
14. Alaçalaqala – Alaçalu
15. Söyüdlü qala – Qarnavit
16. Alagöz qala – Araqats
17. Pirmalan təpə - Metsamor
18. Mağdaqala – Araqatsotx
19. Avanqala – Avan
20. Xoş təpə – Koş
21. Ucan təpə – Ucan
22. Oşaxan təpə – Oşakan
23. Şamiran – Şamiran
24. Kürdüklü-Armavir - Argiştixinili
25. Eylər qala – Eylər
26. Qanlıca təpə – Qanlıca
27. Qanlı təpə – Arinberd (Erebuini)
28. Qırmızı təpə Çarxabqala – Karmir blur (Teyşebaini)
29. Qala yeri – Astxi blur
30. Canatlı – Caraovit
31. Tala – Tala
32. Ördəkli – Lçaşen
33. Yeridar təpə – Qridar
34. Bərk qala – Berdi Qlux
35. Nur-Bəyazit – Nor-Bayazit

35a. Qışlaq I – Kışlak I
35b. Qışlaq II – Kışlak II
35v. Fişqala- Fiş
35q. Gavurqala- Qavar
35d. Quləliqala–Quləli
35e. Kolagirənqala- Kalaqranberq

36. Qumluqqala – Qumluq
37. Daşlı qala – Daşti-leri
38. Cil – Cil
39. Atamxan – Atamxan
40. Kalian təpə – Tsovinar
41. Xırbeq qala – Kaftarlı
42. Sanigar qala – Sanigar
43. Qaranlıq təpə – Vanki amrots
44. Daşlı təpə – Daştadzor

**Azərbaycanın şimal bölgəsi**

45. Heydərqala I
46. Heydərqala II
47. Böyük qalaça
48. Şiş qalası
49. Müseyib qala
50. Qızılçaqala
51. Bala qalaça
52. Çobanabdallı qala
53. Daşlıtəpə I
54. Kəlbacıq qala
55. Daşlıtəpə II
56. Qrekqala
57. Xocalı qala
58. Üzərlik təpə
59. Qalalı I
60. Göyqala
61. Aladağ qala
62. Qalalı II
63. Qalalı III
64. Aladağqalaçası
65. Qalacıq qala
66. Qaraköpək təpə
67. Qala təpə
68. Sədərək qala
69. Qız qala
70. Oğlanqala
71. Şahtaxtı qala
72. Qalacıq
73. Qarabağlarqala
74. Aznabürcqala
75. Çalxanqala
76. Vayxır qala
77. Kültəpə II
78. Qazançı qala
79. Dayra qala

**Azərbaycanın cənub bölgəsi**

80. Dombadqala
81. Qala Sarac
82. Səngər qala
83. Qala Rent
84. Ferahram
85. Qala Ziyah
86. İmam Quli Kandi qala
87. Duxqaçi qala
88. Qala Barun
89. Qala Zohak
90. Ravaz qala
91. Haydari qala
92. Qız Xaxlu qala
93. Türk təpə
94. Bastam (Rusai Ura və Tur)
95. Aşağı Korul
96. Qara Ziya ed-Din qala
97. Qayalı qala
98. Kiş Kaleşi
99. Qız qalası
100. Uzub təpə
101. Qala Duxtar
102. Təpə Sialk
103. Qala Qafur
104. Seyid Tac ed-Din qala
105. QalaXodar
106. Qala oğlu
107. Danalı
108. Kafir qala
109. Lumbad qala
110. Sufyan qala
111. Dosoq təpə
112. Qala Xalakux
113. Neştabanqala
114. Xalət qala
115. Livarqala (Ulux)
116. Tarmaksi
117. Qala Qauaxar
118. Qala Zegindel
119. Qala Libliuni
120. Erugim qala
121. Akudarren qala
122. Qala Zeyfer

123. Dosoq təpə
124. Kux-i Sambil
125. Qala İsmayıl
126. Mahmudabad qala
127. Kuxiya Təpə
128. Qala Kaman
129. Qala Zendan
130. Qalət qala
131. Uşnu qala
132. Xaraba qala
133. Həsənlu
134. Əqrəb təpə
135. Kux Kerblax qala
136. Kastel qala
137. Kalatgah qala
138. Kanik Zar qala
139. Qala Miandob
140. Arslan qala
141. Mahabad qala
142. Zibia qala
143. Simax qala

**Şərqi Anadoluda (Türkiyə) müdafiə tikililəri**

144. Toprakkale
145. Başbulaq
146. Daşburun (Menuaxinili)
147. Aşiq Hüseyn
148.Ürək qalası
149. Papaz qalası
150. Kef qalası
151. Adılcevaz qalası
152. Keçigiren qalası
153. Aliler qalası
154. Avzini qalası
155. Panz qalası
156. Ənzaf qalası
157. Padnos qalası
158. Mezarlık kaleis
159. Hakkari qalası
160. Altın təpə
161. Zernaki qalası
162. Çobanlı qalası
163. Subhandağ qalası
164. Van qalası (Tuşpa)
165. Bahanis qalası
166. Cin qalası
167. Mantufa qalası
168. Mehri qalası
169. Meydan təpə
170. Ernis qalası
171. Diyarbek qalası
172. Karataş qalası
173. Gefşa qalası
174. Yunca təpə
175. Nargüh qalası
176. Çavuş təpə
177. Arbaku
178. Tilimen qalası
179. Kibşu
180. Ninua
181. Erbil qalası
182. Uşurnu qalası
183. Uşhu qalası
184. Dur-Şarukin
185. Arbayil
186. Kalhu qalası

# İLLÜSTRASİYALAR

**İllüstrasiya 1.**
**Azərbaycan qədim yaşayış məskənləri**



*Çalmalı düşərgəsi. Qobustan.*



*Kənizə düşərgəsi. Qobustan.*



*Azıx mağarası.*
*Plan. Füzuli rayonu.*



*Firuz düşərgəsi. Qobustan.*




*Dairə yaşayış yeri. Qobustan.*




*Ağdaş düzü yaşayış yeri.*
*Mərdəkan kəndi. Abşeron.*

**İllüstrasiya 2. Azərbaycan qədim yaşayış məskənləri**





*Fərhad mağarası. Ümumi görünüş.*



*Fərhad mağarası. Qaya üzərində yazı. Naxçıvan MR.*



*Mağaranın planı.*



*Kəsilmiş formada.*

3



*Oşaxanda dolmen.*

5



*Qorikdi kəndində dolmen.*

**İllüstrasiya 3. Azərbaycan qədim yaşayış məskənləri**

*Neolit dövrünə aid Göy təpə yaşayış məskəni. Tovuz rayonu. Qazıntı sahəsi.*







**İllüstrasiya 4. Azərbaycan qədim yaşayış məskənləri**



*Kültəpə II yaşayış yeri. Qazıntının ümumi görünüşü. Naxçıvan MR.*




*Kültəpə II yaşayış yerinin tikinti horizontları.*

**İllüstrasiya 5. Azərbaycan qədim yaşayış məskənləri**



*Şomutəpə yaşayış yeri. Qazıntının ümumi görünüşü. Ağdam rayonu.*




*Şomutəpə yaşayış yerinin planı.*



**İllüstrasiya 6. Azərbaycan qədim yaşayış məskənləri**

*Qarğalartəpə yaşayış yeri. Qazax rayonu. Yenidənqurma.*




*Qarğalartəpə yaşayış yerinin qazıntı planı.*

**İllüstrasiya 7. Azərbaycan qədim yaşayış məskənləri**




*Töyrətəpə yaşayış yerinin tikinti horizontlarının planları. Qazax rayonu.*




*İlanlıtəpə yaşayış yerinin qazıntı planı. Ağdam rayonu.*

**İllüstrasiya 8. Azərbaycan qədim yaşayış məskənləri**



*Qeqam yaşayış yeri. Azərbaycanın qərb vilayəti.*



*Şulaveris-dağ yaşayış yerinin planı. Marneul rayonu. Gürcüstan.*

**İllüstrasiya 9. Azərbaycan qədim yaşayış məskənləri**



*Mingəçevirdə qədimi yaşayış yeri. Ümumi görünüşü.*

*Qazıntıdan fraqment (bir hissə). Mingəçevirdə yaşayış yeri. Şəkil.*



**İllüstrasiya 10. Azərbaycan qədim yaşayış məskənləri**



*Baba Dərviş yaşayış yeri. Qazıntı planı. Qazax rayonu.*



*Plan.*



*Qarakəpəktəpə yaşayış yeri. Füzuli rayonu.*

*Kəsik forması.*

**İllüstrasiya 11. Azərbaycan qədim yaşayış məskənləri**

*Kültəpə I yaşayış yeri. Naxçıvan MR. Tikinti horizontlarının planları.*



**İllüstrasiya 12. Azərbaycan qədim yaşayış məskənləri**



*Qazıntıdan fraqment.*



*Qazıntıdan fraqment. Maxta yaşayış yeri. Naxçıvan MR.*

**İllüstrasiya 13. Azərbaycan qədim yaşayış məskənləri**




*Qazıntıdan fraqment.*



*Qazıntıdan fraqment. Maxta yaşayış yeri. Naxçıvan MR.*

**İllüstrasiya 14. Azərbaycan qədim yaşayış məskənləri**




*Çalağan təpə yaşayış yeri. Qarabağ.*

**İllüstrasiya 15.
Azərbaycan qədim
yaşayış məskənləri**

*Qazıntının ümumi görünüşü.*



*Qazıntının ümumi görünüşü. Qaratəpə (Yanıqtəpə) yaşayış yeri. Cənubi Azərbaycan Təbriz şəhərinin yaxınlığında.*



**İllüstrasiya 16. Azərbaycan qədim yaşayış məskənləri**

*Qarakəpəktəpə yaşayış yeri. Füzuli rayonu. Tikinti horizontlarının planları*

*1*



*2*



*3*



**İllüstrasiya 17. Azərbaycan qədim yaşayış məskənləri**



*Kəlbəcər rayonunda yaşayış yeri. Şəkil.*




*Kəlbəcər rayonunda yaşayış yeri. Plan.*

**İllüstrasiya 18. Azərbaycan qədim yaşayış məskənləri**

*Leylatəpə yaşayış yeri. Ağdam rayonu.*






**İllüstrasiya 19. Azərbaycan qədim yaşayış məskənləri**

*Qazıntının ümumi görünüşü.*



*Həsənlu yaşayış yeri. Cənubi Azərbaycan.*




*Plan.*

*b*




*Plan.*

**İllüstrasiya 20. Azərbaycan qədim yaşayış məskənləri**



*Yaşayış yerinin qazıntısının ümumi görünüşü.*

*Ovçulartəpə yaşayış yeri. Naxçıvan MR.*



**İllüstrasiya 21. Azərbaycan qədim yaşayış məskənləri**

*Böyük Kəsik yaşayış yeri. Qazax rayonu.*




*Qazıntı planı.*




*Qazıntı planı.*

**İllüstrasiya 22. Azərbaycan qədim yaşayış məskənləri**



*Qazıntıdan fraqment.*

*Qazıntının ümumi görünüşü. Böyük Kəsik yaşayış yeri. Qazax rayonu.*



**İllüstrasiya 23. Azərbaycan qədim yaşayış məskənləri**



*Əlikəmək təpə yaşayış məskənində yaşayış yeri. Şəkil.*

*Əlikəmək təpə yaşayış yeri. Cəlilabad rayonu.*




*Plan.*

**İllüstrasiya 24. Azərbaycan qədim yaşayış məskənləri**



*Şomutəpə yaşayış yeri. Ağdam rayonu.*



*Sərgərtəpə yaşayış yeri. Xaçmaz rayonu.*



*Kültəpə I yaşayış yeri. Naxçıvan MR.*



*İlanlıtəpə yaşayış yeri. Qarabağ.*



*Çalağan təpə yaşayış yeri. Qarabağ.*

**İllüstrasiya 25.**
**Azərbaycan qədim yaşayış məskənləri**

*Şenqovit yaşayış yeri. Şəkil.*



*Şenqovit yaşayış yerinin planından fraqment.*



**İllüstrasiya 26. Azərbaycan qədim yaşayış məskənləri**




*Şenqovit yaşayış yerinin planı.*




*İmrisdağ yaşayış yerinin planı. Marneul rayonu.*

**İllüstrasiya 27. Azərbaycan qədim yaşayış məskənləri**



*Yaşayış yerin qazıntısının ümumi görünüşü.*

*Sərgərtəpə yaşayış yeri. Xaçmaz rayonu.*




*Plan.*

**İllüstrasiya 28. Azərbaycan qədim yaşayış məskənləri**

*Azərbaycanda aşkar edilmiş qədimi yaşayış yerlərin modelləri.*



**İllüstrasiya 29. Azərbaycan qədim yaşayış məskənləri**




*Yaşayış yerinin qazıntısının planı.*



*Yaşayış yerin qazıntısından fraqment. Şəkil. Üzərliktəpə yaşayış yeri. Ağdam rayonu.*

**İllüstrasiya 30. Azərbaycan qədim yaşayış məskənləri**



*Yaşayış yerin qazıntısından fraqment.*

*Qaratəpə yaşayış yeri. Beyləqan rayonu.*

*Qazıntının planı.*



**İllüstrasiya 31. Azərbaycan qədim yaşayış məskənləri**




*Yaşayış evinin planı. Qırmızıtəpə.*




*Kürdüklü qalada yerləşən yaşayış evinin planı.*

**İllüstrasiya 32. Azərbaycan qədim yaşayış məskənləri**



*Yaşayış evinin həyəti. Şəkil.*




*Qırmızıtəpədə yaşayış məhəlləsinin planından fraqment.*



*Qırmızıtəpədə dörd seksiyalı yaşayış binanın planı.*

**İllüstrasiya 33. Azərbaycan qədim yaşayış məskənləri**



*Qədimi yaşayış evi. Şəkil.*



*Kəsilmiş formada.*



*Kəsilmiş formada.*



*Plan.*




*Dam örtüyünün planı.*

*Qırmızıtəpədə qədimi yaşayış evinin yaşayış kompleksi.*

**İllüstrasiya 34.**
**Azərbaycan qədim yaşayış məskənləri**



*Həsənluda yaşayış evi. Şəkil.*

*Qırmızıtəpədə şərab zirzəmisi. Şəkil.*



**İllüstrasiya 35. Azərbaycan qədim yaşayış məskənləri**

*Qırmızıtəpədə yaşayış məkanı. Şəkil.*



*Qanlıtəpədə yaşayış məkanı. Şəkil.*



**İllüstrasiya 36. Azərbaycan qədim yaşayış məskənləri**



*Qırmızıtəpədə gildən düzəldilmiş döşəmə konstruksiyası.*




*Azərbaycanda aşkar edilmiş tunc tikinti alətləri.*

**İllüstrasiya 37.**

*Azərbaycanda aşkar edilmiş metal alətlər.*



**İllüstrasiya 38. Azərbaycanın qədimi müdafiə tikililəri**



*Bala qalaça. Gədəbəy rayonu.*



*Böyük qalaça. Gədəbəy rayonu.*



*Nağara qala. Daşkəsən rayonu.*



*Çoban daşı qalaçası. Daşkəsən rayonu.*





*Gülməmməd qala (təpəsi). Daşkəsən rayonu.*



*Heydərqala. Gədəbəy rayonu.*



*Çobanabdallı. Daşkəsən rayonu.*



**İllüstrasiya 39. Azərbaycanın qədimi müdafiə tikililəri**



*Daşlı təpə qalaçası. Daşkəsən rayonu.*



*Səngər qala. Gədəbəy rayonu.*



*Balağan qala. Daşkəsən rayonu.*



*Arıqdaş qala. Gədəbəy rayonu.*



*Zağalı qala. Daşkəsən rayonu.*



*Böyük qalaça. Gədəbəy rayonu.*



*Vaş qala. Daşkəsən rayonu.*



*Qaradağ qala. Gədəbəy rayonu.*



*Pir qalaçası. Gədəbəy rayonu.*



*Uçdu daş qala. Daşkəsən rayonu.*



**İllüstrasiya 40. Azərbaycanın qədimi müdafiə tikililəri**



*Bala qalaça. Gədəbəy rayonu.*



*Heydər qala II. Gədəbəy rayonu.*



*Qızılca qala. Gədəbəy rayonu.*



*Heydər qala I. Gədəbəy rayonu.*



*Şıx qala. Gədəbəy rayonu.*



*Qrek qala. Gədəbəy rayonu.*



*Azər qala. Daşkəsən rayonu.*



*Narzan qalaçası. Gədəbəy rayonu.*

0 40 80 120 m

**İllüstrasiya 41. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Naxçıvan Muxtar Respublikası.*




*Çalxanqala.*

0 200




*Qarabağlar qala.*

0 100




*Kültəpə II.*

0 10




*Qalacıq.*

200

**İllüstrasiya 42. Azərbaycanın qədimi müdafiə tikililəri**









**İllüstrasiya 43. Azərbaycanın qədimi müdafiə tikililəri**




*Vayxır qala.*

0 100 м




*Külüs qalası.*

0 60 м




*Aznabyurd qalası.*

0 60 м



**İllüstrasiya 44. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Kültəpə II qalası. Yenidənqurma.*

*Vayxır qalası. Yenidənqurma.*



**İllüstrasiya 45. Azərbaycanın qədimi müdafiə tikililəri**



*Oğlanqala. Yenidənqurma.*




*Sədərək qalası.*







**İllüstrasiya 46. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Qızıl qala. Ümumi görünüş.*

**İllüstrasiya 47. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Sədərək qala divarlarının düzülüş formasından fraqment.*



*Sədərək qala divarlarının düzülüş formasından fraqment.*



**İllüstrasiya 48. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Vayxır qalası. Ümumi görünüş.*







**İllüstrasiya 49. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Çalxanqala. Ümumi görünüş.*







**İllüstrasiya 50. Azərbaycanın qədimi müdafiə tikililəri**



*Qazançı qala divarlarının düzülüş formasından fraqment.*

*Qarabalar qala divarlarının düzülüş formasından fraqment.*





*Kültəpə II qalasından fraqment.*

**İllüstrasiya 51. Azərbaycanın qədimi müdafiə tikililəri**



*Oğlanqala divarlarının düzülüş formasından fraqment.*

*Oğlanqala divarlarının düzülüş formasından fraqment.*



**İllüstrasiya 52. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Qazançı qala. Ümumi görünüş.*







**İllüstrasiya 53. Azərbaycanın qədimi müdafiə tikililəri**



*Külüs qala divarlarının düzülüş formasından fraqment.*



*Sədərək qala divarlarının düzülüş formasından fraqment.*



*Çalxan qala divarlarının düzülüş formasından fraqment.*

**İllüstrasiya 54. Azərbaycanın qədimi müdafiə tikililəri**




*Səngər qala.*




*Daşlı təpə (Daştəpə) qalaçası.*

**İllüstrasiya 55.**
**Azərbaycanın qədimi müdafiə tikililəri**




*Qumlax qala.*




*Geri-dərə qalası.*

**İllüstrasiya 56. Azərbaycanın qədimi müdafiə tikililəri**

Plan.




*Qaranlıq təpə qalası.*

Plan.




*Kaftarlı qalası.*

**İllüstrasiya 57.
Azərbaycanın qədimi
müdafiə tikililəri**

*Ağ qala.*




*Vank qalası.*



**İllüstrasiya 58. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Plan.*




*Qanlı qala.*

*Plan.*




*Ördəkli qala.*

**İllüstrasiya 59. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Alagöz qala.*



*Plan.*

0 50 м

*Çarxab qala.*



*Plan.*

0 100м

**İllüstrasiya 60. Azərbaycanın qədimi müdafiə tikililəri**




*Çarxab içqala divarlarının əsasının konstruksiyası.*



*Çarxab qala divarlarının sxematik kəsiyi.*




*Çarxab qala divarlarının düzülüş formasından fraqment.*

**İllüstrasiya 61.**
**Azərbaycanın qədimi müdafiə tikililəri**

Plan.




*Qəzəl dərə qalası.*

Plan.




*Açkul təpə qalası.*

Plan.




*Cinqatan təpə qalası.*

**İllüstrasiya 62. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Plan.*




*Ərkqala.*

*Plan.*




*Hacı-Xəlil qala.*

*Plan.*




*Qayalı dərə qala.*

**İllüstrasiya 63.
Azərbaycanın qədimi
müdafiə tikililəri**

*Tsalka qalası.*

*Plan.*




*Kəsilmiş forması.*




*Nardevani qalası.*

*Plan.*



*Kəsilmiş forması.*



**İllüstrasiya 64. Azərbaycanın qədimi müdafiə tikililəri**



**İllüstrasiya 65.**
**Azərbaycanın qədimi müdafiə tikililəri**

*Kafir qalası*




*Ziax qala (Zilah)*



**İllüstrasiya 66. Azərbaycanın qədimi müdafiə tikililəri**




*İmamqulu Kəndi qalası*




*Cuft Kale qalası (Cufut-Kala)*

**İllüstrasiya 67.**
**Azərbaycanın qədimi müdafiə tikililəri**

*Zəhak qalası.*




*Ravaz qala.*



**İllüstrasiya 68. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Heydər qala.*




*Plan.*



*Tunelin planı.*




*Tunelin kəsik forması.*

**İllüstrasiya 69.
Azərbaycanın qədimi
müdafiə tikililəri**

*Bastam qalası*



*Plan.*

**İllüstrasiya 70. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Plan.*



*Bastam qalasının cənubi darvazaları (qapıları)*

*Plan.*



*Bastam qalasında yaşayış kompleksi*

**İllüstrasiya 71. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Bastam qalasının cənubi hissəsində yaşayış kompleksi*

*Plan.*



*Bastam qalasının cənubi hissəsindən fraqment*

*Plan.*



**İllüstrasiya 72. Azərbaycanın qədimi müdafiə tikililəri**




*Qafur qala*

*Plan.*




*Türk təpə qalaçası*

**İllüstrasiya 73.**
**Azərbaycanın qədimi müdafiə tikililəri**

*Aşağı Korul qalası*
*(Aşağı qüllə qalası)*




*Qara Ziyəddin qalası*
*(Qara Ziya ed-Din qala)*



**İllüstrasiya 74. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Plan.*




*Qaylı dərə qalası*

*Plan.*




*Kiş qalası*

**İllüstrasiya 75. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Xalaquh qalası*




*Uzub təpə qalası*



**İllüstrasiya 76. Azərbaycanın qədimi müdafiə tikililəri**






*Neştabanqala*







*Xalat qala*

**İllüstrasiya 77.**
**Azərbaycanın qədimi müdafiə tikililəri**

*Zeqindel qalası*

*Plan.*




*İç qalanın planı.*



**İllüstrasiya 78. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Plan.*








*Libliuni qalası.*

*Tunelin planı.*



**İllüstrasiya 79. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Livar-Uluh qala (Livarqala (Ulux))*




*Seyid Tacəddin qalası (Seyid Tac ed-Din qala)*



**İllüstrasiya 80.**
**Azərbaycanın qədimi müdafiə tikililəri**




*Qalaoğlu qalası (Oğlanqala)*




*Kafir qala*

**İllüstrasiya 81. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Danalı qalası*




*Akudarren qala*




*Ziyafər qalası*



**İllüstrasiya 82. Azərbaycanın qədimi müdafiə tikililəri**



**İllüstrasiya 83. Azərbaycanın qədimi müdafiə tikililəri**



**İllüstrasiya 84. Azərbaycanın qədimi müdafiə tikililəri**




*Qalət qala*




*Uşnurə qala*

**İllüstrasiya 85.**
**Azərbaycanın qədimi müdafiə tikililəri**

*Həsənlu qalası*

*Plan.*







*Həsənlu qalasının qazıntı planı.*

**İllüstrasiya 86.**
**Azərbaycanın qədimi müdafiə tikililəri**



*Həsənlu qalası. Ümumi görünüş*



*Həsənlu yaşayış yerinin qazıntı sahəsi*



*Manna əsgərlərinin təsviri ilə tunc plastina*

**İllüstrasiya 87. Azərbaycanın qədimi müdafiə tikililəri**



*Həsənlu qazıntısından fraqment*

*Qazıntı sahəsinin planı*




*Həsənlu qalasında qazıntı sahəsinin ümumi görünüşü*



**İllüstrasiya 88.**
**Azərbaycanın qədimi müdafiə tikililəri**

*Plan.*

*Xaraba qala*






*Qalatqax qala*

*Plan.*




*Qastel qala*

*Plan.*



**İllüstrasiya 89. Azərbaycanın qədimi müdafiə tikililəri**




*Miandob qala*

0 125 м




*Kamik Zarqala*




*Kux-Kerbalax qala*

0 125 м




*Sufian qala.*

0 50 м

**İllüstrasiya 90. Azərbaycanın qədimi müdafiə tikililəri**

*Plan.*



*Arslan qala*

0 50 M

*Plan.*



*Mahayud-təpə qala*

0 50 M

*Plan.*



*Zəndan-i-Süleyman qalası*

0 100 M

*Plan.*



*Nuş-i Can təpə.*

0 50 M

**İllüstrasiya 91.**
**Azərbaycanın qədimi**
**müdafiə tikililəri**



*Bastam qala divarının düzülüş forması*



*Qafur qala divarının düzülüş forması*



*Bastam qala divarının düzülüş formasından fraqment*



*Qafur qala divarının düzülüş formasından fraqment*

**İllüstrasiya 92.
Azərbaycanın qədimi
müdafiə tikililəri**



*Arslan qalanın düzülüş formasından fraqment*



*Arslan qala (yenidənqurma)*





*Arslan qalanın düzülüş formasından fraqment*

**İllüstrasiya 93.
Azərbaycanın qədimi
müdafiə tikililəri**



*Danalı qalası
(yenidənqurma)*



*Xalat qala
(yenidənqurma)*

**İllüstrasiya 94. Azərbaycanın qədimi müdafiə tikililəri**



*Ziax qala (yenidənqurma)*



*Manna qalasının relyef təsviri*



*E.ə. I minilliyə aid döyüş arabası*

**İllüstrasiya 95. Azərbaycanın qədimi müdafiə tikililəri**



*Manna qalasının mühasirəsi. Qayaüstü təsvir*



*Manna qalasının mühasirəsi. Qayaüstü təsvir*



*Xaldi tanrısına həsr edilmiş məbədin təsviri. Qayaüstü təsvir*

**İllüstrasiya 96. Azərbaycanın qədimi müdafiə tikililəri**



*Döyüş arabası.*



*Manna qalasının mühasirəsi.*



*Manna qalasının mühasirəsi.*

**İllüstrasiya 97.
Şərqi Anadolunun
qədimi müdafiə
tikililəri**




*Avzini kalesi qalası (topo çəkliş)*




*Çoban-karataş – Baxnis kalesi (topo çəkliş)*




*Avzini kalesi qalasının planı*



*Norgün kalesi qalası (topo çəkliş)*

**İllüstrasiya 98. Şərqi Anadolunun qədimi müdafiə tikililəri**




*Papaz qalası (topo çəkliş)*




*Aşıq Hüseyn qalası (topo çəkliş)*




*Şorik qalası (topo çəkliş)*




*Paiz qalası (topo çəkliş)*

**İllüstrasiya 99.**
**Şərqi Anadolunun qədimi müdafiə tikililəri**



*Ernis –Evditəpəsinin planı (topo çəkliş)*




*Meydan təpə qalası (topo çəkliş)*




*Ernis –Evditəpəsi (topo çəkliş)*

**İllüstrasiya 100. Şərqi Anadolunun qədimi müdafiə tikililəri**




*Əlilər qala (topo çəkliş)*




*Encətəpəsi (topo çəkliş)*



*Əlilər qalasının planı*




*Encətəpəsinin planı*

**İllüstrasiya 101.
Şərqi Anadolunun
qədimi müdafiə
tikililəri**



*Meydan təpənin düzülüş formasından fraqment*



*Tuşpa-Van qalası. Ümumi görünüş.*

**İllüstrasiya 102. Şərqi Anadolunun qədimi müdafiə tikililəri**



*Tuşpa-Van qala divarından fraqment*

*Anzaf qalası. Düzülüş formasından fraqment*



**İllüstrasiya 103. Şərqi Anadolunun qədimi müdafiə tikililəri**

*Vanada Torpaq qala. Üç mərtəbəli ev və qüllənin təsviri ilə tunc löhvəcik*






*Van qaya. Böyük mağara.*



**İllüstrasiya 104. Şərqi Anadolunun qədimi müdafiə tikililəri**



*Sarduri II qalası. Qala divarından fraqment*



*Tuşpa-Van qalasının iç qalası divarlarının düzülüş forması.*

**İllüstrasiya 105. Şərqi Anadolunun qədimi müdafiə tikililəri**



*Çavuş təpəsinin iç qalası.*



*Çavuş təpəsinin şərab zirzəmisi.*



*Çavuş təpəsinin qazıntı sahəsindən fraqment.*

**İllüstrasiya 106. Şərqi Anadolunun qədimi müdafiə tikililəri**



*Tilmən Höyük qalasının düzülüş formasından fraqment.*



*Tilmən Höyük qalasının iç qalasının qazıntı sahəsi.*

*Tilmən Höyük qalasının iç qalasının qazıntısından fraqment.*



**İllüstrasiya 107. Şərqi Anadolunun qədimi müdafiə tikililəri**



*Çavuş təpəsi (yenidən qurma).*



*Çavuş təpəsi (topo çəkliş).*




**İllüstrasiya 108. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycan və Şimali Qafqazda aşkar edilmiş ön asiya tipli xəncərlər.*

**İllüstrasiya 109. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş xəncər və qılınclar.*






**İllüstrasiya 110. Azərbaycanın maddi mədəniyyəti**

*İran və Cənubi Azərbaycan vilayətində aşkar edilmiş ön asiya tipli xəncərlər.*

**İllüstrasiya 111.
Azərbaycanın maddi
mədəniyyəti**

*İranda aşkar edilmiş ön asiya tipli xəncərlər.*



**İllüstrasiya 112. Azərbaycanın maddi mədəniyyəti**

*İranda aşkar edilmiş Azərbaycan xəncərləri.*



**İllüstrasiya 113. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş ikiqollu başlıqlarla bürünc və dəmir xəncər və qılınclar.*



**İllüstrasiya 114. Azərbaycanın maddi mədəniyyəti**

*İran və Cənubi Azərbaycanda aşkar edilmiş ikiqollu xəncərlər.*



**İllüstrasiya 115. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş xəncər və nizələr.*



**İllüstrasiya 116. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş ox ucluqları.*



**İllüstrasiya 117. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycan və İranda aşkar edilmiş ox ucluqları.*






**İllüstrasiya 118. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş bəzək əşyaları.*

**İllüstrasiya 119. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş bəzək əşyaları.*



**İllüstrasiya 120. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş bəzək əşyaları.*



**İllüstrasiya 121.**
**Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş bəzək əşyaları.*



**İllüstrasiya 122. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş bəzək əşyaları.*



**İllüstrasiya 123.**
**Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş bəzək əşyaları.*



**İllüstrasiya 124. Azərbaycanın maddi mədəniyyəti**

*Cənubi Qafqaz və İrandan tunc baltalar.*



**İllüstrasiya 125.**
**Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş tunc baltalar.*



**İllüstrasiya 126. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş tunc baltalar.*



**İllüstrasiya 127. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş baltalar.*



**İllüstrasiya 128. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş baltalar.*



**İllüstrasiya 129.
Azərbaycanın maddi
mədəniyyəti**

*Azərbaycanda aşkar
edilmiş baltalar.*



**İllüstrasiya 130. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş baltalar.*



**İllüstrasiya 131.**
**Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş baltalar.*



**İllüstrasiya 132. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycan və İranda aşkar edilmiş düymə altlığında krujkalar.*



**İllüstrasiya 133.
Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda qulplarının üstündə qoç (qoyun) başları fiquru ilə aşkar edilən qablar.*



**İllüstrasiya 134.**
**Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycan və İranda aşkar edilmiş keramik qablar.*



**İllüstrasiya 135. Azərbaycanın maddi mədəniyyəti**

*Cənubi Qafqaz və İranda aşkar edilmiş zoomorf qablar.*



**İllüstrasiya 136. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycan və İranda aşkar edilmiş ayaqqabı formasında olan keramik qablar.*



**İllüstrasiya 137.**
**Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş qabarıq (relyef) səth ilə qablar.*



**İllüstrasiya 138. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycan və İranda aşkar edilmiş şaquli çıxıntılara malik qulplar ilə keramik qablar.*



**İllüstrasiya 139. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş çoxrəngli qab (polixrom boyalı qablar).*



**İllüstrasiya 140. Azərbaycanın maddi mədəniyyəti**




*Azərbaycanda aşkar edilmiş bir rəngli qab (monoxrom boyalı qablar).*

**İllüstrasiya 141.**
**Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş "çaydan" qablar (çaydan formalarında olan qablar).*



**İllüstrasiya 142. Azərbaycanın maddi mədəniyyəti**

*Azərbaycanda aşkar edilmiş "çaydan" qablar (çaydan formalarında olan qablar).*



**İllüstrasiya 143. Azərbaycanın maddi mədəniyyəti**

*Cənubi Azərbaycan və İranda aşkar edilmiş "çaydan" qablar (çaydan formalarında olan qablar).*





**İllüstrasiya 144. Azərbaycanın maddi mədəniyyəti**

*İranda aşkar edilmiş "çaydan" qablar (çaydan formalarında olan qablar).*

## *Azərbaycanın qədimi müdafiə tikililərinin xəritəsi*




*Şərti işarələr*

⊙ *Təbriz –Şəhərlər* • *Bastam – Qalalar*

*Xəritə müəllif tərəfindən arxeoloji abidələr və yazılı mənbələr əsasında tərtib olunub.*

# MÜNDƏRİCAT

Ön söz ........ 3

Tarixi Azərbaycan ərazisində ən qədim tayfa ittifaqlarının və dövlətlərin hərbi və siyasi tarixi ........ 8

Urartu ekspansiyası dövründə tarixi Azərbaycan ərazisində sosial-iqtisadi quruluş ........ 33

Manna çarlığı ........ 42

Van çarlığının tədqiqi tarixi ........ 51

Urartu dövləti tarixi Azərbaycan ərazilərinə ekspansiya dövründə ........ 56

Tarixi Azərbaycan ərazisində Urartu dövlətinin süqutu ........ 70

Azərbaycan ərazisində qədim müdafiə tikililəri ........ 74

Şərqi Anadoluda (Türkiyə) istehkamlı məskənlərin və qalaların toponimikası ........ 89

Azərbaycanın maddi mədəniyyəti ........ 93

Silahlar ........ 93

Saxsı qablar ........ 102

Azərbaycanın qədim müdafiə tikililərinin inkişaf mənbələri ........ 109

Azərbaycanın qədim dövr inşaat sənəti ........ 114

Quldarlıq dövlətinin yaranması dövründə Azərbaycan memarlığı (e.ə. IX-VI əsrlər) ........ 134

Azərbaycan memarlığında qədim müdafiə tikililərinin rolu ........ 154

Azərbaycanın qədim müdafiə tikililəri, şəhərsalma sənəti abidələri ........ 159

Nəticə ........ 163

Tarixi Azərbaycan və Şərqi Anadolu (Türkiyə) ərazisində müdafiə tikililəri xəritəsinə əlavə ........ 167

İllüstrasiyalar ........ 171

Şərq Qərb 1986-cı ildən East West since 1986 BAKI 2013

**www.eastwest.az**
**www.fb.com/eastwest.az**

Təqdim olunmuş materiallara uyğun sürətdə
“Şərq-Qərb” Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49

Çapa imzalanmışdır 02.07.2013. Formatı 70x90 1/16
Ofset çap üsulu. Fiziki çap vərəqi 20
Sifariş № 13210. Tiraj 1000